# Milli Məclis

ANALİTİK İNFORMASİYA JURNALI

YANVAR-FEVRAL, 2026 | WWW.MECLIS.GOV.AZ




# Azərbaycan ABŞ üçün vacib və etibarlı tərəfdaş ölkədir




***Laçın rayonunun Zerti kəndində "Laçın" İstirahət Kompleksi***

**Milli Məclis**
*Analitik informasiya jurnalı*

**Təsisçi:**
Azərbaycan Respublikasının Milli Məclisi

**Redaksiya Şurasının sədri:**
Sahibə Qafarova


**Redaksiya Şurasının üzvləri:**
Əli Əhmədov, Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, Fərid Hacıyev, Əli Hüseynli, Arzu Nağıyev, Zahid Oruc, Sadiq Qurbanov, Azər Əmiraslanov, Tahir Rzayev, Musa Quliyev, Əhliman Əmiraslanov, Hicran Hüseynova, Şahin İsmayılov, Fazil Mustafa, Siyavuş Novruzov, Anar İsgəndərov, Polad Bülbüloğlu, Səməd Seyidov, Eldar İbrahimov, Eldar Quliyev


**Baş redaktor:**
Ülviyyə Abdullayeva

**Redaktorlar:**
Aidə Əhmədova
Qərənfil Mansurova

**Dizayn:**
Vəfadar Əliyev


**Redaksiyanın ünvanı:**
Azərbaycan 1152, Bakı,
Parlament prospekti 1.
Tel: (+994 12) 510 90 01
(+994 12) 510 67 01
(+994 12) 510 88 72

Milli Məclisin rəsmi web səhifəsi:
**www.meclis.gov.az**

"Milli Məclis" jurnalının web səhifəsi:
**www.jurnal.meclis.gov.az**


Jurnal 2007-ci ilin may ayından nəşr olunur


# BU SAYDA


**BURAXILIŞ:** YANVAR-FEVRAL, 2026



*Prezident İlham Əliyevin siyasətində dövlətçilik prinsipi* ........ 2

*Münxen Təhlükəsizlik Konfransı: Azərbaycanın qlobal liderliyinə strateji baxış* ........ 10

*Dövlət başçısının Davos səfəri - dəyişən dünya nizamında Azərbaycanın strateji mövqeyinin möhkəmləndirilməsi* ........ 14

*Azərbaycanın iqtisadi göstəriciləri siyasi etibarlılığın indikatorudur* ........ 18

*Azərbaycan 2026-cı ilə mühüm xarici siyasət uğurları ilə daxil oldu* ........ 22

*Milli Məclisin sədri Asiya Parlament Assambleyasının 16-cı plenar sessiyasında iştirak etdi* ........ 28

*Azərbaycan və BƏƏ arasında münasibətlərin dinamik və hərtərəfli inkişafı məmnunluq doğurur* ........ 34

*Milli Məclis sədrinin Oman səfəri: Körfəz regionunun strateji rolu və yeni tərəfdaşlıq mərhələsi* ........ 38

*Milli Məclis sədrinin görüşləri* ........ 44

*Azərbaycan, Türkiyə və Gürcüstan parlamentariləri Milli Məclisdə toplaşdılar* ........ 48

*Rəqəmsal inkişaf sistemli dövlət siyasəti səviyyəsinə yüksəlir* ........ 50

*Süni intellektin 5 paradoksu: nədən qorxmamalıyıq?* ........ 56

*İqtisadi və sosial prioritetlər Azərbaycanın dövlət siyasətinin əsasıdır* ........ 60

*Möhtəşəm qələbənin iqtisadi dividendləri: yenidənqurma və inkişaf* ........ 64

*Zəngəzur dəhlizi - regionun yeni geosiyasi xəritəsi* ........ 68

*WUF13 Azərbaycanın qlobal liderlik rolunu daha da gücləndirəcək* ........ 72

*Hesablama Palatasının 2026-2030-cu illər üçün yeni strateji planı* ........ 76

*Ana dilinin saflığının qorunması dövlət siyasətinin vacib prioritetidir* ........ 84

*Zəngəzurda türk mənşəli toponimlər və onlara qarşı erməni soyqırımı siyasəti* ........ 88

*Xocalı soyqırımı: bəşəriyyət əleyhinə törədilmiş cinayət* ........ 92

*Yubileylər* ........ 98

*Səttar Möhbalıyev: "Dövlətə və vətəndaşlara xidmət ömür boyu daşıdığım missiya olub..."* ........ 108

*Azərbaycan poeziyasının sədaqətli kişi obrazı:Nəriman Həsənzadə* ........ 114

*Slovakiya-Azərbaycan tərəfdaşlığı yeni inkişaf mərhələsində* ........ 120

*Azərbaycan mədəniyyəti bütün dünya ölkələri üçün maraqlıdır* ........ 124



# Prezident İlham Əliyevin siyasətində dövlətçilik prinsipi

*"Azərbaycan dövlətçiliyi elə bir dəyərdir ki, onun kökləri əcdadlarımızın ənənələrində, müasir dövrdə isə Ümummilli Lider Heydər Əliyevin ideyalarında ifadə olunur. Bu prinsip bizim inkişafımızın əsasını təşkil edir".*

***İlham Əliyev***

Müasir beynəlxalq münasibətlər sistemində dövlətçilik prinsipi hər bir dövlətin varlığını və davamlı inkişafını şərtləndirən əsas siyasi və institusional dayaqlardan biri kimi çıxış edir. Bu prinsip dövlətin formalaşması, müstəqilliyi, ərazi bütövlüyü, idarəçiliyi, sabitliyi, inkişafı və milli maraqları ilə sıx bağlı olan kompleks anlayış, siyasi-ideoloji dəyərlər sistemidir. Qloballaşmanın, müharibələrin, geosiyasi və geoiqtisadi rəqabətin artdığı bir şəraitdə dövlətçilik prinsipinin əhəmiyyəti daha da aktuallaşır.

Dövlətçilik prinsipi həm də dövlətin ideoloji təməlində dayanan siyasi və sosial amillərdən biridir. Çağdaş dünyamızda dövlətlərin mütləq əksəriyyəti kimi Azərbaycan dövlətinin də söykəndiyi ideoloji təməl prinsipləri vardır ki, onların əsasları Heydər Əliyev tərəfindən müəyyən edilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni dövrün çağırışlarına uyğun olaraq yenilənmiş həmin prinsiplər Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapmışdır. Bu prinsiplər Heydər Əliyev yolu - müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət və demokratik ənənələrin inkişafıdır.

Müasir Azərbaycan dövlətinin formalaşması, möhkəmlənməsi və inkişafı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi bu prinsiplərin və strateji siyasi kursun uğurla həyata keçirilməsinin nəticəsidir. Ulu Öndər Heydər Əliyev müstəqilliyimizi xilas etdi, müasir dövlətçiliyimizin etibarlı və sarsılmaz təməllərini yaratdı. Heydər Əliyev siyasi yolunu layiqincə və qətiyyətlə davam etdirən Prezident İlham Əliyev bu təməllər üzərində Azərbaycanı regionda və dünyada söz sahibinə, qalib dövlətə çevirdi. Ötən 22 ilin reallıqları göstərir ki, Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməklə yanaşı, bu siyasəti zamanın çağırışlarından irəli gələrək ideoloji baxımdan daha da zənginləşdirib. Ölkəmizdə siyasi-ictimai sabitliyin, iqtisadi dayanıqlılığın, hərbi təhlükəsizliyin, yüksək sosial rifahın və milli həmrəyliyin təmin olunması, xarici siyasətdə mükəmməl diplomatiyanın həyata keçirilməsi kimi vəzifələrin paralel şəkildə yerinə yetirilməsi Prezident İlham Əliyevin yürütdüyü siyasətin əsas məzmununu təşkil etməklə Azərbaycanı öz tarixinin ən qüdrətli dövləti səviyyəsinə yüksəldib.

Qeyd olunan məsələlər Prezident İlham Əliyevin siyasətində dövlətçilik prinsipinin əsas istiqamətləri kimi özünü göstərir. Bu, dövlətçilik tariximizin ənənələrinə, müasir çağırışlara, milli-mənəvi xüsusiyyətlərə və Azərbaycan Konstitusiyasında təsbit olunmuş müddəalara söykənir və milli xüsusiyyətlərlə ümumbəşəri dəyərlərin vəhdəti ilə yanaşı, dövlət siyasətinin praktiki həyata keçirilməsində öz əksini tapır. Prezident İlham Əliyevin siyasətində dövlətçilik prinsipi yalnız Azərbaycanın bu günü üçün deyil, sabahı üçün də başlıca ideoloji mənbə rolunu oynayacaqdır.

Azərbaycan Prezidentinin siyasətində həyata keçirilən dövlətçilik prinsipi daxili və xarici siyasətdə hər zaman aktuallıq kəsb etmişdir. "Bu gün biz müstəqil ölkə kimi yaşayırıq, müstəqil siyasət aparırıq, heç kimin işinə qarışmırıq, heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın. Əminəm ki, biz bundan sonra da bu müstəqillik və inkişaf yolu ilə gedəcəyik", - deyə Prezident İlham Əliyev bildirmişdir.

Müstəqil olmaq həm də müstəqil siyasət yürütmək, öz taleyinin sahibi olmaq deməkdir. Bu gün bəzi dövlətləri göstərə bilərik ki, həm daxili, həm də xarici siyasətlərini başqa dövlətlərin təsiri ilə həyata keçirirlər. Qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan müstəqil dövlət olaraq həm də müstəqil və suveren siyasət yürüdən dövlətlər sırasındadır. Ölkəmizin təşəbbüsü olan Bakı-Tbi-



**Mübariz Qurbanlı**
Milli Məclisin deputatı,
YAP İdarə Heyətinin üzvü



lisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu xətti kimi infrastruktur layihələrinin ideyadan reallığa çevrilməsi, beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı və ədalətli mövqeyinin təsbit olunması ölkəmizin müstəqil və qətiyyətli siyasət yürütməsinin məntiqi nəticəsidir. Prezident İlham Əliyev bu barədə danışarkən demişdir: "Azərbaycanın xarici siyasəti milli maraqlara əsaslanır və bu siyasət müstəqildir".

Prezident İlham Əliyevin dövlətçilik prinsipinin digər mühüm istiqamətini torpaqlarımızın işğaldan azad olunması və bütün ərazilərimiz üzərində milli suverenliyimizin bərpası təşkil etmişdir. Hələ 2003-cü il oktyabrın 31-də Azərbaycan Prezidenti kimi ilk dəfə and içən Prezident İlham Əliyev bu gün artıq həllini tapmış Qarabağ problemi ilə bağlı demişdi: "Azərbaycan heç vaxt bu vəziyyətlə - torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir".

Məhz hələ o zaman Prezident İlham Əliyev torpaqlarımızın işğaldan azad olunmasını dövlətçilik prinsipinin başlıca istiqaməti kimi müəyyən etmişdi. Bu strateji xətt ölkə başçısının siyasətinin əsas hədəfi idi. Azərbaycan tərəfi Ermənistanın işğal etdiyi ərazilərimizin azad olunmasında danışıqlar prosesinə tərəfdar olmaqla yanaşı, bu problemin hərbi yolla həll edilməsi strategiyasını da müəyyənləşdirmişdi. 44 günlük Vətən müharibəsindən və Ermənistanın kapitulyasiya aktına imza atmasından sonra aydın oldu ki, Prezident İlham Əliyev bu strategiyanın reallaşması istiqamətində 2003-2020-ci illərdə necə müdrik və uzaqgörən siyasət yürütmüşdür.

Azərbaycan ərazilərində ikinci erməni dövlətinin qurulmayacağını dəfələrlə bəyan edən Prezident İlham Əliyev müharibə variantını da heç vaxt istisna etmirdi. Respublikamızın iqtisadi inkişafına paralel olaraq keçirilən hərbi islahatlar nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin modern hərbi gücə çevrilməsi, beynəlxalq səviyyədə Ermənista-



"Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim edilməsi

nın işğal siyasətinin ifşa olunması, xalq-hakimiyyət birliyinin daha da möhkəmləndirilməsi istiqamətində uğurlu siyasətin həyata keçirilməsi, o cümlədən güclü siyasi liderlik və qətiyyətli qərarların qəbulu, nail olduğumuz hər bir siyasi-ictimai və sosial-iqtisadi uğur torpaqlarımızın işğaldan azad edilməsində mühüm və əhəmiyyətli rol oynamışdır.

Məhz bunların nəticəsi olaraq Prezident İlham Əliyevin siyasətində dövlətçilik prinsipinin əsas hədəfi olan torpaqlarımızın işğaldan azad olunması və bütün ərazilərimiz üzərində milli suverenliyimizin bərpası ilə bağlı qarşıya qoyulmuş ümummilli vəzifə yerinə yetirildi. Həm Vətən savaşında, həm antiterror əməliyyatında qazanılan zəfərlər respublikamızın suverenliyinin real təminatını, dövlətimizin siyasi iradəsini, xalq-ordu birliyini və milli həmrəyliyin bariz nümunəsini göstərdi. Ölkə başçımızın qətiyyətli liderliyi, strateji baxışı və prinsipial mövqeyi faktiki suverenliyin və ərazi bütövlüyünün təmin olunmasının əsas amilinə çevrildi. Bunun nəticəsində müzəffər Ali Baş Komandan müstəqil və qətiyyətli siyasətin, milli maraqları və suverenliyi təmin etməyin ən böyük nümunəsini yaratdı. Vətən müharibəsindəki Zəfər ölkəmizin beynəlxalq mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi. Eyni zamanda, Azərbaycanla Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsi iki qardaş dövlətin əlaqələrini strateji müttəfiqlik səviyyəsinə yüksəltməklə bərabər regionda təhlükəsizliyin təminatçısına çevrildi.

Bu siyasətin davamı olaraq Prezident İlham Əliyev regionda sülhü qətiyyətlə təmin edir. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasındakı sülh sazişi layihəsinin paraflanması, Zəngəzur dəhlizinin açılması ilə bağlı tarixi razılaşmanın əldə olunması göstərir ki, Prezident İlham Əliyevin sülh təşəbbüsləri beynəlxalq səviyyədə qəbul edilir. 2025-ci ilin sentyabrında BMT Baş Assambleyasının 80-ci sessiyasında dövlətimizin başçısı bu barədə demişdir: "Biz həm müharibəni udduq, həm də sülhü qazandıq". Prezident İlham Əliyevin 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi dövlətimizin başçısının həyata keçirdiyi sülh gündəliyində əldə edilmiş uğurların məntiqi nəticəsidir.

Müstəqil və demokratik dövlətin möhkəmliyini müəyyən edən əsas meyarlardan biri hüququn aliliyinin təmin olunması, Konstitusiyanın ali hüquqi qüvvəyə malik norma kimi dövlət idarəçiliyinin bütün sahələrində rəhbər tutulmasıdır. Qanunun üstünlüyü olmayan yerdə sabitlik, ədalət və davamlı inkişaf qeyri-mümkündür. Hüquqi dövlətçilik yalnız hüquqi normaların mövcudluğu ilə deyil, onların ardıcıl və qətiyyətlə icra olunması ilə gerçəkləşir. Azərbaycanda bu prinsip dövlət siyasətinin aparıcı istiqamətlərindən biri kimi müəyyən edilmişdir və Prezident İlham Əliyevin dövlətçilik prinsipində Konstitusiyaya və qanu-



nun aliliyinə hörmət əsas idarəetmə fəlsəfəsinə çevrilmişdir, həmçinin respublikamızda qanunların aliliyinin təmin edilməsi sistemli və ardıcıl xarakter daşıyır.

Azərbaycan Konstitusiyası ölkənin hüquqi-siyasi sisteminin təməlini təşkil edir, vətəndaşların hüquq və azadlıqlarını təmin edən ali hüquqi sənəd kimi dövlət hakimiyyətinin fəaliyyət istiqamətlərini müəyyənləşdirir. Prezident İlham Əliyev hər zaman çıxışlarında və qərarlarında məhz Konstitusiyanın norma və prinsiplərinə istinad edərək dövlət idarəçiliyinin qanun çərçivəsində həyata keçirilməsini vəzifə kimi irəli sürmüşdür. Bu yanaşma ölkədə sabitliyin, ədalətin və ictimai etimadın möhkəmlənməsinə xidmət göstərir.

Respublikamızda Konstitusiyanın aliliyinin təcəssümü yalnız hüquqi mexanizmlərlə məhdudlaşmır, eyni zamanda, demokratik institutların inkişafı ilə də bağlıdır. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, söz və fikir azadlığının bərqərar edilməsi, ictimai iştirakçılığın artırılması istiqamətində görülən işlər hüquqi dövlət quruculuğunun mühüm göstəricilərdir. Qəbul edilən qərarların ictimai maraqlara uyğunlaşdırılması və siyasi dialoqun bərqərar olması da bu siyasətin məntiqi davamıdır. Hüquqi dövlət quruculuğu, şəffaflıq, ədalət və vətəndaş hüquqlarının qorunması ölkəmizin davamlı inkişafının əsas təminatıdır.

Müasir dövrdə dövlətlərin uğuru mövcud resursların nə dərəcədə düzgün və səmərəli idarə olunması ilə müəyyən edilir. Qlobal çağırışların artdığı, siyasi və iqtisadi proseslərin sürətlə dəyişdiyi bir şəraitdə güclü və effektiv dövlət idarəçiliyi sabitliyin, təhlükəsizliyin və davamlı inkişafın başlıca şərti kimi çıxış edir. Ulu Öndər Heydər Əliyev yolu ilə uğurla və inamla inkişaf edən respublikamızda Prezident İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik prinsipi həm də bu amilə söykənir.

Mükəmməl dövlət idarəçiliyi ilk növbədə aydın strateji baxış və uzunmüddətli inkişaf konsepsiyası tələb edir. Prezident İlham Əliyev tərəfindən qəbul edilən dövlət proqramları, sosial-iqtisadi inkişaf strategiyası ölkəmizin tərəqqisinin yeni istiqamətlərini elmi şəkildə müəyyən etmişdir. Regionların sosial-iqtisadi inkişafı proqramları, qeyri-neft sektorunun gücləndirilməsi, rəqəmsal transformasiya və süni zəka, "yaşıl enerji" siyasəti kimi hədəflər bu strateji yanaşmanın bariz göstəricisidir. Ölkəmizin inkişaf modelinin əsas xüsusiyyəti qısamüddətli deyil, uzunmüddətli nəticələrə hesablanmasıdır. İnfrastrukturun yenilənməsi, nəqliyyat-logistika şəbəkəsinin genişləndirilməsi, sənaye parklarının yaradılması və innovasiyaların təşviqi ölkəmizin iqtisadi dayanıqlılığını artırmış, idarəetmədə planlı və məqsədyönlü yanaşmanı təmin etmişdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində dövlət idarəetmə sistemi daha çevik,



funksional və vətəndaş yönümlü xarakter almışdır. Elektron hökumət sisteminin qurulması, dövlət xidmətlərinin rəqəmsallaşdırılması və vətəndaş-məmur münasibətlərinin şəffaflaşdırılması idarəetmədə keyfiyyətcə yeni mərhələ yaratmışdır. "ASAN xidmət" modeli isə bu sahədə beynəlxalq miqyasda nümunə kimi dəyərləndirilir. Elektron müraciət sistemləri, onlayn xidmətlər və rəqəmsal platformalar idarəetmədə əlçatanlığı əhəmiyyətli dərəcədə artırmışdır.

Effektiv idarəetmənin əsas göstəricilərindən biri də vətəndaş məmnunluğudur. Prezident İlham Əliyevin siyasətində insan amili daim mərkəzdə dayanır. Sosial rifahın yaxşılaşdırılması, əməkhaqqı və pensiyaların artırılması, yeni iş yerlərinin yaradılması, sosial təminat proqramlarının genişləndirilməsi dövlətçilik prinsipinin sosial yönümlü xarakterini nümayiş etdirir. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin siyasətində güclü və effektiv dövlət idarəçiliyi xüsusi yer tutur. Strateji planlaşdırma, müasir texnologiyaların tətbiqi, sosial yönümlü siyasət, şəffaflıq və qanunçuluq dövlətçilik prinsipinin əsas sütunlarını təşkil edir. Nəticədə ölkəmiz sabitlik, təhlükəsizlik və dayanıqlı inkişaf yolunda inamla irəliləyir.

Prezident İlham Əliyevin siyasətindəki dövlətçilik prinsipinin əsas cəhətlərindən biri də dövlətimizin milli maraq və mənafelərinin etibarlı şəkildə qorunmasıdır. Hər bir dövlətin inkişafı, beynəlxalq aləmdə layiqli yer tutması ilk növbədə milli maraqların düzgün müəyyənləşdirilməsindən və ardıcıl şəkildə təmin olunmasından asılıdır. Respublikamızda bu prinsip dövlət siyasətinin əsas istiqamətini təşkil edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və praqmatik siyasət məhz milli maraqların üstün tutulmasına xidmət göstərir. Vətən müharibəsindəki tarixi Zəfərimiz milli maraqlara əsaslanan qətiyyətli siyasətin parlaq təzahürüdür.

Vətən müharibəsindən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda başladılan və bu gün də dinamik şəkildə davam etdirilən kompleks bərpa işləri, şəhər və kəndlərimizin yenidən qurulması, Böyük Qayıdış proqramının həyata keçirilməsi dövlətimizin milli maraqlarının təmin olunmasına yönəlmiş siyasətin daha bir möhtəşəm ifadəsidir. Hazırda işğaldan azad edilmiş ərazilərdə 73 mindən çox vətəndaşımız yaşayır, işləyir və təhsil alır. Bütün bunlar dövlətimizin daha bir milli ideyasının sürətlə reallaşdığını göstərir.

Eyni zamanda, Prezident İlham Əliyevin iqtisadi sahədə həyata keçirdiyi strateji xətt ümumxalq maraqlarımızın təmininə yönəlmişdir. Neft-qaz sektorundan əldə olunan gəlirlərin qeyri-neft sahələrinin inkişafına istiqamətlənməsi, sənayeləşmə, kənd təsərrüfatının modernləşdirilməsi, regionların sosial-iqtisadi inkişaf proqramlarının icrası ölkəmizin dayanıqlı inkişafını təmin etmişdir. Bu siyasət Azərbay-

can iqtisadiyyatının xarici təsirlərdən asılılığını aradan qaldırmış, iqtisadi və ərzaq təhlükəsizliyinin təminatını gücləndirmişdir. Bu gün Azərbaycanın dünyanın əksər dövlətləri ilə ticari-iqtisadi əlaqələrə malik olması, 25-ə yaxın ölkəyə neft, 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 ölkəsinə təbii qaz ixrac etməsi sıradan bir iqtisadi mənzərə deyil. Bu, Azərbaycanın mükəmməl enerji diplomatiyası, uğurlu xarici siyasəti və güclü strateji tərəfdaşlıq əlaqələri yaratması deməkdir.

Sosial sahədə həyata keçirilən islahatlar, əhalinin rifahının yüksəldilməsi, şəhid ailələrinə və qazilərə xüsusi diqqət, təhsil və səhiyyə sisteminin inkişafı da dövlətçilik prinsipi istiqamətində siyasətin insan amilinə əsaslandığını göstərir. Aydındır ki, milli maraqlar anlayışı yalnız siyasi və iqtisadi hədəflərlə deyil, vətəndaşların sosial müdafiəsi və layiqli həyat şəraitinin təmin olunması ilə də sıx bağlıdır.

Prezident İlham Əliyevin siyasətində dövlətçilik prinsipindən bəhs edərkən respublikamızda bərqərar edilmiş siyasi-ictimai sabitliyi xüsusi qeyd etməliyik. Daxili sabitlik olmadan nə iqtisadi tərəqqi, nə sosial rifah, nə də milli təhlükəsizlik mümkün deyil. Azərbaycanın hər bir uğurunun təməlində dayanan amillərdən biri məhz sabitlikdir.

Azərbaycanın müstəqillik tarixinin ilk illərində yaşanan siyasi xaos, iqtisadi böhran və idarəetmə boşluğu göstərdi ki, sabitlik dövlətçiliyin əsas dayağıdır. Ulu Öndər Heydər Əliyevin təmin etdiyi ictimai-siyasi sabitlik mühiti Prezident İlham Əliyev tərəfindən daha da gücləndirilib. Dövlətimizin başçısının dəfələrlə vurğuladığı kimi, sabitlik olmayan yerdə inkişafdan danışmaq mümkün deyil. Prezident İlham Əliyevin qeyd etdiyi kimi,Azərbaycan bu gün regionda “sabitlik adası”dır.

Bütövlükdə, Prezident İlham Əliyevin dövlətçilik konsepsiyasında siyasi sabitlik, sadəcə, cari vəziyyət deyil, strateji inkişafın başlıca şərtidir. Bu sabitlik iqtisadi tərəqqinin, sosial rifahın, milli təhlükəsizliyin və beynəlxalq nüfuzun əsas təminatçılarından biri kimi özünü göstərir. Məhz ardıcıl və düşünülmüş siyasət nəticəsində Azərbaycan həm regionda, həm də dünyada sabitliyin və təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu dövlət kimi tanınır.

Müasir dövlətçilik anlayışında milli birlik və həmrəyliyin təmin olunması strateji əhəmiyyət daşıyır. Xüsusilə mürəkkəb geosiyasi şəraitdə yerləşən, uzun illər işğal və təzyiqlərlə üzləşmiş Azərbaycan üçün bu amil milli təhlükəsizliyin və dayanıqlı inkişafın əsas şərtlərindən biridir. Azərbaycanın müasir tarixində milli birlik siyasətinin kökləri Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı dövlətçilik fəlsəfəsinə dayanır. Prezident İlham Əliyev bu siyasi xətti yeni dövrün çağırışlarına uyğun şəkildə inkişaf etdirir. Cəmiyyətdə siyasi, sosial, etnik və dini müxtəlifliyin qorunması ilə yanaşı, azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsi bu siyasətin əsas məğzini təşkil edir. Bu baxımdan Prezident İlham Əliyevin dövlətçilik prinsipində milli birlik və həmrəyliyin möhkəmləndirilməsi aparıcı istiqamətlərdən biri kimi daim diqqət mərkəzində saxlanılır.

> “Güclü dövlətçilik prinsipi olmadan milli birlik və vətəndaşların rifahı təmin edilə bilməz. Dövlətçilik xalqın birliyinin təzahürüdür”.
>
> **İlham Əliyev**

44 günlük Vətən müharibəsi dövründə milli birlik və həmrəyliyin misilsiz nümunəsi ortaya qoyuldu. Prezident İlham Əliyevin qətiyyətli və prinsipial liderliyi ilə xalq “dəmir yumruq”da birləşdi. Siyasi baxışlarından, sosial statusundan asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı dövlətin və ordunun yanında olduğunu nümayiş etdirdi. Bu birlik tarixi Zəfərin əsas təminatçısı kimi milli həmrəyliyin real gücünü bütün dünyaya göstərdi. Beləliklə, Prezident İlham Əliyevin dövlətçilik prinsipində milli birlik və həmrəyliyin möhkəmləndirilməsi Azərbaycan dövlətinin gücünü və davamlılığını təmin edən əsas amillərdəndir. Bu siyasət cəmiyyətdə sabitliyi möhkəmləndirir, milli maraqlar ətrafında ümumxalq konsolidasiyasını təmin edir.

Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin dövlətçilik siyasəti kompleks və sistemli xarakter daşıyır. Bu siyasət sabitliyi, inkişafı, təhlükəsizliyi və milli həmrəyliyi bir-biri ilə üzvi şəkildə əlaqələndirərək Azərbaycanın dayanıqlı gələcəyini təmin edir. Nəticə etibarilə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlətçilik prinsipi ölkəmizi güclü söz sahibinə və nüfuzlu bir dövlətə çevirib. Azərbaycanın 2019-2023-cü illərdə dünyanın ikinci ən böyük beynəlxalq təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etməsi, Prezident İlham Əliyevin bütün siyasi platformalarda böyük ehtiramla qarşılanması dövlətimizin başçısının və respublikamızın yüksək qlobal nüfuzundan xəbər verir.

Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, Azərbaycanın regional liderliyi, həyata keçirdiyi infrastruktur layihələri Türk Dövlətləri Təşkilatının mövqelərini möhkəmləndirib, fəaliyyətini yeni mərhələyə yüksəldib. Azərbaycan həm də o dövlətlərdəndir ki, regional və beynəlxalq təşkilatlar onu öz sıralarında görmək istəyirlər. Bu baxımdan 2025-ci ildə Azərbaycanın D-8 təşkilatına, Mərkəzi Asiya Ölkələrinin Məşvərət Şurasına daxil olması, ABŞ Prezidentinin dəvəti ilə Sülh Şurasına təsisçi üzv dövlət qismində qoşulması ondan xəbər verdi ki,



ölkəmiz regional söz sahibliyindən qlobal aktora yüksəlib.

Habelə 2025-ci ildə Azərbaycanın dünyanın siyasi-iqtisadi gücləri olan ABŞ və Çinlə münasibətlərinin yeni səviyyəyə yüksəlməsi və strateji məzmun alması bir daha respublikamızın beynəlxalq səviyyədə mövqelərinin nə qədər möhkəm olduğunu, Prezident İlham Əliyevin yürütdüyü siyasətin milli maraqlarımızı qətiyyətlə təmin etdiyini göstərdi. Görünən həm də odur ki, Azərbaycanın dostlarının və strateji tərəfdaşlarının sayı sürətlə artır.

Prezident İlham Əliyevin siyasətində dövlətçilik prinsipinin uğurla həyata keçirilməsi Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqelərini daha da möhkəmləndirmişdir. Bu siyasətin mühüm istiqamətlərindən biri Azərbaycanın yalnız regionda deyil, həm də qlobal səviyyədə sülh və təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsində fəal iştirakıdır. Dövlətimizin başçısının Davosda "Sülh Şurasının Nizamnaməsi"ni imzalaması, Münxen Təhlükəsizlik Konfransında iştirakı, ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana rəsmi səfəri zamanı ölkəmizlə ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması, o cümlədən Prezident İlham Əliyevin Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclasında iştirakı Azərbaycanın beynəlxalq miqyasda sülh və təhlükəsizliyin təmin edilməsinə verdiyi töhfələrin, bu prosesdəki aparıcı rolunun və fəal mövqeyinin məntiqi davamıdır.

Beləliklə, Prezident İlham Əliyevin siyasətində mühüm yer tutan dövlətçilik prinsipi Azərbaycanın güclü, müstəqil və dünya miqyasında söz sahibi olan ölkə kimi mövqeyini möhkəmləndirmişdir. Eyni zamanda, onu da qeyd etməliyik ki, bu prinsip Azərbaycanın gələcək inkişafının da əsas təminatçısı kimi çıxış edir. Müstəqilliyimizin, dövlətçiliyimizin əsaslarının daha da dərinləşdirilməsi, milli maraqları effektiv təmin edən çoxvektorlu xarici siyasət kursunun həyata keçirilməsi, dayanıqlı iqtisadi inkişafın, yüksək sosial rifahın təmin edilməsi, neft amilindən asılılığın azaldılması, qanunçuluğun qorunması, süni zəkanın və rəqəmsal texnologiyaların tətbiqinin sürətləndirilməsi, milli-mənəvi dəyərlərə sadiqlik, ekoloji təhlükəsizlik və "yaşıl" iqtisadiyyat çağırışlarının reallaşdırılması, o cümlədən işğaldan azad olunmuş ərazilərdəki bərpa və quruculuğun davam etdirilməsi, Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının reallaşdırılması qarşıdakı dövrdə bu prinsipin əsas istiqamətləri kimi uğurla davam etdiriləcək.

Prezident İlham Əliyev demişdir: "Güclü dövlətçilik prinsipi olmadan milli birlik və vətəndaşların rifahı təmin edilə bilməz. Dövlətçilik xalqın birliyinin təzahürüdür". Heydər Əliyev siyasi yolu və İlham Əliyev siyasətində dövlətçilik prinsipi bu gün olduğu kimi, gələcəkdə də Azərbaycanın inkişafının əsasında dayanacaq.




# Münxen Təhlükəsizlik Konfransı:
## Azərbaycanın qlobal liderliyinə strateji baxış



**Samir Vəliyev**
Milli Məclisin deputatı

Hazırda dünya çətin bir dönəmdən keçir. Geosiyasi və geoiqtisadi anlamda ciddi transformasiyalar baş verir, xüsusilə də keyfiyyətcə yeni dövlətlərarası münasibətlər sistemi formalaşmaqdadır. Bütün bunların nəticəsində də yeni çağırışlar meydana çıxıb. İzlənilən təhlükəli proseslər fonunda milli dövlətlərin qlobal sistemdə yeri və rolu, müstəqilliyin və suverenliyin qorunması məhz həyata keçirilən siyasətdən, liderin yaxın və uzaq hədəfləri düzgün müəyyənləşdirməsindən, ölkəsi üçün geniş manevr imkanları yaratmasından asılıdır.

Cənubi Qafqaz regionunun aparıcı dövləti olan Azərbaycanın bu kontekstdə təcrübəsi, yaratdığı mənzərə unikal, mütərəqqi nümunə kimi çıxış edir. Ölkəmiz mənfi xarici təsirlər şəraitində fəsadlardan ötüşə bilən və öz inkişafında davamlılığı təmin edən dövlətdir. Bunun təməlində dayanan əsas amil isə Prezident İlham Əliyevin milli maraqlara və "Biz birlikdə güclüyük!" prinsipinə əsaslanmaqla həyata keçirdiyi siyasi gedişlərdir. Buna görə də ölkəmizin milli gücü sarsılmazdır və cənab İlham Əliyev cəmiyyətin bütün sosial təbəqələri tərəfindən əvəzolunmaz lider kimi qəbul olunur.

Son vaxtlarda baş verən hadisələr, o cümlədən qlobal platformalarda Azərbaycan Prezidentinə gös-

tərilən böyük hörmət və ehtiram onun dünyada artan beynəlxalq nüfuzunun göstəricisidir. Respublikamız müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Elə dövlətlər var ki, beynəlxalq əməkdaşlıqda yalnız öz maraqlarından çıxış edir, daim umacaqlarını dilə gətirir, kömək istəyir. Azərbaycanla bağlı ən mühüm cəhətlərdən biri isə ondan ibarətdir ki, respublikamız zəruri məqamlarda öz imkanlarını təqdim edir, proseslərə real töhfələr verir, qlobal mahiyyət daşıyan aksiyalarda yüksək fəallıq göstərir. Bütün bunlar isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir.

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda keyfiyyətcə yeni reallıqlar yaranıb. Prezident İlham Əliyevin liderlliyi ilə formalaşan bu reallıqlar sülh, əməkdaşlıq və təhlükəsizlik üçün perspektivlər açıb. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə dünya müstəvisində mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Bu amil dövlətimizin beynəlxalq təşkilatlarda təmsilçiliyində də mühüm rol oynayır. Azərbaycan hazırda regional və qlobal miqyaslı bir sıra əməkdaşlıq platformasının mərkəzi aktoru qismində çıxış edir.

Fevral ayında nüfuzlu beynəlxalq tədbirə - Almaniyada keçirilən Münxen Təhlükəsizlik Konfransına şahidlik etdik. Bu konfrans dünyada mövcud problemlərin, o cümlədən təhlükəsizlik məsələlərinin müzakirə edildiyi mühüm beynəlxalq platformadır. Sayca 62-ci Münxen Təhlükəsizlik Konfransı geniş gündəliyə malik idi. Dünyada təhlükəsizlik məsələlərinin ən yüksək səviyyədə müzakirə olunduğu bu mühüm konfransda 60 dövlət və hökumət başçısı, 120 ölkədən 200-dən çox nazir, BMT, NATO, Avropa İttifaqı kimi mötəbər beynəlxalq qurumlardan 40-dan artıq rəsmi şəxs iştirak edirdi.

62-ci Münxen Təhlükəsizlik Konfransı dünyada uzunmüddətli ittifaqların möhkəmliyinin və davamlılığının sual altına düşdüyü, qaydalara əsaslanan beynəlxalq nizamın zəiflədiyi, qlobal miqyasda qeyri-sabitliyin artdığı, münaqişələrin daha da kəskinləşdiyi bir dövrə təsadüf etdi. Bu yaxınlarda yayımlanan "Münxen Təhlükəsizlik Hesabatı - 2026"da dünyanın, eləcə də beynəlxalq təşkilatların təhlükəli bir dövrə qədəm qoyduğu vurğulanır.

Münxen Təhlükəsizlik Konfransında müzakirə olunan mövzulara Avropanın təhlükəsizliyi və müdafiəsi, transatlantik münasibətlərin gələcəyi, çoxtərəfliliyin yenidən gücləndirilməsi, qlobal nizam









barədə rəqabət aparan baxışlar, regional münaqişələr və texnoloji inkişafların təhlükəsizlik sahəsinə təsirləri və digər məsələlər daxil idi. Tədbirin birinci günü - fevralın 13-ü qlobal təhlükəsizliklə bağlı ən mühüm və təcili məsələlər ətrafında müzakirələr başladı. Bu məsələlərə çoxtərəfli əməkdaşlığın gələcəyi, iqtisadi təhlükəsizlik və ticarət, iqlim tədbirləri, hibrid müharibələr, nüvə təhlükəsizliyi və qlobal süni intellekt yarışı daxil idi. Fevralın 14-də müzakirələr transatlantik təhlükəsizlik və beynəlxalq nizamın ümumi vəziyyəti, eləcə də regional münaqişələr və böhranlar, o cümlədən Ukrayna, Qəzza, Sudan, Venesuela və Şərqi Asiyada yaşanan gərginliklər ətrafında aparıldı. Tədbirin sonuncu günü - fevralın 15-də isə diqqət Avropaya, onun fəaliyyət göstərə bilmə qabiliyyətinə, rəqabətə davamlılığına və ortaq Avropa vizyonu ətrafında razılığa gəlinməsinə yönəlmişdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan hər zaman bu nüfuzlu beynəlxalq platformada fəal təmsil olunur. Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransına dəvət alması, aktual mövzulara həsr olunmuş tədbirlərdə iştirakı, ikitərəfli görüşlər keçirməsi ölkəmizin dünya üçün əhəmiyyətini bir daha təsdiqləyir.

Cənubi Qafqazda sülh və təhlükəsizlik beynəlxalq birliyin xüsusilə diqqət mərkəzindədir. İlham Əliyev Münxendə həm yerli televiziya kanallarına, həm "France 24" telekanalına müsahibəsində, həm də "Açıq dəhliz siyasəti: Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda keçirilən panel müzakirələrdə çıxışı zamanı regionumuzda sülhlə bağlı fikirlərini ifadə edib. Dövlətimizin mövqeyi bundan ibarətdir ki, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları çıxarıldıqdan sonra sülh sazişi imzalanacaq. Sazişin cari ildə imzalanması ehtimalı da Ermənistanın bu addımından asılı olacaq. Ölkə başçısı panel müzakirələri çərçivəsində sualları cavablandırarkən bildirib: "Mən bu haqda artıq dəfələrlə danışmışam və bildirmişəm ki, sülh sazişinin Ağ Evdə ABŞ Prezidentinin iştirakı ilə paraflanması, Ermənistanın baş naziri və öz tərəfimdən, Prezident Trampın da şahid qismində bəyannamənin imzalanması söyləməyə əsas verir ki, sülh artıq əldə olunub".

Münxen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyev dövlət maraqlarına söykənərək sərrast nitqi, dəmir məntiqi, tutarlı arqumentləri ilə məsələlərə münasibət bildirdi, Azərbaycanın sülhsevər mövqeyini ortaya qoydu. Təbii ki, ölkəmiz uzun illərdir Cənubi Qafqazda sülh, sabitlik, əməkdaşlıq naminə çalışır və bütün səyləri buna əsaslanır.

“Açıq dəhliz siyasəti: Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi” mövzusunda keçirilən panel iclasında Orta Dəhlizin əhəmiyyəti və bu dəhlizin reallaşmasında ölkəmizin müstəsna rolu xüsusi vurğulandı. Ölkə Prezidentinin dediyi kimi, Avropa ilə Asiya arasında yerləşən Azərbaycanın coğrafi mövqeyi üstünlükdür, lakin fiziki infrastruktursuz onun mənası çox deyil: “Ötən il biz Azərbaycan vasitəsilə daşınan yüklərin 100 mindən artıq nəqliyyat vahidi üzrə rekord göstərici əldə etdik. Bir neçə ildən sonra həmin göstərici 200 min və hətta 300 min nəqliyyat vahidinə çatacaq. Hədəf 500 min nəqliyyat vahididir. Biz bu məqsədlə artıq dəniz limanımızın genişləndirilməsinə başlamışıq və hazırda orada sərmayələr yatırılır. Söhbət təkcə dəmir yollarından getmir, həmçinin fiber-optik kabellər də nəzərdə tutulur. Hazırda Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsi üzərində Mərkəzi Asiyadakı tərəfdaşlarımızla sıx işləyirik”.

Konfransda, eyni zamanda, TRIPP layihəsi də diqqət mərkəzində oldu. Cənab Prezident vurğuladı ki, yeni bağlantıların yaradılmasında mühüm rol oynayacaq “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” tamamilə yeni vəziyyət yaradacaq. Çünki Çindən başlayan daşımalar Mərkəzi Asiyanı, Trans-Xəzər regionunu, Azərbaycanı, Ermənistanı, eksklav Naxçıvanı, Türkiyəni və sonra Avropanı əhatə edəcək. Bu, bütün ölkələr üçün faydalı olacaq. Marşrut





boyunca həmin ölkələr həm siyasi, həm iqtisadi baxımdan daha sıx inteqrasiya olunacaq və bu addım Azərbaycan ilə Ermənistan arasında uzunmüddətli və əbədi sülhə növbəti töhfə olacaq.

Cənab Prezident İlham Əliyev həmçinin Münxendə bir sıra ölkələrin liderləri, Avropa İttifaqının rəsmiləri, eləcə də müxtəlif nüfuzlu şirkətlərin başçıları ilə səmərəli görüşlər keçirdi. İraq Kürdüstan regionunun başçısı Neçirvan Bərzani, Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak, ABŞ-nin “Oracle” korporasiyasının baş icraçı direktoru Mayk Sisiliya, Bundestaqın xarici siyasət komitəsinin sədri Armin Laşet, Bolqarıstan Prezidenti İliyana Yotova, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas, Ukrayna Prezidenti Volodimir Zelenski, “The Goldman Sachs Group Inc.” şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen bu sırada yer alır. Həmin görüşlərdə yeni əməkdaşlıq imkanları barədə müzakirələr aparıldı, xüsusilə də Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında, Avrasiyada nəqliyyat bağlantılarının yaradılmasında artan roluna diqqət çəkildi.

Beləliklə, bu mühüm platforma çərçivəsində müstəqil Azərbaycan cənab Prezidentin timsalında yüksək səviyyədə təmsil olundu. 62-ci Münxen Təhlükəsizlik Konfransı yeni reallıqlar fonunda Azərbaycan həqiqətlərinin və ölkəmizin qlobal təşəbbüslərinin dünyaya çatdırılması baxımından önəmli platforma kimi yadda qalacaq.




# **Dövlət başçısının Davos səfəri** - dəyişən dünya nizamında Azərbaycanın strateji mövqeyinin möhkəmləndirilməsi



**Qaya Məmmədov**
Milli Məclisin deputatı

Prezident İlham Əliyevin 2026-cı ilin yanvar ayında Davosda keçirilən Ümumdünya İqtisadi Forumunda iştirakı Azərbaycanın diplomatiya salnaməsinə qızıl hərflərlə həkk olunan bir inkişaf səhifəsi kimi yadda qalacaqdır. Çünki bu mötəbər platforma ənənəvi formatdan kənara çıxaraq yeni dünya nizamının konturlarının müəyyənləşməsinə və qlobal güc balansının yenidən formalaşmasına şahidlik edən tarixi bir tədbir oldu.

Forumda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi uzaqgörənlik, qətiyyətli diplomatiya və milli maraqlara söykənən prinsipial mövqe göstərdi ki, ölkəmiz qlobal proseslərdə aparıcı yer tutur. Eyni zamanda, bu, Azərbaycanın otuz illik münaqişə səhifəsini birdəfəlik qapadaraq qalib dövlət kimi qlobal inkişafın mərkəzində yer almasının parlaq təntənəsi idi.

İqtisadi Forumun keçirildiyi geosiyasi mühit əvvəlki illərdən köklü şəkildə fərqlənirdi. Prezident İlham Əliyevin Davosdakı fəaliyyəti beynəlxalq təhlükəsizlik arxitekturasının transformasiyaya uğradığı, beynəlxalq hüququn və ənənəvi




təsisatların böhran keçirdiyi və yeni formatların, yanaşmaların və prinsiplərin meydana çıxdığı bir dövrdə Azərbaycanın yeni reallıqlara nə qədər hazırlıqlı olduğunu göstərdi.

Tədbir zamanı baş vermiş ən mühüm hadisə ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurasının Nizamnaməsinin imzalanması idi. Dünyanın mühüm dövlətlərinin iştirak etdiyi bu yeni qlobal dialoq və əməkdaşlıq mexanizminə Azərbaycanın təsisçi üzv qismində dəvət edilməsi ölkə başçısının şəxsi nüfuzunun, respublikamızın dünyada sülh və əməkdaşlığın təşviqində oynadığı rolun təsdiqidir. Bu, böyük güclərin regional və qlobal sülhün təminatında rəsmi Bakının rəyini və iştirakını əvəzolunmaz amil kimi qəbul etdiyini göstərir.

Şuranın Nizamnaməsində diqqətçəkən məqamlardan biri beynəlxalq münasibətlərin subyektləri sırasında dövlətlərlə yanaşı, nüfuzlu fərdlərə yer verilməsidir. Bu faktor İlham Əliyevin şəxsi liderlik xarizmasını beynəlxalq etimad aspekti ilə birləşdirərək Azərbaycana misilsiz diplomatik dividend qazandırır. Məhz bu şəxsi amillərin nəticəsidir ki, ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyev ilə xüsusi işgüzar və dostluq münasibətləri yaratmışdır. Davosda Prezident Trampın Azərbaycan liderinə nümayiş etdirdiyi dərin ehtiram və məhdud sayda dövlət başçısı ilə keçirdiyi ikitərəfli görüşlər sırasına İlham Əliyevlə görüşü də daxil etməsi rəsmi Bakının qlobal siyasətdəki üstün mövqeyini göstərən ən aydın indikator oldu.

Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp ilə keçirdiyi görüş dövlət başçımıza yüksək ehtiramın göstəricisi olmaqla yanaşı, məzmun baxımından da zəngin idi. Görüşdə ötən ilin avqust ayında Vaşinqtonda razılaşdırılmış sülh gündəliyinin vurğulanması Azərbaycanın sülh siyasətinə sadiq olan etibarlı tərəfdaşlığını göstərdi.

2026-cı ilin Davos Forumu həm də Azərbaycanın süni intellektin tətbiqi ilə baş verən və qlobal qüvvələr balansına ciddi şəkildə təsir edən texnoloji inqilaba sürətlə adaptasiya olması, bu prosesdə həm milli, həm də beynəlxalq səviyyədə sistemli addımlar atacağının müjdəçisi oldu. Həmçinin dünyanın ən nəhəng maliyyə şirkətlərindən olan "BlackRock" və onun tərkibinə daxil olan "Global Infrastructure Partners" ilə imzalanan niyyət protokolu ölkə iqtisadiyyatının gələcək onilliklər üçün texnoloji bazasının formalaşmasında mühüm rol oynayacaq. Birgə kapital qoyuluşu imkanlarının nəzərdən keçirilməsi barədə əldə edilən anlaşma strateji valyuta ehtiyatlarımızın milli təhlükəsizliyi-





miz baxımından böyük əhəmiyyətə malik və iqtisadi baxımdan gəlirli sahələrə - bulud texnologiyalarına, süni intellekt infrastrukturuna və rəqəmsal bağlantılara yönəldilməsi deməkdir. Azərbaycan dünyanın maliyyə elitası ilə bərabərhüquqlu tərəfdaşlıq edən və gələcəyin texnologiyalarına sərmayə qoyan qlobal gücə çevrilmək əzmindədir.

Eyni zamanda, "Brookfield Asset Management" şirkəti ilə imzalanan və  investisiya imkanlarını nəzərdə tutan niyyət protokolu Azərbaycanın yaşıl enerji keçidindəki qətiyyətini nümayiş etdirir. Prezident İlham Əliyevin Davos panellərində səsləndirdiyi yaşıl enerji və məlumat mərkəzlərinin sintezli yanaşması Azərbaycanın yeni iqtisadi vizyonunun əsasını təşkil edir. Bildirildiyi kimi, Azərbaycanın malik olduğu 2 qiqavatlıq izafi elektrik enerjisi və 2032-ci ilə qədər hədəflənən 8 qiqavatlıq əlavə enerji potensialı ölkəmizi Avrasiyanın məlumat mərkəzləri qovşağına çevirəcəkdir. Bu, enerji resurslarının böyük əlavə dəyər yaradan texnoloji məhsula çevrilməsi strategiyasıdır. Dünyanın ən iri texnoloji şirkətlərindən olan "Dell Technologies" rəhbərliyi ilə keçirilən görüşdə Azərbaycanda superkompüter mərkəzinin yaradılması və süni intellektin tətbiqi məsələlərinin müzakirə olunması bu vizyonun artıq real plana çevrildiyini təsdiqləyir.

Prezident İlham Əliyevin Davosdakı fəaliyyətinin ən parlaq məqamlarından biri də "Euronews" televiziyası tərəfindən təşkil olunmuş Azərbaycan rəhbərliyi ilə səhər yeməyi idi. Bu tədbir ölkəmizin beynəlxalq biznes ictimaiyyəti üçün nə qədər cəlbedici və təhlükəsiz bir məkan olduğunu bir daha nümayiş etdirdi. Orada iştirak edən qlobal şirkətlərin rəhbərlərinin Azərbaycanın iqtisadi sabitliyini, islahatların davamlılığını və biznes mühitinin şəffaflığını təqdir etmələri dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasət kursuna verilən beynəlxalq qiymətdir. Bakının bir multikulturalizm mərkəzi kimi təqdim edilməsi və fərqli dinlərin, mədəniyyətlərin sülh içində yaşadığı ölkəmizin investorlar üçün təhlükəsiz məkan kimi xarakterizə olunması ölkəmizin yumşaq gücünün göstəricisidir.

Prezident İlham Əliyevin regional əməkdaşlıq məsələləri ilə bağlı səsləndirdiyi fikirlər Cənubi



Qafqazın taleyində yeni bir səhifənin açılmasını dünyaya müjdələdi. Otuz illik işğal və müharibə səhifəsini qapadan Azərbaycanın dövlət başçısı sülhün artıq yalnız kağız üzərində deyil, insanların gündəlik həyatında, iqtisadi fəaliyyətdə əks olunduğunu diqqətə çatdırdı. Prezident söylədi ki, ölkəmiz hər zaman olduğu kimi, humanizm və uzaqgörənlik nümayiş etdirərək kommunikasiyaları açmışdır. Bu mənada, Zəngəzur dəhlizi təkcə Azərbaycanın müxtəlif hissələrini deyil, həm də Asiyanı Avropa ilə birləşdirən, regiona sülh və rifah gətirən qlobal əhəmiyyətə malik bir təşəbbüsdür. Ermənistan tərəfinin bu prosesdə bizim liderlik rolumuzu və sülh iradəsini təqdir etməsi rəsmi Bakının apardığı siyasətin nə dərəcədə ədalətli və konstruktiv olmasının ən bariz etirafıdır.

Həmişə öz siyasətini milli maraqlarına uyğun quran Azərbaycan dünyanın əsas güc mərkəzləri arasında ziddiyyətlərdə yer almır və onların hamısı ilə qarşılıqlı hörmət əsasında sabit və faydalı münasibətlərini qoruyub saxlayır. Sülh Şurasının təsis edilməsi, şübhəsiz ki, beynəlxalq münasibətlərə ciddi təsir edən amildir. Bu formata qoşulmuş ölkəmiz hələlik orada iştirak etməyən Avropa dövlətləri və digər güc mərkəzləri ilə dialoqa böyük əhəmiyyət verir. Bu mənada, forum zamanı Avropa İttifaqı və onun üzvləri ilə təmaslar diqqəti cəlb edir. Finlandiyanın Prezidenti, Çexiyanın Baş naziri, Avropa İttifaqının Genişlənmə üzrə Komissarı və Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi ilə keçirilmiş görüşlər Azərbaycan ilə Avropa İttifaqı arasında ortaq siyasi və iqtisadi maraqların ifadəsi olmuşdur. Eyni zamanda, dövlət başçımız forumda etdiyi çıxışlarında Azərbaycanın Çin ilə strateji tərəfdaşlığını vurğulamışdır.

Taleyüklü Davos Forumu Prezident İlham Əliyevin qlobal liderlik keyfiyyətlərinin növbəti dəfə təsdiqi oldu. ABŞ Prezidenti Donald Trampın Prezidentimizə olan yüksək ehtiramı bunun bariz göstəricisi idi. Serbiya Prezidenti Aleksandar Vuçiçin Davosda Prezident İlham Əliyev haqqında işlətdiyi "müasir dünyanın dahi liderlərindən biri" ifadəsi Azərbaycan xalqının öz rəhbərinə olan inamının beynəlxalq səviyyədəki əks-sədasıdır.

Prezident İlham Əliyevin Davos səfərinin nəticələrini təhlil edərkən belə bir qənaətə gəlmək olar ki, Azərbaycan artıq regionda "sabitlik adası" olmaqla kifayətlənmir, özünün fəal, sülhsevər siyasəti ilə regional əməkdaşlığa və qlobal proseslərə istiqamət verən mühüm qüvvəyə çevrilir.

Prezidentin nümayiş etdirdiyi çoxşaxəli və uzaqgörən diplomatik fəaliyyət Azərbaycanın müasir dünya düzənindəki mövqeyini strateji baxımdan tamamilə yeni bir mərhələyə yüksəltdi. Bu səfər ölkəmizin qlobal təhlükəsizlik arxitekturasında və yüksək texnologiyalar əsaslı yeni iqtisadi modelin formalaşmasında vacib rolunu bütün dünyaya nümayiş etdirdi. ABŞ ilə qurulan strateji tərəfdaşlıq, Ermənistanla sülhün iqtisadi faydalara çevrilməsi, dünyanın ən nüfuzlu maliyyə korporasiyalarının Bakını dördüncü sənaye inqilabı və süni intellekt üzrə etibarlı investisiya tərəfdaşı kimi qəbul etməsi Prezident İlham Əliyevin milli maraqlara və suverenliyə əsaslanan müstəqil xarici siyasət kursunun növbəti parlaq nailiyyətidir.




# Azərbaycanın iqtisadi göstəriciləri siyasi etibarlılığın indikatorudur



**Elçin Mirzəbəyli**
Milli Məclisin deputatı

Artıq uzun müddətdir ki, müasir beynəlxalq münasibətlər sistemi dərin transformasiya mərhələsindədir. Gözümüzün önündə qlobal siyasi arxitekturanın dayaqları sarsılır, beynəlxalq hüququn universal norma kimi qəbul edilməsi getdikcə nisbiləşir, güc amili isə açıq şəkildə əsas müəyyənedici faktora çevrilir. Məhz belə bir mürəkkəb və ziddiyyətli mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davos İqtisadi Forumu çərçivəsində "Euronews" televiziyasına verdiyi müsahibə təkcə ölkənin mövqeyinin ifadəsi deyil, həm də regionun gələcək inkişaf trayektoriyasını müəyyən edən strateji baxışlar toplusu, yol xəritəsidir. Dövlət başçısı müsahibəsində açıq şəkildə bəyan edir ki, beynəlxalq hüquq artıq bütün dövlətlər üçün eyni dərəcədə məcburi mexanizm kimi işləmir. Bu reallıq isə rasional nəticə tələb edir.

Azərbaycan da məhz bu reallıqdan çıxış edərək öz siyasətini milli maraqlara, real güc balansına və uzunmüddətli strateji hədəflərə uyğun şəkildə formalaşdırıb. Əsas prinsiplərə münasibət isə dəyişməz qalıb. Azərbaycan hər zamankı kimi yenə də beynəlxalq hüquqa




hörmətlə yanaşır, lakin bu yanaşma rasionallıqla müşayiət olunur, sadəlövhlüklə yox. Bu yanaşmanın ən parlaq nəticəsi Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpasıdır. Prezidentin vurğuladığı kimi, atılan bütün addımlar, istər siyasi, istər diplomatik, istərsə də hərbi müstəvidə gerçəkləşdirilən siyasət beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olub. Bu fakt Azərbaycanın postmünaqişə dövründə legitimliyini və siyasi mövqelərinin əsaslılığını daha da möhkəmləndirib.

Prezident İlham Əliyevin Davos mesajlarının mərkəzində duran əsas tezislərdən biri də beynəlxalq münasibətlərin artıq "qanunun aliliyi" ilə deyil, "güc qaydası" ilə tənzimlənməsidir. Bu, pessimist yanaşma deyil, realist siyasi diaqnozdur. Belə bir şəraitdə hər bir dövlət öz potensialına uyğun strategiya qurmalı, maksimum sayda tərəfdaşla, xüsusən də region daxilində sağlam münasibətlər formalaşdırmalıdır. Ölkəmizin son illərdə yürütdüyü çoxvektorlu xarici siyasət məhz bu fəlsəfənin məhsuludur. Regional əməkdaşlıq, qlobal aktorlarla balanslı münasibətlər, nə Şərqdən, nə də Qərbdən asılı olmayan müstəqil qərarvermə mexanizmi Azərbaycanı etibarlı və proqnozlaşdırılan tərəfdaşa çevirib.

Müsahibənin ən mühüm hissələrindən biri Ermənistan-Azərbaycan münasibətlərinin yeni mərhələsinə dair verilən mesajlardır. Dövlət başçısının "biz beş-altı aydır sülh şəraitində yaşayırıq" fikri təkcə xronoloji fakt deyil, tarixi dönüş nöqtəsinin ifadəsidir. Ölkəmiz müstəqillik tarixində ilk dəfədir real və davamlı sülh mühitinə daxil olub. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycan sülh prosesinə, sadəcə, paraflanmış, yaxud imzalanmış razılaşmalar müstəvisindən yanaşmır, ölkəmiz üçün sülh, eyni zamanda, praktik əməkdaşlıq deməkdir. Ermənistan üçün tranzit imkanlarının açılması, bu ölkənin neft məhsulları da daxil olmaqla həyati əhəmiyyətli mallarla təminatı rasional inteqrasiya siyasətinin göstəricisidir.

> "Azərbaycan da daxil olmaqla hər bir ölkə özünün sərhədləri boyu sabitlik haqqında düşünməlidir. Azərbaycana gəldikdə, bizdə ölkə daxilində potensial risklər mövcud deyil. Bütün potensial risklər kənardan qaynaqlana bilər. Bu səbəbdən biz hər zaman qonşuluğumuzda sabitliyin mövcud olması haqqında düşünürük. Biz İranda baş verən müəyyən qeyri-sabitlikdən narahatıq. Bizim üçün regionda sabitlik, proqnozlaşdırılma və sülh ən böyük sərvətdir".
>
> **İlham Əliyev**

Prezidentin vurğuladığı kimi, bu vəziyyətdən hamı udur. Ən önəmlisi isə "uzunmüddətli deyil, əbədi sülh" hədəfinin açıq şəkildə bəyan edilməsidir. Bu, regionda münaqişələr üzərindən siyasi kapital toplayan dairələrə açıq mesajdır: Cənubi Qafqaz yeni inkişaf mərhələsinə qədəm qoyur. Prezidentin "sülh və sabitlik istənilən ölkə üçün uğurun yeganə yoludur" fikri təkcə regional çağırış deyil, universal siyasi tezisdir. Müharibənin, işğalın və insan itkilərinin acı təcrübəsini yaşamış ölkə kimi Azərbaycan bu mövzuda ən legitim mövqedən danışır.

Müsahibədə enerji məsələləri Azərbaycanın regional və qlobal rolunu aydın şəkildə ortaya qoyur. Prezident İlham Əliyev faktlarla sübut edir ki, Azərbaycan bu gün Cənubi Qafqazın əsas enerji təminatçısıdır. Avropa İttifaqının 10 üzvü də daxil olmaqla 16 ölkəyə təbii qaz ixrac edən ölkəmiz boru kəməri coğrafiyasına görə dünyada lider mövqedədir. Bu, təkcə iqtisadi göstərici deyil, siyasi etibarlılığın da indikatorudur.

Enerji təhlükəsizliyi məsələsində Azərbaycan həm hasilatçı, həm tranzit ölkə, həm də sabit tərəfdaş kimi çıxış edir. Avropa üçün bu, alternativ və təhlükəsiz mənbə deməkdirsə, Azərbaycan üçün premium bazarlara çıxış imkanıdır. Prezident İlham Əliyevin Avropa Parlamentinə münasibəti müsahibənin ən açıq və prinsipial hissələrindən biridir. Onun "Biz artıq buna reaksiya vermirik" deməsi ölkəmizə qarşı uzun illərdir sərgilənən qərəzli yanaşmalara ən tutarlı cavabdır. Qərəzli və ikili standartlara əsaslanan tənqidlərə cavab verməmək Azərbaycanın




özünəinamının göstəricisidir. Avropa Komissiyası ilə əməkdaşlığın davam etməsi isə Bakının Avropaya qapıları bağlamadığını, ancaq hörmətsiz münasibəti  də qəbul etmədiyini göstərir. Xüsusən də Ermənistanın belə Azərbaycanla münasibətləri müsbət qiymətləndirdiyi bir dövrdə Avropa Parlamentinin ittihamları özünü ifşa edən paradoksa çevrilir.

Prezident İlham Əliyevin Davos müsahibəsi həm də onu göstərir ki, Azərbaycan emosiyalarla deyil, strateji ardıcıllıqla hərəkət edir. Yeni dünya nizamında yerini dəqiq müəyyənləşdirən, regionda sülhün memarına çevrilən, enerji və nəqliyyat xəritəsində əsas oyunçu olan Azərbaycan öz yolunu özü seçir. Bu müsahibə bir daha sübut edir ki, ölkəmizin siyasəti situativ deyil, sistemlidir, taktiki yox, stratejidir, başqalarının diktəsi ilə deyil, milli maraqlar əsasında formalaşır. Bu baxımdan, Prezident İlham Əliyevin Davosda "Euronews" televiziyasına verdiyi müsahibə Azərbaycanın yeni beynəlxalq reallıqlar fonunda formalaşdırdığı strateji yol xəritəsinin konturlarıdır. Bu yol xəritəsi ani qərarlardan deyil, uzun illər ərzində toplanmış siyasi təcrübədən, uğurla nəticələnmiş milli mübarizədən və qlobal proseslərin dərin analizindən qaynaqlanır. Onun əsas üstünlüyü sistemlilik, praqmatizm və ideoloji doqmalardan uzaq olmasıdır.

Yol xəritəsinin **birinci** və fundamental elementi beynəlxalq münasibətlər sisteminin dəyişdiyini açıq şəkildə qəbul etməkdir. Prezident İlham Əliyev beynəlxalq hüququn formal mövcudluğunu inkar etmədən onun artıq universal və mütləq mexanizm kimi işləmədiyini vurğulayır. Bu yanaşma romantik beynəlxalq idealizmdən imtina, siyasi realizmə keçid deməkdir. Azərbaycan bu reallıqdan çıxış edərək beynəlxalq hüquqa istinad edən, lakin yalnız ona arxalanmayan, güc balansını, regional və qlobal maraqları düzgün hesablayan bir siyasət modeli formalaşdırıb. Bu, zəiflik yox, strateji yetkinlik göstəricisidir.

Yol xəritəsinin **ikinci** sütunu milli maraqların istisnasız prioritet olmasıdır. Prezident İlham Əliyevin müsahibədə vurğuladığı əsas xətt ondan ibarətdir ki, Azərbaycan öz siyasətini kənar mərkəzlərin gözləntilərinə deyil, öz milli maraqlarına uyğun qurur. Bu model suveren qərarvermə, daxili siyasi sabitlik, dövlət institutlarının gücləndirilməsi, xarici təsirlərə qarşı dayanıqlılıq prinsiplərinə əsaslanır. Məhz bu yanaşma Azərbaycanın həm müharibə, həm də sülh mərhələsində uğur qazanmasını təmin edib.

Yol xəritəsinin **üçüncü** mühüm istiqaməti sülhün taktiki güzəşt deyil, strateji investisiya kimi təqdim edilməsidir. Ermənistanla münasibətlərin qarşıdurmadan əməkdaşlığa, blokadadan tranzitə, düşmənçilikdən iqtisadi rasionalizmə keçirilməsi bu yol xəritəsinin praktik nəticəsidir. Burada əsas məqsəd müvəqqəti sabitlik deyil, dayanıqlı və geri dönməz sülh arxitekturası yaratmaqdır.

Prezident İlham Əliyevin İranla bağlı mövqeyi yol xəritəsinin **dördüncü** komponentini təşkil edir. Azərbaycan üçün təhlükəsizlik yalnız hərbi güclə ölçülmür. Buraya regional sabitlik, proqnozlaşdırılan siyasi mühit və qonşuluqda xaosun qarşısının alınması daxildir. Bu xüsusda Azərbaycanın daxili təhlükəsizlik sisteminin dayanıqlılığı, risklərin əsasən xarici mənbələrdən qaynaqlanması, qonşu ölkələrdə sabitliyin strateji əhəmiyyəti aydın şəkildə ortaya qoyulur. Bu yanaşma Azərbaycanı regionda məsuliyyətli və balanslaşdırıcı aktora çevirir.

Yol xəritəsinin **beşinci** əsas istiqaməti enerji siyasətidir. Prezident İlham Əliyevin müsahibəsində təqdim olunan faktlar göstərir ki, Azərbaycan enerji sektorunu təkcə iqtisadi sahə kimi deyil, strateji diplomatik alət kimi istifadə edir. Bu modelin əsas xüsusiyyətləri etibarlılıq və müqavilə öhdəliklərinə sadiqlikdən, coğrafi diversifikasiyadan, Avropa ilə enerji təhlükəsizliyi sahəsində qarşılıqlı asılılıqdan, regional ölkələrin enerji təminatında açar rolu oynamaqdan ibarətdir. Nəticədə Azərbaycan həm regional enerji mərkəzi, həm də qlobal etibarlı tərəfdaş statusu qazanıb.

Yol xəritəsinin **altıncı** elementi beynəlxalq institutlarla münasibətlərdə selektiv və prinsipial yanaşmadır. Prezident İlham Əliyevin Avropa Parlamentinə münasibətdə nümayiş etdirdiyi mövqe göstərir ki, Azərbaycan qərəzi qəbul etmir, ikili standartlarla dialoqa girmir, lakin rasional əməkdaşlıq imkanlarını da bağlamır. Avropa Komissiyası ilə əməkdaşlığın davam etməsi, eyni zamanda, Avropa Parlamentinin qərarlarına reaksiya verilməməsi siyasi özünəinamın göstəricisidir.

Yol xəritəsinin **sonuncu**, lakin həlledici elementi strateji təmkindir. Prezident İlham Əliyevin müsahibəsində emosional ritorika yoxdur. Burada tələsməyən, mərhələli, nəticəyönümlü dövlət idarəçiliyi fəlsəfəsi özünü göstərir. Bu fəlsəfə ani siyasi dividendlərdən imtinanı, uzunmüddətli sabitliyi, dövlət maraqlarının qorunmasını prioritetə çevirir.

Bütövlükdə isə Prezident İlham Əliyevin milli dövlətçilik konsepsiyası milli yol xəritəsi kimi qəbul olunmalıdır. Bu yol xəritəsi Azərbaycanın yeni dünya nizamında passiv obyekt yox, regional və qlobal proseslərin aktiv subyekti olmasının bariz göstəricisidir.





# Azərbaycan 2026-cı ilə mühüm xarici siyasət uğurları ilə daxil oldu



**Elman Nəsirov**
Milli Məclisin deputatı

Müasir beynəlxalq koordinatlar sisteminin nizamı pozulmuşdur. Beynəlxalq hüquq "erroziya"ya uğramışdır. Bu reallığı şərtləndirən çoxsaylı motivlər və səbəblər mövcuddur. Onların sırasında bir amilin rolu xüsusi çəkiyə malikdir. Bu, ilk növbədə planetimizdə qlobal lider kəsiri - məhdudluğu ilə bağlı məsələdir. Bu gün Böyük Britaniyaya uinston çörçillər, Fransaya şarl de qollar, Almaniyaya konrad adenauerlər rəhbərlik etmirlər. Bu qlobal siyasi liderlərin müasir varisləri heç bir halda sələflərinə adekvat deyillər. Xələflər nəinki dünya miqyasında təhlükəsizliyin təminatına töhfə verə bilmir, bir çox hallarda öz davranışları ilə lokal, regional və beynəlxalq səviyyələrdə qarşıdurma mühitinin formalaşmasına rəvac verirlər. Bu baxımdan planetimiz bəlkə də heç vaxt indiki qədər təhlükəli olmamışdır. Təhlükənin olduğunu hiss etməməyin özü də ən böyük təhlükədir.

Müasir dünyamızın sadalanan acı reallıqları fonunda Prezident İlham Əliyev elə də böyük olmayan dövləti - Azərbaycanı beynəlxalq siyasətin subyektindən onun aktoruna çevirmişdir. Qlobal təhlükəsizliyin, o cümlədən qitəmizdə enerji, nəqliyyat və logistika təhlükəsizliyinin tə-

minatında respublikamızın rolu misilsizdir. Azərbaycan dünyaya təkcə neft və qaz deyil, eyni zamanda, multikultural dəyərlər ixrac edir. Bu xüsusda Prezident İlham Əliyevin fikirləri aforizm tutumuna və reallığa adekvat gücə malikdir: "Azərbaycan dünya miqyasında elə də böyük dövlət olmasa da, sözünün məna və çəkisi böyükdür". Prezident İlham Əliyev təvazökarlığından ölkəmizin dünya miqyasında bu izafi çəkiyə malikliyinin real səbəbi qismində öz adını və tarixi fəaliyyətini vurğulamır. Xalqın gözü isə tərəzidir və o, öz liderini sevir.

2020-ci ilin sentyabr-noyabr aylarında müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz ordumuz tarixi Zəfərə imza atıb ərazi bütövlüyümüzü bərpa etdikdən və 2023-cü il sentyabrın 19-20-də lokal antiterror tədbirlər hesabına Qarabağ iqtisadi rayonu üzərində suverenliyimizi tam və əbədi təmin etdikdən sonra yeni tarixi reallıq yarandı. Bu reallığın, yəni ərazi bütövlüyümüzün və suverenliyimizin 100 faiz təmin edilməsinin beynəlxalq birlik və ictimaiyyət tərəfindən yubadılmadan, vaxtında qəbul edilməsi növbəti strateji vəzifəyə çevrildi. Ölkəmizin qarşısında duran bu və ya digər strateji vəzifələrin uğurlu icrası istiqamətlərində mühüm nailiyyətlərə imza atıldı. Faktlara və arqumentlərə istinad edərək söylədiyimiz fikirləri əsaslandırmağa çalışacağıq.

2025-ci il avqustun 8-də Ermənistan-Azərbaycan müharibəsinə siyasi baxımdan son qoyan tarixi Vaşinqton razılaşmaları imzalandı. Artıq 5 aydır ki, uzun müddət müharibə vəziyyətində olan regionun iki dövləti və xalqı sülh şəraitində yaşayır. ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan siyasi liderləri Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan Birgə Bəyannamə imzaladılar. Hər iki ölkənin xarici işlər nazirləri sülh müqaviləsini parafladılar. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması ilə nəticələnən referendumun keçirilməsindən sonra regiona uzunmüddətli və davamlı sülh gələ bilər. Bu baxımdan cari il kifayət qədər ümidverici təsir bağışlayır.

Səfərin əsas nəticələrindən biri Azərbaycan ilə ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsidir. Prezidentlər İlham Əliyev və Donald Tramp tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumu" bu istiqamətdə mühüm addımdır. Sənədə əsasən növbəti 6 ay ərzində Strateji Tərəfdaşlıq Xartiyası hazırlanacaq və qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlıq gücləndiriləcəkdir.

**Prioritet sahələr arasında bunlar qeyd olunur:**

- qarşılıqlı investisiya və ticarət;
- energetika, nəqliyyat və tranzit;
- süni intellekt və rəqəmsal infrastruktur;
- müdafiə, təhlükəsizlik və terrorçuluğa qarşı mübarizə.

Dövlətimizin başçısı İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəsində qeyd olunan memorandumun əhəmiyyətinə toxunaraq onun ikitərəfli münasibətlərin çərçivələrini aşdığını vurğulayır: "Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması üzrə Prezident Trampla Anlaşma Memorandumunu imzaladıqdan



sonra Avropanın bir neçə aparıcı ölkəsi bizimlə strateji tərəfdaşlıq münasibətləri qurmaq üçün müraciət etmişdir. Beləliklə, müəyyən mənada bu, Vaşinqtondan daxil olan siqnal idi. Buna baxmayaraq, bu vaxtadək biz demək olar ki, 30 ölkə ilə strateji tərəfdaşlıq üzrə bəyanat imzalamış və müqavilə bağlamışıq. Bu ölkələrdən 10-u Avropa İttifaqının üzvüdür, lakin Vaşinqtondan daxil olmuş bu güclü mesaj ABŞ-nin müttəfiqi olduğu ölkələrdə yaxşı qarşılanmışdır".

Vaşinqton Sammitində həmçinin Azərbaycan Respublikasının əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantısının təmin edilməsini nəzərdə tutan "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP) layihəsi üzrə razılıq əldə edilmişdir.

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial yanaşması nəticəsində iki mühüm məsələ üzrə də Azərbaycanın mövqeyi rəsmi Vaşinqton tərəfindən dəstəklənmişdir: ATƏT-in Minsk qrupunun ləğvi və bədnam "907-ci maddə"nin aradan qaldırılması. Rəsmi Bakı-İrəvan münasibətlərinin normallaşdırılması yolunda əsas maneələrdən hesab edilən hər iki məsələ üzrə real praktiki addımlar atılmışdır.

Obama-Bayden administrasiyası ilə kifayət qədər məsafəli, Bayden-Blinken administrasiyası ilə isə böhran həddində olan Azərbaycan-ABŞ ikitərəfli münasibətləri praqmatik siyasi lider olan Donald Trampın yeni prezidentliyi dönəmində strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Beləliklə, Azərbaycan Respublikasının 2026-cı ildə sülh prosesini daha da irəlilətmək məqsədilə ikitərəfli, birbaşa və prinsipial dialoqa sadiq qalacağı bəlli həqiqətdir. Bu kontekstdə artıq paraflanmış sülh sazişinin imzalanması və ratifikasiyasını təmin etmək üçün Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı hələ də mövcud olan ərazi iddialarının aradan qaldırılması və TRIPP layihəsi üzrə maneəsiz əlaqənin təmin edilməsi ilə bağlı öhdəliklərin tam icrası xüsusi əhəmiyyət kəsb edir.

Rəsmi Bakı-Pekin münasibətləri üçün xarakterik əməkdaşlıq və dostluq mühiti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının (ÇXR) Sədri Si Cinpin tərəfindən daha da inkişaf etdirilərək strateji tərəfdaşlıq səviyyəsinə qaldırılmışdır. Fundamental məsələlərdə hər iki dövlətin və onun liderlərinin mövqeyi tam üst-üstə düşür. Azərbaycan "Vahid Çin" ideyasını qəbul edir və onu həm ikitərəfli, həm də çoxtərəfli formatlarda tam dəstəkləyir. Ölkəmiz ÇXR-in qlobal "Kəmər və yol" layihəsinə qoşulan ilk tərəfdaşlardan biridir.

ÇXR də Azərbaycanın ərazi bütövlüyü və suverenliyi məsələlərində anoloji mövqe ortaya qoyur, haqq işimizi hər yerdə və hər zaman dəstəkləyir. Yeri gəlmişkən, onu da qeyd edək ki, hər iki dövlətin liderləri arasında şəxsi dostluq münasibətlərinin olması faktı da dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin inkişafına təsir edən həlledici amillərdən biridir. Xüsusilə də 2024-cü il iyulun 3-də "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin, 2025-ci il aprelin 25-də isə "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji





tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanması ilə ikitərəfli əlaqələrimizin strateji əsasları formalaşmış və daha da möhkəmlənmişdir. Nəticədə Prezident İlham Əliyevin təbirincə desək, "İstər bizim tərəfimizdən, istərsə də Çin Xalq Respublikası tərəfindən biznes strukturlarına, dövlət strukturlarına əlaqələrimizi maksimum fəallaşdırmaq üzrə ciddi impuls verilib və biz bunu hətta qarşılıqlı səfərlərin, nümayəndələrin, artıq imzalanmış müqavilələrin sayında, o cümlədən investisiyaların nümunəsində də görürük".

İkitərəfli ticarət dövriyyəsinin həcmi 20 faiz artaraq 4 milyard dollar səviyyəsini ötmüşdür. Hazırda Çin şirkətləri bərpaolunan enerji mənbələrinə investisiyalar qoyurlar. Elektrik, Günəş, Külək stansiyalarının tikintisinə başlanılır və bu stansiyaların sayının artırılması üzrə müraciətlər vardır. Eyni zamanda, ölkəmizdə ÇXR ilə əməkdaşlıq bazasında Günəş panellərinin istehsalı üzrə zavodun tikintisinə, habelə elektrik avtobuslarının yığılmasına başlanılmışdır.

ÇXR Orta Dəhlizin mühüm komponenti olaraq Zəngəzur dəhlizinin işə salınmasında maraqlı tərəfdir. Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu barədə deyir: "Çin və Orta Asiya ölkələrindən gələn yüklərin də Zəngəzur dəhlizi boyunca hərəkət edəcəyini gözləyirik. Təbii ki, biz buna ilk növbədə Naxçıvan Muxtar Respublikası ilə əlaqə kimi, həm də beynəlxalq nəqliyyat dəhlizi kimi baxırıq. Bu gün Azərbaycandan Qərbə doğru bir dəmir yolu marşrutu var, onların sayı iki olacaq. İki həmişə birdən yaxşıdır, xüsusilə açıq okeana çıxışınız olmadığı və qonşu ölkələrdən keçməli olduğunuz bir şəraitdə. Həmişə həcm üçün, rəqabət qabiliyyətlilik üçün, tranzit marşrutunun inhisarlaşdırılmasının qarşısını almaq və təbii ki, daha rəqabətli tariflər təmin etmək üçün alternativə sahib olmaq daha yaxşıdır".

Azərbaycan-Çin münasibətlərinin yeni və perspektivli sahələrindən biri də hərbi-texniki əməkdaşlıqla bağlıdır. Azərbaycanın hədəfi təkcə Çindən müasir hərbi texnika almaq deyil, həm də bu sahədə birgə müəssisələrin yaradılmasıdır.

Sevindirici haldır ki, dost və strateji tərəfdaş ölkə olan Çinin məşhur "Huawei" şirkəti də artıq işğaldan azad olunmuş Qarabağda "ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin icrasında yaxından iştirak edir, bərpa və yenidənqurma prosesinə öz layiqli töhfəsini verir.

Heydər Əliyev Fondunun hədiyyəsi olaraq dahi Azərbaycan şairi Nizami Gəncəvinin büstünün Şanxay Əməkdaşlıq Təşkilatının katibliyinin binasında daimi statusda nümayiş olunması ikitərəfli mədəni əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi hesab edilə bilər.

Beləliklə, dünyanın fövqəldövlətlərindən biri olan ÇXR ilə regional güc mərkəzinə çevrilmiş Azərbaycan Respublikası arasında formalaşmış yüksək səviyyəli münasibətlərin təqdim olunan analizi bir daha təsdiqləyir ki, siyasi liderlərimizin, xalqlarımızın, dövlətlərimizin və hakim siyasi partiyalarımızın dostluğu və qardaşlığı qazandığımız və hədəflədiyimiz bütün uğurlarımızın kökündə dayanan fundamental səbəblərdir. Çoxşaxəli lokal, regional və qlobal təhlükəsizlik mühitinin möhkəmlənməsi, xalqlarımızın rifahı və tərəqqisi Azərbaycan-Çin strateji tərəfdaşlığının daha uğurlu perspektivlərini labüd edir. Bu, zamanın çağırışıdır.

Azərbaycan Respublikasının diplomatik uğurları sırasında D-8 təşkilatına üzv qəbul edilməsini xüsusi olaraq qeyd etmək istəyirəm. Bu təşkilat 30 ilə yaxındır ki, yaradılıb və ən böyük müsəlman ölkələrini birləşdirir. Beynəlxalq Valyuta Fondunun 2024-cü il hesabatına görə, D-8 ölkələrinin nominal ÜDM-i 5,1 trilyon dollar, adambaşına düşən gəlirləri isə 48 min dollar təşkil edir. Qlobal ticarətin 4,5 faizi, qlobal ÜDM-in 5 faizi D-8 ölkələrinin payına düşür. Yeri gəlmişkən, D-8 ölkələrinin 2030-cu ilədək əməkdaşlığını özündə ehtiva edən əsas hədəflərindən biri də üzv ölkələr arasında ticarət dövriyyəsini qlobal ticarətin 15-20 faizinə çatdırmaqdır.

Azərbaycan isə nə ərazi, nə əhali, nə də iqtisadiyyat baxımından böyük ölkə deyildir. Bəs Azərbaycana təşkilat tərəfindən verilən yüksək qiymətin əsasında hansı amillər dayanır? Bu sualın ən dürüst cavabını da məhz möhtərəm Prezidentimiz İlham Əliyev vermişdir: “Bu seçim ilk növbədə bizə olan hörmətin əlamətidir və bizim apardığımız müstəqil siyasətin nəticəsidir və dərhal biz fəal işlərə başladıq. Bizim təşəbbüsümüzlə Azərbaycanda təşkilatın bir neçə mərkəzi yaradılmışdır - media, iqlim, ekologiya, energetika, nəqliyyat və biz də, təbii ki, bu təşkilatda fəal üzv kimi iştirak edəcəyik”.

Artıq Azərbaycanın D-8 ölkələri ilə ümumi ticarət dövriyyəsi 8,5 milyard dolları ötmüşdür. Bu nəticənin 90 faizi, yəni 7,7 milyard dolları qardaş Türkiyə dövləti ilə bağlıdır. Azərbaycanın D-8 təşkilatı çərçivəsində və üzv dövlətlərlə ikitərəfli formatda əməkdaşlıq münasibətlərinin qurulması və inkişafı strateji xarakter kəsb edir, ölkəmizin beynəlxalq aləmdə iqtisadi və siyasi çəkisinin daha da artması mənafeyinə xidmət göstərir.

Azərbaycan Respublikasının xarici siyasətində əldə etdiyi digər mühüm nailiyyət Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimizdir. Əslində, bu, tarixi hadisədir. Azərbaycan və Mərkəzi Asiya ölkələri coğrafi baxımdan fərqli məkanlara mənsubdurlar. Azərbaycan Cənubi Qafqaz ölkəsidir. Məlum seçimi şərtləndirən fundamental səbəblər siyasi, iqtisadi, ticarət, energetika, yükdaşıma, logistika, mədəni-humanitar və digər sferalarda qarşılıqlı faydalı əməkdaşlıq mühitinin formalaşması, çoxsaylı birgə layihələrin icrası ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Mərkəzi Asiya dövlətlərinin siyasi liderləri arasında formalaşmış səmimi dostluq münasibətləri də məlum seçimi şərtləndirən həlledici amillərdəndir. Dövlətimizin başçısı haqlı olaraq qeyd edir: “Əlbəttə, bu gün təkcə bizim bölgəmiz üçün yox, dünya üçün Mərkəzi Asiya-Azərbaycan birliyi və C5-in C6-ya çevrilməsi böyük əhəmiyyət daşıyır. Çünki bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır”.

Hazırda Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında “yaşıl enerji” sahəsində əməkdaşlıq münasibətləri dinamik xarakter almaqdadır.



Bölgədə dəyişən geosiyasi reallıqlar fonunda C5-in C6-ya çevrilməsi bütün üzvlərin strateji maraqlarına tam cavab verir. “Bildiyiniz kimi, 2024-cü ilin noyabrında Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri Bakıda enerji kabelinin tikintisi ilə bağlı müqavilə bağlamışlar. Yəni bu bağlantılar da olacaq - fiber-optik kabelin Xəzərin dibi ilə çəkilməsi və bir çox digər layihələr. Ona görə Azərbaycanı bu qrupa rəsmən qəbul etməklə Mərkəzi Asiya ölkələri, onların rəhbərləri həm bizə böyük hörmət göstərmiş oldular, həm də ki, öz uzaqgörənliklərini nümayiş etdirdilər. Çünki bu, bölgədə olan geosiyasi vəziyyəti tamamilə dəyişir”, - deyə Prezident İlham Əliyev vurğulamışdır.

Sözügedən dövrdə ölkəmiz bir sıra mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Bu tədbirlərin sırasında Xankəndidə keçirilən ECO Zirvə Görüşünün xüsusi əhəmiyyəti vardır. Əsas tədbirin keçirildiyi Xankəndi ilə yanaşı, Azərbaycanın təşəbbüsü ilə işğaldan azad olunmuş Şuşada Biznes, Laçında Gənclər, Ağdamda isə Qadınlar Forumu baş




tutmuşdur. 9 ölkənin dövlət və hökumət başçıları bir tərəfdən erməni faşizminin törətdiyi fəlakətlərin miqyası, digər tərəfdən də Azərbaycanın azad olunmuş torpaqlarında həyata keçirilən nəhəng quruculuq prosesinin dinamikası ilə yerindəcə tanış olmaq fürsəti əldə etmişlər.

Azərbaycan Respublikasının xarici siyasətində Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində fəaliyyət prioritet istiqamətlərdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev TDT-nin Dövlət Başçıları Şurasının 2025-ci il mayın 21-də Budapeşt şəhərində keçirilmiş qeyri-rəsmi zirvə görüşündə və oktyabrın 7-də Qəbələ şəhərində baş tutmuş 12-ci Zirvə Görüşündə iştirak etmişdir. "Regional Sülh və Təhlükəsizlik" mövzusunda Zirvə Görüşündə təşkilatın sədrliyi Azərbaycana keçmişdir. Toplantının yekununda dövlət və hökumət başçıları tərəfindən Qəbələ Bəyannaməsi qəbul olunmuşdur. Tədbir zamanı Azərbaycan Respublikasının Prezidenti 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təliminin, 1926-cı il Bakı Türkologiya Qurultayının və qurultay zamanı latın əlifbasının qəbul edilməsinin 100 illiyi münasibətilə tədbirlərin keçirilməsini təklif etmişdir. Sammitdə qəbul edilən sənədlər sırasında türk dünyasının institusional əsaslarını möhkəmləndirən, əməkdaşlıq mexanizmlərini təkmilləşdirən, büdcə istiqamətini tənzimləyən bir sıra praktiki qərarlar da yer almışdır. Bunların sırasında "TDT+" formatının yaradılması haqqında və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) inkişafı və gücləndirilməsi haqqında qərarları qeyd etmək olar.

Mövcud ikitərəfli və çoxtərəfli regional əməkdaşlıq mexanizmləri çərçivəsində keçirilmiş görüşlər ölkəmizin bu əlaqələrə verdiyi mühüm əhəmiyyətin göstəricisidir. 2025-ci il mayın 28-də Laçın şəhərində Azərbaycan, Türkiyə prezidentləri və Pakistan Baş naziri arasında üçtərəfli əməkdaşlıq formatının Zirvə Görüşü, avqustun 22-də Avaza şəhərində Azərbaycan, Türkmənistan və Özbəkistan liderləri arasında yüksək səviyyəli görüş, yanvarın 29-da isə Azərbaycan-Türkiyə-Özbəkistan xarici işlər, iqtisadiyyat və nəqliyyat nazirlərinin ikinci görüşü baş tutmuşdur.

Prezident İlham Əliyevin müdrik xarici siyasət kursunun sadalanan bir sıra mühüm istiqamətlər üzrə təqdimatı bir daha sübut edir ki, 2026-cı ildə də diplomatiyamızın uğurlu olması üçün ciddi fundamental səbəblər vardır. Bu xüsusda dövlətimizin başçısı İlham Əliyevin 56-cı Davos Ümumdünya İqtisadi Forumunda (2026-cı il, 19-23 fevral) iştirakı, keçirdiyi görüşləri, çıxışları və müsahibələri xüsusi əhəmiyyət kəsb edir.

Beləliklə, müəllifi Prezident İlham Əliyevin olduğu Azərbaycan Respublikasının çoxvektorlu, balanslı, çevik, kreativ və innovativ xarici siyasət kursu çox mürəkkəb, münaqişə və toqquşmalarla, yeni çağırışlar və assimmetrik təhdidlərlə zəngin planetimizdə ölkəmizin milli maraqlarının müdafiəsi baxımından çox uğurlu olmuşdur, regional və qlobal təhlükəsizliyin təminatı məqsədlərinə xidmət etmişdir, beynəlxalq aləmdə respublikamızın nüfuzunu və çəkisini daha da artırmışdır.



# Milli Məclisin sədri Asiya Parlament Assambleyasının 16-cı plenar sessiyasında iştirak etdi



**Sabir Hacıyev**
Milli Məclisin deputatı,
Azərbaycan-Bəhreyn
parlamentlərarası əlaqələr
üzrə işçi qrupunun rəhbəri

Yanvarın 25-də Milli Məclisin sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA) 16-cı plenar sessiyasının açılış mərasimində iştirak etmək üçün Bəhreyn Krallığına səfər etdi. Səfərin ilk günündə Milli Məclisin sədri bu ölkənin Şura Məclisinin sədri Əli bin Saleh Al Saleh ilə görüşdü.

Azərbaycan parlamentinin sədrini səmimiyyətlə salamlayan Şura Məclisinin sədri bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin daha da dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə etdi. Söhbət zamanı ölkələrimizin BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi müxtəlif beynəlxalq və regional təşkilatlar çərçivəsində müsbət əməkdaşlığından danışıldı, qarşılıqlı dəstəkdən razılıq ifadə olundu. Hər iki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlıq məsələləri nəzərdən keçirildi.

Spiker Sahibə Qafarova Şura Məclisinin sədri ilə bundan əvvəlki görüşlərini, həmçinin Əli bin Saleh Al Salehin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin (OHPŞ) Manama şəhərində keçirilən konfransında iştirakını məmnunluqla xatırladı. Bildirildi ki, Bəhreyn parlamenti bu mühüm parlament platformasının bütün konfrans və tədbirlərində iştirak edir, o cümlə-



dən təşkilatın rəhbər orqanlarında təmsil olunur.

Görüşdə parlamentlərarası əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulandı.

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Bəhreyn Nümayəndələr Şurasının sədri Əhməd bin Salman Al-Musalam ilə də görüşdü. Nümayəndələr Şurasının sədri Bəhreyn Krallığının Azərbaycanla əlaqələrin inkişafına böyük diqqət göstərdiyini bildirərək ölkələrimiz arasında siyasi və iqtisadi sahələrdə, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində mövcud əməkdaşlığın bundan sonra da ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsində maraqlı olduqlarını qeyd etdi.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin sədri Sahibə Qafarova Bəhreyn Krallığına ikinci dəfə səfər etdiyini, ötən dövrdə Bəhreyn Krallığının parlament sədrlərinin də Azərbaycana səfərlərini və keçirilmiş görüşləri məmnunluqla xatırladı. Milli Məclisin sədri hazırkı səfərin onun spiker qismində Bəhreyn Krallığına ilk rəsmi səfəri olduğunu və bu səfərin Azərbaycan ilə Bəhreyn arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf etdiyini bildirdi. O, ölkəmizin ötən il Bəhreyndə səfirlik açmasının ikitərəfli münasibətlərimizi yeni mərhələyə daşıdığını dedi.



Söhbətdə siyasi təmasların, həyata keçirilən səfər və məsləhətləşmələrin əlaqələrin dərinləşməsində mühüm rol oynadığı vurğulandı, iqtisadiyyat, ticarət, investisiya, turizm, təhsil sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların





olduğu bildirildi. Xüsusən humanitar sahələrdə əlaqələri qeyd edən Milli Məclisin sədri ötən il Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyevanın və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın Bəhreyn Krallığına səfəri və bu səfər çərçivəsində Manamada MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin təşkil edilməsini bu istiqamətdə mövcud olan münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğunu söylədi.

Sahibə Qafarova Azərbaycan və Bəhreyn parlamentləri arasında mövcud olan fəal əməkdaşlığı yüksək qiymətləndirdi. Onun sözlərinə görə, qanunvericilik orqanları həm ikitərəfli əsasda, həm də Parlamentlərarası İttifaq, Asiya Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi kimi beynəlxalq platformalar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Qeyd olundu ki, Azərbaycan Bəhreyn parlamentinin APA-da sədrliyə namizədliyini dəstəkləyir.

Görüşdə QHPŞ çərçivəsində sıx əməkdaşlıqdan məmnunluq bildirildi. Bu münasibətlərin bariz nümunəsi kimi Azərbaycan Milli Məclisi ilə Bəhreyn Krallığı Nümayəndələr Şurası arasında Anlaşma Memorandumu imzalandı. Sənədi Milli Məclisin sədri Sahibə Qafarova və Bəhreyn Nümayəndələr Şurasının sədri Əhməd bin Salman Al Musalam imzaladılar. Qeyd edildi ki, bu sənəd parlamentlərarası əlaqələrin yeni mərhələyə yüksəlməsinə, o cümlədən parlament komitələri, dostluq qrupları, parlament aparatları və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişlənməsinə mühüm töhfə verəcək.

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova səfər çərçivəsində



Bəhreyn Kralı Həməd bin İsa Al Xəlifə ilə də görüşdü. Görüş zamanı spiker Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Bəhreyn Kralına çatdırdı. Həməd bin İsa Al Xəlifə onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş etdi. O, Azərbaycanın sürətli inkişafından, həmçinin ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsinin əhəmiyyətindən, ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində parlamentlərin müsbət rolundan bəhs etdi.

Söhbət zamanı Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan-Bəhreyn münasibətlərinin dostluq, qarşılıqlı etimad və hörmət üzərində qurulduğunu ifadə edərək ölkələrimiz arasında mövcud olan siyasi əlaqələrin digər sahələrdə, o cümlədən iqtisadi, investisiya, turizm sahələrində geniş əməkdaşlıq imkanları yaratdığını söylədi. O, bu il Azərbaycan və Bəhreyn arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırlatdı, dost ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyindən məmnunluğunu bildirdi.

Milli Məclisin sədri Sahibə Qafarova yanvarın 26-da Asiya Parlament Assambleyasının 16-cı plenar sessiyasında çıxış etdi. Spiker çıxışında 2024-cü ilin fevralında Bakıda keçirilmiş 14-cü plenar sessiyada Azərbaycan Respublikasının Milli Məclisinin APA-ya sədrliyi öz üzərinə götürdüyünü bildirdi. Qeyd olundu ki, sədrlik dövründə ölkəmiz Assambleya çərçivəsində əməkdaşlığın və dialoqun dərinləşdirilməsi istiqamətində fəal səylər göstərib ki, bu da Azərbaycanın APA-ya mühüm parlamentlərarası platforma kimi verdiyi əhəmiyyətin göstəricisidir. Sahibə Qafarova vurğuladı ki, cari ildə APA-nın yaradılmasının 20-ci ildönümünün qeyd edildiyi bir məqamda Assambleya artıq konstruktiv dialoq və həmrəylik üçün mühüm çoxtərəfli təsisata çevrilib.

Son iki ildə görülən işlər barədə məlumat verən spiker Azərbaycanın sədrliyi dövründə təşkilatın tərkibinin genişləndiyini qeyd etdi. Ötən il Bakıda keçirilən 15-ci plenar sessiyada Oman Sultanlığının Şura Məclisinin APA-nın tamhüquqlu üzvü olduğu, Belarus Respublikası Milli Assambleyasının Respublika Şurasının müşahidəçi statusu aldığı, Ərəb Parlamentləri Baş Katibləri Assosiasiyasına isə müvafiq status verildiyi vurğulandı.

Sahibə Qafarova ölkəmizin quruma sədrliyi dövründə institusional inkişaf məsələlərinə xüsusi önəm verildiyini, Büro iclaslarının yenidən keçirilməyə başlandığını və onların Daimi Komitələrin iclasları çərçivəsində keçirildiyini söylədi. O, həmçinin Assambleyanın fəaliyyətini gücləndirəcək yeni mexanizmlərin yaradılmasına xüsusi diqqət yetirildiyini, o cümlədən Azərbaycan tərəfindən Qadınlar üzrə Komissiyanın təsis edilməsi təşəbbüsünün irəli sürüldüyünü







vurğuladı. Bildirildi ki, sədrliyimiz dövründə APA-nın büdcəsinin formalaşdırılmasına dair qərar üzrə konsensus əldə edilib ki, bu da Assambleyanın imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı, APA-nın əlaqələndirmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində geniş iş aparılıb, sədrliyimiz dövründə Parlamentlərarası İttifaq çərçivəsində təşkilatın 4 əlaqələndirmə iclası keçirilib. Bu görüşlər ortaq maraq doğuran beynəlxalq məsələlər üzrə əməkdaşlığın və koordinasiyanın gücləndirilməsi baxımından səmərəli olub.

Milli Məclisin sədri vurğuladı ki, Azərbaycanın sədrliyi dövründə APA-nın parlament diplomatiyasında rolunun və beynəlxalq müstəvidə nüfuzunun artırılması məsələlərinə də xüsusi diqqət yetirilib. O, APA ilə digər parlamentlərarası təşkilatlar arasında əməkdaşlığın inkişafını bu məqsədə çatmaqda təsirli vasitə hesab etdiyini dedi. Bildirildi ki, hazırda Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə APA arasında səmərəli əlaqələr mövcuddur və qurumun nümayəndə heyəti Şəbəkənin işində müntəzəm təmsil olunur.

Parlamentin spikeri qeyd etdi ki, dünyadakı mövcud çətinliklər və münaqişələr fonunda mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqi artıq bir seçim deyil, zərurətdir. Çünki qlobal sülhə və rifaha nail olmaq, ilk növbədə, xalqlar arasında etimad və qarşılıqlı anlaşmanın qurulmasından keçir. Bu mənada Asiya regionu zəngin irsi ilə böyük potensiala malikdir. Regionun müxtəlifliyi ölkələrimiz arasında bölücü xətt kimi deyil, bizi daha da yaxınlaşdıran və dialoqumuzu məzmunlu edən dəyər kimi qəbul edilməlidir.

Sahibə Qafarova çıxışında Azərbaycanın mədəniyyətlərarası dialoqun sadiq tərəfdaşı olduğunu vurğulayaraq ölkəmizin BMT-nin Sivilizasiyalar Alyansı Forumu, Qlobal Bakı Forumu və Dünya Dini Liderlərinin Sammiti kimi mötəbər tədbirlərə ev sahibliyi etməklə bu prosesə davamlı töhfələr




verdiyini bildirdi. Qeyd olundu ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə başladılmış "Bakı Prosesi" çərçivəsində keçirilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT tərəfindən mədəniyyətlərarası və dinlərarası dialoq üçün əsas qlobal platforma kimi tanınır. 2024-cü ilin mayında keçirilən 6-cı forum çərçivəsində Milli Məclis tərəfindən təşkil olunmuş Parlamentlərarası Konfrans isə bu dialoqa xüsusi parlament ölçüsü qazandırıb.

Milli Məclisin sədri 2025-ci ilin iyulunda Parlamentlərarası İttifaq tərəfindən təşkil edilən Parlament Sədrlərinin 6-cı Ümumdünya Konfransındakı çıxışı zamanı həmin qurumu mədəniyyətlərarası dialoqu gələcək gündəliyinə və fəaliyyətinə daxil etməyə çağırdığını xatırlatdı. O, APA-nın bu məsələnin həlli istiqamətindəki səylərinin təqdirəlayiq olduğunu bildirdi.

APA-nın gündəliyində prioritet yer tutan iqlim dəyişikliyi ilə mübarizə məsələsinə toxunan parlamentin sədri Sahibə Qafarova bildirdi ki, 2024-cü ildə COP29-a uğurla ev sahibliyi edən Azərbaycan müxtəlif tərəflər arasında körpülər quraraq qlobal həmrəyliyə nail olub. Regionun digər bir dövləti olan qardaş Türkiyənin COP31-ə yüksək səviyyədə ev sahibliyi edəcəyinə inam ifadə olunaraq onun bu sahədəki fəaliyyətinin qlobal iqlim hədəflərinə çatmaqda mühüm rol oynayacağı vurğulandı.

Çıxışında bölgəmizin 2026-cı ildə ev sahibliyi edəcəyi digər mühüm hadisənin - bu ilin mayında Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının əhəmiyyətini vurğulayan Milli Məclisin sədri Sahibə Qafarova davamlı şəhərsalmanın qlobal inkişaf gündəliyi ilə sıx əlaqəli olduğunu dedi. O, APA-ya üzv olan bütün ölkələri bu forumda fəal olmağa dəvət etdi.

Daha sonra APA-da sədrlik rəsmi olaraq Bəhreyn Krallığının Nümayəndələr Şurasına təhvil verildi.

Milli Məclisin sədri Sahibə Qafarova Bəhreyn Krallığına səfəri çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurasının sədr müavini Tariq Humaid Al Tayer ilə görüşdü. Söhbət zamanı spiker qarşılıqlı rəsmi səfərlərin, eləcə də parlamentlər arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq əlaqələrin inkişafının önəmini qeyd etdi. Beynəlxalq təşkilatlar, o cümlədən APA çərçivəsində əməkdaşlığın yüksək səviyyədə olmasından razılıq ifadə edildi.

Görüşdə Sahibə Qafarova Milli Məclisin APA-ya ikiillik sədrliyi dövründə BƏƏ parlamentinin nümayəndə heyətinin göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi, APA-nın parlamentlərarası əlaqələrin genişləndirilməsi üçün ümumi və səmərəli platforma olduğunu vurğuladı. Azərbaycan parlamentinin APA-ya uğurlu sədrliyi xüsusilə qeyd edildi.

Görüşdə hər iki ölkə liderlərinin rəhbərliyi ilə bütün istiqamətlər üzrə hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əlaqələrin uğurla inkişaf etdiyi qeyd olundu, parlamentlərin fəaliyyəti və verdiyi töhfələr xüsusi vurğulandı. Parlamentlərarası əməkdaşlığın bundan sonra da qarşılıqlı etimad və tərəfdaşlıq prinsipləri əsasında uğurla davam etdiriləcəyinə əminlik bildirildi.



# Azərbaycan və BƏƏ arasında münasibətlərin dinamik və hərtərəfli inkişafı məmnunluq doğurur



**Kəmaləddin Qafarov**
Milli Məclisin deputatı

Milli Məclisin sədri Sahibə Qafarova yanvarın 27-də Aralıq Dənizi Parlament Assambleyasının (ADPA) Qadın Parlament Forumunun 2-ci Sessiyasında iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) işgüzar səfərdə oldu. Parlament sədri səfər çərçivəsində Əbu-Dabidə keçirilən forumun 2-ci sessiyasının açılış mərasimində çıxış etdi. Spiker çıxışında Aralıq Dənizi Parlament Assambleyasının dialoq, həmrəylik və qarşılıqlı anlaşma üçün bir platforma olduğunu söylədi. Onun sözlərinə görə gender bərabərliyinə və qadınların səlahiyyətləndirilməsinə xüsusi önəm verilməsi Assambleyanın ümumi məqsədlərə nail olmaq naminə kollektiv fəaliyyətə davamlı sadiqliyinin bariz nümunəsidir.

Azərbaycan Milli Məclisinin qurumda müşahidəçi statusu əldə etmək üçün rəsmi müraciət etdiyini xatırladan Sahibə Qafarova bu müraciətin dəstəklənməsinin daha sıx əməkdaşlıq və daha səmərəli birgə fəaliyyət üçün yeni imkanlar açacağına inamını ifadə etdi. O, hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə ADPA



arasında əlaqələrin inkişafında maraqlı olduğumuzu söylədi. Sahibə Qafarova iki qurum arasında qarşılıqlı müşahidəçi statusunun verilməsi və əməkdaşlıq sazişinin imzalanması yolu ilə institusional əlaqələrin qurulmasının parlament diplomatiyasının ümumi məqsədlərinə əhəmiyyətli töhfə verəcəyini vurğuladı.

Müzakirə edilən mövzunun əhəmiyyəti barədə fikirlərini bölüşən spiker Sahibə Qafarova bildirdi ki, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi haqlı olaraq Dayanıqlı İnkişaf Məqsədlərindən biri kimi müəyyən edilib. Bu məqsədlər yalnız arzuolunan deyil, həm də daha ədalətli dünyanın qurulması və gələcək nəsillər üçün daha yaxşı gələcəyin təmin olunması baxımından zəruridir. Bu çağırışlar qlobal xarakter daşıyır. Ona görə də bu istiqamətdə tərəqqi yalnız milli səylərlə deyil, beynəlxalq səviyyədə davamlı və əlaqələndirilmiş fəaliyyətlə mümkündür. Bu baxımdan bugünkü müzakirələr bir daha beynəlxalq əməkdaşlığın, xüsusilə də xalqlarımızın nümayəndələri olan parlamentarilər arasında münasibətlərin əhəmiyyətini önə çəkir. Qadın və kişilərin mahiyyət etibarilə bərabər olması prinsipi cəmiyyətin əsas dəyəri kimi möhkəmləndirilməlidir. Digər tərəfdən, qadınların ictimai həyatda və qərar qəbuletmə proseslərində tam və bərabər iştirakı olmadan güclü, firavan və dayanıqlı cəmiyyət qurmaq mümkün deyil.

Ölkəmizdə gender bərabərliyi sahəsində mövcud olan vəziyyət haqqında tədbir iştirakçılarına məlumat verən spiker Sahibə Qafarova söylədi ki, güclü ailə və mədəni ənənələrə söykənən Azərbaycan mühitində qadınlar ailənin - cəmiyyətin ən kiçik vahidinin formalaşmasında və dəyərlərin gələcək nəsillərə ötürülməsində daim mərkəzi rol oynayıblar. Onlar həmişə cəmiyyətdə bərabər tərəfdaş kimi qəbul edilib və ölkənin inkişafına həlledici təsir göstəriblər. Bu gün Azərbaycan qadınları siyasət, iqtisadiyyat, elm, təhsil, səhiyyə və digər sahələrdə fəal şəkildə təmsil olunurlar. Onlar qanunverici və icraedici hakimiyyət orqanlarında, məhkəmə sistemində və diplomatik fəaliyyətdə yüksək vəzifələr tuturlar.

Sahibə Qafarova Gender Bərabərliyi üzrə 2026-2028-ci illəri əhatə edən Milli Fəaliyyət Planının qəbul edilməsinin Azərbaycan hökuməti tərəfindən bu sahədə ardıcıl şəkildə həyata keçirilən tədbirlərin davamı olduğunu söylədi.

Ölkə parlamentinin bu prosesdə cəmiyyətin dəyişən tələblərinə uyğun olaraq qanunvericilik bazasının hazırlanmasında və daim təkmilləşdirilməsində fəal rol oynadığını bildirən spiker dedi ki, ötən çağırış Milli Məclisdə gender bərabərliyi və ailə siyasəti ilə bağlı 53 qanun layihəsi müzakirə edilib, 17 ictimai dinləmə keçirilib. Parlament komitələrinin əksəriyyətində qadın deputatlar təmsil olunurlar. İnstitusional səviyyədə gender bərabərliyi təşviq edilir. Onlar qanunvericilik müzakirələrində qadınların səlahiyyətləndirilməsi sahəsində beynəlxalq əməkdaşlığı qətiyyətlə dəstəkləyir və müxtəlif beynəlxalq platformaların işində fəal iştirak edirlər.

Sahibə Qafarova bu forum çərçivəsində aparılan müzakirələrin real nəticələr verəcəyinə və regionda sosial həmrəyliyin, dayanıqlılığın və davamlı inkişafın



möhkəmləndirilməsinin əsas şərti olan bu məqsədin qadınların səlahiyyətləndirilməsinin inkişafına mühüm töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Səfər çərçivəsində Milli Məclisin sədri bir sıra görüşlər keçirdi. İlk görüş BƏƏ-nin Federal Milli Şurasının sədri Saqr Qobaşla oldu. Azərbaycan parlament sədrini səmimiyyətlə salamlayan Saqr Qobaş bu səfərə və ADPA Qadın Parlament Forumunun 2-ci Sessiyasında iştirakına görə Sahibə Qafarovaya təşəkkürünü bildirdi.

Görüşdə ölkələrimiz arasında münasibətlərin dinamik və hərtərəfli inkişafından məmnunluq ifadə olunaraq tarixi, dini və mədəni köklərlə bir-birinə bağlı olan ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələr üzrə yüksək səviyyədə inkişaf etdiyi bildirildi. Vurğulandı ki, ölkələrimizin liderlərinin birgə səyləri və şəxsi münasibətləri həm Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri, həm də xalqlarımız arasında münasibətlərin daha da dərinləşməsinə imkan verib və bu gün ölkə-





lərimiz bir çox sahələrdə geniş və uğurlu əlaqələrə malikdirlər.

Milli Məclisin sədri Azərbaycan Prezidenti İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görüldüyünü xatırladaraq dövlətimizin başçısının Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyan belə nüfuzlu mükafata layiq görülməsinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.

Söhbət zamanı parlamentlərarası münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri barədə də fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, ölkələrimiz arasında yüksək səviyyəli əlaqələr parlament platformasında da uğurla davam etdirilir və son dövrlər qanunvericilik orqanlarımız arasında təmaslar və qarşılıqlı səfərlər daha da artıb.

Spiker Sahibə Qafarova ötən il özünün Birləşmiş Ərəb Əmirliklərinə, Saqr Qobaşın isə Azərbaycana rəsmi səfərlərini xatırlayaraq bu səfər və görüşlərin, həmçinin parlamentlər arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasının əlaqələrin daha da dərinləşməsinə imkan verdiyini bildirdi. O cümlədən parlamentlərimizin beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığından məmnunluq ifadə olundu.

Saqr Qobaş da öz növbəsində Azərbaycana səfərini məmnunluqla xatırlayaraq səfər çərçivəsində keçirilən görüşlərin əlaqələrimizə müsbət töhfələrini vurğuladı.

Söhbət zamanı Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının Qadın Parlament Forumunun 2-ci Sessiyasının uğurla təşkil olunduğunu qeyd edərək bu kimi beynəlxalq tədbirlərin bəşəriyyəti narahat edən məsələlərin müzakirəsi baxımından əhəmiyyətindən danışdı.

Səfər çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarova ADPA sədri Cülio Çentemero ilə də görüşdü. Spiker qurumun Qadın Parlament Forumunun 2-ci Sessiyasının əhəmiyyətindən danışdı və Azərbaycan parlamentinin bu qurumla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırdı. Sahibə Qafarova dünən ADPA-nın Büro iclasında Milli Məclisə müşahidəçi statusunun verilməsi ilə bağlı müraciətin təsdiqindən məmnunluğunu bildirdi və yekun qərar verildikdən sonra bu statusun qarşılıqlı parlamentlərarası əlaqələrin inkişafı üçün yeni imkanlar yaradacağına inamını ifadə etdi.

Söhbət zamanı Cülio Çentemero diqqətə çatdırdı ki, Azərbaycan Aralıq Dənizi regionunda olmasa da, mühüm regionda yerləşən bir ölkədir. ADPA Azərbaycanla əməkdaşlıqda maraqlıdır və münasibətlər parlament dialoqu üçün yaxşı imkanlar yaradacaq.

Görüşdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə ADPA arasında əməkdaşlıq məsələlərinə də toxunuldu. Söhbət zamanı ADPA-nın fəaliyyəti və qarşılıqlı maraq doğuran digər mövzular barəsində də fikir mübadiləsi aparıldı.



# **Milli Məclis sədrinin Oman səfəri:** Körfəz regionunun strateji rolu və yeni tərəfdaşlıq mərhələsi



**Səbinə Salmanova**
Milli Məclisin deputatı,
Azərbaycan-Oman Sultanlığı
parlamentlərarası
işçi qrupunun rəhbəri

Azərbaycanın xarici siyasətində Yaxın Şərq və Körfəz regionu ilə münasibətlərin inkişafı son illərdə xüsusi dinamika qazanıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil, çoxşaxəli və praqmatik xarici siyasət kursu bu region ölkələri ilə əlaqələrin yeni keyfiyyət mərhələsinə yüksəlməsini təmin edib. Dövlətimizin başçısının müəyyənləşdirdiyi strateji yol xəritəsinə əsasən, Azərbaycan regional və qlobal miqyasda etibarlı tərəfdaş kimi çıxış etməklə yanaşı, qarşılıqlı maraqlara söykənən, balanslaşdırılmış və uzunmüddətli əməkdaşlıq modelini uğurla reallaşdırır.

Prezident İlham Əliyevin xarici siyasət konsepsiyasının əsas xüsusiyyətlərindən biri Yaxın Şərq və Körfəz regionuna ideoloji yanaşmalardan uzaq, sırf milli maraqlara və qarşılıqlı faydaya əsaslanan praqmatik münasibətin sərgilənməsidir. Bu yanaşma Azərbaycanı region ölkələri üçün etibarlı siyasi tərəfdaş, sabitlik və dialoq məkanı kimi tanıtmışdır. Məhz bu siyasi xətt nəticəsində Oman Sultanlığı, Bəhreyn Krallığı və Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər qarşılıqlı etimad və hörmət prinsipləri əsasında yüksələn xətt üzrə inkişaf edir.

Dövlətimizin başçısının müəyyən etdiyi yol xəritəsində Körfəz

ölkələri ilə əməkdaşlıq yalnız siyasi dialoqla məhdudlaşmır. Enerji təhlükəsizliyi, nəqliyyat və logistika marşrutlarının genişləndirilməsi, investisiya əməkdaşlığı, bərpa olunan enerji layihələri, maliyyə və turizm sahələrində tərəfdaşlıq prioritet istiqamətlər kimi ön plana çəkilir.

Azərbaycan bu region ölkələri üçün Cənubi Qafqazda və Avrasiya məkanında strateji tranzit mərkəzi rolunu oynayır, eyni zamanda, Körfəz ölkələrinin investisiya potensialı respublikamızın dayanıqlı iqtisadi inkişafına mühüm töhfə verir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasət humanitar və mədəni əlaqələrin də genişlənməsini təşviq edir. Multikulturalizm, dini dözümlülük və sivilizasiyalararası dialoq sahəsində Azərbaycanın əldə etdiyi təcrübə Körfəz ölkələri tərəfindən yüksək qiymətləndirilir. Bu kontekstdə Bakı şəhərinin beynəlxalq dialoq platforması kimi möhkəmlənməsi də təsadüfi deyil. Ölkə başçısının təşəbbüsü ilə keçirilən beynəlxalq forumlar, humanitar tədbirlər və dialoq platformaları Azərbaycanı Yaxın Şərq və Körfəz regionu üçün etibarlı tərəfdaş və əməkdaşlıq mərkəzinə çevirir.

Xüsusilə vurğulanmalıdır ki, cənab Prezident İlham Əliyevin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu regional münaqişələrə yanaşmada da Azərbaycanın prinsipial mövqeyini qoruyur. Ölkəmiz daim beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq münaqişələrin dialoq və sülh yolu ilə həllini dəstəkləyir. Bu baxımdan Oman Sultanlığı, Bəhreyn Krallığı və Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlərin artıq strateji tərəfdaşlıq elementləri ilə zənginləşməsi də məhz ölkə başçımız cənab İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Qarşılıqlı səfərlər, yüksək səviyyəli siyasi dialoq, parlament diplomatiyasının fəallaşması və institusional əməkdaşlıq mexanizmlərinin qurulması bu münasibətlərin dayanıqlı və uzunmüddətli xarakter daşıdığını təsdiqləyir.

Müasir beynəlxalq münasibətlər sistemində Azərbaycan Respublikası dostluq, qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə sadiq qalaraq bütün tərəfdaş ölkələrlə əlaqələrin genişləndirilməsinə xüsusi önəm verir. Bu baxımdan Azərbaycan ilə Oman Sultanlığı arasında formalaşan münasibətlər özündə dərin etimad, qarşılıqlı anlayış və birgə inkişaf istəyini əks etdirir.

Bildiyiniz kimi, Azərbaycanın müstəqilliyini tanıyan və diplomatik əlaqələr quran ilk ölkələrdən biri də Oman Sultanlığıdır. Bu ölkə 1991-ci il dekabrın 30-da Azərbaycanın müstəqilliyini tanıyıb, 1992-ci il iyulun 13-dən isə ölkələrimiz arasında diplomatik əlaqələr qurulub. Azərbaycan Prezidenti cənab İlham Əliyev və Oman Sultanı Heytəm bin Tariq Al Səid iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına diqqətlə yanaşırlar. Onların qarşılıqlı etimad və hörmətə əsaslanan siyasi iradəsi ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə, bütün sahələrdə daha sıx və səmərəli işbirliyinin qurulmasına geniş zəmin yaradıb.

Azərbaycan-Oman münasibətləri son dövrdə yeni məzmun qazanıb. Dialoqun fəallaşması, qarşılıqlı səfərlərin artması, iqtisadi və mədəni sahələrdə imzalanan sənədlər bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini göstərir. Dövlət başçılarının qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan mövqeyi ölkələrimiz arasında münasibətlərin sabit, qarşılıqlı faydalı və etibarlı tərəfdaşlıq müstəvisində möhkəmlənməsinə xidmət edir.

Möhtərəm Prezident İlham Əliyev hər zaman çıxışlarında qeyd edir ki, Azərbaycanın xarici siyasətinin əsas prinsipi qarşılıqlı etimad və bərabərhüquqluluqdur. Məhz bu prinsip Omanla münasibətlərində də özünü aydın şəkildə göstərir. Oman Sultanı Heytəm bin Tariq də Azərbaycanla əlaqələrin dərinləşməsini regionda sabitliyin və qarşılıqlı anlaşmanın möhkəmlənməsi baxımından əhəmiyyətli hesab edir.

Azərbaycan ilə Omanı birləşdirən əsas dəyərlər sabitlik, müstəqillik, qarşılıqlı hörmət və tərəqqi amilləridir. İki ölkə arasında diplomatik münasibətlər yaranandan bəri əlaqələr qarşılıqlı maraq və







səmimi dostluq mühitində inkişaf edir. Hər iki ölkə beynəlxalq arenada bir-birinin suverenliyinə və ərazi bütövlüyünə dəstək göstərir, qlobal sülhün və təhlükəsizliyin qorunması istiqamətində oxşar mövqe nümayiş etdirir. Siyasi dialoqun yüksələn xətlə davam etməsi, qarşılıqlı səfərlərin artması, parlamentlərarası əməkdaşlığın genişlənməsi bu münasibətlərin strateji mahiyyətini daha da dərinləşdirir. Xüsusilə son illərdə keçirilən görüşlər, imzalanan sənədlər və aparılan danışıqlar tərəflərin əlaqələri yeni mərhələyə daşımaq əzmini açıq şəkildə göstərir.

Bir məsələni də vurğulayım ki, 2025-ci il fevralın 3-də Milli Məclisdə Oman Sultanlığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılması haqqında qərar layihəsinin qəbul edilməsi iki ölkə arasında münasibətlərin daha da inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Milli Məclisin sədri Sahibə xanım Qafarova hər zaman parlamentlərarası işçi qruplarının fəaliyyətinə və onların əlaqələrinin genişləndirilməsinə xüsusi önəm verir. Bu çərçivədə yaradılan Azərbaycan-Oman Sultanlığı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun əsas məqsədi də iki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlığı gücləndirmək, təcrübə mübadiləsini təmin etmək və parlament diplomatiyasını inkişaf etdirməkdir. Eyni zamanda, parlamentlərarası əməkdaşlıq "yumşaq diplomatiya" vasitəsi kimi dövlətlər, xalqlar arasında dostluq və etimadın möhkəmlənməsinə, beynəlxalq platformalarda qarşılıqlı dəstəyin artmasına şərait yaradır.

Bu baxımdan cari il yanvarın 25-29-da Milli Məclisin sədri Sahibə xanım Qafarovanın rəhbərlik etdiyi parlament nümayəndə heyətinin Körfəz ölkələrinə etdiyi rəsmi və işgüzar səfərlər ölkəmizin parlament diplomatiyasının mühüm və strateji istiqamətlərindən birini təşkil edir. Spikerin Bəhreyn Krallığına, Birləşmiş Ərəb Əmirliklərinə və Oman Sultanlığına səfərləri



təkcə parlamentlərarası əlaqələrin genişləndirilməsi baxımından deyil, eyni zamanda, dövlətlərarası münasibətlərin dərinləşdirilməsi, siyasi dialoqun institusional müstəvidə möhkəmləndirilməsi və strateji əməkdaşlığın yeni mərhələyə yüksəldilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir. Bu səfərlər Azərbaycanın Körfəz regionu ilə münasibətlərində parlament diplomatiyasının artan rolunu aydın şəkildə nümayiş etdirir.

Milli Məclisin sədri Sahibə xanım Qafarovanın Oman Sultanlığına rəsmi səfəri Azərbaycanın parlament diplomatiyasının mühüm və strateji istiqamətlərindən biridir. Səfər çərçivəsində xanım sədr Sahibə Qafarovanın Oman Şura Məclisinin sədri Şeyx Xalid bin Hilal Al Mavali, Dövlət Şurasının sədri Şeyx Əbdülməlik Al Xəlili və xarici işlər naziri Bədr əl-Busaidi ilə görüşləri baş tutdu. Milli Məclis sədrinin rəhbərliyi ilə keçirilən bütün görüşlərdə parlamentlərarası dialoqun genişləndirilməsi, qanunvericilik sahəsində təcrübə mübadiləsi, regional əməkdaşlıq və Asiya Parlament



Assambleyası çərçivəsində qarşılıqlı fəaliyyət imkanları müzakirə olundu. Azərbaycan-Oman münasibətlərinin həm siyasi, həm də institusional müstəvidə yüksələn xətt üzrə inkişaf etdiyi bildirildi.

Parlament sədri Sahibə Qafarova səfərlər çərçivəsində etdiyi çıxış və görüşlərdə dəfələrlə vurğuladı ki, Azərbaycanın əldə etdiyi siyasi nüfuzun və beynəlxalq mövqelərin möhkəmlənməsinin əsasında cənab Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil, balanslaşdırılmış və milli maraqlara əsaslanan uğurlu xarici siyasət dayanır. Qeyd olundu ki, parlament diplomatiyası dövlətin ümumi strateji xətti ilə tam uzlaşır.

Ümumiyyətlə, Milli Məclisin sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyətinin Oman Sultanlığına rəsmi səfəri Azərbaycan parlament diplomatiyasının inkişafında mühüm mərhələ kimi dəyərləndirilə bilər. Belə səfərlər yalnız parlamentlərarası əmək-






daşlığın genişləndirilməsinə deyil, eyni zamanda, ölkəmizin ümumi xarici siyasət strategiyasının uğurla reallaşdırılmasına, Körfəz regionu ilə əlaqələrin daha dərin, etibarlı və davamlı xarakter almasına töhfə verəcək.

Azərbaycan-Körfəz ölkələri münasibətlərinin inkişafında iqtisadi, humanitar və mədəni diplomatiya da xüsusi rol oynayır. Bu istiqamətlər üzrə atılan ardıcıl və məqsədyönlü addımlar əməkdaşlığın yalnız siyasi müstəvidə deyil, real iqtisadi, ictimai və mədəni əsaslar üzərində möhkəmləndiyini aydın şəkildə göstərir. Qarşılıqlı maraqlara, etimada və uzunmüddətli tərəfdaşlıq prinsiplərinə söykənən bu model münasibətlərin dayanıqlı xarakter daşımasına xidmət edir.

Hazırda Azərbaycan ilə Oman Sultanlığı arasında əməkdaşlıq təkcə siyasi müstəvi ilə məhdudlaşmır. Hər iki ölkə iqtisadiyyat, ticarət, enerji, mədəniyyət, turizm və təhsil kimi strateji əhəmiyyətli sahələrdə qarşılıqlı maraqlara əsaslanan yeni təşəbbüslər həyata keçirir. Son illərdə imzalanan sənədlər, hökumətlərarası görüşlər və işgüzar dairələrin təmasları bu əməkdaşlığın konkret nəticələr verməsinə şərait yaradıb. Xüsusilə iqtisadi əməkdaşlıq sahəsində əldə olunan irəliləyişlər diqqət çəkməkdədir. İqtisadiyyat naziri Mikayıl Cabbarovun ötən ilin dekabr ayında omanlı həmkarı Səid bin Məhəmməd bin Əhməd Al Saqri ilə keçirdiyi görüşdə birgə investisiya fondlarının yaradılması, biznes şuralarının fəaliyyətinin genişləndirilməsi, enerji, logistika və turizm sahələrində əməkdaşlıq perspektivlərinin müzakirə olunması tərəflərin iqtisadi əlaqələrin dərinləşdirilməsində ciddi maraqlı olduqlarını nümayiş etdirir. Bu müzakirələr iqtisadi münasibətlərin daha sistemli, institusional və uzunmüddətli əsaslar üzərində qurulmasına yönəlib.

İqtisadi əməkdaşlığın real nəticələri statistik göstəricilərdə də öz əksini tapır. Təkcə 2025-ci ilin birinci yarısının sonuna olan məlumata görə, Körfəz ölkələri tərəfindən Azərbaycana yatırılan birbaşa in-

vestisiyaların həcmi 606 milyon ABŞ dollarını ötüb. Bu göstərici region ölkələrinin Azərbaycana artan iqtisadi marağının, ölkəmizin etibarlı, sabit və cəlbedici investisiya mühiti kimi qəbul olunmasının bariz ifadəsidir. Eyni zamanda, bu rəqəm tərəfdaşlığın qısamüddətli deyil, strateji və uzunmüddətli perspektivlərə hesablandığını təsdiqləyir.

Enerji sahəsində əməkdaşlıq Körfəz ölkələri ilə münasibətlərimizin strateji xarakterini daha da gücləndirir. Azərbaycanın aparıcı enerji şirkəti "SOCAR" ilə Omanın "OQ Group" şirkəti arasındakı danışıqlar enerji sektorunda da qarşılıqlı maraqlara əsaslanan tərəfdaşlığın formalaşdığını göstərir. Bu əməkdaşlıq təkcə ənənəvi enerji sahələrini deyil, eyni zamanda, gələcəkdə bərpa olunan və "yaşıl enerji" istiqamətlərini də əhatə edə biləcək geniş potensiala malikdir.

Humanitar və mədəni diplomatiya da bu münasibətlərin mühüm sütunlarından biridir. Bu il yanvarın ilk günlərində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın Oman Sultanlığına səfəri zamanı Milli Muzeyə ziyarəti, ölkənin zəngin mədəni irsi ilə tanışlığı və Oman Sultanlığının Vəliəhdi Sayyid Theyazin bin Haitham Al Said ilə keçirdiyi görüş mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə oldu.

Bu cür təmaslar xalqlar arasında qarşılıqlı anlaşma və etimadı daha da gücləndirir. Bu kontekstdə diplomatik münasibətlərin institusional əsaslar üzərində möhkəmləndirilməsi də xüsusi əhəmiyyət kəsb edir. Xarici işlər naziri Ceyhun Bayramovun və Oman Sultanlığının xarici işlər naziri Bədr ibn Həməd ibn Hammud Əl Busəidin iştirakı ilə ötən ilin oktyabrında Maskat şəhərində Azərbaycan Respublikasının səfirliyinin rəsmi açılış mərasiminin keçirilməsi münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilməlidir. Dost ölkədə diplomatik nümayəndəliyimizin fəaliyyətə başlaması Azərbaycan-Oman Sultanlığı arasında siyasi dialoqun daha sistemli və davamlı əsaslar üzərində qurulmasına geniş imkanlar yaradır.

Səfirliyin açılması Azərbaycan diplomatiyasının Körfəz regionunda artan fəallığının bariz göstəricisidir. Bu addım Yaxın Şərq ölkələri ilə münasibətlərin artıq kiçik təmaslar çərçivəsindən çıxaraq daimi və institusional əməkdaşlıq mərhələsinə keçdiyini nümayiş etdirir. Diplomatik nümayəndəliyin fəaliyyəti siyasi əlaqələrlə yanaşı, iqtisadi əməkdaşlığın genişləndirilməsi, biznes dairələri arasında birbaşa təmasların qurulması, humanitar və mədəni layihələrin həyata keçirilməsi üçün də mühüm platforma rolunu oynayacaq.

Azərbaycan səfirliyinin Maskatda açılması iki ölkə arasında dostluq və qarşılıqlı etimada əsaslanan münasibətlərin daha da möhkəmlənməsi baxımından tarixi hadisədir. Bu qərar tərəflərin bir-birinə verdiyi strateji əhəmiyyəti, uzunmüddətli əməkdaşlıq niyyətini və qarşılıqlı siyasi iradəni aydın şəkildə ortaya qoyur. Eyni zamanda, səfirliyin fəaliyyətə başlaması Azərbaycan-Oman əlaqələrinin gələcək inkişafı üçün möhkəm diplomatik dayaq nöqtəsi formalaşdırır.

Bu mühüm diplomatik missiyanın icrası Azərbaycanın Oman Sultanlığındakı fövqəladə və səlahiyyətli səfiri Rəşad İsmayılova həvalə olunub. Əminəm ki, o, iki ölkə arasında münasibətlərin bütün istiqamətlər üzrə daha da inkişafı üçün bilik və təcrübəsini tam şəkildə səfərbər edəcək.

Beləliklə, bütün bu proseslər Prezident İlham Əliyevin müəyyən etdiyi strateji xarici siyasət xətti çərçivəsində ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilir. Körfəz ölkələri ilə münasibətlərin inkişafı siyasi dialoq, parlament diplomatiyası, iqtisadi tərəfdaşlıq, humanitar və mədəni əlaqələrin vəhdəti əsasında formalaşır, əməkdaşlığın dayanıqlı təməl üzərində qurulmasını təmin edir.

Nəticə etibarilə, Körfəz regionu ölkələri ilə yaranan etibarlı tərəfdaşlıq modeli Azərbaycanın regional və qlobal miqyasda artan nüfuzunun, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq siyasətinin və sülhə, sabitliyə, inkişafa xidmət edən diplomatik xəttinin mühüm təzahürüdür.





Fevralın 24-də Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komitəsinin sədri Fuad Oktay ilə görüşdü. Söhbət zamanı Milli Məclisin sədri Sahibə Qafarova söylədi ki, həm regionumuzda, həm də qlobal səviyyədə baş verən proseslər, mövcud olan çağırışlar parlamentlərimizin xarici əlaqələr komitələrinin birgə işinin davam etdirilməsini labüd edir. Üçtərəfli parlament əməkdaşlığı çərçivəsində reallaşdırılan bu mühüm tədbir Azərbaycan ilə Türkiyə arasında parlamentlərarası münasibətlərin səviyyəsinin daha da yüksəlməsinə xidmət göstərir.

Öz növbəsində Xarici əlaqələr komitəsinin sədri Fuad Oktay TBMM sədri Numan Kurtulmuşun salamlarını Milli Məclis sədrinə çatdırdı. Söhbət zamanı Azərbaycan ilə Türkiyə münasibətlərinə dair fikirlər səsləndirildi. Bildirildi ki, ölkələrimiz arasında əlaqələr Ümummilli Lider Heydər Əliyevin "bir millət, iki dövlət" şüarına uyğun şəkildə inkişaf edir.

Spiker Sahibə Qafarova vurğuladı ki, Azərbaycanla Türkiyə həm sevincli, həm də kədərli günlərdə bir yerdə olduqlarını bütün dünyaya nümayiş etdirdilər, dövlət başçılarımızın qardaşlıq əlaqələri bu münasibətlərin çoxşaxəli inkişafındakı ən mühüm amildir.

Fuad Oktay söylədi ki, regionda mövcud olan gərginliklər fonunda qardaş ölkələrimiz arasında əməkdaşlıq sabitlik amili kimi çıxış edir. Ölkələrarası iqtisadi əlaqələrin mühüm əhəmiyyəti qeyd olunaraq bu sahədə münasibətlərin daha da dərinləşməsində parlamentlərin də rolu diqqətə çatdırıldı.

Spiker Sahibə Qafarova qeyd etdi ki, dövlət başçılarının ikitərəfli əlaqələrin inkişafına dair iradəsini parlamentlər səviyyəsində də tam şəkildə əks etdirmək üçün bütün imkanlardan istifadə olunur.

Görüşdə həmçinin ötən ilin avqustunda Vaşinqton Zirvə Görüşündən sonra regionda yaranmış vəziyyət, Zəngəzur dəhlizinin fəaliyyətə başlamasından sonra əməkdaşlıq üçün yaranacaq yeni imkanlar, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

Fevralın 23-də Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze ilə görüşdü. Söhbət zamanı üçtərəfli görüşün əhəmiyyəti vurğulanaraq bu əməkdaşlıq formatının 2014-cü ildə Bakıda təsis edildiyi, komitələrin son iclasının isə Azərbaycanda 2022-ci ildə Şuşada keçirildiyi qeyd olundu. Spiker Sahibə Qafarova Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli münasibətlərin regionda sülhə, sabitliyə, əməkdaşlığa və iqtisadi inkişafa töhfə verdiyini bildirdi.

Görüşdə Azərbaycan və Gürcüstan arasında əlaqələrin hazırkı yüksək səviyyəsindən məmnunluq ifadə olundu. Regionda strateji



layihələrin icrasında ölkələrimiz arasında əməkdaşlığın uğurla davam etdirildiyi bildirildi. Azərbaycan-Gürcüstan münasibətlərinin parlamentlər səviyyəsində də uğurlu inkişafı, parlament sədrləri və deputatlar arasında sıx qarşılıqlı təmasların münasibətlərimizin daha da genişlənməsində vacib rolu vurğulandı.

Spiker Sahibə Qafarova ötən ilin avqustunda Vaşinqton Zirvə Görüşündən sonra regionda yaranmış vəziyyət və yeni imkanlar barədə fikirlərini bölüşdü.

Nikoloz Samxaradze isə Azərbaycan və Ermənistan arasında sülh prosesinin regionun hər üç ölkəsi üçün faydalı olacağını, Gürcüstanın da bu prosesi dəstəklədiyini qeyd etdi.

Milli Məclisin sədri Sahibə Qafarova fevralın 11-də ölkəmizdə rəsmi səfərdə olan Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahi ilə görüşdü. Görüşdə Ərəb Parlamenti prezidentinin ölkəmizə ilk rəsmi səfəri yüksək qiymətləndirildi, bu səfərin iki qurum arasında münasibətlərin daha da inkişafına, əməkdaşlıq imkanlarının genişlənməsinə, əlaqələrin dərinləşməsinə mühüm töhfə verəcəyinə dair əminlik ifadə olundu. Azərbaycan ilə ərəb ölkələri arasında münasibətlərin ortaq tarix, dini-mənəvi dəyərlər və qarşılıqlı hörmət prinsipləri əsasında uğurla inkişaf etdiyi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bu ölkələrlə münasibətlərin inkişafına xüsusi diqqət yetirdiyi vurğulandı.  Bu gün həmin siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi bildirildi. İkitərəfli çərçivədə ərəb ölkələri ilə qarşılıqlı səfərlərin intensiv xarakter daşıdığı, mütəmadi təmasların, aparılan danışıqların və əldə olunan nəticələrin əlaqələrin inkişafına mühüm töhfə verdiyi qeyd edildi.

Söhbətdə birgə təmsil olunduğumuz İslam Əməkdaşlıq Təşkilatında qarşılıqlı dəstək və həmrəyliyin nümayiş etdirildiyini deyən Milli Məclisin sədri Sahibə Qafarova bu platformada əməkdaşlığın gələcəkdə də uğurlu davamına əminliyini bildirdi. Eyni zamanda, Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında iyirmi ildir davam edən səmərəli əməkdaşlıq münasibətlərinə toxunularaq Prezident İlham Əliyevin 2022-ci ildə Liqanın Zirvə Görüşündə xüsusi qonaq qismində iştirak etdiyi diqqətə çatdırıldı.

Ərəb ölkələri ilə münasibətlərin dərinləşdirilməsinə və əlaqələrin parlament xətti ilə inkişaf etdirilməsinə xüsusi diqqət yetirildiyini deyən spiker Sahibə Qafarova qeyd etdi ki, Milli Məclisdə ərəb ölkələri parlamentlərinin əksəriyyəti ilə işçi qrupları fəaliyyət göstərir, qarşılıqlı səfərlər, görüşlər həyata keçirilir, əməkdaşlığa dair anlaşma memorandumları imzalanır, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirilir.

Söhbət zamanı Prezident İlham Əliyevin təşəbbüsü ilə təsis olunmuş və hazırda Azərbaycanın sədrliyi ilə fəaliyyət göstərən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi (QHPŞ) ilə Ərəb Parlamenti arasında əlaqələrin son illərdə dinamik şəkildə inkişafından məmnunluq ifadə olundu. Parlamentin spikeri



2023-cü ilin fevralında Qahirəyə səfəri çərçivəsində Ərəb Parlamentinin mənzil-qərargahını ziyarət etdiyini xatırlatdı, həmin səfər zamanı imzalanmış Əməkdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətini vurğuladı. Həmçinin həmin il Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Ərəb Parlamenti yanında müşahidəçi statusu əldə etməsinin əməkdaşlığa yeni imkanlar yaratdığı qeyd olundu.

Öz növbəsində Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahi Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşdü. Ərəb dünyasının Azərbaycanla münasibətlərə böyük əhəmiyyət verdiyini vurğulayan Məhəmməd Əhməd Əl-Yammahi ticarət, enerji və logistika kimi strateji sahələrdə tərəfdaşlığın dərinləşdirilməsində maraqlı olduqlarını söylədi.

Qonaq rəhbərlik etdiyi qurumun Milli Məclis, eləcə də Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə yaratdığı əməkdaşlıq və dialoqun parlamentlərarası əlaqələrin genişləndirilməsi üçün möhkəm zəmin olduğunu vurğuladı. O, Milli Məclis sədrinin Parlament Şəbəkəsinin işinin səmərəli təşkilindəki rolunu yüksək qiymətləndirdi. Parlamentləri bir araya gətirən bu mühüm platformanın qlobal məsələlərin müzakirəsi baxımından önəmini qeyd etdi.

Məhəmməd Əhməd Əl-Yammahi həmçinin Milli Məclisin sədrini Ərəb Parlamentinin plenar sessiyasında iştirak və çıxış etməyə dəvət etdi.

Görüşdə qonağa Azərbaycan Respublikasının keçdiyi tarixi yol barədə məlumat verildi. Sonra Məhəmməd Əhməd Əl-Yammahi Milli Məclisin Xatirə kitabını imzaladı. Nümayəndə heyəti parlamentin plenar iclas zalı və Milli Məclisin foyesində yaradılmış 44 günlük Vətən müharibəsinə həsr edilmiş "Zəfər guşəsi" ilə tanış oldu.

Yanvarın 23-də ölkəmizdə rəsmi səfərdə olan İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol Sosiasın başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşdü. Söhbət zamanı bu səfərin həm parlamentlər, həm də ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olundu. Vurğulandı ki, xüsusən son dövrlərdə ölkələrimiz arasında fəal siyasi dialoqun müşahidə olunması çox mühüm məqamdır. Belə ki, İspaniyanın Baş naziri cənab Pedro Sançezin 2024-cü ilin noyabrında COP29 tədbiri çərçivəsində ölkəmizə işgüzar səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşdə əlaqələrin genişləndirilməsi üçün bir sıra mühüm birgə təşəbbüslərin həyata keçirilməsinə dair razılıq əldə olunub. Bu dialoqun davam etdirilməsi, qarşılıqlı səfərlərin və görüşlərin həyata keçirilməsi bizə imkan verəcək ki, birgə səylərimizlə əlaqələrimizi daha da inkişaf etdirək.

Parlamentlərarası əməkdaşlığın mühüm rolundan danışan Milli Məclisin sədri parlamentlərimiz arasında əlaqələrin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi, Milli Məclisdə Azərbaycan-İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyətini vurğuladı.

Sahibə Qafarova qonağa ölkəmizin Avropaya bərpaolunan enerji resurslarının ixracı istiqamətində həyata keçirdiyi layihələr, Azərbaycanın hazırda Orta Dəhlizdə tranzit ölkə kimi mühüm rolu, Azərbaycanla Ermənistan arasında sülh prosesinin gedişi barədə məlumat verdi. Milli Məclisin sədri Vaşinqtonda sülh sazişinin paraflanmasından sonra tezliklə iki ölkə arasında sülh müqaviləsinin imzalanacağına inamını ifadə etdi.

Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu bildirən İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol Sosias Bakıda ziyarət etdiyi Zəfər Muzeyi və ölkəmizdə gördüyü inkişaf barədə təəssüratlarını bölüşdü. O, İspaniyanın Azərbaycanın suverenliyini dəstəklədiyini və onunla müxtəlif sahələrdə əməkdaşlığın inkişafında maraqlı olduğunu diqqətə çatdırdı.

Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri

və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı. Görüşdən sonra qonaqlar Milli Məclisin foyesində 44 günlük Vətən müharibəsinə həsr edilmiş "Zəfər guşəsi" ilə tanış oldular.



Yanvarın 22-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan NATO Baş katibinin müavini Radmila Şekerinskanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Görüşdə Azərbaycanla NATO arasında 30 ildən artıq davam edən əməkdaşlıq münasibətlərindən söhbət açıldı. Alyansın beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında oynadığı rol yüksək qiymətləndirildi.

Söhbət zamanı tərəflər arasında mövcud davamlı və məzmunlu siyasi dialoqun əhəmiyyəti vurğulandı. Prezident İlham Əliyevin NATO-nun mənzil-qərargahına səfərlərinin, NATO-nun sabiq Baş katibi Yens Stoltenberqin 2024-cü ildə Azərbaycana səfərinin, aparılan danışıqların, müntəzəm təmasların tərəfdaşlığa yeni dinamika gətirdiyi bildirildi və bu addımlar siyasi dialoqun intensivliyinin göstəricisi kimi qiymətləndirildi. Azərbaycanın NATO üçün etibarlı və öhdəliklərinə sadiq tərəfdaş olduğu qeyd edilərək ölkəmizin Alyansın Əfqanıstandakı sülhməramlı əməliyyatlarda fəaliyyəti, regional nəqliyyat-logistika mərkəzi kimi əhəmiyyəti vurğulandı.

Görüşdə daha sonra Azərbaycanın Alyansın enerji təhlükəsizliyinə verdiyi töhfə barədə danışıldı. Bildirildi ki, ölkəmiz hazırda NATO üzvü olan 10 dövlətə və 2 tərəfdaş ölkəyə təbii qaz tədarük edir ki, bu da enerji təhlükəsizliyinin milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrildiyi bir dövrdə xüsusi əhəmiyyət kəsb edir.

Spiker Sahibə Qafarova Azərbaycanın Orta Dəhlizdə mühüm tranzit rolunu vurğuladı və bunun regionda sabitliyə mühüm töhfə verdiyini qeyd etdi. O, Azərbaycan və Ermənistan arasında sülh prosesinə toxunaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin öz suverenliyini bərpa edərək bölgədə yeni reallıqlar yaratdığını bildirdi.

NATO Baş katibinin müavini Radmila Şekerinska Alyansın Azərbaycanla münasibətlərin inkişafına xüsusi önəm verdiyini və tərəflər arasındakı sıx siyasi dialoqu yüksək qiymətləndirdiyini bildirdi. Qonaq bu münasibətlərin yeni Tərəfdaşlıq Proqramı çərçivəsində daha da dərinləşəcəyinə əminliyini ifadə etdi. O, Azərbaycanın NATO ilə əməkdaşlığa və Alyansın üzv ölkələrinin enerji təhlükəsizliyinin təmin olunması istiqamətində verdiyi mühüm töhfələrə görə təşəkkür etdi, tərəfdaşlığın gələcəkdə də uğurla davam edəcəyinə əminliyini bildirdi.

Söhbətdə Milli Məclislə NATO Parlament Assambleyası arasında əlaqələrin əhəmiyyəti qeyd olundu, gələcək əməkdaşlıq perspektivləri nəzərdən keçirildi.






# Azərbaycan, Türkiyə və Gürcüstan parlamentariləri Milli Məclisdə toplaşdılar

Fevralın 24-də Milli Məclisdə Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclası keçirildi. Tədbiri açan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov iclas iştirakçılarını Milli Məclisin sədri Sahibə Qafarovanın adından salamladı.

Səməd Seyidov Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlığın perspektivlərindən, regionda sülh və sabitliyin əhəmiyyətindən, bərpa olunan enerji sahələrində görülən işlərdən, eləcə də parlamentlərin rolundan, qanunvericilik orqanları arasında əlaqələrin inkişafından, ölkələrimiz üçün ortaq maraq kəsb edən məsələlərdə milli qərarların uyğunlaşdırılmasından danışdı. O, Azərbaycanın regionda yaratdığı yeni reallıqlardan, Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işlərindən, COP31-in Türkiyədə keçirilməsinin əhəmiyyətindən söz açdı.

Azərbaycanın beynəlxalq arenada artan nüfuzu və ABŞ ilə münasibətlərin inkişafına toxunan komitə sədri dost ölkələrimizin müxtəlif sahələrdə qarşılıqlı



əməkdaşlığı, regionda yaşıl enerji, nəqliyyat və kommunikasiya sahələrinin gələcəyi  və digər məsələlər barədə fikirlərini bölüşdü.

Səməd Seyidov diqqətə çatdırdı ki, Azərbaycan öz qonşuları ilə münasibətlərə xüsusi önəm verir və sabitliyin tərəfdarıdır. O, bu görüşün ölkələrimiz arasında üçtərəfli əməkdaşlığın, parlament diplomatiyasının daha da güclənməsinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

Sonra çıxış edən Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuad Oktay bu cür tədbirlərin parlament diplomatiyasının inkişafı və regional həllərin tapılması baxımından mühüm əhəmiyyətini qeyd etdi. O, Cənubi Qafqazda sülh və sabitliyin qorunmasının Türkiyə üçün prioritet olduğunu və ölkəsinin Azərbaycanla Ermənistan arasında normallaşma prosesini güclü şəkildə dəstəklədiyini diqqətə çatdırdı.

Türkiyə parlamentinin komitə sədri parlament diplomatiyasının imkanları, Tramp marşrutunun əhəmiyyəti, regionda həyata keçirilən layihələr, dünyada mövcud geosiyasi vəziyyət və digər məsələlər barədə danışdı, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin bütün regionun və qonşu ölkələrin inkişafına öz töhfələrini verəcəyinə inamını bildirdi.

Fuad Oktay dünyada gedən geosiyasi transformasiyaların və qlobal qeyri-müəyyənliklərin enerji və nəqliyyat sahələrində diversifikasiyanın vacibliyini bir daha vurğuladı.

Daha sonra çıxış edən Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Samxaradze bu formatda iclasın keçirilməsinin əhəmiyyətindən danışdı,  Gürcüstanın bu görüşlərə böyük önəm verdiyini qeyd etdi. O, parlament diplomatiyasının bu üç ölkə arasında münasibətlərin inkişafındakı rolunu diqqətə çatdırdı və  dünyadakı münaqişələr, geosiyasi vəziyyət barədə fikirlərini bölüşdü.

Gürcüstanın münaqişələrin sülh yolu ilə həllinə sadiq qaldığını deyən Nikoloz Samxaradze bunun iqtisadi inkişaf üçün mühüm amillərdən biri olduğunu bildirdi. O, ötən il iqtisadiyyatın inkişafına görə Gürcüstanın dünyada ikinci yer tutduğunu diqqətə çatdırdı.

Türkiyə və Azərbaycanla iqtisadiyyat və turizm sahələrində əməkdaşlığa toxunan komitə sədri Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars layihələrinin regional əməkdaşlıqda rolu və ölkələrimiz arasında  iqtisadi əməkdaşlığın perspektivləri barədə söhbət açdı.

İclasda çıxış edən Milli Məclisin Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev bildirdi ki, Türkiyə və Gürcüstan parlamentləri ilə birgə keçirilən bu toplantı regionumuzun gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir və üç ölkə arasında strateji tərəfdaşlığın parlament ölçüsündə daha da dərinləşdirilməsi baxımından xüsusi platformadır. O, diqqətə çatdırdı ki, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri, sərhəd təhlükəsizliyi, hibrid təhdidlər və informasiya təhlükəsizliyi kimi məsələlər üç ölkənin ortaq gündəliyində xüsusi yer tutur. Bildirildi ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında əməkdaşlıq artıq uzun illərdir ki, təkcə siyasi deyil, həm də iqtisadi və təhlükəsizlik sahələrində strateji xarakter daşıyır.

Komitə sədri bildirdi ki, bu kontekstdə parlament diplomatiyası xüsusi əhəmiyyət kəsb edir. Parlament dostluq qrupları dövlətlərarası münasibətlərin yumşaq güc elementlərindən biridir. Bu platformalar vasitəsilə qanunvericilik təcrübəsi paylaşılır, regional layihələrin hüquqi bazası gücləndirilir, humanitar və mədəni əlaqələr təşviq edilir.

Sonra çıxış edən hər üç ölkənin parlamentariləri qanunvericilik orqanları arasında bu cür üçtərəfli görüşlərin əhəmiyyətindən danışdılar. Deputatlar COP31-in Türkiyədə keçirilməsi, texnologiyaların və süni zəkanın inkişafı, ətraf mühitin qorunması, ölkələr arasında qanunvericiliklərin uyğunlaşdırılması, saxta informasiyaların qarşısının alınması, kibertəhlükəsizliyin təmin edilməsi və digər sahələrdə əməkdaşlıq imkanları barədə fikirlərini bölüşdülər.



# Rəqəmsal inkişaf sistemli dövlət siyasəti səviyyəsinə yüksəlir



Dövlət başçımız İlham Əliyevin sədrliyi ilə cari il fevralın 11-də "Azərbaycanın yeni rəqəmsal arxitekturası" vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirildi. Müzakirələrin mərkəzində ölkənin rəqəmsal inkişafının strateji istiqamətləri, dövlət qurumları arasında koordinasiya məsələləri, süni intellektin tətbiqi, innovasiya ekosisteminin və kibertəhlükəsizliyin gücləndirilməsi, həmçinin rəqəmsal xidmətlərin vahid model üzrə təqdim olunmasına keçid kimi məsələlər yer aldı. Ölkəmiz üçün rəqəmsallaşma, süni intellektin inkişafı və data siyasəti ilə bağlı islahatlar istiqamətində qlobal tendensiyalar artıq prioritet və sistemli xarakter daşıyır. Müşavirədə Prezident cənab İlham Əliyev də vurğuladı ki, dövlət xidmətləri platformaları pərakəndə vəziyyətdən çıxarılmalı və vahid sistemdə birləşdirilməlidir. Rəqəmsal və enerji infrastrukturu inkişaf etdirilməli, ölkənin rəqabət üstünlüklərindən istifadə olunaraq aparıcı beynəlxalq texnologiya tərəfdaşları ilə əməkdaşlıq daha da gücləndirilməlidir. Ölkə Prezidentinin fərmanı ilə bu prosesin davamı olaraq fevralın 27-də Rəqəmsal İnkişaf Şurası yaradıldı və 2026-2028-ci illər üçün Fəaliyyət Planı təsdiqləndi.

Ölkənin yeni rəqəmsal arxitekturasında nəzərdə tutulan konkret vəzifələr və praktiki addımlar barədə Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri **Rəşad Nəbiyevlə** söhbətimizi təqdim edirik.

**- Cənab nazir, strateji baxımdan yanaşsaq, "Azərbaycanın yeni rəqəmsal arxitekturası" mövcud strategiyaya dəyişiklikdir, yoxsa yeni mərhələyə keçid?**

- Bu, şübhəsiz ki, növbəti mərhələyə keçiddir. Son illər ərzində ciddi hazırlıq işləri görülüb. Cənab Prezidentin tapşırığı ilə qanunvericilik bazası yenilənib, müasir infrastruktur yaradılıb, rəqəmsal xidmətlər istifadəyə verilib, əsas platforma həlləri formalaşdırılıb. Lakin bu gün artıq ayrı-ayrı istiqamətlərin inkişafından deyil, bütün elementlərin, o cümlədən dataların, xidmətlərin, infrastrukturun və kibertəhlükəsizliyin koordinasiyalı şəkildə işlədiyi bütöv rəqəmsal arxitekturanın qurulmasından söhbət gedir.

Qlobal iqtisadiyyat son dərəcə dinamik inkişaf edir və ekspertlərin rəyinə əsasən, 2030-cu ilə qədər süni intellektin qlobal ÜDM-yə töhfəsi təxminən 16 trilyon ABŞ dollarına çata bilər. Belə şəraitdə məqsədyönlü layihələr və ya ayrı-ayrı qurumların təşəbbüsləri ilə kifayətlənmək mümkün deyil. Nazirliyimiz tərəfindən hazırlanmış plan rəqəmsallaşma, süni intellekt, innovasiya mühitinin inkişafı və kibertəhlükəsizlik kimi bir-biri ilə əlaqəli dörd istiqaməti vahid və uzunmüddətli inkişaf strategiyasında bir araya gətirir.

**- Rəşad müəllim, rəqəmsallaşma sahəsində həyata keçirilən bu mərhələnin əvvəlkilərdən fərqi nədən ibarətdir?**

- Əvvəlki illər əsas fokus təməlin formalaşdırılmasına yönəlmişdi. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, eləcə də digər dövlət qurumları məlumatları ardıcıl şəkildə elektron formata keçirdi, ayrı-ayrı xidmətləri rəqəmsallaşdırdı, platforma həllərini istifadəyə verdi və infrastrukturu genişləndirdi. Bu, resursların və təcrübənin toplanması üçün zəruri mərhələ idi.

Bu gün isə biz keyfiyyətcə fərqli mərhələyə çıxırıq. Məqsəd təkcə elektron xidmətlərin mövcudluğu deyil, vahid rəqəmsal məkan kimi işləyə bilən proaktiv və "ağıllı" sistemin qurulmasıdır. Son illər ərzində 200-dən çox normativ hüquqi akt yenilənib, "Onlayn Azərbaycan" layihəsi həyata keçirilib və bu layihə sayəsində internetin orta sürəti 12 Mbit/s-dən 90 Mbit/s-yə yüksəlib. İlin sonu-



na qədər bu göstəricinin 200 Mbit/s-yə çatdırılması planlaşdırılır.

"Hökumət buludu" layihəsi çərçivəsində 140-dan çox dövlət qurumu və 130-dan artıq özəl təşkilat informasiya sistemlərini "AzInTelecom" MMC-yə məxsus dövlət data mərkəzlərinə daşıyıblar. Biometrik "SİMA İmza" isə 4 milyondan çox vətəndaş tərəfindən istifadə olunur.

**- Cənab nazir, müşavirədə müəyyən edilmiş vəzifələrin davamı olaraq dövlət başçısının fərmanı ilə Rəqəmsal İnkişaf Şurası yaradıldı və Prezidentimizin digər bir sərəncamı ilə 2026-2028-ci illər üçün Fəaliyyət Planı təsdiqləndi. Bu qərarlar rəqəmsal inkişafın həyata keçirilməsində hansı rolu oynayacaq?**

- Bunlar müəyyən edilmiş prioritetlərin daha sistemli və koordinasiyalı şəkildə həyata keçirilməsi üçün idarəetmə mexanizmini formalaşdırır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrlik edəcəyi Rəqəmsal İnkişaf Şurası dövlət qurumları arasında koordinasiyanı təmin edəcək, həyata keçirilən təşəbbüslərin vahid yanaşma və ümumi rəqəmsal arxitektura çərçivəsində irəliləməsinə imkan yaradacaq.

Təsdiq edilmiş 2026-2028-ci illər üzrə Fəaliyyət Planı isə qarşıdakı dövr üçün konkret vəzifələri və icra mexanizmlərini tənzimləyir. Sənəddə dövlət xidmətlərinin vahid platforma üzərindən təqdim olunması və məlumatların idarə edilməsinin təkmilləşdirilməsi nəzərdə tutulur. Eyni zamanda, süni intellekt texnologiyalarının tətbiqi, innovasiya ekosisteminin inkişafı və kibertəhlükəsizliyin gücləndirilməsi kimi istiqamətlər də əhatə olunur.

Beləliklə, qəbul edilmiş qərarlar rəqəmsal transformasiya prosesinin vahid strategiya əsasında, bütün dövlət sistemi üzrə əlaqələndirilmiş şəkildə həyata keçirilməsinə və müəyyən edilmiş prioritetlərin ardıcıl icrasına xidmət edəcək.

**- Müşavirədə pərakəndə şəkildə xidmət təqdim edən platformaların "mygov" ətrafında birləşdirilməsi ideyası səsləndi və bu yanaşma Fəaliyyət Planında da əksini tapdı. Bu barədə fikirlərinizi bilmək istərdik?**

- Rəqəmsallaşmada pərakəndəlik zamanla səmərəliliyi azaltmağa başlayır. Əvvəlki mərhələdə ayrı-ayrı qurumlara məxsus platformaların yaradılması məqsədəuyğun hesab olunurdu və rəqəmsal həllərin tətbiqini sürətləndirirdi. Lakin bu gün ölkənin rəqəmsal yetkinliyi əhəmiyyətli dərəcədə artıb və növbəti inkişaf mərhələsinə keçid pərakəndə dövlət xidmətlərinin vahid giriş platformasında birləşdirilməsi ilə mümkündür.

Cənab Prezident qeyd edib ki, dövlət xidmətləri vahid mərkəz vasitəsilə, yəni "mygov" üzərindən təqdim olunmalıdır. Bu, artıq həyata keçirilmiş layihələrdən imtina etmək və ya görülmüş işi dəyərsizləşdirmək demək deyil. Əksinə, məqsəd ən yaxşı həllərin, toplanmış təcrübənin və mütəxəssislərin səriştələrinin ümumi sistemə inteqrasiyası və vahid məqsədə xidmət etməsidir. Qeyd edim ki, "mygov" platformasında cəmləşən xidmətlərin icrası əvvəlki kimi müvafiq qurumların özləri tərəfindən həyata keçiriləcək, sadəcə, bütün xidmətlərə giriş "mygov" platforması üzərindən təmin olunacaq. Vətəndaşlar üçün bu, dövlətlə qarşılıqlı əlaqənin sadələşməsi deməkdir. Yəni vahid mühit formalaşır və müxtəlif platformalardan istifadə etməyə ehtiyac qalmır.




Hazırda bu platforma müxtəlif dövlət qurumlarının xidmətlərini vahid məkanda birləşdirən əsas rəqəmsal giriş nöqtəsi kimi fəaliyyət göstərir və funksional imkanları genişləndirilərək mərhələli şəkildə yeni xidmətlərlə zənginləşdirilir, inteqrasiya prosesi dərinləşdirilir, istifadəçi bazası artırılır. Yalnız ötən il platformaya təxminən 1,3 milyon yeni unikal istifadəçi cəlb olunub. Əgər ötən ilin sonunda ümumi istifadəçi sayı 2,2 milyon idisə, bu ilin yanvar ayının sonuna həmin göstərici artıq 2,5 milyona çatıb. Platforma vasitəsilə vətəndaşlara 400-dən çox rəqəmsal xidmət təqdim olunur. Bu dinamika "mygov"un ölkənin rəqəmsallaşmasında mərkəzi platforma kimi rolunun getdikcə gücləndiyini göstərir.

**- Süni intellekt bu gün qlobal trend kimi səslənir. Onun dövlət sistemində real rolu nədir?**

- Bəli, süni intellektin qlobal miqyasda əhatə dairəsi sürətlə genişlənir və Azərbaycan bu texnoloji tendensiyadan kənarda qala bilməz. Cənab Prezident öz çıxışında süni intellekt texnologiyasını strateji istiqamətlərdən biri kimi müəyyən edir. Bildiyiniz kimi, ötən il ölkə rəhbərliyi tərəfindən "Azərbaycan Respublikasının Süni İntellekt Strategiyası" qəbul edildi ki, bu da ölkəmizdə süni intellekt texnologiyasının tətbiqi üzrə vahid hüquqi çərçivəni formalaşdırır. Bununla yanaşı, strategiya texnologiyanın inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, akademik və elmi tədqiqatların gücləndirilməsi, insan kapitalının inkişaf etdirilməsi və innovasiya mühitinin dəstəklənməsi kimi prioritetləri müəyyənləşdirir.

Süni intellekt qərarların keyfiyyətini və idarəetmənin səmərəliliyini artıran alətdir. O, məlumatların təhlilini sürətləndirə, qanunauyğunluqları aşkar edə, xərcləri azalda və proqnozların dəqiqliyini artıra bilər. Lakin keyfiyyətli və strukturlaşdırılmış məlumat bazası olmadan onun tətbiqi mümkün deyil.

Bu xüsusda əsas məqsədimiz eyni zamanda məlumatların tamlığının, dürüstlüyünün təmin edilməsi ilə məlumat əsaslı qərarvermə prosesinin effektivliyinin yaradılmasıdır. Məhz buna görə prioritetlərdən biri vahid məlumat hövzəsinin, yəni "data lake"in formalaşdırılmasıdır. Bu, məlumatların düzgün inteqrasiyasını təmin etməyə və süni intellektin genişmiqyaslı tətbiqi üçün şərait yaratmağa imkan verəcək. Həmçinin "sandbox" adlanan "Tənzimləyici test mühiti"nin tətbiqini nəzərdən keçiririk. Bu rejim innovativ həlləri müxtəlif sektorlar üzrə sınaqdan keçirməyə, daha sonra isə onları genişləndirməyə imkan verəcək.

Son illərdə Azərbaycanda süni intellekt sahəsində institusional potensialın formalaşdırılması və texnologiyanın dövlət idarəçiliyinə inteqrasiyası istiqamətində ardıcıl və sistemli addımlar atılır. Ötən ildən etibarən ölkəmizdə Süni İntellekt Akademiyası və Milli Süni İntellekt Mərkəzi fəaliyyətə başlayıb. Həmçinin hüquqi aktlar üzrə süni intellekt dəstəkli axtarış və təhlil imkanları yaradan "E-qanun.ai" platforması da mövcuddur. Hazırda "mygov" platformasında süni intellektin dövlət xidmətlərində tətbiqi üzrə mərhələli yanaşma həyata keçirilir. Bu istiqamətdə beynəlxalq tərəfdaş "EPAM Systems" şirkəti ilə birgə "AI Chatbot" və "E-Advisory" imkanlarının həyata keçirilməsi üzərində işlər aparılır.

Süni intellekt sahəsindəki fəaliyyətimiz beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin əhəmiyyətli dərəcədə möhkəmlənməsinə də müsbət təsir edir. Azərbaycan nüfuzlu "Oxford Insights" təşkilatının "Dövlət idarəçiliyinin süni intellektə hazırlıq" indeksində 2025-ci ilin nəticələrinə görə, 195 ölkə arasında 69-cu mövqedə qərarlaşıb ki, bu, Cənubi Qafqaz üzrə ən yüksək göstəricidir.

Cənab Prezident müşavirədə onu da vurğuladı ki, bir sıra inkişaf etmiş ölkələrdə süni intellekt artıq dövlət qurumlarının gündəlik fəaliyyətində analitik köməkçi kimi istifadə olunur. Bizim üçün də ən yaxşı beynəlxalq təcrübələri yerli şərtlərə uyğunlaşdıraraq eyni istiqamətdə irəliləmək vacibdir.

**- Toplantıda ölkə başçısı Azərbaycanın bir sıra strateji üstünlüklərini sadaladı. Bu üstünlüklər rəqəmsal sahədə təcrübə mövqelərimizi nə dərəcədə gücləndirir?**

- Əhəmiyyətli dərəcədə. Ölkənin coğrafi mövqeyi, sadəcə, xəritədə bir faktor deyil, infrastruktur üstünlüyüdür. Azərbaycan Asiya ilə Avropa arasında marşrutların kəsişməsində,

Şimal-Cənub dəhlizində yerləşir və artıq inkişaf etmiş nəqliyyat və enerji infrastrukturuna malikdir.

Son illər elektrik enerjisinin istehsalı artıb və təxminən 10 min meqavat səviyyəsinə çatıb. Bununla yanaşı, ehtiyat enerji gücü də mövcuddur. Data mərkəzləri və süni intellekt sistemləri üçün stabil və əlçatan enerji əsas şərtlərdən biridir. Eyni zamanda, fiber-optik infrastrukturun inkişafı davam edir. Xəzər dənizi üzərindən həyata keçirilən layihələr də daxil olmaqla bu istiqamətdə atılan addımlar regional bağlantını gücləndirir və məlumatların ötürülməsi imkanlarını genişləndirir.

Vacib məqam ondan ibarətdir ki, adətən enerji xətləri və nəqliyyat bağlantıları boyunca optik rabitə xətləri çəkilir. Nəticədə enerji şəbəkəsi və nəqliyyatla yanaşı, məlumatların ötürülməsini təmin edən fiber-optik infrastruktur formalaşır. Bu, ölkə üçün yeni imkanlar deməkdir. Elektrik enerjisi ehtiyatımız olduğu halda, data mərkəzləri şəbəkəsini inkişaf etdirə bilərik və enerjini uzaq məsafələrə nəql etmək əvəzinə, faktiki olaraq məlumatları ixrac edə bilərik.

Bütün bu üstünlüklər Azərbaycanın regional rəqəmsal qovşağa çevrilməsi və texnoloji, eləcə də infrastruktur layihələrinin yerləşdirilməsi üçün cəlbedici platforma olması baxımından möhkəm zəmin formalaşdırır.

**- Yeni arxitekturada innovasiya ekosistemi necə görünür?**

- Söhbət balanslı modeldən gedir. Burada həm startaplar, həm də iri texnologiya şirkətləri önəmlidir. Bu gün Azərbaycanın texnoparkları artıq formalaşmış innovasiya mühiti kimi çıxış edir və aktiv şəkildə genişlənir. Hazırda texnoparkda 171 şirkət rezidentdir və onun 11-i xarici şirkətlərdir. Strateji hədəf İT ixracının artırılmasıdır. Hazırkı göstəricilər ölkənin potensialını tam əks etdirmir. Buna görə startapların maliyyələşdirilməsi mexanizmləri, o cümlədən vençur alətləri inkişaf etdirilməli, yerli mütəxəssislərin və şirkətlərin beynəlxalq layihələrdə iştirakı genişləndirilməlidir.

Bununla yanaşı, Nazirliyimiz yüksək ixtisaslı insan kapitalının inkişafını aparıcı beynəlxalq İT şirkətlərinin ölkəyə cəlb edilməsinin tərkib hissəsi olaraq görür. Məqsəd yalnız həmin şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsi deyil, eyni zamanda, yerli mütəxəssislərin dayanıqlı inkişafı, onların real iş mühitində peşəkar yüksəlişi və beynəlxalq standartlara uyğun səriştələrinin formalaşdırılması üçün şərait yaratmaqdır. Bu əməkdaşlıq mütəxəssislərimiz üçün ölkə daxilində məşğulluq imkanlarını artırır, qlobal layihələrdə iştirakı təmin edir, bilik və təcrübə mübadiləsini genişləndirir, iqtisadiyyata valyuta daxilolmalarını dəstəkləyir.




Bu kontekstdə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin "Andersen Lab" və "EPAM Systems" şirkətləri ilə əməkdaşlığını xüsusi vurğulamaq istərdim. Azərbaycanda "Andersen Lab" mərkəzi artıq fəaliyyət göstərir və texnopark rezidenti statusu ilə Azərbaycan İnnovasiya Mərkəzi çərçivəsində peşəkar kadrların hazırlanmasına töhfə verir. Birgə proqram çərçivəsində bu günədək 210 nəfər təlimlərə cəlb olunub, 125 nəfər isə hazırda təlim prosesini davam etdirir. Əsas üstünlüklərdən biri odur ki, iştirakçılar təkcə təlim keçmir, eyni zamanda, şirkətdə işlə təmin olunmaq, real layihələrdə iştirak etmək və təcrübə qazanmaq imkanı əldə edirlər. Proqramı uğurla başa vuran mütəxəssislər şirkətdə fəaliyyətlərini davam etdirir və qlobal layihələrin iştirakçısına çevrilirlər.

"EPAM Systems" şirkətinin Azərbaycanda fəaliyyətə başlaması da strateji əhəmiyyət daşıyır. Rəqəmsal inkişaf və İT konsaltinq sahəsində dünya liderlərindən olan bu şirkətin nümayəndəliyi təkcə əməliyyat funksiyaları ilə məhdudlaşmayacaq, eyni zamanda, innovasiya mərkəzi kimi çıxış edərək irimiqyaslı rəqəmsal transformasiya layihələrinin icrasını təmin edəcək və yerli insan kapitalının inkişafına töhfə verəcək.

Ümumilikdə, formalaşmış infrastruktur artıq konkret nəticələr göstərir. Təxminən 40 inkubasiya və akselerasiya proqramı çərçivəsində 300-dən çox minimal işlək məhsul (MVP) yaradılıb. Bu proqramlar ADNSU, UFAZ, UNEC və digər aparıcı universitetlərdə, həm də regionlarda həyata keçirilib. 2025-ci ildə innovasiya ekosisteminin dəstəklənməsi məqsədilə 23 startapa 3 milyon ABŞ dollarından çox investisiya yatırılıb. Bu prosesdə "Caucasus Ventures", "INMerge Ventures", "WhiteHill Capital", "Next Angels" və "SABAH.FUND" kimi fondlar xüsusi rol oynayıb.

Universitetlərdə və regionlarda innovasiyaların inkişafına da xüsusi diqqət yetirilir. Hazırda Sumqayıtda, Naxçıvan Dövlət Universitetində,

Gəncədə yerləşən Azərbaycan Dövlət Aqrar Universitetində İnnovasiya Mərkəzləri, həmçinin ADNSU-da Araşdırma və İnkişaf Laboratoriyası fəaliyyət göstərir. Bu, innovasiya mədəniyyətinin formalaşdığının və gənc təşəbbüskarların ideya və layihələrini reallaşdırmaq imkanlarının genişləndiyinin sübutudur.

Formalaşan innovasiya ekosistemi və beynəlxalq tərəfdaşlıqların genişlənməsi paralel olaraq yüksək ixtisaslı kadr hazırlığının daha sistemli şəkildə təşkilini zəruri edir. Məhz bu kontekstdə ali təhsil müəssisələrində rəqəmsal bacarıqların gücləndirilməsinə yönəlmiş yeni təşəbbüslər həyata keçirilir. Burada ölkənin ali təhsil müəssisələrində rəqəmsal bacarıqlar üzrə beynəlxalq səviyyəli intensiv təhsil proqramı olan “IT SkillSprint” proqramını xüsusi vurğulamaq istərdim. Layihə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və “Ironhack” tədris şirkətinin tərəfdaşlığı ilə həyata keçirilir. Proqrama müxtəlif ali təhsil müəssisələrindən 120 tələbə seçilib və burada əsas məqsəd tələbələrin müasir texnologiyalar üzrə bilik və praktiki bacarıqlarını gücləndirmək, onları qlobal əmək bazarına hazırlamaq, universitet-sənaye əməkdaşlığını inkişaf etdirməkdir. Eyni zamanda, layihə çərçivəsində Azərbaycan universitetlərində qlobal İT təhsil standartlarının tətbiqi hədəflənir. Proqram data analitikası və süni intellekt, kibertəhlükəsizlik, veb-proqramlaşdırma və “DevOps” istiqamətlərini əhatə edir.

İRİA ötən il Azərbaycanda oyun ekosisteminin inkişafını gücləndirmək məqsədilə dünya səviyyəsində tanınan oyun kommersiya şirkəti “Xsolla” ilə əməkdaşlığa başlayıb. Bu çərçivədə Azərbaycanın 10 oyun studiyasının iştirak etdiyi “Xsolla - IDDA Incubation Program”ı keçirilib. Proqram qabaqcıl beynəlxalq təcrübə və mentor dəstəyini ölkəmizə gətirməklə yüksək potensialı olan yerli oyun studiyalarının inkişafına təkan verib.

Beynəlxalq əməkdaşlığın mühüm nümunələrindən biri də “Vistar” Mükəmməllik Mərkəzidir. 2025-ci ilin dekabr ayında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Azərbaycan Respublikasının Kosmik Agentliyi və “Israel Aerospace Industries” şirkətinin əməkdaşlığı ilə təsis edilən mərkəz innovativ təhsilin inkişafını, startapların dəstəklənməsini, innovativ sahibkarlığın təşviqini və kosmik sahədə beynəlxalq texnoloji əməkdaşlığın genişləndirilməsini hədəfləyir. Ümumilikdə “EPAM Systems”, “ITU” Regional Akselerasiya Mərkəzi, “Andersen Lab” və “Vistar” Mükəmməllik Mərkəzi ilə qurulan əməkdaşlıqlar qabaqcıl texnologiyaların ölkəyə transferinə, insan kapitalının inkişafına, innovativ biliklərin yerli ekosistemə inteqrasiyasına və Azərbaycanın regional texnologiya mərkəzi kimi mövqeyinin möhkəmlənməsinə xidmət edir.



Nəticə etibarilə innovasiya ekosistemi vahid məkan kimi formalaşır. Burada startaplar, texnoloji şirkətlər, təhsil müəssisələri və beynəlxalq tərəfdaşlar bir-birini gücləndirir, uzunmüddətli texnoloji inkişafa və İT ixracının genişlənməsinə dayanıqlı zəmin yaradır.

**- Genişmiqyaslı rəqəmsallaşma fonunda kibertəhlükəsizlik xüsusi əhəmiyyət kəsb edir. Bu mövzu nə dərəcədə kritikdir?**

- Bəli, bu, mahiyyət etibarilə kritik mövzudur. Ölkə başçısının qeyd etdiyi kimi, ölkəmiz əvvəllər təşkilatlanmış və aqressiv kiberhücumla üzləşib və bu fakt sistemli müdafiə mexanizmlərinin formalaşdırılmasının zəruriliyini açıq şəkildə göstərir. Müvafiq tədbirlər görülüb, lakin rəqəmsal mühitin dinamikası bu sahədə yanaşmaların davamlı şəkildə təkmilləşdirilməsini tələb edir.

Bu baxımdan ölkə üzrə kibertəhlükəsizliyin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər artıq konkret nəticələrlə müşayiət olunur. Elektron Təhlükəsizlik Xidməti tərəfindən rəqəmsal mühitdə zərərli fəaliyyətlərin aşkarlanması və qarşısının alınması məqsədilə sistemli monitorinq mexanizmləri tətbiq edilib. Nəticədə yalnız son 6 ay ərzində 1700-dən çox vahid zərərli kontent yayan internet resursu müəyyən edilərək məhdudlaşdırılıb, 184 “veb-defacement” və real “DDoS” hücumu faktı operativ şəkildə aşkarlanaraq zərərsizləşdirilib.

Fərdi və korporativ məlumatların qorunması da xüsusi diqqət mərkəzində saxlanılır. Görülmüş tədbirlər nəticəsində 1,5 milyondan artıq informasiya sızıntısı faktı müəyyən edilərək müvafiq reaksiya tədbirləri həyata keçirilib. İnformasiya mübadiləsinin effektivliyini artırmaq məqsədilə vahid məlumat paylaşımı

platforması istifadəyə verilib və bu vasitə ilə 20 mindən çox təhlükəsizlik indikatoru aidiyyəti qurumlarla paylaşılıb. Bundan əlavə, 16 mindən çox botnet yoluxması (xüsusi proqram təminatı vasitəsilə kənardan idarə olunan yoluxdurulmuş cihazlar şəbəkəsi) faktı aşkarlanıb və onların qarşısının alınması üçün zəruri tədbirlər görülüb.

Maarifləndirmə istiqaməti də bu fəaliyyətin mühüm tərkib hissəsidir. SİMA tətbiqi üzərindən göndərilən xəbərdarlıq və məlumatlandırma mesajları 4 milyona yaxın vətəndaşı əhatə edib, "mygov" platforması vasitəsilə isə 2 milyondan çox vətəndaşa kibertəhlükəsizliklə bağlı məlumatlar çatdırılıb.

Ümumilikdə məqsədimiz ölkə üzrə vahid, koordinasiyalı və dayanıqlı kibertəhlükəsizlik modelini formalaşdırmaqdır. Buna görə də kiberhücumlara qarşı müdafiə mexanizmlərinin gücləndirilməsi, insidentlərin operativ aradan qaldırılması və bu fəaliyyətlərin vahid mərkəz tərəfindən koordinasiya olunması strateji əhəmiyyət daşıyır. Vahid kibertəhlükəsizlik platformasının yaradılması, süni intellekt əsaslı aşkarlama sistemlərinin tətbiqi, hüquqi bazanın təkmilləşdirilməsi və dövlət informasiya ehtiyatlarının "Hökumət buludu"na keçirilməsi rəqəmsal infrastrukturun dayanıqlığını daha da artıracaq.



Bu sistemin davamlılığının təmin olunmasında Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi xüsusi rol oynayır. Mərkəz strateji sənədlərdə müəyyən edilmiş hədəflərin icrasına töhfə verir və bu sahədə insan kapitalının inkişafını, eləcə də milli kibertəhlükəsizlik ekosisteminin möhkəmləndirilməsini əsas prioritetlərdən biri kimi nəzərdən keçirir. Bu günədək "red" və "blue team", yəni hücum və müdafiə istiqamətləri üzrə təlimləri təxminən 360 nəfər tamamlayıb və onların 86 faizi artıq müvafiq sahədə işlə təmin olunub. Bununla yanaşı, 120 mütəxəssis ixtisasartırma proqramlarında iştirak edib, 53 təşkilatda kibermaarifləndirmə təlimləri keçirilib, 7 minə yaxın şəxs kibergigiyena üzrə biliklərini artırıb. Təxminən 200-dən artıq rəhbər şəxs üçün ixtisaslaşmış təlim proqramları təşkil olunub.

Kibertəhlükəsizlik yalnız texniki deyil, eyni zamanda, idarəetmə və strateji səviyyədə prioritet istiqamətdir. Akademik istiqamətdə də sistemli fəaliyyət həyata keçirilir. Ali və peşə təhsili müəssisələri ilə əməkdaşlıq çərçivəsində kibertəhlükəsizlik üzrə tədris proqramlarının beynəlxalq tələblərə uyğunlaşdırılması, tələbə və müəllim heyətinin qabaqcıl bilik və təcrübəyə çıxışının təmin edilməsi istiqamətində ardıcıl addımlar atılır. Nəticədə, 4 ali təhsil müəssisəsində 7 fərqli fənn üzrə tədris təşkil olunub, kibertəhlükəsizlik sahəsində 5 məhsulun hazırlanmasına dəstək göstərilib və 3 beynəlxalq yarışa hazırlıq proqramı uğurla həyata keçirilib.

Sözügedən startaplar arasında istifadəçilərin kibertəhlükələrə qarşı dayanıqlığını artırmaq üçün öyrədici kontent təqdim edən və süni intellekt əsaslı analizlə inkişaf istiqamətlərini müəyyən edən "AWERO", fişinq, saxta tətbiqlər, sosial media təqlidi və məlumat sızmalarını aşkarlayan yerli təhdid kəşfiyyatı platforması "Cypho", nüfuzetmə testlərinin, kod dəyişikliklərinin və rəqəmsal aktivlərin mərkəzləşdirilmiş idarə olunmasını və real vaxt monitorinqini təmin edən "DefenzON", orta və iri müəssisələr üçün təhlükəsizlik hadisələrinin vahid mərkəzdən idarə olunmasını təmin edən süni intellekt əsaslı kibertəhlükəsizlik əməliyyatları platforması "GAIA", həmçinin zərərli fayl və proqramların təhlükəsiz, izolyasiya olunmuş mühitdə yoxlanılması və təhlilini həyata keçirən "CYBOX" platforması yer alır.

Bütün bu fəaliyyətlər "Azərbaycan Respublikasının İnformasiya Təhlükəsizliyi və Kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nda nəzərdə tutulmuş hədəflərin icrasına və ölkənin kibertəhlükəsizlik potensialının davamlı şəkildə gücləndirilməsinə xidmət edir.

**- Cənab nazir, "Azərbaycanın yeni rəqəmsal arxitekturası" konsepsiyasında əsas uzunmüddətli hədəf nədən ibarətdir?**

- Söhbət rəqəmsal inkişafın sistemli dövlət siyasəti səviyyəsinə yüksəldilməsindən gedir. Biz ayrı-ayrı təşəbbüslərdən və ya fərdi layihələrdən deyil, texnoloji, idarəetmə və infrastruktur həllərini birləşdirən bütöv arxitekturanın formalaşdırılmasından danışırıq. Məhz bu yanaşma uzunmüddətli perspektivdə ölkənin dayanıqlı inkişafını, rəqabət qabiliyyətinin möhkəmlənməsini, vətəndaşlara və biznesə göstərilən dövlət xidmətlərinin keyfiyyətinin artmasını təmin edəcək.

# Süni intellektin 5 PARADOKSU nədən qorxmamalıyıq?





**Tahir Mirkişili**
Milli Məclisin deputatı

Əgər 2025-ci ili süni intellekt (Sİ) ətrafında böyük hay-küy ili kimi xatırlayacağıqsa, 2026-cı ili onun inkişafında dönüş nöqtəsi adlandıra bilərik.  Söhbət təkcə tez-tez müzakirə olunan "Sİ köpüyü" (Süni İntellekt) ehtimalından, Sİ infrastrukturu üçün görünməmiş xərclərdən və bu yarışda geridə qalmamaq istəyən ölkələrin və şirkətlərin borclarının artmasından getmir. Bütün bu ajiotajlara baxmayaraq, Sİ-ni tətbiq etmək və bu sahədə liderlik uğrunda irəliləmək 2026-cı il üçün də, demək olar ki, hamı tərəfindən qəbul edilən prioritet olaraq qalacaq.

Son illərdə Azərbaycanın dövlət siyasəti kontekstində rəqəmsallaşma prosesi üzərində süni zəka ayrıca prioritet kimi institusionallaşdırılır. Prezidentin 19 mart 2025-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" təsdiqlənib. Bu yanaşma üç sütuna söykənir: (i) infrastruktur və data ekosistemi (bulud/hPC, məlumatların idarə edilməsi, təhlükəsizlik), (ii) kadr və innovasiya (bacarıqlar, startaplar, tətbiqi tədqiqat), (iii) dövlət idarəçiliyində tətbiq və etibar (etik çərçivə, məxfilik, standartlaşdırma, məsuliyyətli istifadə).

Paralel olaraq, Sİ üzrə milli standartların hazırlanması və tətbiqi istiqaməti də açılır ki, bu da bazara xüsusi "etibar qaydaları" gətirməyi hədəfləyir. Bu məntiqdə əsas məqsəd, sadəcə, "alət idxalı" yox, sektorlar üzrə praktik nəticə (daha səmərəli xidmət, düzgün qərarvermə, güclü rəqabət qabiliyyəti) istehsal edən və idarə olunan Sİ ekosistemi qurmaqdır.



Amma süni zəka prosesi daha geniş yayıldıqca bir sıra ziddiyyətlər və paradokslar da ortaya çıxır. Bunlar bəzən texnologiyanın özündən çox onu tətbiq edən, istifadə edən insanlarla bağlıdır. Fikrimcə, bir çox hallarda qeyri-dəqiq və ya doğru olmayan izahlar mövcuddur. Burada həmin paradoksların 5-dən bəhs edəcəyik.

**PARADOKS 1: Sİ insanların əlindən iş yerlərini alacaq, yoxsa yenilərini yaradacaq?**

Bu, doğrudur ki, süni zəka həm rutin, həm də qeyri-rutin iş tapşırıqlarını avtomatlaşdırır. Ancaq bunun məşğulluğa real təsiri hələ də tam aydın deyil. Bir tərəfdən hesablamalar göstərir ki, avtomatlaşdırma iqtisadiyyatın inkişaf səviyyəsindən asılı olaraq iş yerlərinin 5,5 faizədək azalmasına səbəb ola bilər. Üstəlik də, mövcud Sİ texnologiyaları iqtisadiyyatın idarə olunmasında daha çox insan əməyini əvəz etməyə meyillidir, nəinki yeni imkanlar yaratmağa. Texnoloji inkişafın ön xəttində olan İT şirkətlərinin artıq işçilər arasında kütləvi ixtisarlar etməsi də bunu gücləndirir.

Digər tərəfdən, təcrübə göstərir ki, Sİ peşələri deyil, tapşırıqları daha çox məhv edir və dərhal yeni tapşırıqlar yaradır. Dünya İqtisadi Forumunun (WEF) 2024-cü ildə 1000-dən çox aparıcı qlobal işəgötürən arasında keçirdiyi sorğuya əsasən, 2025-2030 zaman kəsiyində 170 milyon yeni iş yerinin yaranacağı, 92 milyon iş yerinin isə ixtisar olunacağı gözlənilir. Yəni nəticədə xalis artım 78 milyon iş yeri ola bilər. Sorğuda iştirak edənlərin üçdə ikisi süni intellektlə bağlı bacarıqları olan mütəxəssisləri işə götürməyi planlaşdırır, 40 faiz respondent isə avtomatlaşdırıla bilən sahələrdə ştatların azaldılacağını düşünür.

WEF-in proqnozuna görə, mövcud bacarıqların təxminən 40 faizi yaxın beş ildə dəyişəcək. Başqa tədqiqatlar da göstərir ki, bəzi peşələrdə tapşırıqlar getdikcə avtomatlaşdırılır, digər peşələrdə isə ünsiyyət və yaradıcılıq tələb edən yeni, daha mürəkkəb tapşırıqlar yaranır. Bu fonda səhiyyə, təhsil, nəqliyyat, tikinti və sosial təminat kimi sahələrdə işçi tələbi artır. Maraqlısı odur ki, iqtisadiyyat rəqəmsallaşdıqca insana yönəlik bacarıqlara ehtiyac azalmır, əksinə, arta bilər.

Yekunda bu, ümumi məşğulluğun kəskin azalmasına deyil, daha çox işçi qüvvəsinin yenidən bölüşdürülməsinə gətirib çıxaracaqdır. Əsas risk kütləvi işsizlik yox, yenilənmiş təlim, peşə dəyişimi və sosial adaptasiya ehtiyacıdır. Yəni gələcəyin məşğulluğu texnologiyadan çox cəmiyyətin - dövlətin, biznesin, təhsil sisteminin bu dəyişikliklərə necə hazırlaşmasından asılıdır.

**PARADOKS 2: Sİ məhsuldarlığı artırır, yoxsa əksinə?**

Belə düşünmək olar ki, Sİ-nin sürətli tətbiqi məhsuldarlığı da eyni sürətlə artırmalıdır. Amma statistikalarda məhsuldarlıq artımında süni zəkanın təsiri açıq şəkildə hiss olunmur. Hətta MIT Sloanın məlumatlarına görə, şirkətlərdə Sİ tətbiqinin ilk mərhələsində müvəqqəti məhsuldarlıq enişi də ola bilər.

Bu, "məhsuldarlıq paradoksu" kimi tanınır. Yeni texnologiyaların məhsuldarlığa təsiri bəzən "J" hərfinə bənzər qrafik yaradır: əvvəl eniş, sonra uzunmüddətli yüksəliş. Çünki Sİ-nin tətbiqi, sadəcə, elektrikə taxıb işlətmək deyil. Burada sistemli dəyişikliklər lazımdır və bu proses gündəlik iş axınını bir müddət ləngidər. Məsələn, köhnə idarəetmə sistemlərindən yenisinə keçid işçilərin biliklərini təkmilləşdirmə və paylaşma mexanizmlərini poza bilər. Nəticədə təşkilati kapital (biznes proseslər, idarəetmə, planlama) zəifləyər. Üstəlik, istehsal proseslərinin yenidən qurulması, Sİ-ni öyrətmək üçün yetərli məlumatın olmaması, müəssisə daxilində bu sahə üzrə ekspertizanın çatışmazlığı kimi problemlər də var. Bunların hamısı müvəqqəti səmərəsizlik, fasilələr və ümumi məhsuldarlıq enişi yarada bilər. Xüsusilə köhnə və iri müəssisələrdə bu təsir daha güclü olacaq.

McKinseyin məlumatlarına görə, 2025-ci ilə qədər olan son üç ildə sorğuda iştirak edən şirkətlərin 10-dan 9-u Sİ alətlərindən istifadə etməyə başlayıb. Amma onların böyük hissəsi bunun iş proseslərinə hələ o qədər də dərindən inteqrasiya etmədiyini və nəticələrin dərhal statistikada görünmədiyini bəyan edir.

Buna baxmayaraq, bu sahədə mənzərə sürətlə dəyişir. Sİ prosesini daha tez tətbiq etməyə başlayan şirkətləri iki qısa zaman dilimində (2012-2017 və 2017-2021) izləyən

tədqiqat göstərir ki, 2017-ci ilə qədər tətbiq edənlər əvvəlcə məhsuldarlıq enişi yaşasalar da, sonradan onu tətbiq etməyən oxşar şirkətləri həm əmək, həm də ümumi faktor məhsuldarlığında, eyni zamanda, istehsal inkişafı və bazar payının genişlənməsində üstələməyə başlayırlar.

### PARADOKS 3: Sİ insanın yaratdığı məzmunun dəyərini artıracaq?

Generativ süni zəka artıq elə yazılı mətnlər yaradır ki, onları insan təxəyyülünün məhsulundan ayırmaq çox çətindir, həmçinin Sİ-nin yaratdığı videoçarxlar, səs effekti və fotolar da inanılmaz dərəcədə real görünür. Bəzi qiymətləndirmələrə görə, internetdə Sİ kontentinin miqdarı artıq insanın yaratdığı kontenti keçib. Yəni internet getdikcə daha çox bu süni texniki yeniliyin məhsuluna bənzəyir. 2025-ci ilin aprelində yaradılmış 900 min yeni veb-səhifəni analiz edən bir araşdırma göstərib ki, onların təxminən 7 faizi Sİ-nin iştirakı ilə hazırlanıb. Bu, ən yaxşı halda internetdə şəxsiyyətsiz kütləvi Sİ kontentinin, yəni onun şlakının çoxalmasına gətirib çıxara bilər. Daha pis ssenaridə isə saxta xəbərlər, dezinformasiya, psevdo elmi məqalələr yayılır və ümumilikdə doğru ilə yalanın sərhədini ayırd etmək çətinləşir. Məsələn, bəzi qiymətləndirmələrə görə, 2023-2025-ci illərdə platformalarda deepfakelərin sayı 16 dəfə artaraq 8 milyona çatıb. WEF-in 2025-ci il qlobal ekspert sorğusunda dezinformasiya mövcud qlobal risklər arasında 4-cü, yaxın iki il üçün risklər arasında isə 1-ci yerdə göstərilir.

Feyklərin artması və həqiqətlə uydurmanı ayırmağın çətinləşməsi insanlarda "hər şey saxtadır" hissi yaradar. Amma paradoks budur ki, bu proses, eyni zamanda, şəffaf, dəqiq, məsuliyyətli və etibarlı mənbələrdən gələn məlumatın dəyərini artıra bilər. WEF-in rəqəmsal təhlükəsizlik hesabatında vurğulanır: internetdə etibar öz-özünə yaranmır, onu qazanmaq və möhkəmləndirmək lazımdır. Deməli, insan iştirakını, məsuliyyəti və mənbə şəffaflığını göstərən aydın autentiklik nişanları etibarlı informasiyanın seçilib fərqlənməsinə kömək edə bilər.

#### *Süni zəka nəsli*

ABŞ üzrə bir araşdırmaya görə, gənc "zumer"lərin (Sİ nəsli) təxminən yarısı generativ Sİ-dən həftəlik istifadə edir. Onlar bir tərəfdən bu texnologiyaya heyranlıq duyur (36 faiz), digər tərəfdən ciddi narahatlıq keçirirlər (41 faiz). Narahatlıq ondadır ki, texnoloji zəkanın verdiyi imkanlarla onun məktəblər və işəgötürənlər tərəfindən necə qiymətləndirilməsi arasında ziddiyyət var. Bir tərəfdən, ondan çox istifadə bəzi hallarda idrak bacarıqlarına mənfi təsir göstərə bilər, digər tərəfdən isə iş bazarı gənclərdən bu sahədə üstün bacarıqlar və savad tələb edir. Gənclər üçün start olan bir çox ilkin mövqelər avtomatlaşdırılır və onların işə düzəlmə perspektivləri çətinləşdirilir. Bir çox zumerlər Sİ-yə həm də öz şəxsi duyğularını anlamaq və çıxış yolu tapmaq üçün psixoloq kimi müraciət edirlər ki, bu da həmişə onların xeyrinə olmur.

### PARADOKS 4: Sİ öz enerji problemini özü həll edə biləcəkmi?

Sİ elektrik enerjisi olmadan mövcud ola bilməz. Beynəlxalq Enerji Agentliyinin (BEA) 2024-cü il məlumatına əsasən, data mərkəzləri hələlik dünyada elektrik istehlakının kiçik hissəsini - təxminən 1,5 faizini təşkil edir. Amma 2017-ci ildən bəri onların enerji istehlakı ildə orta hesabla 12 faiz artır ki, bu da ümumi enerji istehlakının artım tempini dörd dəfədən çox üstələyir.




Bir data mərkəzi təxminən 100 min ev təsərrüfatı qədər enerji tələb edə bilir, ancaq tikilməkdə olan daha böyük bir mərkəz isə bundan 20 dəfə çox enerji istehlak edəcək. Bu tipli mərkəzlərin sayı durmadan artacaq. 2022-2024-cü illərdə data mərkəzlərinə investisiyalar ikiqat artaraq 0,5 trilyon dollar təşkil edib. BEA hesab edir ki, növbəti beş ildə data mərkəzlərinin enerji tələbatı ikiqat, beş ildən sonra isə üçqat arta bilər.

Sİ, eyni zamanda, enerji sektorunu transformasiya etmək

potensialına da malikdir və onun inkişafı texnonəhənglərin təmiz enerjiyə investisiyalarını stimullaşdırır. "Amazon", "Google", "Microsoft" kimi şirkətlər birlikdə bərpa olunan enerji üzrə korporativ alışların təxminən üçdə birini edir və bu sahədə investisiya portfellərini genişləndirirlər. Məsələn, "Google"nin uzunmüddətli məqsədi 24/7 karbon ilə işləməkdir ki, bu da sıfır enerji deməkdir. Yəni Sİ-nin inkişafı enerjidə ikiqat təsir yaradır: həm tələbi artırır, həm də (bərpa olunan mənbələr hesabına) təklifi genişləndirir. Bu kontekstdə Azərbaycanın yaşıl enerji istehsalı və ixracına qoyduğu investisiyalar xüsusi əhəmiyyət daşıyır.



Bundan əlavə, Sİ enerjidə sistem analitiki rolunu oynaya bilər: tələbin proqnozlaşdırılması, çevik idarə edilməsi, şəbəkənin balanslaşdırılması, yüklənmələrin qarşısının alınması, binalarda enerji səmərəliliyinin optimallaşdırılması və hətta qlobal istixana qazı emissiyalarının 2030-cu ilə qədər 10 faizə qədər azaldılmasına kömək kimi. BEA ekspertləri bunu müasir dövrün ən mühüm texnoloji inqilablarından birinin mərkəzinə enerji sektorunu gətirən faktor kimi qiymətləndirirlər. Ancaq hazırda enerji sahəsində Sİ daha çox özünü təmin etməyə işləyir və onun transformasiyaedici rolu hələlik imkan olaraq qalır. Bunun reallaşması üçün data mərkəzi layihələrinin ümumi enerji infrastrukturu ilə inteqrasiyası və texnonəhənglərin Sİ investisiyalarının regional enerji dayanıqlılığı təşəbbüsləri ilə uzlaşdırılması lazımdır.

**PARADOKS 5: Sİ öz avtonomluğunun sərhədlərinə əməl edə biləcəkmi?**

Süni zəkanın yeni mərhələsi Sİ agentidir. Bu sistem təkcə məlumat yaratmır, həm də hərəkət edir. Onlar plan qura, insan iştirakı olmadan qərar verə və həm rəqəmsal, həm də fiziki mühitdə avtonom fəaliyyət göstərə bilirlər. Generativ Sİ əsasən mətnlər üzərində öyrənirsə, Sİ agenti real dünyanın məlumat və qanunauyğunluqları üzərində öyrənir. Məsələn, sənaye agentinin təzyiq, hərəkət, cazibə kimi göstəricilərdən öyrənməsi mümkündür. Sensor məlumatlarını, modelləşdirməni və ekspert biliklərini birləşdirərək turbinlərin aşınmasını proqnozlaşdıra və ya qitələrarası aviareys cədvəllərini optimallaşdıra bilər.

Bir tərəfdən, bu, Sİ-ni passiv alətdən aktiv köməkçiyə çevirir. Digər tərəfdən, Sİ-yə bu qədər səlahiyyət vermək risklər yaradır. Eksperimentlər göstərir ki, Sİ agentləri insan nəzarəti olmadan aldatma, şantaj, korporativ casusluq, zərərli insayder davranışı kimi addımlara gedə, insanların təhlükəsizliyi üçün risk yarada bilərlər. Hətta bəzən qadağalara baxmayaraq, üzərlərində nəzarəti söndürməyə cəhd etməsi də mümkündür. Yəni agentlərin gizli niyyətlər formalaşdırması və etik prinsipləri gözardı etməsi ehtimalı var, hətta onlara etik çərçivələr öyrədilsə belə.

Bu mərhələdə əsas sual yeni imkanlar deyil, real hakimiyyətin və məsuliyyətin kimdə olacağıdır. Sİ agenti heç vaxt insan mühakiməsini əvəz etməməlidir, yoxsa etikadan çox səmərəliliyə, dəyərlərdən çox nəticəyə üstünlük verə bilər.

Sİ artıq diaqnostikadan tutmuş müqavilə analizinə qədər bir çox ixtisas sahələrində insanları üstələməyə başlayır. Məsələ Sİ-nin bu tapşırıqları götürməli olub-olmamasında deyil, ondadır ki, bu, insanlar arasında strateji nəzarəti necə qoruyacaq? Məsələn, həkim süni zəkanın şəkillərdə ən xırda anomaliyanı tapmasına güvənə bilər, amma diaqnozu empatiya və sağlam mühakimə ilə insan qoymalıdır. Hüquqşünas Sİ-yə minlərlə səhifə sübutu analiz etdirməyə və arqument qurmağa icazə verə bilər, amma ədaləti, konteksti və niyyəti qiymətləndirmək yenə də insanın işidir. Agentlərin nəzarətsiz istifadəsi onların xidmət etməli olduğu sistemləri belə sarsıda bilər.

Sİ agentləri bəşəriyyətə görünməmiş imkanlar verəcək: rəqəmsal sürət və planet miqyasında hərəkət gücü. Amma bu gücə məna verən yalnız insanın məqsədidir. Hesab edirik ki, gələcək alqoritmlər tərəfindən deyil, onun hədəflərini müəyyənləşdirən insanlar tərəfindən formalaşdırılmalıdır.




# İqtisadi və sosial prioritetlər Azərbaycanın dövlət siyasətinin əsasıdır



**Azər Badamov**
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini

Azərbaycan vətəndaşının rifahı Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan dövlət siyasətinin təməlində dayanır. Məlumdur ki, iqtisadi inkişafa nail olmadan sosial yönümlü siyasətdən danışmaq mümkün deyil. Bu inkişafı təmin etmək üçün isə mütləq şəkildə investisiyalar cəlb olunaraq iqtisadiyyatın diversifikasiyası siyasəti genişləndirilməlidir.

Son 20 ildə ölkəmizin iqtisadiyyatına 300 milyard dollardan çox xarici investisiya qoyulmuşdur. Respublikamızın təsisatlarına və vətəndaşlarına fayda verən bu sərmayələr yeni iş yerləri yaratmaqla, texnologiya transferini təşviq etməklə və qlobal dəyər zəncirləri ilə daha güclü əlaqələr qurmaqla inkişafa müsbət təsir edir. Dünyanın əksər ölkələri daxili investisiyaları tamamlamaqla öz iqtisadiyyatlarını modernləşdirir və ya konkret sosial-iqtisadi nailiyyətlər əldə etmək üçün birbaşa xarici sərmayələri cəlb etməyə çalışırlar. Bu məqsədlərə çatmaq üçün xarici ölkələr əcnəbi şirkətlərlə öz ərazilərində əməkdaşlıq etməklə getdikcə daha şiddətli rəqabətə girməlidirlər.

Hökumətlər özəl investisiyaların cəlb edilməsinə kömək edəcək qaydaların hazırlanmasında və tətbiqində mühüm rol oynayırlar. Lakin aşağı və orta gəlirli bir çox ölkələr iqtisadi fayda əldə etmək və inkişaf məqsədlərinə çatmaq üçün xarici investisiyaları yerli

şirkətlərə yönəltmək və əlaqələndirmək potensialından hələ də tam istifadə edə bilməyiblər.

Azərbaycan Şərqlə Qərb, Şimalla Cənub arasında körpüdür. Məhz bu əlverişli coğrafi mövqe iqtisadi aktivlik və mübadilə baxımından investorları maraqlandırır. Bu istiqamətdə Azərbaycan, sadəcə, müharibə və münaqişəyə son qoymadı, uzunmüddətli qarşıdurma vəziyyətində olan Cənubi Qafqaz regionunun imicini dəyişmiş oldu.

Bu reallıqlar 2025-ci ilin avqustunda Vaşinqtonda paraflanmış sülh sazişi ilə yeni və fərqli bir sima qazanır, Azərbaycana ABŞ investisiyalarının yolu açılır. Tərəflər bu məsələ üzərində ciddi iş aparırlar. Eyni zamanda, ölkəmiz öz növbəsində Amerikanın qiymətli kağızlarına investisiya yatırır.

Konkret nəticə verən iqtisadi layihələrə sərmayə qoyulması kortəbii halda baş tutmur, bu istiqamətdə ciddi araşdırmalar aparılır. Məhz bunun nəticəsi olaraq region süni zəka qovşağına və İT mərkəzinə çevrilməlidir. Bunun üçün fundamental baza mövcud olsa da, data mərkəzləri yaradılmalıdır. Belə mərkəzlərin yaradılması birbaşa elektrik enerjisinə bağlı olan məsələdir. Azərbaycan regionda yeganə ölkədir ki, elektrik enerjisi baxımından əlavə imkanlara malikdir. Çünki daxili məqsədlər üçün istifadə olunmayan elektrik enerjisi ixrac və istehlak oluna biləcək 2000 meqavat və ya 2 qiqavat həcmə malikdir.

Digər önəmli bir sahə də kibertəhlükəsizlik mərkəzinin yaradılmasıdır ki, bu istiqamətdə mütəxəssislər ilə bağlı konkret işlər həyata keçirilir, peşə və ixtisas biliklərinin artırılması üçün onlar xaricə təlimlərə göndərilir, Azərbaycanda müxtəlif tədbirlər təşkil edilir.

Daha mühüm bir amil isə odur ki, ölkəmizdə bu sadalananlar üçün lazımi potensialla bərabər güclü siyasi iradə var. Sevindiricidir ki, ABŞ ilə Azərbaycan arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması bu prosesləri institusional çərçivəyə salmaqla yanaşı, həm də sürətləndirəcək. Hətta bir sıra istiqamətlər üzrə razılaşması çətin olan məsələlər olsa da, Avropanın bir neçə nüfuzlu şirkəti artıq bu sahədə strateji tərəfdaşlıq münasibətləri qurmaq üçün ölkəmizə müraciət ünvanlamışlar.

Azərbaycan iqtisadi baxımdan müstəqildir və hər hansı bir dəstəkdən, kreditdən, digər amillərdən asılı olmadan sərbəst qərar qəbul edə bilir. Ölkə Prezidenti cənab İlham Əliyev hökumət qarşısında vəzifə müəyyənləşdirib ki, dövlətimizin xarici borcu azaldılmalıdır. Məqsədyönlü şəkildə atılan addımlar nəticəsində biz buna nail olmuşuq. Bu gün Azərbaycan xarici borcları tamamilə dayandırıb. Bu istiqamətdə beynəlxalq maliyyə institutları ilə bütün aktiv münasibətləri bitirmiş sayılırıq. Xarici borcumuz ÜDM-in 6 faizini təşkil edir ki, bu da tarixdə ən aşağı səviyyəni göstərir. Götürülən borclar isə tamamilə məhdud məbləğdədir.

Azərbaycanda sosial sahə prioritet istiqamətlərdən biridir. Nəqliyyat layihələri, su kanalizasiya sisteminin yenidən qurulması üçün ölkəmizə ciddi maliyyə dəstəyi lazımdır. Ehtiyatlarımız xarici borcu 16-17 dəfə üstələyir ki, bu da onları geri ödəmək üçün imkanlarımızın geniş olduğunu göstərir.

Ölkəmiz qızıl ehtiyatlarını da artırır və bu istiqamətdə strateji qərarlar qəbul edilir. Bunun nəticəsidir ki, Dövlət Neft Fondu 10 milyard ABŞ dollarından çox vəsait əldə edərək valyuta ehtiyatlarını 85 milyard dollara yaxınlaşdırıb.

Təbii ki, valyuta ehtiyatlarımızın artımı son 5 ildə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına dövlət büdcəsindən 25 milyard manat vəsaitin ayrılması fonunda baş verir. Qarabağın yenidən qurulması iqtisadiyyatımızın güclü və dayanıqlı olduğunu göstərir. "Moody's" və "Fitch" şirkətləri Azərbaycanın kredit reytinqi üzrə göstəricisini yüksək qiymətləndirirlər. Bu gün biz böyük ehtiyatları, aşağı xarici borcu, özünü təmin edən iqtisadiyyatı, əlverişli coğrafi mövqeyi olan ölkəyik. Sözügedən reytinq





şirkətlərinin Azərbaycanı yüksək qiymətləndirməsi həm respublikamızın nüfuzuna müsbət təsir edir, həm də ölkəmiz haqqında inam və etimad formalaşdırır ki, gələcəkdə borc götürdüyümüz zaman o, bizə yaxşı şərtlərlə verilsin.

2025-ci ilin makroiqtisadi göstəricilərinə diqqət yetirəndə iqtisadiyyatın inkişaf dinamikasının qorunduğunu görürük. Belə ki, ÜDM 1,4 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 2,7 faiz qeydə alınmışdır. Ölkə üzrə ümumi ÜDM-in artımında faizin aşağı görünməsi neft hasılatının təbii azalmasının nəticəsidir. Çünki həmin bu amil ÜDM göstəricilərinə də mənfi təsir edir. Təbii qaz hasilatının artırılması istiqamətində də işlər görülür ki, bu da ölkə iqtisadiyyatına əlavə təkan, yeni nəfəs deməkdir.

Azərbaycan Avropa ilə Asiyanın qovşağında yerləşdiyindən coğrafi üstünlüyə malikdir. 2025-ci ildə ölkəmiz vasitəsilə daşınan yüklərin 100 mindən artıq nəqliyyat vahidi üzrə rekord göstərici əldə etdiyinin şahidiyik. Bir neçə ildən sonra bu göstəricinin 300 min nəqliyyat vahidinə çatmasını hədəfləmişik ki, nəticə etibarilə əsas fokus 500 min nəqliyyat vahidi olmasıdır. Ona görə dəniz limanımızın yükaşırma gücünün 15 milyon tondan 25 milyon tona çatdırılması üçün genişləndirilməsinə sərmayələr yatırılmasına başlanılmışdır.

Regional bağlantı layihələri deyərkən, sadəcə, dəmir yollarını nəzərdə tutmuruq, fiber-optik kabellər də bu məsələyə daxildir. Hazırda Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsi üzərində Mərkəzi Asiya ölkələri ilə danışıqlar gedir. Proqnozlar göstərir ki, bu, cari il ərzində hazır olacaq. Azərbaycandan Ermənistana, oradan da Avropaya gedən dəhlizin həcmi baxımından böyük potensial mövcuddur. Biz öz ərazimizdə dəmir yolunun çəkilməsinə sərmayə qoyuruq. Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək dəmir yolunun tam uzunluğu 600 kilometrdir. Ermənistan tərəfdə isə bu yolun uzunluğu 40 kilometrdən bir qədər artıqdır.

Nəticə etibarilə, Orta Dəhlizin iki hissəsinə malik olmaq Qərb ilə Şərq üçün faydalı olacaq. Bu, sadəcə, Azərbaycana deyil, Cənubi Qafqaz ölkələrinə də fayda gətirəcək. Sosial-iqtisadi siyasətdə uğur qazanmağın yolu iqtisadiyyatı müasir dövrün çağırışlarına uyğunlaşdırmaqdır. Bunun üçün qurumlararası koordinasiyanın çevik qurulmasında rəqəmsallaşdırma prosesinin tətbiqi üfüqi idarəçilik modeli üzərindən şəffaflıq, hesabatlılıq, məsuliyyət və effektivlik yaradacaq.

Dövlət siyasətinin reallaşdırılması mərhələsində üç fərqli yanaşma tətbiq oluna bilər. Bunlardan biri yuxarıdan aşağıya yanaşmadır, yəni dövlət siyasətinin tətbiqi mərkəzi hökumət tərəfindən verilən qərarla başlamalıdır. İkincisi, aşağıdan yuxarıya yanaşmadır, yəni yerli aktorlar siyasətin tətbiqi mərhələsində daha çox təşəbbüs göstərməlidirlər. Üçüncüsü, hibrid

yanaşmadır. Bu o deməkdir ki, həm mərkəzi, həm də yerli aktorlar siyasətin tətbiqi məsuliyyətini rasional şəkildə öz üzərlərinə götürməlidirlər. Azərbaycan dövlət və özəl tərəfdaşlığı artırmaqla uğurlu hibrid modelinə üstünlük verir. Bu gün hər bir dövlət institutu təkmilləşdirməyə, islahatlara gedir. İnsanların həyatlarının bütün sahələrində bu və ya digər şəkildə faydalana biləcəyi yeni bir iqtisadi sistem yaratmaq üçün pul sistemi, büdcənin hazırlanması, bank maliyyə sistemi, dövlət maliyyəsi, optimal vergitutma, vergi yığımı və uyğunluğu, subsidiyalar, pul kütləsi və fiskal siyasət sahələrində yeni metodlar, modellər, innovativ və alternativ siyasətlər təklif edilir.

Bu yeni iqtisadi sistem yalnız dəqiq hesablamalar üzərində fokuslanmır, həm də hökumətlərin israfçı, plandankənar, gözlənilməz xərclərini azaltmaqla yanaşı, insanların bütün əsas ehtiyaclarını tək pəncərədən, pulsuz, asan bir şəkildə əldə etmələrinə kömək göstərir. Son 23 ildə dövlət büdcəsi 30 dəfədən çox artıb. Belə ki, bu illər ərzində ölkədə 23 min kilometrdən artıq avtomobil yolları çəkilib, 3600-dən çox təhsil və 760-dan artıq səhiyyə ocaqları yenidən qurulub, 40-dan çox idman kompleksi tikilərək istifadəyə verilib.

2026-cı ilin dövlət büdcəsində sosial xərclər 17,1 milyard manat olmaqla büdcənin 41 faizini təşkil edir. Bu baxımdan 2010-cu illə müqayisədə dövlət büdcəsində sosial xərclərin həcminin 4 dəfədən çox artdığını deyə bilərik. Ölkəmizdə minimum əməkhaqqı 40 dəfədən artıq yüksəlmişdir. Azərbaycan iqtisadi islahatlar apararaq, neft-qaz layihələrini icra edərək və bu sahədən əldə olunan gəlirləri sosial sahəyə istiqamətləndirərək buna nail olmuşdur.

İşğal dövründə, təbii ki, qarşıda fərqli çağırışlar dayanırdı. Bu çağırışlar hərbi təyinatlı xərclərin artırılması, təhsil xərcləri, məcburi köçkünlərin yerləşdirilməsi ilə bağlı idi. O zaman 300 mindən çox köçkünün yeni evlərlə, mənzillərlə təmin edilməsi, şübhəsiz ki, ölkə iqtisadiyyatının əsasən bu sahəyə fokuslanmasını diktə edirdi. Yəni məhz bu siyasətin özü insanların həyat şəraitinin yaxşılaşdırılmasının əsas prioritet olduğunu göstərən Azərbaycan dövlətinin xoş niyyətindən xəbər verir. Belə ki, ötən 7 il ərzində 4 milyon insanı əhatə edən, maliyyə tutumu 8 milyard manata yaxın olan 5 sosial paket icra edilmişdir. Təkcə keçən il bu məqsədlər üçün 1,4 milyard manat büdcə vəsaiti xərclənmişdir.

> **Son 23 ildə dövlət büdcəsi 30 dəfədən çox artıb. Belə ki, bu illər ərzində ölkədə 23 min kilometrdən artıq avtomobil yolları çəkilib, 3600-dən çox təhsil və 760-dan artıq səhiyyə ocaqları yenidən qurulub, 40-dan çox idman kompleksi tikilərək istifadəyə verilib.**

Maaşlar, pensiyalar, müavinətlər mütəmadi qaydada artırılır. Eyni zamanda, pensiyalar indeksləşdirilir. Şübhəsiz ki, Azərbaycanın dövlət başçısının əsas məqsədi ondan ibarətdir ki, bu artımlar davamlı xarakter alsın.

Hazırda ölkəmizin qarşısında fərqli çağırışlar dayanır və bu, bizdən strateji inkişafla bağlı müfəssəl yanaşma tələb edir. Proqnozlar ümidvericidir. Şübhəsiz ki, Azərbaycanın iqtisadiyyatı böyüdükcə valyuta ehtiyatlarımız artacaq ki, bu da nəticə etibarilə sosial sahəyə daha böyük vəsait yatırmağa imkan verəcək.

Əmək bazarına inteqrasiyanı asanlaşdırmaq və inklüziv inkişafı təşviq etmək üçün müxtəlif kontekstlərdə, yəni aşağı gəlirli ölkələrdən yüksək gəlirli ölkələrə qədər tətbiq edilmiş özünüməşğulluq və sahibkarlıq müdaxilələri xüsusi olaraq araşdırılır. Nəticə etibarilə, Azərbaycan bir neçə ildir ki, özünüməşğulluq proqramı üzərində çalışır, 100 mindən çox insan bu proqramla əhatə olunub. Azərbaycanda yeni iş yerləri yaradılır.

Dünyanın hər yerində gənc qadınlar və kişilər məhsuldar işçilər, sahibkarlar, istehlakçılar, vətəndaşlar, cəmiyyət üzvləri dəyişiklik agentləri kimi inkişafa mühüm töhfələr verirlər. Çox vaxt gənclərin tam potensialı reallaşmır, çünki onların məhsuldar və layiqli işlərə çıxışı yoxdur. Bir çox gənc yüksək səviyyədə iqtisadi və sosial qeyri-müəyyənliklərlə üzləşir. İş dünyasına çətin keçid həm gənclər, həm də onların ailələri üçün mənfi nəticələrə səbəb olur.

Azərbaycanda faktiki olaraq özünüməşğulluq proqramı ilə işsizliyin böyük hissəsi aradan qalxır. Bu layihəyə dövlət tərəfindən çox ciddi yanaşılır, proqram çərçivəsində verilən maddi vəsait və ya əyani vasitələrlə insanlar öz ailə büdcələrini təmin edə bilirlər. Effektiv olaraq proqramın həyata keçirilməsi sosial vəziyyəti aşağı olanların vergi ödəyicisinə və kiçik sahibkara çevrilməsinə fürsət yaradır.

Bu gün ölkədə müharibə əlilləri və şəhid ailələri dövlətin xüsusi diqqət və qayğısı ilə tam əhatə olunub. Son illərdə bu kateqoriyadan olan şəxslərə 16 min mənzil, 7800-dən çox minik avtomobili verilmişdir. Azərbaycan dövləti müharibə zamanı yaralanaraq əlil olmuş 500-dən çox hərbçini ən müasir yüksək texnoloji protezlərlə təmin etmişdir. Bu baxımdan iqtisadiyyatımızın inkişafı və artım tempi gələcəkdə sosial məsələlərə bilavasitə təsir edəcək.



# Möhtəşəm qələbənin iqtisadi dividendləri:
## yenidənqurma və inkişaf



**Vüqar Bayramov**
Milli Məclisin deputatı

Azərbaycan tarixi günlərini yaşayır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz Qarabağı işğaldan azad edərək Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına nail olmaqla tarixi uğura imza atdı. Bu uğurların təməli məhz 1993-cü ilin iyun ayında Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması nəticəsində baş verdi. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən, Qarabağı və Şərqi Zəngəzuru düşmən tapdağından təmizləyən gənclər Ulu Öndərin ideoloji məktəbinin, möhtərəm Prezident İlham Əliyev idarəçiliyinin yetirmələri idi. Ümummilli Liderimiz Azərbaycanın suverenliyinin tam bərpasının təməlini qoydu, müzəffər Ali Baş Komandanımız və şanlı ordumuz isə onu qələbə ilə reallaşdırdı.

Azərbaycan postsovet məkanında münaqişəyə məruz qalan ölkələr arasında ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən ilk ölkədir. Bütün bunlar İlham Əliyevin siyasi təmkini, beynəlxalq

arenada böyük diplomatik nüfuzu, hərb meydanında qəbul etdiyi cəsarətli qərarlar sayəsində mümkün oldu.

Uzun müddət Ermənistanın işğalında qalan və tamamilə dağıdılan Qarabağ və Şərqi Zəngəzur hazırda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yenidən qurulur və bərpa edilir. 30 illik işğal nəticəsində xarabalığa çevrilən Qarabağda bu gün 75 mindən artıq vətəndaşımız yaşayır və işləyir. Bu rəqəmin cari ilin sonuna qədər 150 minə çatacağı gözlənilir. Yəni bu, o deməkdir ki, 2026-cı ilin sonunda işğaldan azad olunmuş ərazilərdə məskunlaşmış soydaşlarımızın sayı ikiqat artacaq. Bu ərazilərdə aparılan quruculuq işləri göstərir ki, Böyük Qayıdış prosesi artıq real nəticələr verir və proses həm sosial, həm də iqtisadi baxımdan ölkə üçün yeni imkanlar yaradır.

Artıq Qarabağ bölgəsi təkcə Azərbaycan üçün deyil, region üçün də yeni inkişaf mərkəzi olacaq. Bu ərazinin zəngin iqtisadi potensialı tezliklə Qarabağın Azərbaycan iqtisadiyyatının drayveri olacağından xəbər verir. Ağdam şəhəri sənaye, Füzuli şəhəri nəqliyyat-logistika, Laçın-Kəlbəcər rayonları turizm mərkəzlərinə çevrilməkdədir. Bölgədəki digər şəhər və rayonlarımız da iqtisadiyyatın fərqli sahələri üzrə ixtisaslaşmaqdadırlar. Bütün bunlar işğaldan azad olunan torpaqlarımızın Azərbaycan iqtisadiyyatına, xüsusən də qeyri-neft sektoruna xüsusi dəyər qatacağından xəbər verir.

Bu gün Azərbaycanda həyata keçirilən intensiv məskunlaşma siyasətin əsas istiqamətlərindən biridir. Tarixi Zəfərimizdən sonra dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzurun bərpasına 23 milyard manata yaxın vəsait ayrılıb. Təkcə 2026-cı ildə bu istiqamətdə xərclər 3,7 milyard manat təşkil edəcək. Bu, o deməkdir ki, yalnız dövlət büdcəsindən qələbədən sonra işğaldan azad olunmuş ərazilərimizin bərpasına və yenidən qurulmasına 26 milyard manatdan artıq vəsaitin ayrılması təmin ediləcək. Buna infrastrukturun yenidən qurulması, məskunlaşma üçün yaşayış evlərinin tikilməsi, eyni zamanda, sosial və kommunal xidmətlərin göstərilməsi ilə bağlı bir sıra məsələlər daxildir.

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və qayğısı ilə işğaldan azad olunan ərazilərimizin bərpası, inkişafı və iqtisadiyyatın reinteqrasiyası sürətlə davam etdirilir. Son 5 ildə dövlət başçısı işğaldan azad olunmuş ərazilərdə keçirilən 570-dən artıq tədbirdə iştirak etmiş, 180-dən çox müxtəlif təyinatlı layihənin təməlini qoymuş, 167 obyektin və infrastruktur layihəsinin açılışını etmişdir. Qarabağ və Şərqi Zəngəzurda yaradılan sənaye parkları həmin bölgələrimizin inkişafını stimullaşdırmaqla yanaşı, ölkəmizdə qeyri-neft sektorunun inkişafına da xüsusi töhfə verməkdədir. “Ağdam” və “Araz Vadisi İqtisadi Zonası” sənaye parkların-





da 50 rezident və 7 qeyri-rezident müəssisə qeydiyyata alınıb. Ümumi dəyəri 454 milyon manat olan layihələrin icrası çərçivəsində 185 milyon manat investisiya yatırılıb və 1057 yeni iş yerləri yaradılıb. Bu proses, eyni zamanda, həmin bölgədə iqtisadiyyatın formalaşmasına, Azərbaycanın ümumi iqtisadiyyatına mühüm töhfədir.

İlkin qiymətləndirmələr göstərir ki, bu iki iqtisadi rayonun Azərbaycanın iqtisadiyyatında 10 faiz pay formalaşdırmaq potensialı var. Bu isə yaxın illərdə bölgənin ölkə iqtisadiyyatına 15 milyard manatdan artıq əlavə dəyər qatacağından xəbər verir, eyni zamanda, işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialının kifayət qədər yüksək olduğunu göstərir.

Qarabağın, eləcə də Şərqi Zəngəzurun praktik olaraq iqtisadiyyatın əksər sahələrində, o cümlədən aqrar sektorda böyük potensialı var. Bu da nəticə etibarı ilə həmin ərazilərimizdə kənd təsərrüfatının inkişafı üçün yeni imkanlar yaradır.

> "Bu gün bu torpağın sahibləri, əsl sahibləri qayıdıb, sürətli inkişaf baş verir. Böyük Qayıdış Proqramı haqqında danışarkən deyə bilərəm ki, həmin proqram bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Təkcə bərpa etmək deyil - burada müasir texnologiyalar, "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələri istifadə edilir".
>
> **İlham Əliyev**

Kifayət qədər təbii ehtiyatlara malik olduğuna görə bölgənin sənaye potensialı da yüksəkdir. Həmçinin bu ərazilərdə turizmin əksər sahələri - daxili, tarixi, mədəni, sağlamlıq və dini turizm istiqamətləri üzrə də böyük imkanlar mövcuddur. Nəqliyyat və logistika sahəsində də potensial birmənalı şəkildə yüksəkdir. Çünki Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri məhz həmin ərazilərimizdən keçir.

Zəfərdən sonra Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycanın əsas hissəsinin Naxçıvana quru yolla maneəsiz keçidi təmin edilməlidir. Dövlət başçısı Zəngəzur dəhlizinin reallaşacağını və bunun, sadəcə, zaman məsələsi olduğunu bəyan etmişdir. Dövlət başçısının uzaqgörən siyasəti sayəsində imzalanmış Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəliş təsdiq olun-




du. Bu, Zəngəzur dəhlizinin reallaşması deməkdir.

Ölkəmizin hərb meydanlarında əldə etdiyi Zəfər cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu xarici siyasət ilə daha da möhkəmləndi. Ölkə başçımızın 2025-ci il avqustun 8-də ABŞ Prezidenti Donald Trampla Vaşinqtonda keçirdiyi görüş Azərbaycan diplomatiyasının yeni uğuru idi. Görüşdən sonra ABŞ-nin liderinin cənab İlham Əliyevə təqdim etdiyi şəkillərin üzərinə: "İlham Əliyev, Siz böyük lidersiniz"- sözlərini yazaraq imza atması da məhz möhtərəm Prezidentin şəxsi nüfuzunun bariz təzahürü idi.

Vaşinqtonda Zəngəzur dəhlizinin işə düşməsi ilə əlaqədar ABŞ ilə Ermənistan arasında saziş imzalandı. Bu isə o deməkdir ki, ABŞ Prezidenti Donald Tramp Zəngəzur dəhlizinin qarantı rolunu oynayacaq. Bu dəhlizin istifadəyə verilməsi Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirəcək.

Bu gün ölkəmiz Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına maliyyə dəstəyi göstərir. Bu, Azərbaycanın əsas ərazisi vasitəsilə Naxçıvanın həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək və Şərq-Qərb nəqliyyat dəhlizinə bölgənin yerli iş adamlarının çıxışı baxımından əhəmiyyətli olacaq. Böyük türk dünyası bu dəhliz vasitəsi ilə uzun illərdən sonra yenidən birləşəcək, onun sayəsində Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələr genişləndiriləcək, ölkəmizin geoiqtisadi əhəmiyyəti daha da artacaq.

Qarabağ və Şərqi Zəngəzuru intensiv bərpa və inkişaf etdirən Azərbaycan 134 milyard dollarlıq ÜDM-ə malik olan Cənubi Qafqaz iqtisadiyyatının 60 faizə yaxınını formalaşdırır. Cənab Prezidentin rəhbərliyi ilə ölkəmizin iqtisadi gücü daha da artmaqdadır. Respublikamız dünyada yeganə ölkələrdəndir ki, xarici valyuta ehtiyatları ÜDM-in həcmini üstələyir. Bu, Azərbaycan üçün iqtisadi təhlükəsizlik yastığının formalaşdığından xəbər verir. 78 milyard dollarlıq xarici valyuta ehtiyatlarımız xarici borcumuzdan 16 dəfə artıqdır. Bu, məhz ölkəmizin əldə etdiyi iqtisadi nailiyyətlərin təzahürüdür. Bütün qazanılan uğurlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dayanıqlı iqtisadi və siyasi uğurlara imza atdığını bir daha təsdiqləyir.









# Zəngəzur dəhlizi - regionun yeni geosiyasi xəritəsi



**Bəhruz Məhərrəmov**
Milli Məclisin deputatı

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ilə xalqımızın çoxəsrlik dövlətçilik ənənələri yenidən davam etdirilmiş oldu. Başqa dövlətlərlə münasibətlərin beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurulmasını konstitusion qaydada təsbit edən Azərbaycan Respublikasının xarici siyasəti beynəlxalq hüququn bütün subyektləri ilə bərabərhüquqlu surətdə faydalı əlaqələr qurmaq, bu əlaqələrdən həm respublikamızın beynəlxalq mövqelərini möhkəmləndirmək, həm də ölkənin iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədini daşıyır. Konstitusiyamızın 9-cu maddəsinə əsasən, başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edən Azərbaycanın sülhsevər xarici siyasəti, ilk növbədə, onun dövlət müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edir. Çoxşaxəli tarazlaşdırılmış xarici siyasət respublikamızın bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərinə qarışmama kimi beynəlxalq hüququn norma və prinsipləri əsasında dostluq münasibətlərinin qurulmasında maraqlıdır və buna səy göstərir.

Azərbaycan dövlətinin bu sahədə başlıca prinsipləri beynəlxalq hüquq



normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaratmaqdan, xoş münasibətlərə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir. Ölkəmiz demokratik və hüquqi dövlət quruculuğu yolu tutduğundan onun xarici siyasəti də dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normalarını özündə əks etdirir. Əksər ölkələr ilə bərabərhüquqlu təməllərə söykənən münasibətlər qurmuş, regional təhlükəsizlik, terrorçuluqla mübarizə, kütləvi qırğın silahlarının yayılmaması, enerji təhlükəsizliyinin təmin olunması məsələlərini prioritetə çevirən Azərbaycan Respublikası əməkdaşlıq etdiyi dövlətlərlə regional və beynəlxalq problemləri həll etmək istiqamətində birgə fəaliyyət göstərir.

Məlumdur ki, ölkəmizin strateji coğrafi mövqeyi onun Avroatlantik məkandakı siyasi və iqtisadi proseslərdə olduqca mühüm rol oynamasını təmin etmişdir. Bu, regiondakı enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində özünü xüsusi büruzə verməkdədir. Sirr deyil ki, uğurlu coğrafi mövqe heç də hər zaman fayda gətirmir, əksinə, bir çox hallarda həmin xalqların fəlakətinə çevrilir. Etiraf etməliyik ki, Azərbaycan xalqı da uzun bir dövr ərzində qitələrarası strateji kəsişmə nöqtəsində yerləşən coğrafiyası uğrunda iri güclərin mübarizəsi fonunda özünün maraqlarını müdafiə edə bilməmiş, əksinə, tarix boyu yadellilərin işğal və təcavüzünə məruz qalmışdır.

Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi nəticəsində ikinci dəfə hakimiyyətə gəlişi ilə ölkədə hökm sürən xaos və vətəndaş qarşıdurmasının dayandırılması, Azərbaycanın parçalanma təhlükəsinin qarşısının alınması, qanunsuz silahlı birləşmələrin ləğv edilməsi ilə siyasi sabitliyə nail olunması, cəbhədəki ağır məğlubiyyətlərdən sonra Ermənistanla atəşkəs əldə edilməsi, pərakəndə dəstələrin əvəzinə nizami milli ordu quruculuğuna start verilməsi, "Əsrin müqaviləsi"ni imzalamaqla iqtisadi tənəzzülün dayandırılması, real müstəqillik dövrünün başlanılması, ölkəyə xarici investisiyaların axınının təmin edilməsi, iqtisadi və hüquqi islahatlarla dövlət prinsiplərinin möhkəmləndirilməsi, balanslaşdırılmış xarici siyasətlə Azərbaycanın beynəlxalq təcridolunmadan çıxarılması ölkə üçün yeni inkişaf erasının özülü oldu.

Bu siyasəti uğurla davam etdirən cənab İlham Əliyev Vətən müharibəsi və antiterror tədbirlərində böyük hərbi-siyasi Zəfərə nail oldu. Dövlət suverenliyini və sərhəd bütövlüyünü bərqərar etməklə möhtərəm Prezidentimiz Azərbaycan tarixində ilk dəfə coğrafi mövqeyimizi xalqımız və dövlətimiz üçün dividendə çevirə bildi. Çoxsaylı siyasi maneələrə, müharibə şəraitinə bir sıra xarici dairələrin skeptik yanaşmasına və maliyyə çətinliklərinə baxmayaraq, Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi (TAP/TANAP) formatında müstəsna Enerji İxrac İnfrastrukturu realizə olundu. Şərq-Qərb dəhlizinin onurğa sütunu kimi işə salınan Ba-

kı-Tbilisi-Qars dəmir yolu xəttinin, yükaşırma imkanları maksimuma çatdırılmaqda olan Xəzər dənizində ən böyük və müasir logistika mərkəzinin - Ələt Beynəlxalq Dəniz Limanının yaradılması yeni dövrdə bir daha aydın şəkildə ortaya çıxardı ki, Azərbaycan Prezidentinin yürütdüyü siyasət nəticəsində ölkə mürəkkəb geosiyasi şəraitdə strateji nəqliyyat qovşağına çevrilib. Respublikamız öz gücü hesabına Avropanın enerji təhlükəsizliyində əvəzolunmaz tərəfdaş statusu qazandı. Xüsusən Ukrayna müharibəsi və qlobal gərginlik fonunda Azərbaycanın Çindən Avropaya gedən ən təhlükəsiz və qısa yolun əsas moderatoruna çevrilməsi dövlət başçımızın qətiyyətli, uzaqgörən və müdrik liderliyinin artıq milli məzmundan qlobal müstəviyə yüksəldiyini göstərmiş oldu.

Heç şübhəsiz ki, cənab İlham Əliyevin rəhbərliyi ilə uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlılığının gücləndirilməsi istiqamətində atılan addımlar, makroiqtisadi sabitliyin gücləndirilməsi məqsədilə yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılması, milli iqtisadiyyatımıza xarici mühitdən mənfi tendensiyaların təsirinin minimuma endirilməsi ölkəmizə bu prosesləri reallaşdırmağa imkan verdi. Azərbaycan bu infrastrukturu qurmaqla özünü iqtisadi asılılıqdan qoruyan və regionun taleyini müəyyən edən dövlətə çevrilmişdir.

44 günlük Vətən müharibəsi və antiterror tədbirləri sonrası yaranan situasiya artıq tam yeni reallıqdır. Cənubi Qafqazın əsas nəqliyyat və logistika mərkəzinə çevrilmək istiqamətində atdığı strateji addımlar Azərbaycanın əsas prioritetlərindəndir. Rusiya, Azərbaycan və İranın dəmir yollarının birləşdirilməsi istiqamətində Astara terminalının genişləndirilməsi və yeni körpülərin istifadəyə verilməsi ilə ölkəmizin tranzit potensialını artırmaqda olan Şimal-Cənub dəhlizinə, Çindən gələn yüklərin Avropaya ən qısa və təhlükəsiz yolla çatdırılmasını təmin edən Trans-Xəzər marşrutuna ehtiyacın artması Azərbaycan liderinin öz proqnozlarında nə qədər haqlı olduğunu nümayiş etdirdi. Belə bir şəraitdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gücünün artırılması, Qarabağda beynəlxalq hava limanlarının (Füzuli, Zəngilan, Laçın) inşası və işğaldan azad edilmiş torpaqlarda Horadiz-Ağbənd dəmir yolunun və digər avtomobil yollarının inşasının sürətlə davam etdirilməsi fonunda müasir yol infrastrukturunun qurulması bölgənin regional bağlantı nöqtəsinə çevrilməsi prosesini daha da sürətləndirməkdədir.

Heç şübhəsiz ki, yeni nəqliyyat-kommunikasiya bağlarından danışdıqda cənab İlham Əliyevin ideya müəllifi olduğu, həm Orta Dəhlizin, həm də Şimal-Cənub marşrutunun mühüm hissəsi hesab olunan Zəngəzur dəhlizinin adı xüsusi qeyd edilməlidir. Məlumdur ki, hələ 2020-ci ildə Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin birgə Bəyanatında - kapitulyasiya aktının 9-cu maddəsində Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsinə dair öhdəlik müəyyən olunmuşdur. Lakin Azərbaycan ərazisində separatizm ocağının mövcudluğu şəraitində hələ də işğal dövrünün status-kvosunun bərpasına ümid edən Ermənistan və havadarlarının hər vəchlə layihəyə qarşı çıxması, o cümlədən qonşu İranın vəziyyətlə bağlı qeyri-adekvat davranışları prosesi xeyli ləngitdi. Azərbaycan Respublikasının antiterror tədbirləri ilə separatizmə konseptual olaraq son qoyması isə durumu köklü şəkildə dəyişdi. O cümlədən Demokrat-Soros iqtidarının sona yetməsi ilə ABŞ-nin vitse-prezidenti Cey Di Vensin Bakıya səfəri zamanı ifadə etdiyi kimi: “Azərbaycana münasibətdə çox sərsəm siyasətin yürüdülməsi” nəticəsində Bayden-Blinken administrasiyasının sıfırladığı münasibətlərin yenidən dirçəlməsi Zəngəzur dəhlizinə münasibətdə də önəmli dəyişikliyə səbəb oldu. Əvvəllər prosesdə yalnız bir neçə dövlət Azərbaycanın bu ideyasına açıq dəstək verirdisə, cənab İlham Əliyevin hərbi-siyasi qələbələri ilə yaratdığı yeni reallıqda iri güclərin maraqlarını milli mənafelərimizlə bərabərhüquqlu tərəfdaşlıq formatında uzlaşdıra bilməsi, xüsusən ABŞ-Azərbaycan münasibətlərinin yeni dönəmində Vaşinqtonun praqmatik baxış nümayiş etdirməsi şəraitində Zəngəzur dəhlizi üçün yeni səhifə açıldı.



2025-ci il avqustun 8-də Prezident İlham Əliyevin Vaşinqtona səfəri çərçivəsində Vaşinqton Sülh Sammitində ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında əldə olunmuş razılaşmalar nəticəsində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) formatını alan layihə, eyni zamanda, Azərbaycan və Ermənistan arasında sülh gündəliyinin mühüm tərkib hissəsinə transformasiya etməklə nəqliyyat və kommunikasiya dəhlizi kimi strateji önəmini yeni keyfiyyət mərhələsinə yüksəltdi. Bu ilin fevralında Bakıda imzalanan "Azərbaycan Hökuməti ilə ABŞ Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya" isə layihənin icrasının rəsmiləşməsi və praktik dönəmə qədəm qoyulması baxımından mühüm mərhələ sayılır.

Aydındır ki, Zəngəzur dəhlizinin perspektivləri həm regional, həm də qlobal miqyasda strateji əhəmiyyət kəsb edir. Dəhliz Naxçıvan Muxtar Respublikasını birbaşa Azərbaycanın qərb rayonları ilə birləşdirərək həm Naxçıvanı blokadadan çıxaracaq, həm regionun iqtisadi potensialını artıracaq, Azərbaycanın neft asılılığından daha da uzaqlaşaraq platforma əsaslı artım modelinə keçidini sürətləndirəcək, Çindən Avropaya gedən yüklərin daha qısa və səmərəli yolla daşınmasını təmin edərək həm Azərbaycanı mühüm tranzit mərkəzinə çevirəcək, həm də Orta Dəhlizin güclənməsinə səbəb olacaq. Eyni zamanda, Ermənistan üçün də iqtisadi təcriddən çıxmaq, Rusiya, Türkiyə və İran bazarlarına çıxış əldə etmək imkanı yaratmaqla regional inteqrasiyada yeni dövr başladacaq.

Nəticə etibarilə, görünən odur ki, Azərbaycan təkcə xammal ixrac edən deyil, həm də qitələri birləşdirən strateji qovşaq statusunu möhkəmləndirir. Cəmi iki il əvvələ qədər prosesdə əngəl kimi çıxış edən ABŞ artıq layihə üzrə Azərbaycanın ən yaxın tərəfdaşına çevrilib. Ümumiyyətlə, hazırkı mərhələdə Zəngəzur dəhlizi barədə danışdıqda məsələnin praqmatizmə və qarşılıqlı maraqlara söykənən dinamik inkişaf xətti ilə xarakterizə olunan ABŞ-Azərbaycan münasibətləri fonunda təhlil edilməsi məqsədəmüvafiq olar.

Məlumdur ki, hələ 2000-ci il dekabrın 29-da Ulu Öndər Heydər Əliyev yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına tarixi müraciətində demişdi: "Amerika Birləşmiş Ştatları kimi iri dövlətlə münasibətlər Azərbaycanın xarici siyasətinin məhək daşını təşkil edir". Məhz bu ideyanı rəhbər tutaraq Azərbaycan Respublikası dünyada gedən inteqrasiya və əməkdaşlıq prosesləri çərçivəsində ABŞ ilə ölkəmizin beynəlxalq münasibətlərdə xarici, siyasi, hərbi və iqtisadi asılılığa düşməsini istisna edən formatda, milli maraqların təmin olunmasında və qarşılıqlı faydalı münasibətlərin qurulmasında maraqlı olub. Vaşinqtona yaxşı bəllidir ki, Azərbaycan Respublikası dünyada sülhün və sabitliyin qorunub saxlanılmasına yönəlmiş birgə tədbirlərdə iştirak etməklə beynəlxalq və regional təhlükəsizliyə töhfə vermək üçün davamlı səylər göstərir.

Zəngəzur dəhlizi strategiyası isə hazırkı mərhələdə məhz bu səylərin mühüm halqasına çevrilərək təkcə iqtisadi deyil, həm də regionu birləşdirən və Vaşinqton-Bakı əlaqələrində vacib element kimi tanınır. Xüsusən nəzərə aldıqda ki, Bayden-Blinken administrasiyasından fərqli olaraq Tramp iqtidarı Vətən müharibəsindən və 2023-cü ilin antiterror tədbirlərindən sonra həm daxili, həm də regional müstəvidə köklü reallıqlar formalaşdıran Azərbaycanla bərabərhüquqlu tərəfdaşlığın daha səmərəli nəticələrə gətirib çıxaracağını dərk edir.

Təsadüfi deyil ki, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya"da regional bağlantılar, iqtisadi sərmayə və təhlükəsizlik əməkdaşlığı da daxil olmaqla qarşılıqlı maraq və ortaq fayda doğuran sahələrdə strateji tərəfdaşlıqların əhəmiyyəti bir daha xüsusi qeyd olundu. Azərbaycan Respublikası və ABŞ sənəddə bir daha ifadə etdilər ki, Orta Dəhlizin inkişafına xüsusi diqqət ayıraraq enerji, nəqliyyat və rəqəmsal infrastruktur sektorlarında, o cümlədən TRIPP və digər layihələrin inkişaf etdirilməsi ilə iqtisadi artımı və regional bağlantıları təşviq etmək üçün əməkdaşlığı genişləndirmək niyyətindədirlər. Bu isə həm də o deməkdir ki, Cənubi Qafqazda sülh Azərbaycan Respublikasının və Amerika Birləşmiş Ştatlarının ortaq marağındadır. Azərbaycan ABŞ və digər beynəlxalq subyektlərlə nəqliyyat sahəsində yeni əməkdaşlıqlar pəncərəsi açmaqla qlobal logistika zəncirində əvəzolunmaz tərəfdaşa çevrilib. Bu tərəfdaşlıq həm hər iki dövlətə, həm də beynəlxalq və regional sülhə, təhlükəsizliyə fayda verir.






# WUF13 Azərbaycanın qlobal liderlik rolunu daha da gücləndirəcək

2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi Azərbaycanın milli inkişaf strategiyasının, qlobal məsuliyyətinin və gələcəyə yönəlmiş baxışının ifadəsidir. Ölkəmiz artıq qlobal urbanizasiya gündəliyinin formalaşmasında fəal iştirakçı və etibarlı tərəfdaş kimi çıxış edir. Tarixi irsə söykənən və müasir çağırışlara cavab verən memarlıq təcrübəsi göstərir ki, Azərbaycan üçün şəhərsalma, sadəcə, məkan quruculuğu deyil, həm də tarixi yaşadan, milli kimliyi təcəssüm etdirən mədəni yaddaşın ifadəsidir.



**Pərvanə Vəliyeva**
Milli Məclisin deputatı

Xalqımızın yaratdığı irs nümunələrini, zəngin tariximizi qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ulu Öndər Heydər Əliyev hər zaman bir məqamı vurğulayırdı ki, xalqın mədəni irsi, eləcə də mənəvi dəyərlərimiz milli-siyasi varlığımızın əsasını təşkil edir. O deyirdi: "Biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib".

Bu gün Azərbaycan xalqının 4 mədəni irs nümunəsi - Şirvanşahlar Sarayı və Qız Qalası ilə birlikdə İçərişəhər, Qobustan qaya sənəti mədəni landşaftı və Şəki Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bununla

yanaşı, bədii-memarlıq həllinin kamilliyi, tarixi dərinliyi və mədəni-estetik dəyəri baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələri - Xudafərin körpüsü, Şərq memarlıq ənənələrinin nadir nümunəsi olan "Atəşgah" kompleksi, Naxçıvandakı Möminə Xatun türbəsi  və digər bu kimi misilsiz abidələr Azərbaycanın zəngin memarlıq irsinin simvoluna çevrilmişdir. Bu abidələr keçmişlə bu günü, milli-mədəni yaddaşla müasir inkişafı üzvi şəkildə birləşdirir, tariximizin  fəlsəfəsini aydın nümayiş etdirir.

Təəssüf ki, Ermənistan tərəfindən ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalı nəticəsində maddi və mədəni irsimizə qarşı çoxsaylı vandalizm aktları törədilmiş, abidələrimiz məqsədli şəkildə dağıdılmış, dəyərli milli-mədəni nüminələrimizin əksəriyyəti yer üzündən silinmişdir. Sevindirici hal isə odur ki, bu gün 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərdən sonra işğaldan azad olunmuş ərazilərdə innovativ yanaşmaların tətbiqi ilə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalma sahəsinə strateji, müfəssəl və gələcəyə hesablanmış baxışını aydın şəkildə nümayiş etdirir.

Xalqımızın mədəniyyət beşiyi olan Qarabağ, füsünkar və əzəmətli Şuşa artıq tarixi sahiblərinə qovuşmuşdur. Prezident İlham Əliyevin birbaşa nəzarəti altında Böyük Qayıdış proqramı çərçivəsində bu ərazilərin yalnız fiziki olaraq bərpası deyil, eyni zamanda, müasir və yaşayış üçün dayanıqlı məkanlara çevrilməsi əsas prioritet kimi müəyyən edilib. Bu gün Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və yenidənqurma işləri dünya miqyasında unikal dəyərləndirilir. 2020-2025-ci illər ərzində dünya memarlıq və inşaat təcrübəsinə töhfə verən, olduqca qısa bir zaman








kəsiyində 100-dən artıq yaşayış məntəqəsi üzrə, o cümlədən 12 şəhəri əhatə edən baş planlar və digər planlaşdırma sənədləri hazırlanmış, müasir şəhərsalma standartlarına uyğun quruculuq işlərinə ardıcıl şəkildə başlanılmışdır.

Məhz bu strateji baxışın məntiqli davamıdır ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir. Bu qərar Azərbaycanın daxili inkişaf prioritetlərini, eyni zamanda, qlobal məsuliyyətini və beynəlxalq hədəflərini əks etdirir. Bu, həm də dövlətin "Azərbaycan 2030: Sosial-iqtisadi inkişaf üzrə milli prioritetlər" strategiyasının urbanizasiya, ekoloji təhlükəsizlik və davamlı inkişaf hədəflərinə uyğundur.

Ölkəmiz iqlim dəyişmələri, dekolonizasiya, bərabərsizliklərlə mübarizə, dayanıqlılıq kimi qlobal

çağırışları beynəlxalq platformalarda uğurla gündəmə gətirir. Azərbaycan 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurla sədrlik edərək Qlobal Cənubun ehtiyaclarını beynəlxalq səviyyədə fəal şəkildə səsləndirib, qurumun inkişafına mühüm töhfə verib. 2024-cü ildə təxminən 200 ölkə tərəfindən Azərbaycanın COP29-a ev sahibliyinin yekdilliklə dəstəkləməsi nəticəsində ölkəmiz bu tədbirə də uğurlu təşkilatçılığı ilə iqlim diplomatiyasında unudulmaz tarix yazdı.

Bu il Azərbaycan BMT-nin daha bir mötəbər tədbiri olan "Ümumdünya Şəhərsalma Forumu"nun 13-cü sessiyasına (WUF13) ev sahibliyi edəcək. Belə beynəlxalq nüfuzlu tədbirlərin ölkəmizdə keçirilməsi, təbii ki, Azərbaycanın xarici siyasətdə artan imicinə əlavə dividentlər qazandırmaqla yanaşı, diplomatik əlaqələrin yeni formatda inkişafına təkan verir, beynəlxalq platformalarda mövqeyimizi daha da gücləndirir və qlobal proseslərdə yaxından iştirak etmək üçün yeni imkanlar açır.

Hökumətimizin şəhərsalma strategiyası postmünaqişə dövründə Qarabağ və Şərqi Zəngəzur regionlarında yeni mərhələyə qədəm qoyub. 2030-cu ilə qədər bu ərazilərin dünyanın ilk xalis sıfır karbon emissiyalı zonaları sırasında yer alması, artıq uğurlu təşəkkülünü tapmış "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının daha geniş tətbiqi nəzərdə tutulur. İndiqədər işğaldan azad edilmiş ərazilərimizdə 3 milli şəhərsalma forumu keçirilmişdir. İlk forum 2022-ci ildə Prezident İlham Əliyevin "Qafqazın Xirosiması" adlandırdığı Ağdamda baş tutdu. O vaxt orada şəhər infrastrukturu tam mövcud olmasa da, belə bir tədbirin təşkili son dərəcə əhəmiyyətli simvolik məna daşıyırdı.

Hazırda Azərbaycanın genişmiqyaslı şəhər transformasiyası təkcə bu regionlarla məhdudlaşmır. Ölkə boyu yeni nəqliyyat və infrastruktur layihələri, ekoloji parkların yaradılması, mikromobilliyin təşviqi və sosial yönümlü yaşayış komplekslərinin inkişafı bu xəttin tərkib hissəsidir. Buraya müasir Azərbaycanın inkişaf rəmzinə çevrilmiş Heydər Əliyev Mərkəzi, "Alov qüllələri" kimi modern üslublu, unikal memarlıq



nümunələrinin, eləcə də müasir urbanizasiya konsepsiyasını özündə əks etdirən "Ağ Şəhər" kompleksinin əlavə edilməsi ilə paytaxt Bakının memarlıq görünüşü daha da zənginləşmişdir.

Dövlətimizin gördüyü və görəcəyi təşəbbüslər WUF13 çərçivəsində dünyaya təqdim ediləcək. Forum tarixində ilk dəfə olaraq Liderlər Sammiti keçiriləcək. BMT-yə üzv dövlətlərin ölkə və hökumət başçıları bu zirvə görüşündə qlobal yaşayış yeri problemləri və dayanıqlı şəhər inkişafı üzrə fikir mübadiləsi aparacaqlar. Bu isə Azərbaycanın dayanıqlı şəhərsalma məsələlərini daha yüksək platformalara daşıdığını göstərir.

Bu prosesdə parlamentlərin rolu xüsusi əhəmiyyət kəsb edir.









Məhz qanunvericilik orqanları dayanıqlı şəhərsalma və memarlıq siyasətinin hüquqi əsaslarını formalaşdırır, urbanizasiya, yaşayış yeri siyasəti, torpaq idarəçiliyi, ekoloji təhlükəsizlik və sosial inklüzivlik sahələrində strateji qərarların qəbulunu təmin edirlər. Parlamentlər beynəlxalq öhdəliklərin milli qanunvericiliyə inteqrasiyasında, "Yeni Şəhərsalma Gündəliyi" və Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında mühüm körpü rolu oynayırlar. Eyni zamanda, parlament diplomatiyası vasitəsilə ölkələr arasında təcrübə mübadiləsi gücləndirilir, qlobal şəhər çağırışlarına kollektiv cavabların formalaşdırılmasına töhfə verilir.

Ümumdünya şəhərsalma forumlarının əsas iştirakçıları BMT-yə üzv dövlətlərin nümayəndə heyətləri, özəl sektor, parlamentarilər, tədqiqat institutları, analitik mərkəzlər, vətəndaş cəmiyyəti təmsilçiləridir. Bakı Forumunun əsas məqsədləri qlobal yaşayış yeri çağırışlarının aradan qaldırılması üçün praktik həllər və qabaqcıl təcrübələri təqdim etmək, siyasi və maliyyə öhdəliklərini artırmaq, həmçinin "Bakı Çağırışı" vasitəsilə WUF13 gündəliyi üzrə konkret nəticələrə nail olmaqdır. İştirakçılar dünyanın müxtəlif ölkələrindən şəhər idarəçiləri, siyasətçilər və innovatorlarla görüşərək əlaqələrini genişləndirmək və yeni münasibətlər qurmaq imkanı əldə edəcəklər.

Bir daha əminliklə bildirirəm ki, WUF13-ə ev sahibliyi etmək ölkəmizə bir sıra üstünlüklər qazandıracaq. İlk növbədə, bu, Azərbaycanın dayanıqlılıq üzrə qlobal liderlik rolunu daha da gücləndirəcək. Minlərlə iştirakçı ölkəmizə gələcək ki, bu da turizmin və biznesin canlanmasına xüsusi töhfə olacaq. Öz növbəsində bu tədbir həm də Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərini, eləcə də Azərbaycanın digər şəhərsalma nailiyyətlərini nümayiş etdirmək üçün yaxşı imkandır. Şəhərsalma, iqlimə uyğunlaşma, yaşayış yeri siyasəti və "ağıllı şəhər" həlləri sahələrində yeni tərəfdaşlıqlar, investisiya imkanları və beynəlxalq əməkdaşlıq üçün geniş platforma formalaşacaq.

Azərbaycan Prezidentinin sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkəmizin gələcək inkişaf yolunun ideoloji və strateji xəritəsidir. Bu il çərçivəsində həyata keçiriləcək tədbirlər şəhərlərin təhlükəsiz, inklüziv və ekoloji dayanıqlı məkanlara çevrilməsinə xidmət edəcək, memarlığın milli kimliyin daşıyıcısı və sosial rifahın təminatçısı kimi rolunu daha da gücləndirəcəkdir.



# Hesablama Palatasının 2026-2030-cu illər üçün yeni strateji planı



**Vüqar Gülməmmədov**
Azərbaycan Respublikası
Hesablama Palatasının sədri

Ali audit orqanı tərəfindən fəaliyyətin yüksək standartlara uyğun və baş verən dəyişikliklərə adekvat şəkildə qurulması istiqamətində atılan addımların uğurlu olması strateji idarəetmənin düzgün tətbiq edilməsi ilə əlaqəlidir. Dövlət sektorunda bu prosesin tətbiqinin əsas məqsədi xidmətlərin keyfiyyətinin artırılması, ictimai rifahın yaxşılaşdırılması, hesabatlılığın və şəffaflığın gücləndirilməsi ilə vətəndaşlar və cəmiyyət üçün əlavə dəyər yaratmaqdır.

Strateji idarəetmənin bəlkə də ən vacib mərhələsi strategiyanın hazırlanmasıdır. Bu, qurumun inkişafına yönələn hərəkətlərin real və iddialı planda cəmləşməsini xarakterizə etməklə aydın addımları, rolları, məsuliyyəti və vaxt çərçivələrini müəyyənləşdirir.

Ali audit orqanı olaraq Hesablama Palatasının əsas məqsədi hesabatlılıq və şəffaflığı təşviq etməklə dövlət vəsaitinin və digər dövlət əmlakının qanunauyğun, məqsədyönlü, nəticəli, qənaətli, səmərəli istifadəsi ilə vətəndaşların rifahının yüksəlməsinə, dövlət maliyyə idarəetməsinin inkişafına dəstək göstərməkdir. Qeyd edilənlər təkmil strateji sənədlərin olmasını zəruri edir. Bu məqsədlə ayrı-ayrı dövrlər üçün Hesablama Palatasının strateji planları (SP) qəbul edilmişdir.

Hesablama Palatasının uzunmüddətli dövr üçün inkişafını müəyyən edən və müxtəlif göstəri-

cilərə nail olunması üçün baxış, missiya, əsas dəyərlər, aralıq və yekun nəticələrini, fəaliyyətləri əks etdirən "Hesablama Palatasının 2026-2030-cu illər üzrə Strateji Planı" ekspertlərin qiymətləndirmələri və tövsiyələri nəzərə alınmaqla mütərəqqi təcrübəyə, "Ali Audit Orqanlarının Strateji İdarəetmə Təlimatı"na və INTOSAI P12-nin prinsiplərinə uyğun olaraq hazırlanmışdır.

Biz ilk olaraq əvvəlki SP-nin nəticələrini təhlil etdik. Məlum olduğu kimi, sonuncu 2021-2025-ci illəri əhatə edən SP-nin icra müddəti ötən ilin sonunda başa çatmışdır. Əvvəlki SP-də 2 yekun nəticə və 9 aralıq nəticə müəyyən edilmişdir.

Məlumat üçün qeyd edək ki, SP-nin qüvvədə olduğu hər il üzrə SP-nin illik Əməliyyat Planının icrasının təxminən 90 faizdən çox olması şəraitində müvafiq istiqamətə ayrılmış büdcənin icra səviyyəsi 80 faizdən bir qədər çox olmuşdur. Bundan əlavə, Monitorinq Çərçivəsinin göstəricilərinin ümumilikdə icra vəziyyəti bu illər üzrə 80 faiz və daha çoxdur ki, bu da müvafiq büdcə göstəriciləri ilə müqayisədə daha yuxarı olmaqla Strateji Planın effektiv icrasını əks etdirən göstəricidir.

Qeyd olunan dövrdə aralıq nəticələr üzrə bəzi əsas məqamlar aşağıda göstərilmişdir.





**Aralıq nəticə 1.** ***Dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının layihələri və icrası ilə bağlı yüksək keyfiyyətli rəylər.*** 2021-2025-ci illər ərzində dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcə layihəsi və icrası ilə bağlı 39 rəy hazırlanmış, Milli Məclisə və aidiyyəti orqanlara təqdim edilmişdir. Eyni zamanda, ilk dəfə olaraq DNF (Dövlət Neft Fondu) büdcəsinin icrasına rəy KDMN (Kənar Dövlət Maliyyə Nəzarəti) tədbiri şəklində verilmiş, Naxçıvan Muxtar Respublikası büdcəsinin layihəsinin və icrasının təhlili analitik fəaliyyət çərçivəsində aparılmışdır.

**Aralıq nəticə 2.** *Milli Məclisə və hökumətə fiskal məsələlərə dair tövsiyələr.* Audit tövsiyələrinin icrasına nəzarət etmək üçün Audit Fəaliyyətinin İdarəedilməsi Sistemində (AFİS) yeni modul yaradılmış, icra intizamının yüksəldilməsi məqsədilə rəsmi internet səhifəsində yeni bölmə aktivləşdirilmişdir. Dövlət büdcəsi ilə bağlı rəylərdə təqdim edilmiş tövsiyələrin icra faizi artmış, təhlillər onların təxminən üçdə birinin il ərzində nəzərə alındığını göstərmişdir. 2021-2025-ci illər ərzində kollegiya qərarlarında ümumilikdə 1300-dən çox tədbirin keçirilməsi nəzərdə tutulmuşdur. KDMN fəaliyyəti üzrə isə kollegiya qərarlarında müəyyən edilmiş tədbirlər üzrə icra 70,4 faizə yüksəlmişdir.

**Aralıq nəticə 3.** *Səmərəlilik auditinin əhatə dairəsinin artırılması.* Səmərəlilik auditlərinin sayı və əhatəsi artmış, ümumilikdə bu dövrdə 26 səmərəlilik auditi keçirilmiş, bəzi auditlərdə hər üç prinsip - nəticəlilik, qənaətlilik və səmərəlilik meyarları əhatə olunmuş, ilk dəfə hökumətəsaslı DİM (Dayanıqlı İnkişaf Məqsədləri) tətbiq edilmiş, 4 dövlət proqramının auditi edilmişdir.

**Aralıq nəticə 4.** *Maliyyə və uyğunluq auditinin seçimi, əhatə dairəsi və keyfiyyətinin yaxşılaşdırılması.* 2021-2025-ci illərdə 36 maliyyə auditi, o cümlədən 7 halda

konsolidə olunmuş maliyyə hesabatlarının auditi, 148 uyğunluq auditi, o cümlədən 12 halda tematik audit keçirilmişdir. Keyfiyyətin idarəedilməsi sistemi ISSAI standartlarına və qabaqcıl təcrübəyə uyğun qurulmuş, yenilənmiş ISSAI 140-a uyğun olaraq keyfiyyətin idarəedilməsi sistemi üzrə yeni modelə keçid başlamışdır.

**Aralıq nəticə 5.** ***Maraqlı tərəflərlə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi.*** Milli Məclis, Nazirlər Kabineti, Maliyyə Nazirliyi və digər maraqlı tərəflərlə qarşılıqlı əlaqələr genişləndirilmiş, audit hesabatların və rəylərin müzakirə edildiyi 10-dan çox kollegiya iclasına Milli Məclisin deputatları və hökumət nümayəndələri dəvət edilmişdir.

**Aralıq nəticə 6.** ***Hesablama Palatasının işində və fəaliyyətində şəffaflığın artırılması və hesabatlılıq.*** Audit portfelindəki hesabatların dərc olunma faizi 20 faiz bəndindən çox artaraq portfelin 70 faizinə yüksəlmişdir. Hesablama Palatasının rəy və hesabatlarının ictimaiyyət üçün oxunaqlılığını təmin etmək məqsədilə 30 xülasə hazırlanmış, infoqrafik vasitələrə üstünlük verilmişdir.

**Aralıq nəticə 7.** ***Hesablama Palatasının beynəlxalq AAO cəmiyyətində peşəkar tərəfdaş imicinin gücləndirilməsi.*** Son 5 ildə Hesablama Palatası 10-dan çox nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi etmiş, 20-yə yaxın həmkar AAO ilə Anlaşma Memorandumu imzalanmış, 3 halda paralel audit aparılmışdır. Hesablama Palatası tərəfindən 1 həmkar ölkənin (Tacikistan) AAO-nun, 2 həmkar ölkənin AAO-ları tərəfindən isə Hesablama Palatasının fəaliyyəti qiymətləndirilmişdir.

**Aralıq nəticə 8.** ***İnformasiya sistemlərinin (İS) audit təcrübəsinin artırılması.*** 2021-2025-ci illər ərzində 20-dən çox auditdə İS auditinin elementləri tətbiq edilmişdir.

**Aralıq nəticə 9.** ***Rəqəmsal transformasiyaya keçidə hazırlıq.*** Qurumdaxili informasiya sistemində fəaliyyətimizin təkmilləşdirilməsinə xidmət edən müxtəlif (təlim, insan resursları, strateji sənədlərin izlənməsi, keyfiyyətin idarə edilməsi və s.) modullar yaradılmış, həmçinin AFİS-in tam tətbiqi təmin edilmiş, yeni Dövlət Auditi İnformasiya Sisteminin qurulmasına başlanmışdır.

**Ümumiləşdirərək** *qeyd edə bilərik ki, son 5 ildə ölkəmizdə dövlət auditinin beynəlxalq standartlara uyğunluğu, həm rəylər, həm də auditlər üzrə təklif və tövsiyələrin icra faizi artırılmış, ölkədə ilk dəfə olaraq illik hesabatda Hesablama Palatası tərəfindən nəticə əsaslı büdcə modelindən istifadə edilmiş, beynəlxalq AAO cəmiyyətində nüfuzun artırılması üçün tədbirlər görülmüş, rəqəmsal həllərdən istifadə genişləndirilmişdir.*

Yeni Strateji Plan da mürəkkəb prosesin nəticəsi olmaqla əvvəlki SP üzrə nəticələrin təhlil edilməsi ilə yanaşı, müxtəlif alətlərin tətbiqi ilə ərsəyə gəlmişdir. Strateji Plan üzrə atılan addımlar və tətbiq edilən alətlər şəkildə əks etdirilmişdir.

Cari vəziyyətin qiymətləndirilməsi məqsədilə daxili resurslar



hesabına SAI PMF (Ali Audit Orqanlarının Fəaliyyətinin Ölçülməsi Çərçivəsi) qiymətləndirməsi həyata keçirilmişdir. Qiymətləndirmə SP-nin tərtibi üçün xüsusi əhəmiyyət daşımaqla sonradan həmin planın icrası nəticəsində əldə edilmiş uğurları ölçmək imkanı verir. Qiymətləndirmə zamanı 2024-2025-ci illərdə 6 domen üzrə həyata keçirilən fəaliyyətlər əhatə olunmaqla mövcud qanunvericilik, daxili metodiki baza, həmçinin audit qovluqları araşdırılmışdır.

AAO üzrə keçirilmiş qiymətləndirmənin nəticələri 0-4 ölçülü şkala üzrə 3 və 4 olmuşdur. Biz mövcud vəziyyəti qiymətləndirmək üçün həmkar qiymətləndirilməsinin nəticələrindən də istifadə etmişik. 2025-ci ildə Səudiyyə Ərəbistanı Baş Audit Məhkəməsi Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyətinin həmkar qiymətləndirilməsini həyata keçirmişdir. Qiymətləndirmə 1900 nömrəli Həmkar Qiymətləndirməsinə dair INTOSAI Təlimatı əsasında aparılmışdır. Nəticələrə əsasən Hesablama Palatasının fəaliyyəti INTOSAI-P 10-da əks olunmuş 8 əsas prinsipə tam uyğun gəlir. Qiymətləndirməyə əsasən, Hesablama Palatasında idarəetmə, o cümlədən strateji plan və monitorinq sistemi, beynəlxalq sertifikatlara yiyələnmə, hesabatlılıq və şəffaflıq, daxili sistemlərin optimallaşdırılması, işçilər arasında məmnunluq sorğularının keçirilməsi ən qabaqcıl təcrübəyə uyğundur. Bununla yanaşı, qiymətləndirmə hesabatında bəzi təkmilləşdirilməli məqamlar da qeyd edilmişdir.

**6 domen**

**21 indikator**

**66 meyar**

Strategiyanın formalaşdırılması məqsədilə görülən işlərin növbəti mərhələsi kimi strateji planlaşdırma qrupu tərəfindən AAO-nun fəaliyyətinin güclü və zəif tərəfləri, imkanların və təhdidlərin qiymətləndirilməsi aparılmışdır.

GZİT təhlil əsas strateji məsələlərin müəyyənləşdirilməsi məqsədilə sadə, lakin güclü vasitə olmaqla kənar mühitdən irəli gələn əsas tələblərə və çağırışlara cavab vermək üçün daxili imkanların, potensialın və məhdudiyyətlərin ən yaxşı şəkildə anlaşılmasını təmin edən bir texnikadır.

Bundan əlavə, yeni SP-nin də fərqləndirici xüsusiyyətlərindən biri maraqlı tərəflərin Hesablama Palatasının fəaliyyətinə dair baxış və gözləntilərinin təhlili və onların SP-də nəzərə alınması ilə bağlı olmuşdur:

- auditin əhatə etdiyi büdcə vəsaitlərinin həcminin az olması;
- dövlət müəssisələrinin əsas fəaliyyətinin (və ya bütün vəsaitlərinin) auditi üzrə məhdudiyyətlər;
- dövlət informasiya sistemlərinə adekvat çıxış imkanlarının olmaması;

## SAI PMF qiymətləndirilməsinin nəticələri

**Domen D:**
**Maliyyə idarəetməsi, aktivlər və dəstək xidmətləri**

| İndikator | Ad | Ümumi bal |
|---|---|---|
| SAI-21 | Maliyyə idarəetməsi, aktivlər və dəstək xidmətləri | 3 |

**Domen E:**
**İnsan resursları və təlim**

| İndikator | Ad | Ümumi bal |
|---|---|---|
| SAI-22 | İnsan resurslarının idarəedilməsi | 3 |
| SAI-23 | Peşəkar inkişaf və təlim | 4 |

**Domen F:**
**Kommunikasiya və maraqlı tərəflərin idarəedilməsi**

| İndikator | Ad | Ümumi bal |
|---|---|---|
| SAI-24 | Qanunvericilik, Məhkəmə və İcra hakimiyyətləri ilə Kommunikasiya | 4 |
| SAI-25 | Media, vətəndaşlar və vətəndaş cəmiyyəti ilə əlaqələr | 4 |



- informasiya texnologiyalarından və data analitika alətlərindən geniş istifadənin olunmaması;
- pre-audit təcrübəsindən geniş istifadə edilməməsi;
- İS auditinin ayrıca aparılmaması;
- səmərəlilik auditlərində bütün prinsiplərin tətbiq edilməməsi;
- əksər büdcədənkənar dövlət fondlarının büdcələrinin icrasına Hesablama Palatası tərəfindən rəy verilməməsi;
- Hesablama Palatası əməkdaşlarının sayının yüksək hədəflərin icrası üçün az olması;
- sahə üzrə peşəkar mütəxəssislərin fəaliyyətə cəlb olunmasındakı problemlər.

İlk dəfə olaraq yeni SP-də Hesablama Palatasının adekvat cavab verməli olduğu çağırışlara da toxunulmuşdur. SP-də 7 əsas çağırış müəyyən edilmişdir.

Cari vəziyyətə dair qiymətləndirilmələr aparıldıqdan sonrakı mərhələ AAO-nun qarşıdakı dövr üçün baxış, missiya və əsas dəyərlərinin SP-də əks etdirilməsi ilə bağlıdır.

Baxış bəyanatı AAO-nun məqsədini əks etdirir, orta və ya uzunmüddətli dövrdə nələrə nail olmaq istədiklərinə diqqət yetirir. Başqa sözlə, AAO-nun strategiyası dəyişsə də, baxışı əsasən dəyişməz qalır.

Missiya bəyanatı əsasən AAO-nun nə olduğunu təsvir edən məqsəd bəyanatıdır, işin təsviridir. AAO nəyə və kimə xidmət edir?

Əsas dəyərlər AAO-nun cəmiyyətdə və fəaliyyət göstərdiyi bütün proseslərdə necə davranmalı olduğunu müəyyənləşdirməyə kömək edən rəhbər prinsiplərdir.

Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi tapşırıq və tövsiyələr dövlət orqanlarının, o cümlədən Hesablama Palatasının məsuliyyətini bir qədər də artırmaqla onun qarşısında yeni vəzifələr müəyyən etmişdir. Bu tapşırıqlar dövlət maliyyə idarəçiliyinin müasir prinsiplər əsasında qurulmasına, rəqəmsal texnologiyalarla səmərəli icra və nəzarət mexanizmlərinin yaradılmasına xidmət etməklə dövlət maliyyə sisteminin şəffaf, məsuliyyətli və nəticəyönümlü idarə olunmasına yönəlmişdir.

Eyni zamanda, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda dövlət maliyyəsinin idarə edilməsi sahəsi üzrə müəyyənləşdirilmiş tədbirlər dövlət vəsaitlərindən istifadədə qənaətliliyin, səmərəliliyin və nəticəliliyin artırılmasına xidmət edir. Qeyd olunan fiskal tənzimlənmələrin reallaşdırılması ilə bağlı bir sıra çətinliklər mövcuddur ki, onların aradan qaldırılması istiqamətində hökumətlə qarşılıqlı təcrübə mübadiləsi, birgə iş və effektiv kommunikasiyanın daha da gücləndirilməsi Hesablama Palatasının maraq dairəsindədir.

Hesablama Palatası dövlət maliyyəsinin idarə edilməsi sahəsində aparılan islahatlara və onlardan irəli gələn çağırışlara adekvat reaksiya verilməsi üçün yeni Strateji Plan üzrə 2 əsas məqsəd müəyyən etmişdir.

**Yekun nəticələr** AAO-nun birbaşa xarici mühitində orta və uzunmüddətli strateji dəyişikliklərdir. AAO bu cür dəyişikliklərə əhəmiyyətli dərəcədə töhfə verə bilər. Bununla belə, onları tamamilə idarə edə bilməz, çünki onlar İcra Hakimiyyəti, parlament, media və ya cəmiyyət kimi digər maraqlı tərəflərin davranışlarına Hesablama Palatasının təsirini əhatə edir.

**Aralıq nəticələr** AAO-nun nəzarətində olan nəticələrdir. Aralıq nəticələr AAO-nun nəzarəti altında olmayan yekun nəticələrin əldə edilməsini asanlaşdıra biləcək ən yaxşı yolu təmsil edir.

Yeni SP-də Hesablama Palatasının Baxış, Missiya və Əsas dəyərləri






| |
|---|
| **Strateji məqsəd 1** - Yüksək keyfiyyətli dövlət auditi ilə dövlət maliyyəsinin idarə edilməsi sisteminin təkmilləşdirilməsinə xidmət etmək/ dəstəkləmək |
| **Strateji məqsəd 2** – Dövlət sektorunun xidmətlərinin keyfiyyətli, səmərəli və davamlı olmasına töhfə vermək |

**Hesablama Palatası yeni SP-də 3 yekun və onlardan irəli gələn 9 aralıq nəticə müəyyən etmişdir.**

| | | |
|---|---|---|
| **Yekun nəticə 1** | | |
|  *Dövlət maliyyə idarəetməsinin gücləndirilməsi, o cümlədən dövlət sektorunda hesabatlılığın və şəffaflığın təkmilləşdirilməsinə töhfə* | 1 | *Aralıq nəticə 1. Maliyyə, uyğunluq və performans auditinin əhatə dairəsinin artırılması, o cümlədən strateji əhəmiyyətli auditlərin portfeldə payının yüksəldilməsi* |
| | 2 | *Aralıq nəticə 2. Ölkənin maliyyə hesabatlılığı sisteminə rəylər vasitəsilə makronəzarətin təmin edilməsi* |
| | 3 | *Aralıq nəticə 3. Dövlət auditinin rəqəmsallaşdırılması* |
| | 4 | *Aralıq nəticə 4. İnformasiya sistemlərinin auditi təcrübəsinin gücləndirilməsi* |
| | 5 | *Aralıq nəticə 5. Fəaliyyətin, o cümlədən dövlət auditinin keyfiyyətinin artırılması* |
| **Yekun nəticə 2** | | |
|  *Dövlət auditi ilə cəmiyyət üçün yaradılan əlavə dəyərin artırılması* | 6 | *Aralıq nəticə 6. Fəaliyyətin təsirinin ölçülməsi üçün rəylər və auditlər üzrə tövsiyələrin həyata keçirilməsi və izlənilməsi mexanizminin gücləndirilməsi* |
| | 7 | *Aralıq nəticə 7. Maraqlı tərəflər ilə effektiv ünsiyyət vasitəsilə fəaliyyətin gücləndirilməsi* |
| **Yekun nəticə 3** | | |
|  *Beynəlxalq AAO cəmiyyətində və ölkə ictimaiyyətində Hesablama Palatasının nümunəvi təşkilat imicinin qorunması* | 8 | *Aralıq nəticə 8. Beynəlxalq AAO cəmiyyətində və ölkə ictimaiyyətində Hesablama Palatasının peşəkar tərəfdaş və nümunəvi təşkilat mövqeyinin gücləndirilməsi* |
| | 9 | *Aralıq nəticə 9. Daxili idarəetmə sisteminin gücləndirilməsi, o cümlədən işçilərin peşəkar və karyera inkişafının təşviqi, habelə Hesablama Palatasının inzibati fəaliyyətində rəqəmsallaşdırma meyillərinin gücləndirilməsi* |

**Hər bir aralıq nəticə üzrə növbəti ildə görəcəyimiz işləri SP-ya daxil etmişik.**

## SP-dən çıxarış

**Aralıq nəticə 1.** ***Maliyyə, uyğunluq və performans auditinin əhatə dairəsinin artırılması, o cümlədən strateji əhəmiyyətli auditlərin portfeldə payının yüksəldilməsi***

Aralıq nəticə üzrə məqsəd auditlərin risk əsaslı planlaşdırılması və strateji əhəmiyyət daşıyan sahələrin daha geniş əhatə olunması vasitəsilə audit fəaliyyətinin təsir gücünü artırmaqdır. Bu məqsədlə aşağıdakı fəaliyyətlərin həyata keçirilməsi planlaşdırılır:

- ✓ Konsolidə edilmiş hesabatların auditi təcrübəsinin genişləndirilməsi (auditlərin sayının azalmamasına diqqətin verilməsi fonunda);
- ✓ Səmərəlilik auditlərinin əhatə dairəsinin artırılması, o cümlədən mövzu müxtəlifliyinin təmin edilməsi, DİM-lərin diqqətdə saxlanması, 3E prinsipinin (o cümlədən “qənaətlilik” (economy) prinsipinə diqqətin artırılması) hər birinin əhatə olunduğu auditlərin sayının artırılması;
- ✓ Tematik (horizontal) uyğunluq auditləri və analitik fəaliyyətlər təcrübəsinin artırılması, o cümlədən ölkənin strateji sənədinin fəaliyyətləri üzrə auditlərin /analitik fəaliyyətlərin aparılması (Məsələn, “2022-2026-cı illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf Strategiyası”);
- ✓ İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına dəstək məqsədilə bu ərazilərdə aparılan quruculuq-abadlıq işlərinin auditi təcrübəsinin genişləndirilməsi;
- ✓ Dövlət proqramlarını əhatə edən auditlərin artırılması;
- ✓ Əhalinin sosial rifahına birbaşa təsir edən sosial müdafiə, məşğulluq, səhiyyə və təhsil sahələrində audit təcrübəsinin genişləndirilməsi;
- ✓ Kommersiya fəaliyyəti olan dövlət sektoru subyektlərində auditlərin aparılması təcrübəsinin təkmilləşdirilməsi;
- ✓ OMXÇ tətbiq edilən bölmələr üzrə xərclərin auditinin (1. İndikatorlar üzrə göstəricilər realdır?, 2. İndikatorlar üzrə göstəricilərə nail olunubmu? 3. Hansı indikatorlar daha uyğundur?) aparılması;
- ✓ Nəzarət yönümlü audit (control oriented auditing) təcrübəsinin artırılması.

**Aralıq nəticə 3.** ***Dövlət auditinin rəqəmsallaşdırılması***

Dövlət auditinin rəqəmsallaşdırılması fəaliyyəti beynəlxalq qabaqcıl təcrübələrlə uyğunlaşdırmaq və rəqəmsallaşma meyillərinə cavab vermək istiqamətində strateji təşəbbüsdür. Məqsəd dövlət auditinin innovativ texnologiyalar əsasında modernləşdirilməsi, qərarların data analitikası və süni intellekt imkanları ilə dəstəklənməsi yolu ilə həm audit, həm də büdcə prosesindən irəli gələn fəaliyyətlərin optimallaşdırılması və keyfiyyətinin artırılmasıdır. Bu məqsədlə aşağıdakı fəaliyyətlərin həyata keçirilməsi planlaşdırılır:

- ✓ Dövlət Auditi İnformasiya Sisteminin tam qurulması, o cümlədən digər dövlət qurumlarının İS-lərinə inteqrasiyanın yaradılması və emal prosesinin avtomatlaşdırılması;
- ✓ Hesablama Palatası tərəfindən mümkün istiqamətlərdə süni intellektin tətbiqi və data analitika alətlərindən istifadənin genişləndirilməsi (məsələn, dövlət satınalmalarının auditində və məlumatların təhlilində, maliyyə hesabatlarının təhlilində, xüsusilə burada “Əmsal təhlili”ndə, illik audit planı üzrə risk qiymətləndirilməsində və s.)

Yeni SP-də də nəticə əsaslı çərçivənin bir qədər genişləndirilməsinə çalışmış, ilk dəfə olaraq bir sıra mühüm əsas performans göstəricilərinin beşillik dövr üçün proqnoz dinamikasını bu sənədə daxil etmişik.

Yeni SP-nin də fərqləndirici məqamlarından biri resurs təminatının Strateji Planda diqqətə alınması ilə bağlıdır. Qeyd edək ki, strategiyanın həyata keçirilməsi üzrə resurslar 2 qrupa (maliyyə və insan resursları) bölünmüşdür. Aparılan təhlillər və qanunvericilikdə müəyyən edilmiş müddəalar hər 2 istiqamət üzrə SP-nin reallaşması üçün ciddi çətinliklərin olmayacağını deməyə əsas verir.

Yeni SP-də prosesin effektiv və arzu olunan səviyyədə yerinə yetirilməsinə təsir göstərəcək mümkün risklər müəyyən edilmiş, onların təsiri, mümkünlüyü, dərəcəsi və risklərə qarşı nəzarət tədbirləri əks etdirilmişdir.

SP-nin hazırlanması üzrə müxtəlif qiymətləndirmə alətlərinin (PEFA, SAI PMF, Public Sector Scorecards və s.) strateji idarəetmə çərçivəsinə tələbləri əsasında aşağıdakı məsələləri də nəzərə almışıq.

Hesablama Palatasının fəaliyyətinin əsas prioritet istiqamətləri nəzərə alınmaqla yeni Strateji Plan Hesablama Palatasının institusional inkişafının daha da möhkəmləndirilməsini, parlamentin, hökumətin və cəmiyyətin fəaliyyətində daha çox iştirakını, yeni idarəetmə sisteminin tətbiqini və insan resurslarının peşəkar inkişafı yolu ilə yüksək keyfiyyətli audit işinin dövlət maliyyə idarəçiliyində rolunu artırmağı hədəfləyir. Məqsədimiz müəyyən olunmuş problemləri həll etmək, mövcud nailiyyətləri qorumaq və gücləndirmək, iddialı hədəflərə nail olmaqdır.

Hesablama Palatası son illərdə strateji idarəetmə təcrübəsini müxtəlif sahələr üzrə genişləndirmişdir. Məqsəd bütün istiqamətlərdə fəaliyyətin ortamüddətli dövr üçün qurumun strateji məqsədlərinə uyğun şəkildə qurulması və reallaşdırılması, performans göstəriciləri nəzərə alınmaqla qiymətləndirilməsidir.

Nəticə olaraq qeyd edə bilərik ki, cəmiyyət üçün dəyər yaratmağı nəzərdə tutan prinsiplərin tətbiqində, eləcə də dövlət sektoru idarəçiliyinin keyfiyyətinin artırılmasında strateji idarəetmənin əvəzolunmaz rolu var. Hesablama Palatası bu prosesin müvafiq sektorun digər qurumlarında genişləndirilməsi üçün nümunəvi təcrübəsinin paylaşılması məqsədilə səylərini davam etdirməyi nəzərdə tutur.

**SP-nin 2026-2030-cu illər üçün monitorinq göstəricilərindən çıxarış**

| S/s | Aralıq nəticə | İndikator | Baza göstərici | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | AN1 | Auditlərin büdcəni əhatə etmə faizi (icmal büdcənin xərclərinin ümumi həcmi üzrə) | 1/3-dən az | 1/3 az | 1/3 az | 1/3 çox lakin 50%-dən az | 1/3 çox lakin 50%-dən az | 50%-dən çox |
| 2 | AN1 | Audit portfelində səmərəlilik auditində payı | 14% | 15% | 15% | 17% | 17% | 20% |
| 3 | AN1 | OMXÇ islahatını əhatə edən KDMN tədbirlərinin sayı | 0 | 0 | 1 | 1 | 2 | 2 |
| 4 | AN1 | Modifikasiya olunmamış maliyyə auditi rəylərinin ümumi maliyyə auditləri üzrə rəylərə nisbəti | 20% | 22% | 24% | 26% | 28% | 30% |
| 5 | AN1 | Aktual mövzuları (iqlim dəyişiklikləri, bərpa olunan enerji, SDG, dövlət investisiyaları, IS-lər bağlı) əhatə edən səmərəlilik auditləri | 1 | 2 | 2 | 3 | 3 | 4 |
| 6 | AN2 | Rəylər üzrə tövsiyələrin icra faizi | 25% | 30% | 30% | 35% | 35% | 40% |
| 7 | AN5 | Keyfiyyətə nəzarət prosedurundan keçmiş maliyyə auditlərinin payı | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| 8 | AN6 | KDMN tədbirləri üzrə tövsiyələrin icra faizi (say olaraq) (n-1 il üzrə) | 70 | 72 | 74 | 76 | 78 | 80 |
| 9 | AN6 | KDMN tədbirləri üzrə Tövsiyələrin icra faizi (məbləğ baxımından) | 60 | 63 | 66 | 69 | 72 | 75 |
| 10 | AN6 | Hesablama Palatasının tövsiyələrinin icrası haqqında məlumat dərc edən qurumların sayı | 0 | 1 | 2 | 2 | 3 | 4 |

| Müxtəlif alətlər nəzərə alınmaqla strateji planlaşdırmaya dair əsas tələblər |
|---|
| Strateji Plan qurumun fəaliyyətinin əsas aspektlərini əhatə edən ehtiyacların qiymətləndirilməsinə və fəaliyyətin təkmilləşdirilməsini tələb edən boşluqların və ya sahələrin müəyyənləşdirilməsinə əsaslanırmı? |
| Strateji Plan məqsədlərin məntiqi iyerarxiyasına malik olan nəticələr çərçivəsini özündə birləşdirirmi? (Məsələn, yekun nəticələr, aralıq nəticələr və s.) |
| Strateji Plan strateji məqsədlərə nail olunmasını ölçə bilən bir sıra göstəriciləri ehtiva edirmi? |
| Strateji Plan məqsədlərə nail olmaq üçün riskləri müəyyən edən icra matrisi və ya oxşar sənədlə tamamlanırmı? |
| Strateji Planda maraqlı tərəflərin gözləntiləri nəzərə alınırmı? |
| Strateji Plana institusional mühiti gücləndirmək üçün tədbirlər daxildirmi? |
| Prosesə yüksək səviyyəli sahiblik varmı (rəhbərlik prosesdə iştirak edirmi)? |
| Strateji Plan dövrü üçün resurslar, o cümlədən büdcə, insan resursları və s. ilə bağlı qiymətləndirmələr aparılırmı? |
| Cari Strateji Plan əvvəlki planların nəticəsini diqqətə alırmı? |
| Strateji Plan ictimaiyyət üçün açıqlanırmı? |

# Ana dilinin saflığının qorunması dövlət siyasətinin vacib prioritetidir

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev hələ sovet hakimiyyəti illərində sosialist beynəlmiləlçiliyi şəraitində azərbaycançılıq ideyasını formalaşdırmış, Azərbaycan dilinin Konstitusiyaya dövlət dili kimi ayrıca maddə ilə daxil edilməsinə nail olmuşdur. Məhz buna görə SSRİ süqut edərkən yeni yaranmış müstəqil respublikaların milli ideologiya axtarışları mərhələsində Azərbaycan onların hamısından bir addım irəlidə idi. Çünki başlanğıc mərhələdə müstəqil dövlətlərdəki milli ideoloji əsasları uzaqgörən siyasi lider Heydər Əliyev sovet hakimiyyəti illərində həyata keçirmiş, bu istiqamətdə müstəqil Azərbaycanın bütün taktiki gedişlərini müəyyən etmişdi. Məhz dahi şəxsiyyətin sayəsində ölkəmiz müstəqil türk dövlətləri içərisində ilk olaraq latın qrafikalı əlifbaya keçid etmişdir.



**İsa Həbibbəyli**
AMEA-nın prezidenti, akademik

Ümummilli Liderin ləyaqətli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyevin azərbaycançılıq ideologiyasını daha da möhkəmləndirdi, ana dilimizlə bağlı yeni mərhələ yaratdı. Məhz Prezident İlham Əliyevin fərmanı ilə qloballaşma şəraitində Azərbaycan dilinin qorunması və inkişafına dair dövlət proqramı qəbul edilərək həyata keçirilməyə başladı. Latın qrafikası əsasında Azərbaycan ədəbiyyatı klassiklərinin və müasir yazıçıların əsərlərinin kütləvi tirajla nəşr edilməsi də Prezident İlham Əliyevin adı ilə bağlıdır. Milli Elmlər Akademiyasının 60 və 70 illik yubileylərində dövlət başçısı öz proqram xarakterli nitqində ana dili ilə əlaqədar problemlərdən bəhs etdi, alimlərimizin və akademiyanın əməkdaşları qarşısında bu istiqamətdə məsul vəzifələr qoydu. Bütün bunlara görə əminliklə deyə bilərəm ki, ana dilinin saflığı uğrunda mübarizə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətində davamlı və ardıcıl xarakter daşıyır.

Prezident İlham Əliyevin 2025-ci il noyabrın 3-də AMEA-nın 80 illik yubileyində və 2026-cı il yanvarın 5-də yerli televiziyalara müsahibəsində ana dili haqqındakı fikirləri, irəli sürdüyü vəzifələr davamlı bir prosesin təbii əks-sədasıdır. Ölkə başçısı üçün Azərbaycan dili xalqın milli kimliyinin və müstəqil dövlətin varlığının əsas amillərindəndir. Bu mənada dövlət rəhbərinin ana dili uğrunda mübarizəsi azərbaycançılıq ideologiyasının əsas müddəalarını təşkil edir. Prezident İlham Əliyevin söylədiyi bu sözlər bu gerçəkliyi bir daha nəzərə çatdırır: "Dil dövlətçiliyin əsas atributlarından biri, bəlkə də birincisidir. Təbii ki, bayraqla, gerblə, himnlə birlikdə... Dil o amildir ki, milləti millət edir... Bizim dilimiz böyük bir xalqın dilidir. Bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində qala bilməz".

Milli Elmlər Akademiyasının 80 illik yubileyində də Prezident İlham Əliyev Azərbaycan dilinin saflığının, xarici təsirlərdən qorunmasının və daxili imkanlar hesabına zənginləşdirilməsinin dövlət siyasətinin əsas müddəalarından biri olduğunu bəyan etdi, yad kəlmələrdən yersiz istifadəni sərt şəkildə "təxribat" adlandırdı. Ölkə rəhbərimizin 2026-cı il yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədəki Azərbaycan dili mövzusu Milli Elmlər Akademiyasının 80 illik yubileyində



bu istiqamətdə irəli sürdüyü mülahizələri daha da genişləndirdi.

Prezident İlham Əliyev geniş mənada dünya azərbaycanlılarının milli kimlik möhürü və pasportu kimi dəyərləndirdiyi ana dilimizin - dövlət dilimizin qorunub saxlanılmasını hər bir Azərbaycan vətəndaşının - yazıçıların, şairlərin, jurnalistlərin, ziyalıların, alimlərin məsuliyyətli və şərəfli borcu hesab edir. O, dili qorumağın ana vətəni, doğma torpağı, mənsub olduğu xalqı qorumağın ən mühüm istiqamətlərindən biri olduğunu söyləyir. Dövlət başçımız bu sahədə hər hansı bir məsuliyyətsizliyin törədə biləcəyi fəlakətin mahiyyətini dərindən əsaslandırılmış şəkildə nəzərə çatdırır: "Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq?... Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm".

Ölkə başçısının dövlət dilimiz haqqında həyəcanla açıqladığı mövqe xalqımızın böyük mütəfəkkirlərinin bir neçə əsr ərzində uğrunda mübarizə apardıqları ana dili mücadiləsinin yeni tarixi dövrdəki daha qətiyyətli nümunəsidir. Bu mübarizəni Prezident İlham Əliyev inkişaf etdirərək dövlət səviyyəsinə qaldırmışdır. Bu mənada haqlı olaraq deyildiyi kimi, Heydər Əliyev-İlham Əliyev epoxasında müstəqil Azərbaycan dövləti öz ana dilinin sahibi və keşikçisi kimi çıxış edir.

Azərbaycan dilinin qorunub saxlanılması, mövqeyinin möhkəmləndirilməsi, daxili imkanlar hesabına zənginləşdirilməsi yollarının və vasitələrinin elmi cəhətdən müəyyən edilməsi, xalqımıza çatdırılması AMEA-nın, xüsusən də humanitar və ictimai elmlər üzrə elmi-tədqiqat institutları əməkdaşlarının borcu və vəzifəsidir. Dilimizin qrammatik əsaslarının elmi şəkildə tədqiq edilib öyrənilməsi, yeni nəsillərə çatdırılması son yüzilliyin ən mühüm nailiyyətlərindən biridir. Alimlərimiz ana dilinə - dövlət dilinə münasibətdə öz vətəndaş narahatlıqlarını ifadə etməyə də borcludurlar. Çünki ana dili ana vətən, ana torpaq deməkdir, dil dövlət və xalq deməkdir.

Ölkə rəhbərinin ana dili siyasətində dilimizin yad təsirlərdən, yersiz işlədilən alınma sözlərdən, əcnəbi terminologiyadan qorunması və daxili imkanlar hesabına zənginləşdirilməsi məsələləri xüsusi yer tutur. "Bizim bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır" - deyən dövlət başçımızın sözlərinə görə beynəlxalq şəkildə qəbul olunmuş terminologiyanı çıxmaq şərti ilə yad sözlərdən yerli-yersiz istifadə ana dilinin zədələnməsinə səbəb olur: "Bəzən bilərəkdən,

bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir... Xarici kəlmələr dilimizi pozur, milli kimliyimizi sarsıdır, damcı-damcı, yavaş-yavaş. Dil əldən gedəndən sonra, yaxud da pozulandan sonra, onda kimlik də gedəcək, ondan sonra... ölkəmiz də böyük fəlakətlə üzləşə bilər".

Cənab Prezident Azərbaycan dili haqqında qoyduğu bu qəti mövqe ilə müasir dövrün terminologiya axını qarşısında dilimizin keşiyində dayanmağın hər bir ölkə vətəndaşının müqəddəs borcu və vəzifəsi olduğunu diqqətə çatdırır. Ona görə də bütün qurumlar imkanları daxilində ana dilinin saflığını qorumalı, onun yad təsirlərlə zədələnməsinə yol verməməlidirlər. Bunun üçün, ilk növbədə, dilimizə daxil olan yad kəlmələrin, elmi-texniki terminlərin qarşılığı tapılıb müəyyən olunmalı və işlədilməlidir. Ana dilimizin zəngin söz ehtiyatına malik olması bu prosesi həyata keçirmək üçün geniş imkanlar yaradır.

Dilimizin daxili imkanlar hesabına zənginləşdirilməsi, yad kəlmələrin və terminlərin qarşılığının tapılıb əvəzlənməsi üçün əsas mənbələr Azərbaycanın mövcud dialektlər və şivələr xəzinəsidir, yazıçı və şairlərin saysız-hesabsız bədii əsərləri, tükənməz folklor irsimiz və mətbuat materiallarıdır. Dilimiz zəngin dillər siyahısına daxil olduğu üçün bu mənbələrdəki imkanlardan yaradıcı şəkildə istifadə etməklə daim özünün ehtiyat xəzinəsi və söz yaradıcılığı hesabına zənginləşdirilə bilər. Çünki Azərbaycan dili yad kəlmələrə ən az ehtiyacı olan dillər sırasındadır. Əsas vəzifə dilimizin zəngin daxili imkanlarından, ehtiyat fondundan istifadə etməyi bacarmaq və bu işin məsuliyyətini dərindən dərk etməkdən ibarətdir.

Azərbaycan Milli Elmlər Akademiyasının alimləri dövlət başçımızın ana dili siyasətinə uyğun olaraq ardıcıl və sistemli elmi tədqiqatlar aparmaqda davam edirlər. Nəsimi adına Dilçilik İnstitutunda çap olunmuş və hazırda yenisi hazırlanmaqda olan "Orfoqrafiya lüğəti" dilimizdə düzgün yazı vərdişlərinin tənzimlənməsinə bələdçilik edir. Son yüzillikdə ilk dəfə olaraq nəşr edilməsi üçün hazırlıq işləri aparılan "Azərbaycan dilinin orfoepiya lüğəti" isə düzgün tələffüz qaydalarını və ehtiyat imkanlarını meydana çıxaracaqdır. Artıq akademiyada 2 cilddə çap olunan "Azərbaycan dilinin frazeoloji lüğəti", xaricdə yaşayan həmvətənlərimiz üçün "Salam, Azərbaycan dili" proqramı və dərsliyi də ana dili ilə bağlı problemlərin həllinə dilçilik elminin dəstəyinin ifadəsidir.

> "Hər bir millət, hər bir xalq üçün onun ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur".
>
> **İlham Əliyev**

Bundan başqa, akademiyada müasir dövrün tələblərinə və xalqımızın malik olduğu yüksək dəyərlərə əsaslanaraq şəxs adlarının yeni kataloqunun hazırlanması istiqamətində aparılan işlərdə Azərbaycan dili faktoru əsas amillərdəndir. Prezident İlham Əliyevin akademiyadakı nitqindən və yerli televiziyalara verdiyi müsahibədən sonra Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Nəsimi adına Dilçilik İnstitutunda yaradılmış "Müasir Azərbaycan dili və nitq mədəniyyəti", "Onomastika" şöbələri də ölkə başçısının çağırışlarının həyata keçirilməsi istiqamətində atılmış əməli addımlardır.

Fikrimizcə, Azərbaycan dilinin saflığının qorunmasının aktual olduğu indiki şəraitdə Nazirlər Kabinetinin nəzdində olan Terminologiya Komissiyasının da tərkibinə yenidən baxmaq və komissiyanın işini daha da intensivləşdirmək faydalı olar.

Milli Məclisdə də ana dili ilə bağlı məsələlərin həlli və tənzimlənməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Azərbaycan MDB ölkələri içərisində ilk dəfə 2002-ci ildə "Dövlət dili haqqında" Qanun qəbul etmişdir. Parlamentdə qəbul olunmuş "Elm haqqında", "Təhsil haqqında" qanunlarda da Azərbaycan dilinin tədqiqi, tədrisi, işlədilməsi ilə bağlı əsaslı müddəalar öz əksini tapmışdır.

Cari il yanvarın 8-də AMEA-nın Terminologiya Komissiyasının Milli Məclislə birgə "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: mövcud vəziyyət və perspektivlər" mövzusunda keçirdiyi elmi konfransda Prezident İlham Əliyevin ana dili ilə əlaqədar söylədiyi fikirlərin geniş şəkildə müzakirə edilməsi qanunvericilik orqanının elmi ictimaiyyətlə birlikdə dilimizin keşiyində durmaq məsuliyyətini daha aydın şəkildə ifadə edir. Bu konfransda parlamentin sədri Sahibə xanım Qafarovanın elmi və siyasi cəhətdən yüksək səviyyəli məruzəsində Azərbaycan dilinin qanunvericilik bazasının daha da möhkəmləndirilməsi qayğıları ilə yanaşı, ana dilinə münasibətdə qarşıda duran genişmiqyaslı mühüm vəzifələr də öz əksini tapmışdır.

Milli Məclis sədrinin filologiya sahəsində samballı elmi nailiyyətlərə malik olması və qanunvericilik orqanındakı kifayət qədər zəngin təcrübəsi elmi cəhətdən olduğu kimi, ictimai-siyasi cəhətdən də son dərəcə əhəmiyyətli olan ana dili - dövlət dili məsələsinin parlament səviyyəsində şərh edilməsinə, əməli təkliflərin meydana çıxmasına şərait yaratdı. Hesab edirəm ki, 2026-cı

il fevralın 13-də Azərbaycan Prezidentinin ana dili ilə bağlı qarşıya qoyduğu vəzifələrin plenar iclasda müzakirəyə çıxarılması cəmiyyətə problemin aktuallığını və əhəmiyyətini çatdırmaq baxımından son dərəcə qiymətli addım idi.

Bundan başqa, Milli Məclisin Toponimiya Komissiyasının ölkə coğrafiyasındakı yer adlarının dəyişdirilməsində tutduğu azərbaycançılıq mövqeyi və bu sahədə elmi-tarixi prinsiplərə istinad olunması hazırkı şəraitdə gedən ana dilinin keşiyində dayanmaq missiyasını tamamlayır və möhkəmləndirir. Son bir neçə il ərzində Toponimiya Komissiyasında ilk növbədə işğaldan azad olunmuş ərazilərdə ermənilər tərəfindən süni şəkildə uydurulmuş adların bərpası və ölkə üzrə vaxtilə siyasi-ideoloji prinsiplər əsasında qoyulmuş qondarma adların doğma yer adları ilə əvəzlənməsi sahəsində aparılan işlər də öz növbəsində ana dilinə xidmətin əməli ifadəsidir. Bütövlükdə Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan dili problemlərinə bəslədiyi münasibətdə aydın dövlətçilik və vətəndaşlıq mövqeyi, eləcə də qanunvericilik prinsiplərinə söykənən elmilik bir-birini üzvü surətdə tamamlayır.

Prezident İlham Əliyevin 2026-cı il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində "Sizin üçün torpaq nədir?" sualına verdiyi cavabdakı dərin məna ölkə rəhbərimizin müstəqil dövlətçilik, azərbaycançılıq və ana dili baxışlarının obrazlı və ümumləşdirilmiş ifadəsi idi: "Bilirsiniz, bizim hamımız üçün torpaq anlayışı, ilk növbədə, itirilmiş torpaqlarla bağlı idi... Vətən müharibəsi dövründə torpaq mənim üçün hər azad edilmiş kəndin timsalında ortalığa çıxırdı və necə deyərlər, hər bir şəhidin şəhid olduğu yer torpaq idi mənim üçün... Hər dəfə bayrağımız bir kəndə, şəhərə sancılanda mənim üçün Azərbaycan məhz o torpaq idi. Nə deyim, noyabrın 8-dən sonra nəzarətdə olmayan torpaq mənim üçün Azərbaycan idi. O torpağı qaytarmaq necə?.. Amma mənim üçün torpaq o vaxt o idi, Azərbaycan o idi - Xankəndi idi, Xocalı idi. O da artıq azad olundu.

İndi, necə deyərlər, torpaq deyəndə, sözün düzü, mən daha çox torpağın keyfiyyətinə baxıram, harada daha münbit torpaq var, harada yaxşı əkin aparmaq olar. Qarabağa gedəndə baxıram, görürəm, orada qara torpaqdır. Deyirəm, nə gözəl məhsuldar torpaqdır. Artıq o torpaq anlayışı, yəni o zədəli, yaralı torpaq anlayışı yoxdur... Çünki artıq sülh dövrüdür, quruculuq dövrüdür... Hər an öz torpağımızı müdafiə etmək üçün güclü olmalıyıq, hazır olmalıyıq və əminəm ki, bundan sonra heç vaxt bir qarış torpağımız heç kimin tapdağı altına düşməyəcək. Bunun üçün həm güc var, həm iradə var, xalqın birliyi var. Güclü Azərbaycan dövləti var".




Bu müdrik və dərin mənalı fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkə, vətən və ana dili uğrunda mübarizəsinin və ideallarının möhtəşəm yekunudur. Bu, ana torpaq haqqında dövlət başçısı səviyyəsində verilmiş vətənpərvərlik dərsləridir, ana dilini qorumağın və inkişaf etdirməyin doğma torpaq fəlsəfəsinin üzvü tərkib hissəsi olduğunun göstəricisidir.




# Zəngəzurda türk mənşəli toponimlər

## və onlara qarşı erməni soyqırımı siyasəti




**Musa Quliyev**
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Toponimiya Komissiyasının sədr müavini


Azərbaycanın ən qədim dövlətçilik və mədəniyyət mərkəzlərindən biri olan Zəngəzurun toponimlərinin 90 faizdən çoxu türk-müsəlman mənşəlidir. Qafqaz Albaniyasının qərb vilayəti olan Sisakan mahalı XIV əsrdən etibarən Zəngəzur adlandırılıb. Bu toponimin yaranması zəngi tayfaları və ərəblərin bölgəyə gəlişi ilə bağlıdır. Zəngəzur toponiminin birinci hissəsi - “zəngi” tayfa adıdır, ikincisi isə ərəbcə “sur” sözündən götürülmüş qala, bürc, silsilə divar mənasını daşıyır.

Zəngi tayfalarının ilkin vətəni Özbəkistandır. Ancaq eramızın 1-ci əsrindən başlayaraq onlar Orta Asiyaya, Əfqanıstana, İrana, İraqa, Cənubi Qafqaza yayıldılar. Hazırda zəngilərin adı ilə bağlı Özbəkistanda Zəngi, Zəngitəpə, Zəngərik, İranda Zəncan, Türkiyədə Ərzincan, Gürcüstanda Zəngişamlı, İrəvan mahalında Zəngi çayı, Zəngibasar, Zəngilər, Zəngili kimi yerlər, Azərbaycanda Zəngilan rayonu, Zəngidərə çayı, Zəngişalı, Zəngənə, Zəngəran kəndləri mövcuddur.

Zəngəzurdakı ən qədim yaşayış məntəqələrinin adları hələ Qafqaz Albaniyasının ilk təşəkkül dövründən burada yaşayan türk mənşəli tayfalarla - saklar və kimmerlərlə bağlıdır. Qarakilsə rayonunda Sisyan, Şəki, Şükər, Şaqat, Püsək, Gomur, Qafan rayonunda Gomaran yaşayış məntəqələri məhz bu iki tayfa ilə bağlı tarixi sirləri indiyə-

dək gizlədib saxlamış milli-mənəvi dəyərlərimizdəndir. Həmin ərazilərdə hunlarla bağlı olan toponimlər eranın əvvəllərində Cənubi Qafqaza gəlmiş hunların bölgədə məskunlaşması nəticəsində yaranmışdır. Zəngəzurda hun adı ilə bağlı Hünüt, Xunzirək, Qundanlı, hunların "quşçu" tayfasının adını daşıyan Quşçu və Quşçulu kimi toponimlər bu zonanın aborigen sakinlərinin bir başqası deyil, məhz türk xalqları olduğunu sübut edən inkaredilməz dəlillərdir.

Qafqazda eradan əvvəl ikinci əsrdən məskunlaşmağa başlayan türk mənşəli bulqarların izləri Zəngəzurda son vaxtlara qədər qalmaqdadır. Bulqarların Qazan tayfasının adını özündə əks etdirən Qazan dağı, Qazan gölü, Qazançı kəndləri bu ərazilərdə türklərin məskunlaşmasının iki min ildən çox yaşı olduğunu göstərən dəlillərdir.

Eranın əvvəllərindən başlayaraq (193-213-cü illər) Qafqaz Albaniyasına nüfuz edən türkdilli xəzərlər də Zəngəzurda öz izlərini qoymuşlar. Xəzərlərin kulas, belencər, tarna tayfalarının adı ilə bağlı toponimlər Zəngəzurda bu gün də yaşamaqdadır: Ulaşlı kəndi, Tətnəvit yaylağı, Beləncər dağı.

Zonada digər böyük türk tayfalarının (peçeneq, kapan, suvar, sofulu, saral, yaycı, qiqili) adlarını daşıyan Qafan, Piçənis, Sofulu, Sarallı, Gığı, Göyərcik, Suvarlı, Yaycı və digər yaşayış məntəqələrinin olması da buranın aborigen əhalisinin məhz Azərbaycan türklərinin olduğunu sübut edən danılmaz tarixi faktlardır.

Tarixdən məlumdur ki, Zəngəzurun ərazisi qədim oğuz məskənlərindən biridir. Bütün türk xalqlarının qəhrəmanlıq eposu sayılan "Kitabi-Dədə Qorqud"dakı hadisələrin çoxu bu ərazilərdə baş vermişdir və həm tarixin daş yaddaşında, həm də insanların qan və gen yaddaşında bu günə qədər qorunub saxlanılır. Dastanda mənfi obraz kimi verilən Şöklü Məlik də özgə deyil, Salur Qazanla bir kökdən olan, ancaq xristianlığı qəbul etmiş qıpçaq Saklı Məlikdir. Şöklü (saklı) Məliyin kafir kimi verilməsi də başa düşüləndir.

Xristianlıq III əsrin sonlarında Qafqazda yayılmağa başlamış, IV-V əsrlərdə isə Zəngəzura (Sünikə) gəlib çıxmış, lakin burada yaşayan əhali tərəfindən o qədər də həvəslə qarşılanmamışdır. Albaniya əhalisinin bir hissəsi (Şöklü Məlik, Saklı Sumbat timsalında) xristianlığı qəbul etmiş, Bizansın maddi, siyasi və hərbi dəstəyini qazanaraq regionda hökmran mövqe tutmağa nail olmuşlar. Bu dini qəbul etməyən tayfalar isə VII-VIII əsrlərdə islamı qəbul edərək tədricən müsəlmanlaşmış, öz xristian yurddaşlarını münaqişə zamanı "kafir", sülh, əmin-amanlıq dövründə isə "din ayrı qardaş" adlandırmağa başlamışdılar.

Zəngəzurda oğuzların bayandur, qayı, xələc, çəpni tayfaları mövcud olmuşdur. Xüsusilə qayı türklərinin qacar, baharlı, zəngənə, zülqədər, padar, çoban qəbilələrinin adı ilə bağlı onlarla toponim vardır. Qafan rayonundakı Qacaran, Avşarlı, Çəpni, Çullu, Xələc, Çobanlı, Dərzili, Gorus rayonundakı Bayandur, Yaycı, Sisyan rayonundakı Baharlı, Uz, Murxuz, Burcalar, Dərzili, Zabazadur, Qubadlı rayonundakı Xələc, Padar, Dondarlı, Zəngilan rayonundakı Baharlı,








Bürünlü, Ördəkli kəndlərinin adları məhz 24 oğuz tayfaları ilə əlaqədar olan topomorfantlardır.

Qarakilsə, Qafan və Zəngilan rayonlarında bir neçə Baharlı kəndinin olmasını məhz eyni adlı tayfaların bu ərazidə geniş yayılması ilə izah etmək mümkündür. Zəngəzurdakı Şıxlar, Mollalı, Müsəlləm, Pirdavudan, Səncərli, Şəhərcik, Ərəbxana, Şam, Şamsız, Məzrə, Məliklər kimi yurd adlarının bəziləri islamla bağlı ərəb-fars mənşəlidir.

Bəzi yaşayış məntəqələrinin tarixi isə çox qədimdir. Eramızın əvvəllərində, hətta müasir eradan əvvəlki minilliklərdə mövcud olmuş və öz tarixi keçmişini və mənsubluğunu adında yaşadan Urud, Vağudi, Ağudi, Dovrus, Şurnuxu, Şabadin, Qurdqalaq və digər bu kimi toponimlərin izahını vermək xeyli çətindir.

Zəngəzur ərazisindəki hidronimlərin də demək olar ki, hamısı (Bazarçay, Bərgüşad, Oxçu çayı, Çaundur çayı, Oxdar çayı, Bəsitçay, Əyri çay, Dəli çay, Padarçay, Qazangöl, Qaragöl və s.) Azərbaycan dilindədir. Ümumiyyətlə, apardığımız ətraflı tarixi, etnoqrafik, linqvistik, toponomik tədqiqatlar tam qətiyyətlə deməyə əsas verir ki, sonradan yaranmış bir neçə kəndi çıxmaqla Zəngəzurda erməni mənşəli heç bir topomorfant yoxdur.

Təəssüflər olsun ki, XX əsrdə ermənilər tərəfindən torpaqlarımızın işğalı, xalqımıza qarşı törədilən etnik təmizləmə və soyqırımı cinayətləri toponimlərimizdən də yan keçməmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəngəzurun Ermənistana verilməsini haqlı olaraq xalqımıza və bütövlükdə türk dünyasına qarşı böyük ədalətsizlik və düşmənçilik adlandırır: "O vaxt xalqımıza qarşı ədalətsizlik edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana ver-



mişdilər. Bu, böyük ədalətsizlik idi. Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda, bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda, böyük türk dünyası iki yerə bölünürdü. Bu, ədalətsizlikdir, bu, sağalmayan yaradır".

Ermənistan SSR-də 1935-ci ilədək 195 azərbaycanlı yaşayış məntəqəsinin adı hökumətin müvafiq strukturlarının qərarları əsasında dəyişdirilmişdir. 1935-ci ildən etibarən isə yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları əsasında həyata keçirilmişdir. Sovet hakimiyyəti dövründə Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları əsasında 1935, 1938, 1939, 1940, 1946, 1947, 1948, 1949, 1950, 1957, 1962, 1968, 1969, 1977, 1978, 1980-ci illərdə 521 türk mənşəli yaşayış məskənlərinin adları dəyişdirilmişdir. 1988-ci ilin avqust ayınadək Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin 1991-ci il 9 aprel tarixli fərmanı ilə 90 yaşayış məntəqəsinin, 8 avqust 1991-ci il fərmanı ilə 16 yaşayış məntəqəsinin, Ermənistan parlamentinin 4 iyul 2006-cı il tarixli qərarı ilə isə əvvəllər azərbaycanlılara məxsus olmuş daha 31 yaşayış məntəqəsinin adları dəyişdirilərək erməniləşdirilmişdir. 8 avqust 1991-ci il fərmanı ilə Zəngəzurda 14 yaşayış məntəqəsinin - Aşağı Gödəkli, Yuxarı Gödəkli, Dovruz, Xələc, Kirs, Kurud, Qızılcıq, Qurdqalaq, Çaykənd, Nüvədi, Pəyhan, Pürülü, Sofulu, Qızılşəfəq kəndlərinin adları dəyişdirilmişdir. Bütövlükdə, ötən əsrdə Qərbi Zəngəzur ərazisində mövcud olmuş





115 azərbaycanlı kəndinin 54-ü tamamilə dağıdılmış, 61 yaşayış məntəqəsinin isə adı dəyişdirilmişdir.

Tarixin estetikası zorakı müdaxiləni qəbil etmir. Tarix hər şeyi öz yerinə qoyur. Özünün olmayanı zorla özününküləşdirə bilməzsən. Qəhrəman xalqımızın 44 günlük Zəfər savaşından sonra ədalət bərpa olundu. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında yenilməz ordumuz torpaqlarımızı işğaldan azad etdi. Artıq Qarabağa və Şərqi Zəngəzura möhtəşəm geri dönüş başlamışdır.

Yolumuz Qərbi Zəngəzura və bütöv Azərbaycana doğrudur! Tanrı yolumuzu həmişə açıq etsin!




# XOCALI SOYQIRIMI: bəşəriyyət əleyhinə törədilmiş cinayət



**Nizami Səfərov**
Milli Məclisin deputatı,
hüquq elmləri doktoru

XX əsrdə bir çox müharibələrin və silahlı münaqişələrin baş verməsi, beynəlxalq humanitar hüququn ciddi pozuntulara məruz qalması, müharibə qanunlarına və adətlərinə etinasız münasibətin nümayiş etdirilməsi fonunda bəşəriyyət tarixində misli görünməyən Xocalı soyqırımı öz qəddarlığı, açıq-aşkar insanlığı inkar edən cinayət hadisəsi kimi yaddaşlarda əbədi qalacaq. Erməni silahlı birləşmələrinin beynəlxalq hüququn imperativ (jus cogens) normalarını pozaraq mülki vətəndaşları, dinc sakinləri milli mənsubiyyətinə görə kütləvi şəkildə qətlə yetirmələrinin, sadəcə, bir adı var - cinayətlərin cinayəti.

1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhəri Ermənistan tərəfindən tam mühasirəyə alınaraq yerlə-yeksan edilib, dinc əhali pusquya salınıb və onlara divan tutulub. 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 ahıl insan vəhşicəsinə qətlə yetirilib. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki, 130 uşaq isə bir valideynini itirib. Aralarında 76 uşağın olduğu 487 nəfər yaralanıb. Xocalı soyqırımı zamanı əsir və girov götürülən-







lərin 196 nəfərinin, o cümlədən 36 nəfər uşağın, 65 nəfər qadının taleyindən hələ də məlumat yoxdur.

Erməni işğalının nəticəsində Xocalı şəhərində 105 sosial-məişət obyekti, 3200 fərdi yaşayış binası, 14 məktəb, 21 klub, 29 kitabxana, 3 mədəniyyət evi və 1 tarix-diyarşünaslıq muzeyi dağıdılıb. Şəhərdə XIV-XV əsrə aid türbələr, günbəzlər, məzarlar yerlə-yeksan olunub.

Ümummilli Lider Heydər Əliyev baş verən faciəni xarakterizə edərək demişdir: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir. Xocalı faciəsi Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır - vəhşiliyin görünməmiş təzahürüdür".

Müasir beynəlxalq hüquqda "genocide" termini iki sözün birləşməsi olaraq (yunan sözü "genos" - irq, irqi mənsubiyyət və latın sözü "cide" - qətlə yetirmək) ilk dəfə müstəqil beynəlxalq cinayət kimi Amerika Birləşmiş Ştatlarının Hərbi nazirliyində məsləhətçi vəzifəsində çalışan yəhudi əsilli Polşa vətəndaşı Rafael Lemkinin 1944-cü ildə Vaşinqtonda dərc etdirdiyi "İşğal olunmuş Avropada faşist idarəetməsi" monoqrafiyasında istifadə olunub.

İkinci Dünya müharibəsindən sonra əsas faşist canilərinin məsuliyyətə cəlb edilməsi və cəzalandırılması üçün yaradılan Nürnberq Beynəlxalq Hərbi Tribunalının Nizamnaməsində soyqırımı cinayəti nəzərdə tutulmamışdı. Məlum olduğu kimi, müharibə caniləri Tribunal Nizamnaməsinin 6-cı maddəsində əksini tapan 3 cinayətin - sülh əleyhinə, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərin törədilməsində ittiham olunurdular. Ancaq buna baxmayaraq, "soyqırımı" ifadəsi cinayət proseslərinin gedişində qalib gələn dövlətləri təmsil edən ittihamçılar tərəfindən dəfələrlə səsləndirilmişdi. Bundan başqa, Nürnberq prosesi çərçivəsində irəli sürülən 1945-ci il 6 oktyabr tarixli ittiham aktında qeyd edilirdi: "Müttəhimlər irqi və milli qrupların, işğal altında olan ərazilərdə yaşayan müəyyən xalqların, etnik və dini qrupların, xüsusilə yəhudilərin, polyakların, qaraçıların qəsdən və sistematik formada məhv edilməsi uçün soyqırımı həyata keçirirdilər".

İkinci Dünya müharibəsi dövründə törədilən irimiqyaslı və sistematik xarakter daşıyan ağır cinayətlərin təsiri altında və həmçinin nəzərə alaraq ki, Nürnberq Beynəlxalq Hərbi Tribunalının təsis sənədi olan Nizamnaməsində etnik, milli, irqi, dini mənsubiyyətinə görə insanların qətlə yetirilməsi beynəlxalq cinayətlərin müstəqil kateqoriyası kimi tanınmamışdır. Birləşmiş Millətlər Təşkilatı dərhal hərəkətə keçdi. Beynəlxalq qurumun Baş Assambleyasının 1946-cı il 9 noyabr tarixli ilk iclasında irəli sürülən təşəbbüs tam dəstəklənərək, noyabrın 11-də yekdilliklə "Soyqırımı cinayəti" adlanan 96 (I) saylı qətnamə qəbul olundu. Bu sənəddə birmənalı olaraq qeyd edilirdi ki, "beynəlxalq hüquq nöqteyi-nəzərindən soyqırımı sivil dünya tərəfindən qınanılır" və bu cinayətin cəzalandırılması "beynəlxalq əhəmiyyətli məsələdir". Həmin qətnamədə həmçinin BMT-nin İqtisadi və Sosial Şurasına təklif olunmuşdu ki, Baş Assambleyanın növbəti sessiyasında müzakirə edilmək üçün soyqırımı konvensiyası layihəsinin hazırlanması məsələsini nəzərdən keçirsin.

Qısa müddət ərzində yeni beynəlxalq cinayətlə bağlı müqavilə layihəsi hazırlandı və müvafiq müzakirələrdən sonra 1948-ci il dekabrın 9-da "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiya qəbul edildi. Beləliklə, 1941-ci il avqustun 24-də Birləşmiş Krallığın Baş naziri Uinston Çörçillin "adsız cinayət" adlandırdığı cinayət əməli "soyqırımı" adlandırılaraq, identifikasiya olunan qruplara qarşı yönələn cinayət kimi beynəlxalq leksikona daxil edildi.

Konvensiyanın 2-ci maddəsinə əsasən, soyqırımı hər hansı milli, etnik, irqi və ya dini qrupun qismən və ya bütövlükdə məhv edilməsi niyyəti ilə törədilən aşağıdakı hərəkətlərdən biridir:

a) bu cür qrup üzvlərinin öldürülməsi;
b) bu cür qrup üzvlərinə ağır bədən xəsarətlərinin və ya-

xud əqli qabiliyyətinə ciddi zərər yetirilməsi;

c) qəsdən hər hansı bir qrupun tam və ya qismən fiziki məhvini nəzərdə tutan həyat şəraitinin yaradılması;

d) bu cür qrup daxilində doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi;

e) bir insan qrupuna mənsub olan uşaqların zorla başqa qrupa verilməsi.

Soyqırımı tərkibinin ən mühüm komponentlərindən birini subyektiv element olan *dolus specialis*, yəni identifikasiya olunan qrupların qismən və ya bütövlükdə məhv edilməsi *niyyəti* təşkil edir. BMT-nin əsas məhkəmə orqanı olan Beynəlxalq Məhkəmə *"Bosnia and Herzegovina Serbia and Montenegroya qarşı"* işində xüsusi olaraq qeyd etmişdir ki, 1948-ci il Konvensiyasının II maddəsində müəyyən edildiyi kimi, soyqırımı *"hərəkət"* və *"niyyət"* elementlərini əhatə edir. İstinad olunan subyektiv element milli, etnik, irqi və ya dini qruplara qarşı yönələn cinayətin soyqırımı kimi tövsif edilməsi üçün aparıcı rol oynayır və soyqırımını istər ümumi cinayət xarakterli əməllərdən, istərsə də digər beynəlxalq cinayətlərdən fərqləndirməyə imkan verir.

Azərbaycan Respublikası "Soyqırımı cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında" Konvensiyaya 1996-cı il mayın 31-də qoşulmuşdur və implementasiya qaydasında beynəlxalq müqavilənin müddəalarını Cinayət Məcəlləsinə daxil etmişdir. Məcəllənin 103-cü maddəsi soyqırımı cinayətinə görə məsuliyyət müəyyən edərək, onun törədilməsinə görə on dörd ildən iyirmi ilədək müddətə azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrumetmə cəzası nəzərdə tutmuşdur. Həm konvensiyada, həm də Cinayət Məcəlləsinin 103-cü maddəsində soyqırımı cinayətinin iki forması əksini tapıb:

- fiziki soyqırımı, yəni identifikasiya olunan qrup üzvlərinin öldürülməsi, onlara ağır bədən xəsarətlərinin və yaxud əqli qabiliyyətinə ciddi zərər yetirilməsi və ya fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;
- bioloji soyqırımı: qrup daxilində doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi, bir insan qrupuna mənsub olan uşaqların zorla başqa qrupa verilməsi. Baxmayaraq ki, 1944-cü ildə formalaşan soyqırımı konsepsiyasının üç forması - fiziki, bioloji və mədəni soyqırımı müəyyən edilmişdir, amma istər konvensiyada, istərsə də daxili qanunvericilikdə mədəni soyqırımı əksini tapmamışdır.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, milli qanunvericilikdə soyqırımı cinayətinin təqibetmə



**Nürnberq Beynəlxalq Hərbi Tribunalı (1945-ci il)**

rejimi ilə bağlı bir neçə mühüm müddəa əksini tapmışdır.

Birincisi, qeyd edilən cinayətə münasibətdə heç bir müddət tətbiq olunmur. Azərbaycan Respublikası 1996-cı il mayın 31-də "Müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə görə müddətlərin tətbiq edilməməsi barədə" 1968-ci il 28 noyabr tarixli BMT Konvensiyasına qoşulmuşdur. Sənədin müddəalarını Cinayət Məcəlləsinin 75.5 maddəsində implementasiya edərək, bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və müharibə cinayətləri törətmiş şəxslərə bu maddənin müddəalarının tətbiq olunmadığını ehtiva etmişdir.

Milli qanunvercilikdə soyqırımı cinayətinə münasibətdə digər mühüm hüquqi yanaşma 2006-cı il 12 may tarixli "Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında" Konstitusiya qanununda əksini tapmışdır. Həmin qanunun 1-ci maddəsinə əsasən Azərbaycan Respublikası Konstitusiyasının heç bir müddəası hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına əsasən törədildiyi zaman cinayət sayılan əmələ (hərəkət və ya hərəkətsizliyə) görə hər hansı şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə və cəzalandırılmasına mane olan müddəa kimi şərh edilə və ya başa düşülə bilməz.

İkinci mühüm hüquqi məqam soyqırımı cinayəti törətmiş şəxslərin universal yurisdiksiya əsasında məsuliyyətə cəlb edilməsidir. Cinayət Məcəlləsinin 12.3 maddəsinə əsasən sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə cəzalandırılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn digər cinayətlər törətmiş Azərbaycan Respublikası vətəndaşları, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər cinayətlərin törədilməsi yerindən asılı olmayaraq, bu məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılır. Universal yurisdiksiya ekstra ərazi cinayət yurisdiksiyası növü qismində cinayətlə onu törətmiş şəxsin hər hansı legitim bağlantısına (vətəndaşlıq, cinayətin törədilməsi yeri) deyil, yalnız cinayət əməlinin xarakterinə əsaslanır.






Bütövlükdə bəşəriyyətə qarşı yönələn Xocalı faciəsinin yaddaşlarda əbədi olaraq qalması istiqamətində ölkəmizdə mühüm addımlar atılmışdır. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etmiş-




dir. Həmçinin Ümummilli Liderin 1997-ci il 25 fevral tarixli Sərəncamı ilə Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək məqsədi ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilmişdir.

Xocalı soyqırımı həqiqətlərinin dünyaya çatdırılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu beynəlxalq miqyasda müxtəlif istiqamətləri əhatə edən əhəmiyyətli işlər həyata keçirmişdir. Mühüm hadisələr sırasında "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasına Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə start verilməsi xüsusi qeyd edilməlidir. Kampaniya qlobal səviyyədə fəaliyyət göstərmək və öz müraciətlərini çatdırmaq üçün müxtəlif kommunikasiya vasitələri və resurslarından, o cümlədən media, internet və canlı tədbirlərdən fəal şəkildə istifadə etmişdir. Kampaniya bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir - 100 minlərlə şəxs və 115 təşkilat kampaniyanın fəaliyyətini dəstəkləyir.

> "Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi".
>
> **İlham Əliyev**

Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işlərin nəticəsidir ki, bir çox ölkələrdə qəbul olunan



parlament aktlarında bu soyqırımı tanınmışdır. Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunvericilik orqanları tərəfindən müvafiq parlament qətnamələri qəbul edilmişdir. Xocalı soyqırımı ABŞ-nin 30-dan çox ştatının qanunvericilik qurumları və qubernator proklamasiyaları səviyyəsində tanınıb. 2013-cü ilin fevral ayında Qahirədə keçirilən İslam Əməkdaşlıq Təşkilatı Zirvə Konfransının 12-ci sessiyasında qəbul olunan Yekun Kommünikedə üzv dövlətlər Xocalı soyqırımının tanınması istiqamətində zəruri səylər göstərməyə çağırıldılar.

Ölkəmizin hüquq-mühafizə orqanları Azərbaycan vətəndaşlarına qarşı silsilə beynəlxalq cinayətlər törədən şəxslərin ədalət mühakiməsi qarşısında cavab vermələri üçün bütün zəruri addımları atırlar. Milli məhkəmə sistemi çərçivəsində soyqırımı, insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş erməni canilərinin ömürlük və uzunmüddətli azadlıqdan məhrumetmə cəzasına məhkum olunmaları beynəlxalq miqyasda hüququn aliliyinin təmin edilməsinin təntənəsi olaraq, eyni zamanda, beynəlxalq cinayətlərə görə cəzasızlığın aradan qaldırılması prosesinə ölkəmizin böyük töhfəsidir. Məsələ burasındadır ki, soyqırımı, insanlıq əleyhinə cinayətlər və müharibə cinayətlərinin törədilməsinin qadağası qlobal müstəvidə imperativ xarakteri daşıyır və bu cür əməllərin təqibində bütövlükdə beynəlxalq birliyin hüquqi maraqları mövcuddur.

Azərbaycanın irəli sürdüyü və məqsədi regionda davamlı sülhün və təhlükəsizlik rejiminin bərqərar olunması kimi müəyyən edilmiş diplomatik yol xəritəsinin reallaşdırılması, eyni zamanda, mülki əhaliyə qarşı etnik təmizləmə, soyqırımı, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər törədən şəxslər üzərində keçid dövrünün ədalət mühakiməsinin həyata keçirilməsini mütləq formada tələb edir. Azərbaycan ərazi bütövlüyünü və  suverenliyini döyüş meydanında öz gücünə bərpa etdiyi kimi, sona qədər hüquqi mücadiləsini də davam etdirəcək və münaqişə qurbanlarının qanını yerdə qoymayacaq, müharibə canilərini cəzalandıracaq.

Bəşəriyyət tarixinin ən böyük faciəsi olan Xocalı soyqırımı heç vaxt xalqımızın yaddaşından silinməyəcək və Azərbaycan xalqı bu qanlı cinayəti heç zaman unutmayacaq. Prezident İlham Əliyev tərəfindən 2023-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Dövlət Bayrağının Xocalı şəhərində ucaldılması bir daha əyani şəkildə nümayiş etdirdi ki, biz əbədi olaraq doğma torpağımıza qayıtmışıq.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: “Biz tarixi ədaləti bərpa etmişik. Biz günahsız Xocalı qurbanlarının qisasını döyüş meydanında aldıq, qoymadıq ki, onların qanı yerdə qalsın”.



# RASİM MUSABƏYOV - 75

***Hörmətli Rasim müəllim!***

*Sizi - Milli Məclisin deputatını, tanınmış politoloq alimi anadan olmağınızın 75 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz hələ Azərbaycan Neft və Kimya İnstitutunda tələbə olduğunuz illərdə ictimai işlərdə fəallıq göstərmiş, komsomol komitəsində çalışaraq bu təşkilatda Tələbə gənclər şöbəsinin müdiri, sonra isə onun Mərkəzi Komitə Aparatında məsul təşkilatçı vəzifələrində işləmisiniz.*

*Bununla yanaşı, Siz elmi fəaliyyətə də maraq göstərmiş, Komsomol Təşkilatı Mərkəzi Komitəsi yanında Ali Komsomol Məktəbinin (indiki Moskva Humanitar Universiteti) aspiranturasında təhsil almısınız. Burada elmi araşdırmalarınızın nəticəsi olaraq namizədlik dissertasiyası müdafiə etmiş, fəlsəfə elmləri namizədi (fəlsəfə üzrə fəlsəfə doktoru) alimlik dərəcəsini almısınız.*

*Siz 1991-ci ildən etibarən Azərbaycan Respublikası Prezidentinin Aparatında, sonra Ali Sovetdə müşavir vəzifələrində çalışmış, 1993-1999-cu illərdə isə dosent kimi Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda politologiya elminin tədrisi ilə məşğul olmusunuz.*

*Siz 300-dən artıq kitabın və elmi məqalənin müəllifi kimi tanınırsınız. Çoxşaxəli fəaliyyətiniz diqqətdən kənarda qalmamış, “Şərəf” ordeni və “Əmək rəşadətinə görə” medalı ilə təltif edilmisiniz.*

*Siz bir ziyalı kimi cəmiyyətdə gedən proseslərə həmişə prinsipial vətəndaş mövqeyi nümayiş etdirmisiniz. Qazandığınız uğurlar Sizə Azərbaycan Respublikasının IV, V, VI və VII çağırış Milli Məclisinə seçkilərdə deputat mandatı qazandırıb.*

*Bu gün Siz müstəqil Azərbaycan parlamentinin deputatı olaraq Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin, həmçinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının üzvü kimi uğurla fəaliyyət göstərirsiniz. Rusiya, Belarus, Gürcüstan, İsrail, Latviya, Litva, Niderland, Rumıniya və Cənubi Afrika Respublikası ilə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü kimi parlament diplomatiyasının inkişafına dəyərli töhfələr verirsiniz. Siz həm də MDB Parlamentlərarası Assambleyasında Milli Məclisin nümayəndə heyətinin, həmçinin Milli Məclisin və Rusiya Federasiyası Federal Məclisinin ikitərəfli əməkdaşlığı üzrə parlamentlərarası komissiyanın tərkibində qanunverici orqanın beynəlxalq münasibətlərinin möhkəmlənməsi üçün böyük əmək sərf edirsiniz.*

*Hörmətli Rasim müəllim!*

*Sizi 75 illik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, yaşınızın bu müdriklik zirvəsində Sizə uzun ömür, möhkəm can sağlığı və işlərinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***
Bakı şəhəri, 1 yanvar 2026-cı il



# ANAR İSGƏNDƏROV - 70

***Hörmətli Anar müəllim!***

*Sizi - Milli Məclisin Elm və təhsil komitəsinin sədrini, tanınmış ictimai xadimi, görkəmli alimi və böyük xidmətləri olan ziyalı müəllimi 70 illik yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz Azərbaycanın dilbər guşələrindən olan Masallı rayonunun Kolatan kəndində dünyaya göz açmış, burada orta məktəbi müvəffəqiyyətlə bitirib 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmusunuz.*

*1978-ci ildə ali təhsilinizi müvəffəqiyyətlə başa vurduqdan sonra doğma rayonunuza təyinat almış, orta məktəblərdə tarix müəllimi, məktəb direktorunun müavini vəzifələrində işləyərək gənc nəslin təlim-tərbiyəsinə mühüm töhfələr vermisiniz.*

*1982-1984-cü illərdə Azərbaycan Neft və Kimya İnstitutunun Fəlsəfə kafedrasının kabinet müdiri olmusunuz. 1984-cü ildən əmək fəaliyyətinizi Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) davam etdirmisiniz və burada Mənbəşünaslıq,*

*tarixşünaslıq və metodika kafedrasının müəllimi, baş müəllimi, 1999-cu ildən kafedra müdiri kimi işləmisiniz, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Tarix və Antropologiya ixtisasları üzrə ekspert şurasının sədrisiniz.*

*Siz gənc tarixçilərin yetişməsində mühüm rol oynamış, tarix elminin aktual problemlərinə həsr olunmuş sanballı tədqiqatlarınızla elmi ictimaiyyətdə böyük nüfuz qazanmısınız, tarix elmləri doktoru, professor elmi dərəcələri almısınız. Azərbaycanda və xarici ölkələrdə çap olunmuş onlarla monoqrafiya, dərs vəsaiti və yüzlərlə elmi məqalə Sizin məhsuldar yaradıcılığınızın, zəngin elmi irsinizin bariz göstəricisidir.*

*Dövlət və cəmiyyət qarşısında göstərdiyiniz xidmətlər yüksək qiymətləndirilmiş, müxtəlif orden və medallara, o cümlədən "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"na, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə və "Tərəqqi" medalına layiq görülmüsünüz. Bu mükafatlar Sizin çoxillik zəhmətinizə, prinsipial mövqeyinizə və məsuliyyətli fəaliyyətinizə verilən dəyərin ifadəsidir.*

*Çoxşaxəli fəaliyyətiniz və gərgin zəhmətiniz sayəsində Siz seçicilərin etimadını qazanaraq VI və VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmisiniz. Bu gün Milli Məclisin Elm və təhsil komitəsinin sədri olaraq ölkəmizdə həyata keçirilən islahatların qanunvericilik bazasının təkmilləşdirilməsində yaxından iştirak edirsiniz.*

*Siz parlamentin Azərbaycan-İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İraq, Koreya, Qətər, Livan, Özbəkistan, Səudiyyə Ərəbistanı və Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvü kimi Milli Məclisin beynəlxalq münasibətlərinin inkişafına öz töhfənizi verirsiniz.*

*Hörmətli Anar müəllim!*

*Sizi ömrünüzün bu müdriklik zirvəsində yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, elmi və ictimai fəaliyyətinizdə yeni uğurlar arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***
Bakı şəhəri, 10 yanvar 2026-cı il



# PƏRVİN KƏRİMZADƏ

***Hörmətli Pərvin xanım!***

*Sizi - Milli Məclisin deputatını yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz Gəncə şəhərində orta məktəbi müvəffəqiyyətlə başa vurduqdan sonra Bakı Dövlət Universitetinin Tarix fakültəsində ali təhsil alaraq buranı fərqlənmə diplomu ilə bitirmisiniz. Əmək fəaliyyətinizə Gəncə Dövlət Universitetinin Ümumi tarix kafedrasında müəllim kimi başlamış, sonra baş müəllim, dosent olaraq pedaqoji fəaliyyətinizi davam etdirmisiniz. Siz habelə Gəncə Dövlət Universitetinin Tarix-coğrafiya fakültəsinin dekan müavini, Ümumi tarix kafedrasının müdiri vəzifələrində çalışmısınız. Hazırda universitetin Elm və innovasiyalar üzrə prorektoru kimi üzərinizə düşən vəzifələri layiqincə yerinə yetirirsiniz.*

*Elmə olan marağınız sayəsində Siz "XIX əsrin sonu - XX əsrin əvvəllərində Şimali Azərbaycanda mesenatlıq" mövzusunda dissertasiya müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüsünüz. Daha sonra elmlər doktoru proqramı üzrə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun doktoranturasına daxil olaraq elmi araşdırmalarınızı davam etdirmiş, "XX əsrin əvvəllərində Gəncədə milli hərəkat" möv-*

*zusunda doktorluq dissertasiyası üzərində işləmisiniz. Bir sıra monoqrafiyaların, dərs və metodik vəsaitlərin, proqram və məqalələrin müəllifisiniz.*

*Siz Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təhsilin inkişafında göstərdiyiniz xidmətlərə görə "Əməkdar müəllim" fəxri adına layiq görülmüş, bir sıra beynəlxalq təhsil ocaqlarının sertifikatları ilə təltif olunmusunuz.*

*Siz ölkənin ictimai-siyasi həyatında da fəal iştirak edirsiniz. Yeni Azərbaycan Partiyasının üzvü olaraq partiyanın Gəncə Şəhər Təşkilatının sədr müavini, Qadınlar Şurasının sədri kimi təqdirəlayiq fəaliyyət göstərmisiniz. Bu gün Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü kimi cəmiyyətdə baş verən proseslərə prinsipial vətəndaşlıq mövqeyindən münasibət bildirirsiniz.*

*Siz geniş ictimaiyyətin rəğbətini qazanaraq V, VI, VII çağırış Milli Məclisin deputatı seçilmisiniz. Hazırda parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin, Elm və təhsil komitəsinin üzvü olaraq bu sahələrdə qanun yaradıcılığı prosesində yaxından iştirak edirsiniz.*

*Siz Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında (ATƏT PA), İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında Milli Məclisin nümayəndə heyətinin üzvü kimi, Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi parlamentlərarası əməkdaşlıq komissiyasının tərkibində aktiv fəaliyyət göstərirsiniz.*

*Siz həmçinin Azərbaycan-Panama parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, habelə Çexiya, Gürcüstan, İtaliya, Qazaxıstan, Rusiya, Serbiya, Türkiyə, Venesuela, Oman Sultanlığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü kimi Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafına öz töhfənizi verirsiniz.*

*Hörmətli Pərvin xanım!*

*Sizi bir daha yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, yaşınızın bu gözəl çağında Sizə möhkəm can sağlığı, uzun ömür, ictimai-siyasi və elmi-pedaqoji fəaliyyətinizdə yeni-yeni müvəffəqiyyətlər  arzu edirəm.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***
Bakı şəhəri, 3 fevral 2026-cı il




# SƏBİNƏ SALMANOVA

***Hörmətli Səbinə xanım!***

*Sizi - Milli Məclisin deputatını yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz Sumqayıt şəhərində dünyaya göz açmış, orta təhsilinizi burada bitirib, 1994-cü ildə Bakı Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsinə daxil olmusunuz. Universitetdə oxuduğunuz illərdə yüksək təhsil göstəricilərinizlə fərqlənmiş, bu ali təhsil müəssisəsinin Hüquqşünaslıq ixtisasının bakalavr pilləsini 1998-ci ildə, Dövlət hüququ ixtisası üzrə magistr pilləsini 2000-ci ildə fərqlənmə diplomları ilə bitirmisiniz.*

*2000-ci ildən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə Sumqayıt bölgə şöbəsində aparıcı mütəxəssis kimi əmək fəaliyyətinə başlamış, peşəkarlığınız və zəhmətsevərliyiniz sayəsində məsul vəzifələrə irəli çəkilmisiniz.*

*2006-cı ildən Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinin Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti idarəsində məsləhətçi, böyük məsləhətçi, baş məsləhətçi, 2013-cü*

*ildən isə həmin idarənin Qeyri-hökumət təşkilatları ilə iş şöbəsinin rəisi, 2019-cu ildən Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti idarəsinin rəisi vəzifələrini icra etmisiniz.*

*Siz 2020-2024-cü illərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin Siyasi partiyalarla iş sektorunun müdiri olmusunuz.*

*Administrativ fəaliyyətlə yanaşı, siz elmi araşdırmalara da həvəs göstərmiş, bir sıra elmi məqalələrlə çıxış etmisiniz.*

*Çoxşaxəli fəaliyyətiniz diqqətdən kənarda qalmamış, "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmusunuz.*

*Siz 2024-cü ildə 45 saylı Sumqayıt dördüncü seçki dairəsində seçicilərin etimadını qazanaraq VII çağırış Milli Məclisin üzvü seçilmisiniz.*

*Bu gün Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, İctimai birliklər və dini qurumlar komitəsinin, eləcə də Hesablayıcı komissiyasının üzvü olaraq ölkəmizdə həyata keçirilən islahatların qanunvericilik bazasının təkmilləşdirilməsində yaxından iştirak edirsiniz.*

*Siz Milli Məclisin Oman Sultanlığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, bir sıra ölkələrlə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının, həmçinin Milli Məclisin Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasındakı və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasındakı nümayəndə heyətlərinin üzvü kimi parlamentin beynəlxalq münasibətlərinin inkişafına öz töhfənizi verirsiniz.*

*Bundan başqa, Siz həm də Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun üzvü kimi təqdirəlayiq fəaliyyət göstərirsiniz.*

*Hörmətli Səbinə xanım!*

*Sizi ömrünüzün bu gözəl çağında yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, ailə səadəti və fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**

***Azərbaycan Respublikası Milli Məclisinin sədri***

Bakı şəhəri, 15 fevral 2026-cı il



# MƏZAHİR ƏFƏNDİYEV- 50

***Hörmətli Məzahir müəllim!***

*Sizi - Milli Məclisin deputatını anadan olmağınızın 50 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz orta məktəbi fərqlənmə ilə bitirdikdən sonra Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına daxil olaraq burada bakalavr və magistr təhsili almış, Təhsilin təşkili və idarə olunması ixtisasını qırmızı diplomla başa vurmusunuz.*

*Siz elmə böyük maraq göstərərək, Davamlı inkişafın idarə edilməsi üzrə fəlsəfə doktoru elmi dərəcəsini almısınız. Onlarla elmi və publisistik məqaləniz ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb. Bununla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olur, savadlı gənc nəslin yetişməsinə öz töhfənizi verirsiniz.*

*Siz 1999-cu ildən 2019-cu ilə kimi BMT-nin Azərbaycan Ofisinin alt strukturlarında müxtəlif vəzifələrdə çalışmış, "Gənc Könüllülərin İdarəetmə Qrupu"nun milli koordi-*

*natoru, "Cənubi Qafqazda narkotiklərə nəzarət" regional yardım proqramının ölkə üzrə rəhbəri, Avropa İttifaqının, BMT-nin İnkişaf Proqramının (İP) Bakı ofisində Hüquq mühafizə orqanları ilə iş bölməsinin müdiri və BMT İP-nin digər bir sıra layihə və proqramlarının ölkə üzrə rəhbəri olmusunuz.*

*Siz həm də ictimai fəallığınızla seçilmiş, "Gənc Alyansçılar" təşkilatının sədri, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının komissiya sədri olmusunuz. 1999-cu ildən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası sədrinin birinci müavini, 1999-2001-ci illərdə isə mərkəzi qərargahı Brüsseldə yerləşən Avropa Gənclər Forumunun Maliyyə-nəzarət komitəsinin tamhüquqlu üzvü kimi fəaliyyət göstərmisiniz.*

*Daha sonra Siz 2019-2020-ci illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Maliyyə və iqtisadiyyat məsələləri şöbəsinin müdir müavini vəzifəsində çalışmısınız.*

*2020-ci ildə Milli Məclisə seçkilərdə iştirak edərək VI çağırış Milli Məclisə deputat mandatı qazanmısınız. Bu gün VII çağırış Milli Məclisin Regional məsələlər komitəsinin üzvü kimi qanun yaradıcılığı işində yaxından iştirak edirsiniz.*

*Azərbaycan-Bosniya və Herseqovina parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, ABŞ, Belçika, Yaponiya, Kanada, Misir, Ukrayna, Vyetnam, Zimbabve, Filippinlə parlamentlərarası işçi qruplarının üzvü kimi beynəlxalq əlaqələrimizin genişlənməsinə dəyərli töhfələr verirsiniz.*

*Xidmətləriniz diqqətdən kənarda qalmamış, "Tərəqqi" medalı ilə təltif olunmusunuz.*

*Hörmətli Məzahir müəllim!*

*Sizi 50 illik yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, yaşınızın bu kamillik çağında Sizə uzun ömür, möhkəm can sağlığı, çoxşaxəli fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin sədri***
Bakı şəhəri, 1 fevral 2026-cı il

# Səttar Möhbalıyev:
# "Dövlətə və vətəndaşlara xidmət ömür boyu daşıdığım missiya olub..."

Bu il Azərbaycan həmkarlar ittifaqları hərəkatının tanınmış simalarından biri, cəmiyyətdə ictimai-siyasi fəaliyyəti ilə seçilən **Səttar Möhbalıyev** 70 illik yubileyini qeyd etdi. Ömrünün böyük bir hissəsini əmək hüquqlarının müdafiəsinə, sosial ədalətin təşviqinə və həmkarlar ittifaqlarının inkişafına həsr edən yubilyar fəaliyyəti ilə ölkəmizin ictimai həyatında mühüm yeri olan şəxslərdəndir. Təqdim etdiyimiz bu müsahibədə o, keçdiyi həyat yoluna nəzər salır, qazandığı təcrübəni bölüşür və gələcəyə dair baxışlarını oxucularımızla paylaşır.



**- Səttar müəllim, 70 yaş insan ömrünün müdrik çağıdır. Geriyə boylananda yaşadığınız ömürdə ən böyük qazancınız nədir?**

- Bu yaş ömrün elə bir mərhələsidir ki, insan təkcə keçdiyi həyat yoluna deyil, həm də gördüyü işlərə, ailə məsuliyyətinə, dövlətə etdiyi xidmətə daha dərindən nəzər salır. Bu zaman bir növ daxili hesabat, vicdan qarşısında cavab anıdır. Mən geriyə baxanda keçdiyim yolu zəhmətlə yoğrulmuş, məsuliyyətlə cilalanmış, daim dövlətə, xalqa sədaqət üzərində qurulmuş bir yol kimi dəyərləndirirəm.

Kənd yerində, sadə bir ailədə dünyaya göz açmış bir insanın illər boyu zəhmət, təhsil və prinsipial mövqe hesabına ictimai təşkilat rəhbərliyinə, parlament tribunasına qədər yüksəlməsi yalnız şəxsi nailiyyət kimi qiymətləndirilə bilməz. Bu, eyni zamanda, Azərbaycan dövlətinin formalaşdırdığı sosial ədalət mühitinin, insan potensialına verilən dəyərin bariz nəticəsidir. Təbii ki, bu illər ərzində qazandığım ən böyük sərvət məhz insanların etimadı, seçicilərin inamı və dövlətə vicdanla xidmət edə bilməyin verdiyi daxili rahatlıqdır. Heç bir vəzifə daimi deyil, zamanla dəyişə bilər. Amma insanlara arxalanaraq xidmət etməyin məsuliyyəti və onların göstərdiyi etimadı doğrultmaq unudulmaz olaraq qalır. Əgər bu gün seçicilərim mənə inanırsa, parlamentdə dövlət siyasətinə prinsipial mövqedən dəstək verə bilirəmsə, bunu ən böyük qazanc hesab edirəm. Ömrüm boyu dövlət maraqlarını şəxsi ambisiyalardan üstün tutmuşam və bu mövqe mənim həyat prinsipim olaraq qalmaqdadır.

**- Siz daim Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiqliyinizlə tanınırsınız. Bu siyasi məktəb Sizin bir rəhbər və insan kimi formalaşmağınızda nə dərəcədə rol oynayıb?**

- Mənim ictimai-siyasi fəaliyyətim, dünyagörüşüm, işimdə qazandığım hər bir nailiyyət, rəhbər vəzifədə formalaşma prosesim bilavasitə Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış möhtəşəm dövlətçilik məktəbi ilə bağlıdır. Dahi şəxsiyyətin üslubu yalnız siyasi idarəetmə modeli deyil, eyni



zamanda, milli düşüncə tərzi, dövlətə sədaqət fəlsəfəsi və xalqa xidmət missiyası idi. Onun siyasi irsi milli maraqlara söykənən müstəqil siyasət, güclü və funksional dövlət quruculuğu, sosial ədalətin təmin olunması və vətəndaş birliyinin möhkəmləndirilməsi prinsiplərinə əsaslanırdı. Bunlar mənim üçün, sadəcə, nəzəri tezislər deyil, daim fəaliyyətimdə rəhbər tutduğum dəyişməz dəyərlər sistemi idi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanı tarixin ən mürəkkəb və təhlükəli mərhələsində dağılmaq, parçalanmaq və dövlətçiliyini itirmək təhlükəsindən xilas edərək xalqın taleyini qətiyyətlə öz üzərinə götürmüşdü. Onun uzaqgörənliyi, dəmir iradəsi və xalqa sonsuz bağlılığı sayəsində ölkədə sabitlik yaradıldı, dövlət institutları bərpa olundu və müasir Azərbaycanın inkişaf strategiyası müəyyənləşdirildi.

Bu gün Ulu Öndərin müəyyən etdiyi siyasi xətt cənab Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə, eyni prinsipiallıqla və ləyaqətlə davam etdirilir. Azərbaycanın regional və qlobal miqyasda etibarlı tərəfdaşa, güclü iqtisadiyyata və artan beynəlxalq nüfuza malik dövlətə çevrilməsi məhz bu strateji xəttin real və parlaq nəticəsidir. Mən də bir millət vəkili olaraq bu siyasi irsə sadiq qalmağı mənəvi məsuliyyət və vətəndaşlıq borcu hesab edirəm. Heydər Əliyev məktəbi mənə dövlətə xidmət etməyin şərəfini, mübariz mövqenin əhəmiyyətini və xalqa sədaqətin ali dəyər olduğunu öyrədib.

**- Naxçıvanda keçən uşaqlıq və gənclik xəyallarınızla bugünkü reallıqlarınız nə dərəcədə üst-üstə düşür?**

- Mən 1955-ci ildə Naxçıvanın Kəngərli rayonunun Qıvraq kəndində dünyaya gəlmişəm. Uşaqlıq illərim məhz bu qədim, zəngin mənəvi dəyərlərə malik torpaqda keçib. Oranın mühiti insanı erkən yaşlardan zəhmətə alışdırır, onu möhkəm iradəli, səbirli, torpağa, ailəyə və dövlətə bağlı şəkildə formalaşdırır.

Uşaqlıq və gənclik xəyallarım da elə o mühitin diktə etdiyi dəyərlər üzərində qurulmuşdu, sadə və təmiz idi - savadlı olmaq, halal zəhmətlə yaşamaq, ailəyə arxa-dayaq durmaq, vətənim üçün faydalı bir insan kimi yetişmək. Yəni böyük iddialardan uzaq olmuşam.

Bu gün geriyə baxanda görürəm ki, böyük zaman keçsə də, o dövrkü arzularımın mahiyyəti heç dəyişməyib, sadəcə, onların məsuliyyət dairəsi genişlənib. Əgər bir vaxtlar ailəmə və yaxın çevrəmə faydalı olmağı məqsəd sayırdımsa, bu gün minlərlə seçicinin hüquqlarının qorunması, onların sosial rifahının yüksəldilməsi və dövlət maraqlarının müdafiəsi mənim üçün əsas vəzifəyə çevrilib. Uşaqlıq arzularımla bugünkü reallıqlarım arasında mənəvi bir bağ var və bu bağ məni daim irəli aparır.

**- Bu illər ərzində sadiq qaldığınız və heç vaxt güzəştə getmədiyiniz əsas prinsipiniz hansıdır?**

- Həm həyatımda, həm də fəaliyyətimdə dəyişməz prinsipim sədaqət və ədalət anlayışlarıdır. Dövlətə sədaqət, xalqa sədaqət və vicdana sədaqət mənim üçün bir-birini tamamlayan ali dəyərlərdir. Hesab edirəm ki, insan hansı vəzifədə çalışmasından asılı olmayaraq, ilk növbədə bu üç prinsipə sadiq qalmalıdır.







Həmkarlar ittifaqları sistemində fəaliyyət göstərdiyim dövrdə də, bu gün Milli Məclisdə millət vəkili kimi çalışdığım zaman da bütün qərar və mövqelərimin mərkəzində sosial ədalət prinsipi dayanıb. İnsanların əməyinin doğru dəyərləndirilməsi, hüquqlarının təmin olunması, haqsızlığa yol verilməməsi mənim üçün formal vəzifə tələbi deyil, daxili məsuliyyət hissidir. Mənə görə dövlətə xidmət edən şəxs hər addımında öz vicdanı ilə üz-üzədir və verdiyi qərarların nəticələrinə görə ilk növbədə özü qarşısında cavabdehdir. Əgər insanın vicdanı rahatdırsa, deməli, o, doğru mövqedədir, düzgün yolla irəliləyir. Məhz bu düşüncə mənə çətin məqamlarda da doğru qərar verməyə kömək edib. Güzəştə getmədiyim əsas məqam da budur - ədalətdən və vicdandan kənar heç bir marağı qəbul etməmişəm.

**- Səttar müəllim, bilirik ki, Siz həm də Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının və Pan Avropa Regional Şurasının vitse-prezidenti, Ümumhəmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti, Türk Dövlətlərinin Həmkarlar İttifaqları Təşkilatının vitse-prezidenti olmusunuz. Sizin Azərbaycan Həmkarlar İttifaqlarına rəhbərliyiniz dövründə bu qurum böyük bir təkamül yolu keçib. Müstəqilliyin ilk illərindəki çətinliklərdən bugünkü beynəlxalq nüfuzlu təşkilata qədər olan prosesi necə xatırlayırsınız?**

- 1990-cı illərin əvvəllərində Azərbaycan son dərəcə mürəkkəb və ziddiyyətli bir dövrünü yaşayırdı. Dövlət müstəqilliyini yenicə bərpa etmişdi, iqtisadi böhran, müharibə şəraiti və idarəetmə boşluqları mövcud idi. Belə bir vaxtda həmkarlar ittifaqları sisteminin qorunması, yenilənməsi və real sosial müdafiə institutuna çevrilməsi böyük məsuliyyət tələb edirdi. 1992-ci ildə AHİŞ-ə daxil olan 6 həmkarlar ittifaqı - Elektrik Stansiyaları və Elektrotexnika,



Avtonəqliyyat və Yol Təsərrüfatı, Rabitə, Sahibkarlıq, Aviasiya və İnşaat Kompleksi İşçiləri Həmkarlar İttifaqları bu qurumun fəaliyyəti ilə razı olmadıqlarını bəyan etdilər və növbədənkənar qurultay çağırmaq təşəbbüsünü qaldırdılar. Yeri gəlmişkən, o vaxt mən indiki Avtonəqliyyat və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqına rəhbərlik edirdim. Altılığın təşəbbüsü öz bəhrəsini verdi. 1993-cü il fevralın 5-də keçirilən təsis qurultayında Azərbaycan Həmkarlar İttifaqları Şurası buraxılaraq səlahiyyətlərini konfederativ tipli Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına verdi. Mənim təşkilata sədrliyim isə təyinatla deyil, alternativ seçkilər nəticəsində baş tutdu. Konfederasiyanın otuz il ərzində keçdiyi yolu qiymətləndirmək üçün sovet dövründə fəaliyyət göstərən həmkarlar ittifaqının bizə hansı irsi qoyub getdiyini və konfederasiyanın yaradılmasında hansı siyasi şəraitin mövcud olduğunu başa düşmək lazımdır.

Məlumdur ki, müstəqilliyimizin ilk vaxtlarında bütün sahələri bürüyən böhran ictimai təşkilatlara da sirayət etmişdi. İstehsal müəssisələrinin dayanması, işsizliyin artması, ölkənin ictimai-siyasi həyatında, o cümlədən siyasi hakimiyyətdə hökm sürən gərginlik həmkarlar ittifaqlarının fəaliyyət miqyasını və keyfiyyətini də aşağı salmış, sosial bazasını zəiflətmişdi. O dövrkü ölkə rəhbərliyinin də həmkarlar ittifaqlarına laqeyd münasibəti vəziyyəti daha da ağırlaşdırmışdı. Hətta həmkarlar ittifaqlarının mülkiyyəti olan inzibati binanı belə əlimizdən almağa çalışırdılar. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtması onların bu istəklərini həyata keçirməyə imkan vermədi. Ümummilli Liderin imzaladığı 1993-cü il 15 dekabr tarixli 42 saylı fərmana əsasən 1992-ci ildə verilmiş qeyri-qanuni sərəncam ləğv edildi.

Həmin ildə AHİK təsis olunduqdan sonra əsas məqsəd təşkilatı formal qurumdan real sosial tərəfdaşa çevirmək idi. Bu gün AHİK beynəlxalq platformalarda tanınan nüfuzlu təşkilatdır, beynəlxalq həmkarlar ittifaqları ailəsində önəmli söz sahibidir. Təsadüfi deyil ki, bir çox beynəlxalq həmkarlar təsisatlarının yaranmasında da bizim təşkilatın müstəsna rolu var. Şuşada Türk dövlətləri həmkarlar təşkilatının yaradılmasının təşəbbüskarı kimi şəxsən mən çıxış etmişəm. Deməliyəm ki, Azərbaycan həmkarlar ittifaqları tərəfindən 44 günlük Vətən müharibəsi və sonrakı dövrdə “Silahlı Qüvvələrə Yardım Fondu”na, “YAŞAT” Fonduna, “Qarabağ Dirçəliş Fondu”na, silahlı qüvvələrə, cəbhə bölgəsinə yaxın ərazilərdə yaşayan və müharibədən əziyyət çəkən sakinlərə, Naxçıvan Muxtar Respublikasının həmkarlar ittifaqlarına, eləcə də şəhid ailələri və qazilərə lazımi dəstək göstərilib və maddi yardımlar edilib.

Şəhid ailələrinə və qazilərə yardım göstərmək, eyni zamanda, dövlətimizin bu sahədə yükünün bir hissəsini öz üzərinə götürmək məqsədilə AHİK-in İcraiyyə Komitəsinin qərarları ilə 2016-cı ilin aprel və 2020-ci ilin iyul döyüşlərində, 44 günlük Vətən müharibəsində, eləcə də sonradan erməni təxribatı nəticəsində aparılan döyüş əməliyyatlarında şəhid olmuş 202 hərbçinin 347 övladı himayəyə



Minimum əməkhaqqının mərhələlərlə artırılması, sosial müdafiə mexanizmlərinin genişləndirilməsi, məşğulluq və özünüməşğulluq proqramlarının tətbiqi dövlət başçısı tərəfindən müəyyən edilmiş sosial yönümlü siyasətin əsas istiqamətləridir. Mən də hər zaman millət vəkili kimi bu siyasətin hüquqi bazasının formalaşdırılmasında və təkmilləşdirilməsində fəal iştirak etmişəm.

**- Seçicilərinizlə münasibətlərdə Səttar Möhbalıyev daha çox kimdir: rəsmi dövlət adamı, yoxsa onların problemlərini dinləyən doğma bir insan?**

- Deputat mandatı hüquqi baxımdan müəyyən status və səlahiyyətlər versə də, seçici ilə münasibətlər bu çərçivələrlə ölçülə bilməz. Bu, ilk növbədə, mənəvi bağdır. Təvazökarlıqdan uzaq olsa da, deyim ki, seçicilərim məni məmur kimi yox, hər zaman onların etimadını qazanan, dərdlərini bölüşə bildikləri bir insan kimi görüblər. Həm Bakıda, həm də Naxçıvanda qəbul otaqlarım daim onların üzünə açıqdır. Bu, mənim üçün formal qayda deyil, daxili ehtiyacdır. İnsanları dinləmək, onların sosial, əmək və məişət problemlərinə biganə yanaşmamaq, imkan daxilində həllinə töhfə vermək deputat fəaliyyətimin əsas istiqamətlərindəndir. Hesab edirəm ki, millət vəkili dövlətlə vətəndaş arasında etibarlı körpü rolunu oynamalıdır.

**- Siz həm də bir şəhid qardaşısınız. 30 ilə yaxın bir müddətdən sonra Azərbaycan Ordusu torpaqlarımızı düşmən tapdağından azad etdi. Zəfər xəbərini alanda hansı hissləri keçirdiniz? Qarabağın azadlığı illərdir qəlbinizdə gəzdirdiyiniz o nisgilə bir məlhəm oldumu?**

götürülüb. Onların hər biri 18 yaşına çatana qədər maddi yardımla təmin olunacaq.

Həmkarlar ittifaqlarının fəaliyyətindən danışarkən Ümummilli Lider Heydər Əliyevin bu sahəyə göstərdiyi xüsusi diqqəti qeyd etməmək olmaz. Çətin siyasi şəraitə baxmayaraq, Ulu Öndər həmkarlar ittifaqlarını daim dəstəkləmiş, onların siyasi təsirlərdən qorunmasını təmin etmiş, fəaliyyətlərinin əsasının insan amili üzərində qurulmasına şərait yaratmışdır. Məhz onun təşəbbüsü ilə 1994-cü ildə postsovet məkanında ilk dəfə "Həmkarlar İttifaqları haqqında" Qanun qəbul edildi və bu sahədə möhkəm hüquqi baza formalaşdı.

Bu siyasət bu gün də Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Ölkə başçısının həmkarlar ittifaqlarına göstərdiyi dövlət qayğısı bu qurumun yeni mərhələdə daha effektiv fəaliyyət göstərməsinə, işçilərin əmək və sosial hüquqlarının qorunmasında fəal rol oynamasına imkan yaradıb.

**- Uzun illərdir Milli Məclisin deputatısınız. Qanunvericilik prosesində sosial sahənin, xüsusilə əmək qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində hansı addımları ən mühüm məqam hesab edirsiniz?**

- Doğrudur, ikinci çağırışdan etibarən Milli Məclisin deputatıyam. Bu illər ərzində görmüşəm ki, sosial ədalətin təmin olunması, vətəndaşların rifahının və insan amilinin qorunması güclü dövlətin əsas dayaqlarındandır. Əmək münasibətlərinin müasir tələblərə uyğunlaşdırılması, işçilərin hüquqlarının daha etibarlı mexanizmlərlə qorunması, sosial təminat sisteminin davamlı şəkildə gücləndirilməsi istiqamətində qəbul edilən qanunvericilik aktları ölkəmizin sosial dövlət modelinin möhkəmlənməsinə xidmət edir. Burada əsas məqsəd yalnız normativ sənədlərin qəbul edilməsi deyil, həmin qanunların vətəndaşların gündəlik həyatında real müsbət dəyişikliklər yaratmasıdır.



- Qarabağ mövzusu hər bir azərbaycanlının qəlbində dərin və sağalmaz yara idi. Mənim üçün isə bu, həm də şəxsi ağrı və itki idi. Şəhid qardaşı kimi illərlə bu dərdi içimdə daşıdım, hər gün, hər an onun ağırlığını hiss etdim. Şəhid məzarlarını ziyarət edəndə hər dəfə bir arzum olurdu: torpaqlarımız azad edilsin, şəhidlərimizin ruhu rahat nəfəs alsın.

2020-ci ildə müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızı azad etdi və mənim bu əlçatmaz görünən arzum reallığa çevrildi. Şuşanın azad olunması isə təkcə bir Azərbaycan bölgəsinin azadlığı deyildi, milli ləyaqətimizin, dövlətimizin və xalqımızın qürurunun bərpası idi.

Zəfərdən dərhal sonra cənab Prezident azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanmasına dair göstərişlərini verdi. Böyük Qayıdış proqramı çərçivəsində vətəndaşlarımız doğma torpaqlarına qayıdır, yeni həyat qurur. Bu, dövlətin vətəndaşına göstərdiyi sədaqətin ən ali nümunəsidir.

Eyni zamanda, Prezident İlham Əliyevin diplomatik müstəvidə gördüyü müstəsna əhəmiyyətli tədbirlər Azərbaycanın mövqeyini daha da gücləndirdi. 2025-ci il avqustun 8-də ABŞ-də əldə olunan razılaşma regionun sabitliyi və Azərbaycanın beynəlxalq nüfuzu üçün tarixi əhəmiyyət kəsb etdi. Zəngəzur məsələsi isə yalnız strateji kommunikasiya baxımından deyil, həm də regionun iqtisadi və sosial inkişafı üçün vacibdir.

Azərbaycan artıq həm döyüş meydanında, həm diplomatiya müstəvisində qalib dövlət kimi tanınır. Qarabağın azadlığı mənim qəlbimdəki dərin nisgilə məlhəm oldu, uzun illər çəkdiyimiz həsrət və ağrının yerini mənəvi rahatlıq aldı.

**- Qarşıda hansı planlarınız və reallaşdırmaq istədiyiniz nə kimi arzularınız var?**

- Mən hər zaman hesab etmişəm ki, insan yaşadığı müddətdə dövlətinə və xalqına faydalı olmalıdır. 70 yaş mənim üçün son deyil, əksinə, yeni bir mərhələdir - daha müdrik, daha təcrübəli, daha məsuliyyətli bir başlanğıc. Qarşıdakı dövrdə sosial siyasətin daha da gücləndirilməsi, əmək və məşğulluq sahəsində müasir mexanizmlərin tətbiqi, minimum əməkhaqqı və sosial təminat sahəsində əldə olunan nailiyyətlərin qorunması və genişləndirilməsi istiqamətində fəaliyyətimi davam etdirmək niyyətindəyəm. Eyni zamanda, gənc kadrların yetişməsi, təcrübənin ötürülməsi və onların dövlətçilik məktəbinə sadiq qalmasını təmin etmək mənim üçün xüsusi önəm daşıyır. Həyatım boyu sadiq olduğum dəyərlər bundan sonra da fəaliyyətimin əsas prinsipləri olacaq. Dayanmaq, geri çəkilmək zamanı deyil. Bu, xidmətin daha məqsədyönlü, dərin və səmərəli mərhələsidir. Əsas odur ki, niyyətin təmiz, vicdanın rahat olsun.

# Azərbaycan poeziyasının sədaqətli kişi obrazı:

# Nəriman Həsənzadə



*Nəriman Həcənzadə bütün varlığı ilə mənsub olduğu xalqa bağlı olan, onun azadlığı və istiqlalı naminə gecəsini gündüzünə qataraq yorulmadan yazıb-yaradan qələm adamlarındandır. Millətinə xidməti özünün həyat kredosuna çevirən şair Azərbaycan xalqının dövlət müstəqilliyi uğrunda mübarizə apardığı illərdə Ali Sovetin deputatı kimi Müstəqillik Aktına qol çəkən ziyalılarımızdandır. Xalq şairi Nəriman Həsənzadə öz mədəniyyəti, yüksək intellekti, səmimi davranışı ilə xalqın dərin sevgisini qazanmışdır. Müasir Azərbaycan poeziyasının bu görkəmli nümayəndəsini anadan olmasının 95 illik yubileyi münasibəti ilə budəfəki rubrikamıza qonaq olaraq dəvət etdik. Səhhəti imkan vermədiyi üçün sevimli şairimizlə görüş alınmasa da, bu yazının hazırlanmasına köməyini əsirgəmədi.*





"Nəriman Həsənzadə dünyada gözəllik, nəciblik, zəriflik axtarır və bunları bəzən olmayan yerdə də görür. Çünki bu məfhumlar onun sənət idealıdır".

Bəxtiyar Vahabzadə

Azərbaycanın əməkdar incəsənət xadimi, "Heydər Əliyev" mükafatı laureatı, 2010-cu ildə "İlin şairi" fəxri adına layiq görülən, sinəsini "Şöhrət", "Şərəf", "İstiqlal" və "Heydər Əliyev" ordenləri bəzəyən Xalq şairi, Beynəlxalq Elmlər Akademiyasının akademiki, filologiya elmləri doktoru, professor Nəriman Həsənzadə xoşbəxt qələm adamlarındandır. Ona görə ki, "Qarabağ ürəyimin yaralı yeridir. Ən böyük istəyim gedən quşların öz yuvalarına qayıtdığı kimi, Qarabağın da geri qayıdışıdır" - deyən qocaman ustad o qələbə sevincini daddı. Öz yaradıcılığının əhəmiyyətli bir xəttini təşkil edən Qarabağ münaqişəsinin müsbət həllini, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun müqəddəs yurd yerlərimizi yağı tapdağından azad etdiyini gördü. 95 yaşını bu günlərdə qeyd edən ustad qələm adamının arzusu çin oldu.



Müasir Azərbaycan poeziyasının, ədəbi fikrinin tanınmış nümayəndələrindən olan Nəriman Həsənzadə ədəbiyyata çox gənc yaşlarında gəlib. Onun ilk şeirlərini belə özündən əvvəlki heç bir şairin yaradıcılığı ilə qarışıq salmaq mümkün deyil. Çünki o, ədəbiyyata, sadəcə, öz taleyini, ancaq özünə məxsus olan orijinal üslubu, daxili dünyasının ideya-missiyasını gətirmişdi. Bu könül duyğularında novatorluq var idi, lirika təbiiliyi, səmimiliyi və dil-üslub mükəmməlliyi var idi, amma əsla təkrarçılıq, bənzətməlik yox idi. Şairin yaradıcılığını araşdıran mötəbər tədqiqatçılar da hər zaman məhz bu məziyyətləri xüsusi qeyd edirlər. Sevindirici hal isə odur ki, bu poetik baxış sonacan dəyişməyib. Bu gün də Nəriman Həsənzadənin qələmindən çıxan hər bir parça seçilir, tanınır və qəlbləri riqqətə gətirir:

*Bu dünya nərdivandı,*
*Qalxanda mehribandı,*
*Enəndə nə yamandı...*
*Görüşdük pillələrdə*
*yolun yarısında biz,*
*Sən qalxırdın bu zaman,*
*mən enirdim xəbərsiz.*
*Səni arzularına qaldırırdı nərdivan,*
*Məni xatirələrə endirirdi bu zaman.*
*Birimiz günçıxana,*
*birimiz günbatana...*
*Qalxa bilməzdim daha...*
*nə o güc, nə o qüvvət,*
*Sən də enə bilməzdin...*
*Haqlı-haqsız vermişdi*
*öz hökmünü təbiət.*
*Gərək ya heç bu görüş*
*düşməyəydi araya,*
*Ya sən əvvəl gələydin,*
*ya mən sonra dünyaya.*

Bütün təltiflərini Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə alan Nəriman Həsənzadə 1931-ci ilin qarlı qış günündə - fevralın 18-də Qazax (indiki Ağstafa) rayonunun Poylu qəsəbəsində dəmiryolçu ailəsində dünyaya gəlib. Bir yaşında atasını itirir. Dünyaya göz açdığı ilk ildən yetimlik acısını dadan Nəriman anasının himayəsində böyüyür. Sonralar qələmə aldığı "Nabat xalanın çörəyi" povestində Nəriman Həsənzadə özünün uşaqlıq, yeniyetməlik və gənclik illərinin acılarını, onu böyütmək üçün çırpınan anasının tənha çəkdiyi əziyyətləri və göstərdiyi mətanəti, kasıbçılığın əzablarını qələmə alıb. Həyatda özünə mövqe tutub müəyyən imkanlar qazandıqdan sonra şair ömrü boyu dünyadan vaxtsız köçən fədakar anasının qayğısını doyunca çəkə, ona olan övladlıq borcunu ürəyincə qaytara bilmədiyinə görə daim acı təəssüf hissi keçirir.

*Gündüzlər olsam da harda, harda mən,*
*Poyluya dönürəm yuxularda mən,*
*Təzədən analı uşaq oluram,*
*fikirdən, qayğıdan uzaq oluram...*
*Hamıyla əl tutub görüşürəm mən,*
*babamla, nənəmlə öpüşürəm mən.*
*Anamı tapmıram, ay haray... anam...*
*Axtara-axtara mən ayılıram.*







Gələcəyin böyük şairi olacaq bu gənc əvvəlcə Gəncə Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirir. Hərbi xidmətini başa vurduqdan sonra Azərbaycan Yazıçılar Birliyinin göndərişi ilə Moskvadakı ikiillik ədəbiyyat kursundan sonra Maksim Qorki adına Moskva Ədəbiyyat İnstitutuna daxil olur. Beş il orada təhsil alıb, sonra Bakıya qayıdır. Azərbaycan Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasının aspirantı kimi elmi iş götürür, dissertasiya müdafiə edərək alimlik dərəcəsinə layiq görülür.

Nəriman Həsənzadə elə Moskvada təhsil aldığı illərdə Azərbaycanda tanınmış şair kimi ad-san qazanmışdı, "Dostlar gözləyir məni" (1956), "Qız ürəyi" (1957), "Hardasan" (1959), "Sizdən ayrılmadım" (1961) kimi 4 şeir kitabı nəşr olunmuşdu. O, Dövlət Televiziya və Radio Verilişləri Komitəsində böyük redaktor, "Uşaq və gənclər nəşriyyatı"nda redaktor, "Azərbaycan gəncləri" qəzetinin və "Azərbaycan" jurnalının şöbə müdiri, SSRİ yazıçıları Ədəbiyyat Fondu Azərbaycan bölməsinin direktoru kimi kifayət qədər çox zəhmət tələb edən işlərdə dayanmadan çalışır, Azərbaycan Yazıçılar İttifaqı ilk partiya təşkilatının katibi kimi məsul vəzifə daşıyır. Amma bir an belə qələmi yerə qoymur, bir-birinin ardınca ona ədəbi-ictimai mühitdə böyük şöhrət qazandıran "Könlüm şeir istəyir", "Unudulmaz günlər", "Yadına düşəcəyəm", "Nəriman", "Niyə demədiniz", "Zümrüd quşu", "Mənim gecəm-gündüzüm", "Sən bağışladın" kimi kitabları nəşr olunur.

Ümummilli Lider Heydər Əliyevin məsləhəti ilə 1978-ci ildə "Ədəbiyyat və incəsənət"qəzetinə baş redaktor təyin olunduqdan sonra Nəriman Həsənzadənin həm ədəbi-ictimai fəaliyyəti, həm də yaradıcılığı qarşısında yeni və geniş üfüqlər açılır. Dövlət başçısının qayğısını hiss edən gənc şair daha böyük həvəslə və cəsarətlə yazıb-yaratmağa, ciddi sosial-siyasi, tarixi mövzulara müraciət etməyə, milli ictimai təfəkkürü narahat edən miqyaslı problemlər qaldırmağa başlayır. "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan ədəbiyyatının, ümumən milli ədəbi-ictimai, mədəni fikrin ruporuna, ideoloji mərkəzinə çevrilir. Təsadüfi deyil ki, həmin illərdə də, elə sonralar da bu qəzet ədəbi-ictimai dairələrdə "Nəriman Həsənzadənin qəzeti" adlanırdı. Qəzetdə bütün dünya azərbaycanlılarının oxuya bilməsi üçün məqalələr kiril əlifbası ilə yanaşı, həm latın, həm də ərəb qrafikasında dərc edilirdi.



Şairin elə o dövrdə nəşr olunan "Bir az möhlət istəyirəm ömürdən", "Fikir eləmə", "Kimin sualı var?", "Seçilmiş əsərlər", "Mənim nikahımı pozdu təbiət", "Bütün millətlərə", "Taleyin töhfəsi" kitablarında toplanmış şeirləri, poemaları və mənzum dramları həm ideya məzmununa, həm də poetik məziyyətlərinə görə cəmiyyətdə güclü təsir imkanlarına yiyələndiyini göstərir.

Nəriman Həsənzadə təkcə şair və ədib kimi deyil, ictimai xadim kimi də tanınırdı. O, müxtəlif dövrlərdə dövlət qurumlarında çalışmış, 1990-1995-ci illərdə Ali Sovetin deputatı seçilmişdir. Millət vəkili olduğu zaman Azərbaycan mətbuatının və ədəbiyyatının problemlərini çəkinmədən səsləndirən, dövrün xaotik vəziyyətinə baxmadan fikirlərini cəsarətlə deməyi bacaran deputat idi.

1991-ci ildə Nəriman Həsənzadə çox sevdiyi qəzetin baş redaktorluğundan ayrılır, mətbuat və informasiya nazirinin birinci müavini vəzifəsinə təyin edilir, sonra bir neçə il nazir vəzifəsini əvəz edir. Azərbaycan dövlətçiliyinin tarixinə keçid dövrü kimi düşmüş həmin o illərdə mətbuat təsərrüfatının və nəşriyyat işlərinin qaydaya salınmasında, əsasən də orta məktəb dərsliklərinin hazırlanmasında Nəriman Həsənzadənin danılmaz xidməti vardır.

Ustad şairi heç düşünmədən müasir Azərbaycan poeziyasında sədaqətli kişi obrazı adlandırmaq olar. Onun lirik şeirləri bizə qədim məhəbbət dastanlarının müasir və real üslubunu xatırladır. Türk eposunda məhəbbət ailə deməkdir. Keçirdiyi ağır və məşəqqtli həyatının izləri səbəbi ilə ailə-məişət lirikası Nəriman Həsənzadənin yaradıcılığında daim əhəmiyyətli yer tutub və uzun illərdir vaxtsız itirdiyi xanımına həsr etdiyi şeirləri dillər əzbərinə çevrilib:

*Mənim nikahımı pozdu təbiət,*
*Simləri köklədi xeyir-şər üstə.*
*Sənə məzar boyda yeraltı sərvət,*
*Qurulu ev qoydu, mənə yer üstə.*
*Bir ana bənd imiş bu əbədiyyət,*
*Duydum buza dönən nəfəsimi də,*
*Anamı əlimdən alan təbiət,*
*Gözü götürmədi, aldı səni də.*

Təbiətən mülayim xarakterə malik olan Nəriman Həsənzadə heç zaman oxucusundan şəxsi itkisindən, məhəbbət ağrısından yaranan göz yaşını gizlətmir:

*Mən səni sevdim ki, yoldaş olasan*
*həyatın ən ağır, dar yollarında.*
*Deməndim axırda bir daş olasan*
*qədim qəbiristanda, yol kənarında.*

Müşahidələr göstərir ki, poeziyada, bütövlükdə sənətdə səmimiyyət peşəkarlıq qədər vacibdir. Səmimiyyət olmayan yerdə şairin oxucunun hisslərinə, mənəviyyatına təsiri barədə danışmaq, sadəcə, mümkün deyil. Nəriman Həsənzadənin yaradıcılığını araşdıran tədqiqatçılar və ədəbi tənqidin nümayəndələri şairin əsərlərinin ən böyük məziyyəti kimi, ilk növbədə, məhz səmimiyyəti, kövrəkliyi və həssaslığı önə çəkirlər. Azərbaycanın tanınmış bəstəkarları tərəfindən onun 100-dən artıq şeirinə bəstələnmiş gözəl nəğmələr musiqi mədəniyyətimizin incilərindən sayılır.

Nəriman Həsənzadə 34 bədii-poetik toplunun, "Tariximiz, taleyimiz" adlı irihəcmli elmi-ədəbi-tənqidi məqalələr kitabının müəllifidir. Şairin yeddi cildlik "Seçilmiş əsərləri" kütləvi tirajla





nəşr olunub. Əsərləri bir çox xarici ölkə xalqlarının (ingilis, fransız, alman, fars, italyan, çex, hind, ərəb, xorvat və s.) dillərinə tərcümə edilib və hər bir ölkədə böyük maraqla qarşılanıb.

*Bir yol ayrıcına bənzəyir həyat,*
*Yaramaz həyatın üstündə əsmək.*
*Cəsarət istəyir, bir də ehtiyat,*
*Nə ləngimək olar, nə də tələsmək* - deyən şairin əsərləri haqqında respublika və xarici mətbuat səhifələrində irihəcmli məqalələr dərc olunub. "Nəriman Həsənzadənin lirikası" mövzusunda namizədlik dissertasiyası müdafiə edilib, "Nəriman Həsənzadənin yaradıcılıq yolu" adlı monoqrafiya çap olunub.

Hər zaman müsahibələrində "Mənim qarşıma həmişə yaxşı insanlar çıxıb" deyən şair özünə mənəvi ata bildiyi istedadlı yazıçı, gözəl alim və pedaqoq Mircəlal Paşayevi daim böyük sevgi və ehtiramla xatırlayır. Onun ilk dəfə işə qəbul olunmasında birbaşa zəmanət verən unudulmaz Mircəlal Paşayev Nərimanın kirayədə qaldığını, ailəsi ilə çətin günlər keçirdiyini bilən kimi oğlunun adına almış olduğu evi gənc şairə bağışlayır. Bu hadisə uzun illərdir ədəbiyyat aləmində olan insanların dilində dastan kimi dolaşır. Nəriman Həsənzadə hər zaman bu ailənin diqqətini öz üzərində hiss edir.

Hazırda o, şairin həyatında silinməz iz buraxan Mircəlal Paşayevin övladı, böyük alim və pedaqoq Arif Paşayevin rəhbərlik etdiyi Milli Aviasiya Akademiyasının kursantlarına dilimizin tələb və qaydalarının öyrədilməsində səylərini əsirgəmir. Akademiyanın Azərbaycan dili və ədəbiyyatı kafedrasına rəhbərlik edir.

Nəriman Həsənzadə ötən əsrin müxtəlif dövrlərində yazdığı "Qız ürəyi", "Hadi və Əsgər", "Körpəylə söhbət", "Biz bir ildə doğulduq", "Qadın", "Heybədə gəzən şeir", "Vətənsiz", "Əsir uşaq", "Şahid ol, Günəş", "Həsrət", "Rəsul Həmzətova məktub", "Kimin sualı var?", "Şəhid atası Şərif qağaya məktub", "Qafqaz", "Cavid", "Qarabağdan gələn var", "Xarıbülbül", "Bəyanat", "Poylu - beşiyim mənim", "Qaçaq Kərəm", "Nuru Paşa", "Nizami", "Sözü tara verin" kimi çoxlu sayda və müxtəlif həcmli poemalarının hamısında həm epos təhkiyə-intonasiyasına, həm hadisələrin dramatizminə, həm də xarakterik detal-məqamların ictimai-estetik interpretasiyasına əsaslanaraq bir şair, tarixçi və filosof kimi çıxış edir.

Burada tədqiqatçıların dəfələrlə qeyd etdikləri kimi, şairin lirikasındakı dramatizmdən, xüsusilə epik-dramatik poemalarından doğulmuş dramaturgiyası barədə bir neçə söz deməsək, olmaz. Onun keçən əsrin 80-ci illərində böyük ictimai xadim Nəriman Nərimanovun həyat və fəaliyyətinə həsr olunmuş "Nəriman" poeması əsasında Azərbaycan Milli Dram Teatrının hazırladığı "Bütün Şərq bilsin" tamaşası ölkəyə səs salmışdı. Əsərdə Nəriman Nərimanovun milli ruhun və mənəvi ideyaların daşıyıcısı kimi mövcud tarixi şəraitdə çox böyük maneələrə sinə gərməsi o qədər canlı və real dillə təsvir olunur ki, tarixi mənbələrə əsaslanan müəllifin vəziyyəti bütün mürəkkəbliyi ilə canlı təsvir edilir, süni modellər qurmaması uzun illər ədəbi cameədə yaxşı mənada səs salır. Bu tamaşadan sonra Nəriman Həsənzadəyə ikinci uğuru yenə də eyni teatrda səhnələşdirilən "Atabəylər" əsəri qazandırdı.

"Pompeyin Qafqaza yürüşü" mənzum pyesi tamaşaya qoyulandan sonra isə ideya-məzmun və sənətkarlıq baxımından həmişə yüksələn xətlə gedən, ən mürəkkəb, problemli vəziyyətlərdə belə susmayan, geri çəkilməyən Nəriman Həsənzadə yaradıcılığının

necə böyük bir konseptual bütövlüyə malik olduğunu, Azərbaycan ədəbiyyatı tarixində yalnız çox görkəmli ədəbi simaların yaradıcılığı ilə müqayisə edilə biləcək səviyyəsini gördük.

Nəriman Həsənzadə həm də elmi, elmi-publisistik və publisistik əsərlərin müəllifidir ki, onların həsr edildiyi mövzular müxtəlif olduğu qədər də aktualdır. Onun dünya mədəniyyəti tarixindən bəhs edən irihəcmli "Kulturologiya" dərslik-monoqrafiyası müəllifin bu sahəyə dərindən bələd olduğunu göstərir. Bu monoqrafiya bir daha sübut etdi ki, Nəriman Həsənzadə poeziyası, ümumən yaradıcılığı fitri istedadla yanaşı, güclü intellektual-elmi əsaslara söykənir və bu zərurəti vaxtilə Azərbaycan ədəbiyyatının, demək olar ki, bütün dühaları etiraf etmişlər.

Nəriman Həsənzadənin şairliyi qədər publisistikası da milli-mənəvi dəyərləri, humanizmi, insan-cəmiyyət münasibətlərində halallığı, səmimiliyi, Azərbaycan xalqının milli müstəqilliyini müdafiə edən, güclü dövlətçilik təfəkkürünə malik vətənpərvər olması ilə özündən söz açdırır. Bu, bir xalq şairinin, bir pedaqoqun, bir ictimai xadimin gərgin mübarizələrdən keçmiş şəxsiyyətinin, milli taleyinin bilavasitə ifadəsidir.

Xüsusilə bütün yaradıcı insanlara məxsusi diqqəti ilə seçilən, Nəriman Həsənzadənin taleyində isə silinməz yeri olan Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Mənim ədəbi taleyim" əsəri Azərbaycan ədəbiyyatında yazıçı publisistikasının ən gözəl örnəklərindən biridir. Müəllif bu əsərdə yaratdığı milli dövlət xadimi obrazında Heydər Əliyev şəxsiyyətində öz gözləri ilə müşahidə etdiyi xüsusiyyətlərdən geniş şəkildə faydalanmışdır və məhz buna görə o, bu qədər canlı və möhtəşəmdir.Şairin təfəkküründə olan çox güclü yaddaş enerjisi tarixi müasirləşdirir, keçmişi unutmur, zaman axınının yaratdığı sosial-psixoloji təzadları, ziddiyyətləri özünəməxsus həssaslıqla kəşf edib ortaya çıxarır.

Sevindirici haldır ki, Nəriman Həsənzadə bu gün də eyni ilham və məhsuldarlıqla yazıb yaradır. Cəsarətlə

> Nəriman Həsənzadə fikir və məna şairidir, onun sağlam, büllur poeziyasının çox dərin qatlarında çağdaş Azərbaycan varlığının çox ciddi münaqişələri dilə gəlir, alovları şölə saçır, əzab və iztirabları, ümid və qayğıları çırpınır.
>
> Xəlil Rza Ulutürk



demək olar ki, o, çoxşaxəli, çoxmiqyaslı yaradıcı şəxsiyyəti ilə Azərbaycan şairi, ziyalısı barədəki tarixi təsəvvürü hər zaman zənginləşdirmiş ədəbi simalardandır.

Xalq şairi Nəriman Həsənzadənin yaradıcılığı Azərbaycan xalqının, intellektinin, mədəniyyətinin, mənəvi qüdrətinin elə mühüm hadisələrindən biridir ki, həmişə millətin özünüdərkinə xidmət edəcək, onun ədəbi-estetik zövqü ilə yanaşı, ictimai şüurun, təfəkkürün inkişafına proqressiv təsirini göstərəcəkdir.

***Təsadüfi deyil ki, şairin xidmətləri heç vaxt dövlət rəhbərliyinin diqqətindən kənarda qalmayıb. Elə bu yazımızın çapa hazırlandığı günlərdə ölkə başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ustad şairə 95 illik yubileyi ilə bağlı təbrik məktubu ünvanladılar. Həmçinin Nəriman Həsənzadə Azərbaycan mədəniyyətinin inkişafındakı müstəsna xidmətlərinə görə Prezident İlham Əliyevin 18 fevral 2026-cı il tarixli sərəncamı ilə "Heydər Əliyev" ordeni ilə təltif edildi. Biz də "Milli Məclis" jurnalının redaksiya heyəti adından sevimli şairimizi həm bu münasibətlə, həm də 95 illik yubileyi münasibəti ilə təbrik edir, ona can sağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq. İnanırıq ki, "Tale mənə şairliyi könül dostu verib"- deyən Nəriman Həsənzadə qarşıdakı illərdə də əzəli və əbədi "dostu"nun əli və ruhu ilə neçə-neçə yeni poetik nümunələrlə oxucuları sevindirəcək.***

**Qərənfil Mansurova**

# Slovakiya-Azərbaycan tərəfdaşlığı yeni inkişaf mərhələsində

Mərkəzi Avropada yerləşən Slovakiya dinamik iqtisadiyyatı, sənaye potensialı və Avropa strukturlarında fəal iştirakı ilə seçilir. 2004-cü ildən etibarən Avropa İttifaqının üzvü olan ölkə avtomobil sənayesi, innovasiya və enerji sahələrində mühüm mövqeyə malikdir. Zəngin tarixi irsi və mədəni müxtəlifliyi ilə Slovakiya Mərkəzi Avropanın strateji əhəmiyyətli dövlətlərindən biri hesab olunur. Azərbaycan ilə Slovakiya arasında münasibətlər son illər yüksələn xətt üzrə inkişaf edir. Bu əlaqələrin mövcud vəziyyəti və gələcək perspektivləri barədə Slovakiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri **Elçin Qasımovla** söhbət etdik.



**- Cənab səfir, məlum olduğu kimi, Slovakiya Respublikasının diplomatik korpusunun ölkəmizdəki fəaliyyəti digərləri ilə müqayisədə nisbətən yenidir. Uzunmüddətli perspektivdə Slovakiya-Azərbaycan münasibətlərini necə görürsünüz?**

- Ölkələrimiz arasında diplomatik münasibətlər 1993-cü ildən qurulsa da, Bakıda Slovakiya Respublikasının səfirliyi 2019-cu il noyabrın 28-dən fəaliyyət göstərməyə başlayıb. Azərbaycanın Slovakiyadakı səfirliyi isə 2023-cü ildə açılıb. Hazırkı münasibətlərimizi milli maraqların qorunmasına və qarşılıqlı faydalı iqtisadi əlaqələrin inkişafına əsaslanan sabit münasibətlər kimi xarakterizə etmək olar. 2024-cü ilin mayında Slovakiya Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın əsas istiqamətlərini müəyyən edən Strateji Tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. Ümid edirəm ki, Bəyannamənin müddəalarını hər iki tərəfin xeyrinə konkret layihələrdə uğurla reallaşdıracağıq.

**- Etimadnaməniz Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən yeni qəbul edilib. Diplomatik fəaliyyətiniz dövründə əsas prioritet istiqamətləriniz hansılar olacaq?**

- Mən əsas prioritetlərdən iqtisadi əlaqələri, enerji və müdafiə sənayesi sahəsində əməkdaşlığı, investisiyaların cəlb edilməsini,



texnologiya transferini, sənaye kooperasiyasını, İKT sahəsində qarşılıqlı fəaliyyəti, Qarabağda sosial-iqtisadi həyatın bərpasını, habelə təhsil, mədəniyyət, idman və turizm sahələrində əlaqələrin genişləndirilməsini nəzərdə tutan humanitar və mədəni diplomatiyanı qeyd edərdim. Konkret nümunələrə gəldikdə isə, məsələn, 2026-cı ilin oktyabrında Bratislava ilə Bakı arasında birbaşa təyyarə uçuşlarının açılması planlaşdırılır. Bunun ikitərəfli turizmin inkişafına, mədəniyyətlərarası əlaqələrin güclənməsinə mühüm töhfə verəcəyini düşünürəm.

Slovakiya şirkətlərinin Azərbaycandakı infrastruktur layihələrində iştirakı üçün real imkanlar formalaşır və bu layihələr Azərbaycan dövlətinin zəmanəti ilə Slovakiya bankları tərəfindən maliyyələşdirilə bilər. Belə maliyyələşdirmə həmçinin Qarabağda sosial-iqtisadi həyatın bərpasını sürətləndirməyə kömək edəcək.



**- İki ölkə arasında siyasi dialoqun daha da intensivləşdirilməsi üçün hansı mexanizmlər nəzərdə tutulub? Bu çərçivədə parlamentlərarası münasibətlərin əhəmiyyətinə toxunmağınızı da xahiş edirik.**

- 2024-cü ilin mayında Slovakiya Baş naziri Robert Fitsonun Azərbaycana rəsmi səfəri zamanı Strateji Tərəfdaşlıq haqqında Bəyannamə imzalandıqdan sonra dövlətlərimiz ictimai həyatın bütün sahələrində aktiv əməkdaşlığı inkişaf etdirirlər. Dövlət, hökumət üzvləri, nazirlik strukturları, sahibkarlıq və ictimai təşkilatlar səviyyəsində mütəmadi səfərlər həyata keçirilir. Hər il dost ölkələrin xarici işlər nazirlikləri arasında həm siyasi, həm də konsulluq məsləhətləşmələri təşkil olunur. Hazırda hər iki tərəfin iqtisadiyyat nazirlikləri səviyyəsində İqtisadi Əməkdaşlıq üzrə İşçi Qrupunun ikinci iclasına hazırlıq görülür. Cari ildə Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşinin rəsmi səfəri, Slovakiya və Azərbaycan parlamentlərinin əməkdaşlığı haqqında memorandumun imzalanması, habelə parlamentlərarası əməkdaşlıq qruplarının yol xəritələrinin müəyyən edilməsi planlaşdırılır. Sözsüz ki, Azərbaycan Prezidentinin 2025-ci ilin dekabrında Slovakiyaya ilk rəsmi səfəri ikitərəfli münasibətlərin müasir tarixində ən dolğun və məhsuldar hadisələrdən biri oldu.

**- Bu gün Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında və alternativ enerji sahəsində rolu danılmaz faktdır. Ölkələrimiz**





**arasında bu sahədə əməkdaşlığın perspektivləri haqqında nə deyə bilərsiniz?**

- Slovakiya Avropa İttifaqı və NATO-nun üzvü kimi enerji resurslarının diversifikasiyasını təmin etməyə, yeni tədarük mənbələrinə və marşrutlarına çıxış qazanmağa, habelə Avropa enerji bazarındakı genişmiqyaslı transformasiyalar dövründə dayanıqlı tərəfdaşlıqlar qurmağa çalışır. Avropa İttifaqı tərəfindən Rusiya qazının tədarükünə məhdudiyyətlər qoyulduqdan sonra Slovakiya ən həssas ölkələr sırasına düşdü. Hazırda ekspertlər səviyyəsində Azərbaycan qazının Slovakiyaya tədarükü imkanları araşdırılır. Zəruri birləşdirici infrastrukturun mövcudluğu və qazın texniki cəhətdən Cənub Qaz Dəhlizi vasitəsilə Slovakiyaya daxil olması mümkün olsa da, əsas məsələ dəhlizin özünün ötürücülük qabiliyyətidir. Uzunmüddətli perspektivdə biz, şübhəsiz ki, belə alışların həyata keçirilməsi imkanlarını axtaracağıq. Sabitliyi, qitənin enerji balansının uzunmüddətli dayanıqlılığını təmin etməyə qadir olan Azərbaycan tədarükçü rolunu oynayaraq Avropanın yeni enerji arxitekturasının ayrılmaz hissəsinə çevrilir.

**- Cənab səfir, Azərbaycan regionun mühüm siyasi və iqtisadi mərkəzinə çevrilib. Bölgədə baş verən proseslərlə bağlı təmsil etdiyiniz ölkənin mövqeyi necədir?**

- Azərbaycanın Cənubi Qafqazda və Avrasiyada əhəmiyyətli rolu durmadan artır. O, energetika, nəqliyyat, logistika dəhlizləri, habelə çoxmədəniyyətli dialoq sahəsində mühüm mövqe tutur. Slovakiya Respublikası Azərbaycanla əməkdaşlığın potensialını tam dərk edir və Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" təşəbbüsü çərçivəsində strateji tərəfdaşıdır. Azərbaycan Prezidenti İlham Əliyevin Bratislavaya səfəri əyani şəkildə nümayiş etdirdi ki, ölkələrimiz yetkin, qarşılıqlı dəstəklənən və strateji əhəmiyyətli tərəfdaşlıq mərhələsinə qədəm qoyur. Avropanın enerji mənzərəsinin transformasiyası və dayanıqlı tərəfdaşlıqlara ehtiyacın artması fonunda Bratislava və Bakı qarşılıqlı maraq, siyasi etimad və uzunmüddətli strateji hesablama üzərində qurulmuş fəaliyyət modeli formalaşdırırlar. Bütün bunlar ölkələrimiz arasındakı əməkdaşlığın nəinki genişlənməsi, həm də ardıcıl olaraq yüksək texnologiyalardan tutmuş sənaye kooperasiyasına qədər yeni sahələri əhatə etməsi üçün zəmin yaradır. Biz Azərbaycanı Ermənistanla sülh bəyannaməsinin imzalanması münasibətilə səmimi qəlbdən təbrik edirik. Bu, bütün Cənubi Qafqaza təhlükəsizlik və iqtisadi inkişaf gətirəcək tarixi nailiyyətdir. İnanırıq ki, əldə olunmuş tərəqqi tezliklə regional sabitliyi möhkəmləndirəcək və bölgədə uzunmüddətli sülhü bərqərar edəcək tammiqyaslı sülh müqaviləsinin imzalanmasına gətirib çıxaracaq.

**- Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın hansı istiqamətlərini vacib hesab edirsiniz və Slovakiya şirkətləri üçün Azərbaycandakı investisiya imkanları barədə nə deyə bilərsiniz?**





- İkitərəfli münasibətlərin indiki ən vacib elementi münaqişədən sonrakı Qarabağdır. 44 günlük Vətən müharibəsində Azərbaycan öz əzəli torpaqlarını işğaldan azad etdikdən sonra Slovakiya bu ərazilərin bərpası üzrə irimiqyaslı investisiya-texnoloji layihəsinin icrasına başlayan ilk ölkə oldu. Ötən ilin sentyabrında Slovakiya şirkəti azərbaycanlı tərəfdaşları ilə birlikdə Ağdam rayonunun Baş Qərvənd kəndinin tikintisinə başladı. Layihənin birinci mərhələsinin cari ilin sonuna qədər başa çatdırılması planlaşdırılır. Layihə çərçivəsində Slovakiya tərəfi həmçinin 800 şagirdlik məktəb tikmək öhdəliyini də üzərinə götürüb. Slovakiya Qarabağda sosial-iqtisadi həyatın bərpasında iştirak etmək imkanına görə minnətdardır.

Regionun yenidən qurulmasında iştirakı Slovakiyanın ölkələrimiz arasındakı yüksək etimad səviyyəsinin sübutu kimi qiymətləndirilir. Bununla yanaşı, artıq bu gün Slovakiya şirkətlərinin Azərbaycandakı infrastruktur layihələrində iştirakı üçün konkret imkanlar yaranır və bu layihələr Azərbaycan dövlət zəmanəti altında Slovakiya bankları tərəfindən maliyyələşdirilə bilər. Bu proses həmçinin Qarabağda sosial-iqtisadi həyatın bərpasını sürətləndirməyə kömək edəcək.

**- Ölkələrimizin füsünkar təbiətə və zəngin mədəniyyətə malik olduğunu nəzərə alsaq, turizm sahəsində birgə layihələrin təşkilini nə dərəcədə perspektivli hesab edirsiniz?**

- Yaxın vaxtlarda Bakıda Slovakiyanın Turizm İnformasiya Mərkəzi açılacaq ki, burada Azərbaycan vətəndaşları ölkəmizin turizm potensialı haqqında bütün zəruri məlumatları əldə edə biləcəklər. Slovakiya Avropanın tam mərkəzində yerləşən, həm aktiv, həm də dinc istirahət üçün geniş imkanlar təklif edən kiçik bir ölkədir: qalalar, orta əsr qəsrləri və malikanələri, YUNESKO obyektləri, mağaralar, dağlar, göllər, termal bulaqlar və xalq memarlığı abidələri burada cəmlənib.

Səfirliyimiz Slovakiyanın turizm imkanlarının Azərbaycanda təbliği işində fəal iştirak edir və müvafiq təqdimatlar keçirir. Cari ilin oktyabr ayında Bratislava ilə Bakı arasında birbaşa təyyarə reyslərinin açılması ikitərəfli turizmin inkişafına və bu sahədə birgə layihələrin, o cümlədən tanışlıq səfərlərinin təşkilinə mühüm töhfə verəcək. Turizm mübadiləsinin inkişafı ikitərəfli münasibətlərimizin prioritetlərindən biridir.

**- Bu vəzifəyə təyin olunmazdan əvvəl də Slovakiyada siyasi fəaliyyətinizlə tanınırdınız. Azərbaycan mənşəli bir səfir kimi, təmsil etdiyiniz ölkəni burada daha geniş tanıtmaq üçün hansı addımları atmağı planlaşdırırsınız?**

- İcazə verin, əvvəlcə kiçik bir düzəliş edim - mən heç vaxt siyasi fəaliyyətlə məşğul olmamışam. Slovakiyada müxtəlif dövlət institutlarında dövlət qulluqçusu kimi çalışmışam.

Azərbaycanın tarixini, ənənələrini və xalqının mentalitetini bilərək, dilini başa düşərək, məqsədim və missiyam Slovakiya Respublikasını, onun iqtisadi, investisiya və innovasiya potensialını hərtərəfli şəkildə təqdim etməkdir. Mən iqtisadiyyat və biznes sahəsində ortaq nöqtələr tapmağa, ölkələrimiz arasında mədəniyyət, turizm, təhsil və idman sahələrində əlaqələr qurmağa, habelə Slovakiya ilə Azərbaycanın konstruktiv və sabit ikitərəfli münasibətlərini inkişaf etdirməyə çalışıram.

# Azərbaycan mədəniyyəti bütün dünya ölkələri üçün maraqlıdır

Rubrikamızın budəfəki qonağı Səudiyyə Ərəbistanının Əl-Cübeyl şəhərində yaşayan, şairə-publisist, Azərbaycan Yazıçılar Birliyinin və dost ölkədəki diasporumuzun fəal üzvü **Mətanət Süleymanovadır**. Onunla onlayn söhbətimizdə ənənəvi olaraq bir qadın üçün yad ölkədə yaşamağın çətinlikləri, qayğıları, Səudiyyə Ərəbistanında ölkəmizə olan maraq barədə danışdıq.

**- Mətanət xanım, siz Azərbaycanda uzun illər yerli mətbuat orqanlarında çalışmışdınız, şairə-publisist kimi tanınırdınız. Niyə Səudiyyə Ərəbistanında yaşamağa qərar verdiniz və buna səbəb nə oldu?**

- Doğrudur, hər zaman yazı-pozu ilə məşğul olmuşam, Azərbaycanda dövrü mətbuatda mütəmadi olaraq şeir, hekayə və publisistik yazılarla çıxışlar etmişəm. 10 kitab müəllifiyəm və yazdıqlarımın əksəriyyəti vətənpərvərlik mövzusundadır. Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatıyam. 2016-cı ildə xalq şairi Səməd Vurğunun 110 illiyinə həsr olunmuş şeir müsabiqəsinin xüsusi diplomu, 2020-ci ildə "Vətənpərvər şair" fəxri fərmanı, 2022-ci ildə "Xarıbülbül" medalı, 2023-cü ildə Dünya Koşulsuz Sevgi Dərnəyi Genel Başkanlığı tərəfindən "Uluslararası barış elçisi" diplomu ilə təltif olunmuşam.

O ki qaldı Səudiyyə Ərəbistanında yaşamaq qərarına bu, həyat yoldaşımın işi ilə bağlı oldu. O, təcrübəli və savadlı həkim-cərrahdır. 30 ildən artıqdır ki, burada yaşayır və işləyir. Hazırda Əl-Cübeyl şəhərinin Mərkəzi Xəstəxanasında cərrahiyyə şöbəsinin müdiri vəzifəsində çalışır. Mən özüm isə 10 ilə yaxındır bura köçmüşəm. İki övladımız var. Qızım Azərbaycandadır. Bakıda təhsilini bitirib, çalışır. Bura qonaq kimi gəlir.

**- Yəqin ki, şairanə təbiətə malik olan vətənpərvər bir insan kimi xarici ölkədə məskunlaşmaq sizin üçün asan olmadı?**

- Təbii ki, vətəndən kənarda yaşamaq kimliyindən asılı olmayaraq, müxtəlif çətinliklər yaradır. İnsanın daxili duyğuları qarışır, həsrət və ağrı yaranır. Mən özüm Naxçıvanın Kərki kəndində doğulub böyümüşəm. Hələ ötən əsrin əvvəllərindən Ermənistanla başlayan sərhəd məsələləri ilə bağlı mübahisələr mənim doğma kəndimin inzibati statusuna da təsirsiz ötüşməmişdi. Qarabağ münaqişəsinin yarandığı ilk illərdə - 1990-cı ilin yanvarında erməni silahlı qüvvələri tərəfindən kəndi-






miz işğal olundu, orada yaşayan azərbaycanlılar kimi bizim ailəmiz də məcburi köçkün vəziyyətinə düşdü. Beynəlxalq hüquqa əsasən Azərbaycanın bir parçası olan doğma yurdum Kərki hələ də Ermənistanın Ararat inzibati ərazisinin bir hissəsi kimi idarə olunur və mənfur qonşularımız kəndimizi Tiqranaşen adlandırıb.



Mənim kitablarımdan biri elə öz kəndimə həsr olunub - "Kərki - talan yurdum". Elə bu səbəbdən həsrətə, yurd nisgilinə öyrəşmiş insanam. Çox şükürlər olsun ki, 30 illik işğala son qoyuldu. Müzəffər Ali Baş Komandanımız, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə igid Azərbaycan Ordusu Qarabağı erməni işğalından azad etdi. İndi Kərkinin də xoş növraqlı keçmiş günlərinin geri dönəcəyinə zərrə qədər şübhəm qalmayıb. Sadəcə, onu demək istəyirəm ki, Səudiyyə Ərəbistanında keçirdiyim qəribçilik hissi, həsrət duyğusu mənim öz doğma elimin düşmən tapdağı altında olmasından duyduğum ağrıların yanında cılız görünür.



Digər bir rakursdan baxdıqda isə başqa ölkədə yaşamaq insana fərqli mədəniyyətləri, müxtəlif həyat tərzlərini tanıdır, təzə dostlar qazanmaq imkanı, yaradıcı insana yeni mövzular, obrazlar və ideyalar verir. Mənim yazılarımda emosionallıq və həssas çalarlar məhz bu ölkəyə gələndən sonra artıb.

Azərbaycan dilinin incəliyini, zənginliyini qoruyub yaşatmaq, vətəndən uzaqda böyüyən uşaqlara öz ana dillərini sevdirməyə nail olmaq isə ən vacib həyat prinsiplərimdən biridir. Ötən il vətənpərvərlik ruhunda şeirlərdən və qısa uşaq hekayələrindən ibarət müəllifi olduğum "Doğma dilim"






adlı kitabım işıq üzü gördü. Kitabı yazmaqda məqsədim məhz o idi ki, xarici ölkələrdə yaşayan ailələrdə böyüyən uşaqların doğma ana dilimizə bağlılığı güclənsin.

Ər-Riyad şəhərində səfirliyimizin və diaspor nümayəndələrinin təşkilatçılığı ilə kitabın təqdimat mərasimi keçirildi. Həmin kitab həm Səudiyyə Ərəbistanında, həm də digər ölkələrdə mövcud olan "Azərbaycan evləri"nə pulsuz paylanıldı. Hətta bildiyimə görə, Almaniyada Azərbaycan səfirliyinin nəzdində olan məktəblərdə ondan dərslik kimi istifadə olunur.

**- Səudiyyə Ərəbistanında bizim mədəniyyətimizə maraq nə səviyyədədir?**

- İndiyədək 20-dən artıq xarici ölkəni gəzmək fürsətim olub. Getdiyim hər yerdə Azərbaycan mədəniyyətinə son dərəcə böyük maraq görmüşəm. Səudiyyə Ərəbistanında isə bizim ölkəyə hər zaman daha artıq maraq müşahidə olunur. Bura müsəlman ölkəsidir. Xalqlarımız arasında mövcud olan münasibətlərin dərin tarixi kökləri, dini və mənəvi bağlılıqları var. Səudiyyə Ərəbistanında Azərbaycan haqqında məlumatlılıq son illərdə kəskin şəkildə artıb və iki ölkə arasında siyasi, iqtisadi, mədəni əməkdaşlıq gündən-günə genişlənir.

Mütəmadi olaraq keçirilən tədbirlər, mədəni proqramlar dost ölkədə xalqımızın daha geniş tanıdılmasına və ölkəmizin müsbət imicinin güclənməsinə xidmət edir. Mədəni əlaqələrin genişlənməsində diplomatik görüşlərin intensivləşməsi, Azərbaycanın turizm imkanlarının Səudiyyə Ərəbistanının ayrı-ayrı şəhərlərində təbliği, maraqlı təqdimatların, müxtəlif tədbirlərin keçirilməsi xüsusi rol oynayır.

**- Belə görünür ki, oradakı Azərbaycan diasporunun fəaliyyətindən məmnunsunuz.**

- Əslində, bizim yaşadığımız şəhərdə Azərbaycan icması yeni-yeni formalaşır və biz ailəliklə bu prosesdə fəal iştirak edirik. Ölkənin paytaxtında isə Azərbaycan diasporunun fəaliyyətini və bu sahədə səfirliyimizin gördüyü təqdirəlayiq işləri xüsusi qeyd etmək istəyirəm. Ötən ilin oktyabrında buradakı diplomatik fəaliyyətini başa vuran səfir Şahin Abdullayev haqqında isə deyə bilərəm ki, o, Azərbaycan icmalarının inkişafı, diasporun genişləndirilməsi ilə bağlı əlindən gələni edirdi. Şahin

Abdullayevin hər bir soydaşımıza göstərdiyi dəstək, onların problemlərinə xüsusi diqqəti və qayğısı soydaşlarımıza çox xoş təsir bağışlayırdı. Yeni təyin olunan səfir Mütəllim Mirzəyevlə hələ şəxsən tanış olmaq fürsətimiz yaranmayıb. Amma onun haqqında da xoş soraqlar alırıq.

**- Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında münasibətlərin inkişafında Azərbaycan diasporunun rolunu necə qiymətləndirirsiniz?**

- Ümimiyyətlə, təkcə bu ölkədə deyil, bütün dünyada diaspor nümayəndələri Azərbaycan reallıqlarının düzgün tanıdılmasında, ölkəmizin beynəlxalq imicinin formalaşmasında əsas vasitəçi rolunu oynayırlar. Azərbaycan diasporunun da mədəniyyətimizin, tariximizin, milli-mənəvi dəyərlərimizin təbliğində, ölkə həqiqətlərinin beynəlxalq aləmə doğru çatdırılmasında xüsusi əməyi var.

Səudiyyə Ərəbistanı ilə münasibətlərin inkişafında da Azərbaycan icmalarının rolu çoxşaxəlidir. Keçirilən çoxsaylı tədbirlər, görüşlər və layihələr iki ölkə arasında humanitar, mədəni və ictimai əlaqələrin genişlənməsinə mühüm töhfədir.

2025-ci ilin may ayında Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda Azərbaycan icmaları ilə görüş keçirdi. Toplantıda bütün ərəb ölkələrində yaşayan icma üzvləri arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı vacib məsələlər müzakirə olundu və diaspor koordinasiyası üzrə yeni nümayəndələr seçildi. Düşünürəm ki, bu, icmaların fəaliyyətinin daha sistemli aparılması üçün önəmli addım idi. Görüşdə Azərbaycan diasporunun mövcud olduğu ölkə və şəhərlərdə ana dilimizin tədrisi, milli-mədəni irsimizin tanıdılması və dövlətlərarası dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi başlıca istiqamətlər kimi müəyyən olundu.

Hesab edirəm ki, qarşıdakı dövrdə Azərbaycan icmasının əsas hədəfləri diaspor fəaliyyətinin daha sistemli şəkildə davam etdirilməsi, mədəni tədbirlərin sayının artırılması, yerli cəmiyyətlə əlaqələrin genişləndirilməsidir.



**- Mətanət xanım, Azərbaycana sıx-sıx gələ bilirsinizmi?**

- Əlbəttə, tez-tez gəlirəm. Axı əsərlərimi burada yazsam da, Bakıda çap etdirirəm. Qürbətdə yaşayanlar üçün insanın varlığının mayası öz ölkəsidir. Doğulduğun yerdən, eşitdiyin ilk səsdən, dinlədiyin ilk nəğmədən, ilk addımlarını atdığın yurddan uzaqda olmaq çətindir. Azərbaycan məni daim maqnit kimi çəkir, gəldiyim anda sanki əlavə güc və tükənməz enerji ilə yüklənirəm.

Məncə, başqa ölkədə yaşayan biri üçün vətəni sevmək təkcə ona bağlı olmaq deyil, həm də milli dəyərləri yaşatmaq, ən gözəl şəkildə onu tanıtmaq deməkdir. Vətənindən kənarda yaşayan tanıdığım bütün soydaşlarımda müşahidə etdiyim bir məqam var. Belə insanların ruhunda qəribə boşluq yaranır. Yaşamımız, gördüyümüz işlər, tanışlıqlarımız, gəzdiyimiz yerlər insanın içində, sadəcə, həmin boşluğu doldurmağa xidmət edir...

**Qərənfil Mansurova**



SUQOVUŞAN



AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ